AZƏRBAYCAN RESPUBLİKASININ
NAZİRLƏR KABİNETİ YANINDA
İÇƏRİŞƏHƏR
DÖVLƏT TARİX-MEMARLIQ
QORUĞU İDARƏSİ

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında
"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi
Elmi-Mədəni Mərkəz

# 31 MART
# AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR

(Elmi - praktik seminar)

Bakı - 2015

Ar 2015/387

AZƏRBAYCAN RESPUBLİKASININ
NAZİRLƏR KABİNETİ YANINDA
İÇƏRİŞƏHƏR
DÖVLƏT TARİX-MEMARLIQ
QORUĞU İDARƏSİ

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında
"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi
Elmi-Mədəni Mərkəz

# 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR

Məqalələr toplusu

101652

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

ARXİV

"Elm və təhsil"
Bakı-2015

T3(2A)7+X911.2

Elmi redaktor: Vəfa Quliyeva
*Tarix elmləri doktoru, professor*

İşçi qrup: Mikayıl Nəcəfov

İradə Musayeva
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

Qənirə Pirquliyeva
*Tarix üzrə fəlsəfə doktoru*

Nəcəf Quliyev

Yeganə Elçiyeva

**31 mart Azərbaycanlıların soyqırımı günüdür.**
Məqalələr toplusu. Bakı, "Elm və təhsil", 2015. 232 səh.

ISBN: 978-9952-8024-1-2

© «Elm və təhsil», 2015

**Anar İsgəndərov**
*Tarix elmləri doktoru, professor*

# 1918-1920-Cİ İLLƏRDƏ TÜRK-MÜSƏLMAN ƏHALİSİNƏ QARŞI HƏYATA KEÇİRİLƏN SOYQIRIMI

1918-ci ildə türk-müsəlman əhalisinə qarşı törədilən cinayətləri üzə çıxarmaq Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndən sonra mümkün olmuşdur. Belə ki, Milli hökumətin ən mühüm qərarlarından biri daşnak canilərinin törətdikləri cinayətlərin təhqiqi üçün 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması oldu. Hökumətin iclasında Xarici işlər naziri M.H.Hacinski bu məsələ ilə bağlı çıxışında qeyd etdi ki, 4 aydır ki, erməni cəlladları dinc müsəlman əhalisinin həyatı və əmlakı üzərində görünməmiş vəhşiliklər törədirlər. Bununla yanaşı, zorakılıq törədənlərin yalan xəbərləri nəticəsində Avropa ictimaiyyətində bizimlə bağlı əks əhval-ruhiyyə yaradılır. Buna görə də belə bir təşkilatın yaradılmasına böyük ehtiyac hiss olunur. Həmin təşkilat Fövqəladə Komissiya xarakteri daşımalıdır, həm də bu komissiyanın topladığı sənədlər Azərbaycan, rus, ingilis, fransız, alman dillərində nəşr edilib yayılmalıdır. (1) Vəkil Ələkbərbəy Xasməmmədov (sonralar Azərbaycan Məhkəmə Palatasının sədri olmuşdur) Təhqiqat Komissiyasının sədri təyin edildi. (2) Bir

neçə ay ərzində Fövqəladə Təhqiqat Komissiyası daşnak quldur dəstələrinin qanlı əməllərinin təhqiqi sahəsində böyük iş gördü. Zərər çəkmiş on minlərlə vətəndaş və şahid dindirilmiş, çoxlu material, maddi dəlil-sübut, fotosənəd toplandı.

Məlumdur ki, 1917-ci ilin fevralında Rusiyada burjua-demokratik inqilabı nəticəsində Romanovlar sülaləsi devrildi və Müvəqqəti hökumət təşkil edildi. Müvəqqəti hökumət Rusiya xalqlarına müraciətində elan etdi ki, birinci dünya müharibəsi başa çatandan sonra xalqların öz müqəddəratını həll etməsi məsələsinə baxılacaqdır. Lakin 1917-ci ilin oktyabrında Rusiyada bolşeviklərin hakimiyyəti zorakı yolla ələ keçirməsi Rusiya xalqlarının bu arzularını boşa çıxartdı. Bolşeviklər fəhlə-kəndli hökuməti qurmaq adı altında əvvəlki imperiyanı bolşevik pəridəsi altında bərpa etməyə başladılar.

1917-ci ilin sonu - 1918-ci ilin əvvəllərində Bakıda daşnak-bolşevik birləşmələrinin milli qüvvələrə qarşı açıq mübarizəsi yetişməkdə idi. 1917-ci ilin dekabrında Rusiya Xalq Komissarları Sovetinin sədri V.İ.Lenin tərəfindən Qafqazın Fövqəladə Komissarı təyin olunmuş S.Şaumyanın Korqanovun başçılıq etdiyi Hərbi İnqilab Komitəsi ilə birlikdə Tiflisdən Bakıya gəlişi buradakı siyasi vəziyyəti daha da gərginləşdirdi. Qafqaz cəbhəsindən geri qayıdan əsgərlər vətənlərinə qayıtmaq əvəzinə Bakıda toplaşdı. Bu əsgərlərin Bakıda saxlanmasında Şaumyan böyük fəallıq göstərirdi.

Azərbaycanda milli qüvvələrə başçılıq edən «Müsavat»ın getdikcə artan nüfuzundan qorxuya düşən bolşe-





vik-daşnak qüvvələri Bakını inqilabla əksinqilab arasında mübarizə meydanı elan etmişdilər. Bolşevik-daşnak qüvvələrinin birləşdiyi Bakı Sovetinin ixtiyarında Qırmızı ordu adı altında əksəriyyəti ermənilərdən ibarət olan 20 minlik silahlı qüvvə cəmlənmişdi.

1918-ci ilin martında Bakıda siyasi vəziyyət son dərəcə gərgin idi. Bakı Sovetinə keçirilən seçkilərdə "Müsavat"ın böyük səs çoxluğu ilə qələbə qazanması bolşevikləri və daşnakları ciddi narahat edirdi. Cənubi Qafqazın ən güclü siyasi partiyasına çevrilən "Müsavat" Azərbaycanın ərazi muxtariyyəti və siyasi hakimiyyət uğrunda inamla mübarizə aparırdı. Şaumyan başda olmaqla bolşevik qüvvələri Erməni Milli Şurası və "Daşnaksütyun" partiyasının rəhbərləri ilə birlikdə "Müsavat"a qarşı əsl müharibəyə başladılar. Bakıda Azərbaycan milli qüvvələrinin sayca az və zəif silahlanmış olduğunu yaxşı bilən Şaumyan müsəlmanlara "dərs vermək" üçün milli qırğına hazırlaşırdı.

Martın 29-da şəxsi heyəti müsəlmanlardan ibarət olan "Evelina" gəmisinin Bakıda bolşevik qüvvələri tərəfindən tərksilah edilməsi milli qırğına başlamaq üçün bəhanə oldu. Belə ki, 1918-ci il martın 17-də silahla ehtiyatsız davranışdan həlak olmuş H.Z.Tağıyevin oğlu Məhəmməd Tağıyevin cənazəsini Bakıya gətirən müsəlman diviziyasının 48 nəfərdən ibarət kiçik bir dəstəsi bolşevikləri təşvişə saldı. Mərhumu dəfn edən müsəlman dəstəsi "Evelina" gəmisi ilə Lənkərana geri qayıtmalı idi. Paraxodun körpüdən aralanmasına az qalmış silahlı bolşeviklər müsəlman dəstəsinin tərksilah olunmasını tələb etdi. Müsəlman dəstəsinin rədd cavabına tüfənglərdlən və pulemyotlardan atılan

atəşlə cavab verildi. Gəmidəki silahlar bolşeviklər tərəfindən müsadirə olundu.

Ertəsi gün şəhərin cənub hissəsində erməni əsgərləri göründülər. Onlar bütün küçə boyu səngərlər qazmağa, torpaq və daşlardan bəndlər ucaltmağa başladılar. Həmin gün müsəlman xeyriyyə cəmiyyətinin binasında keçirilən yığıncağa gələn Bakı şəhərinin keçmiş rəisi Ter-Mikaelyants Erməni Milli Şurası və "Daşnaksütyun" partiyası adından bəyan etdi ki, əgər müsəlmanlar bolşeviklərə qarşı çıxış etsələr, ermənilər də onlara qoşulacaq və bolşeviklərin Bakıdan qovulmasına kömək edəcəklər. Martın 18-də (təzə stillə 31 mart - A.İ.) səhər tezdən şəhərin müsəlmanlar yaşayan hissəsinə hücumlar başladı. Ermənilərin yalançı vədlərinə inanmış müsəlmanlar əvvəlcə şəhərdə nə baş verdiyini müəyyən edə bilmirdilər. Hücum ərəfəsində bütün ermənilər şəhərin müsəlmanlar yaşayan hissəsindən ermənilər yaşayan hissəsinə keçdilər. Müsəlmanlar yaşayan hissədə xristian əhalidən ruslar və gürcülər qalmışdı.

Bakıda soyqırımı planı hələ 1917-ci ildən "Daşnaksütyun" partiyası və Erməni Milli Komitəsi tərəfindən hazırlanırdı. Onlar dəfələrlə müsəlmanları bolşeviklərə qarşı silahlı çıxışa təhrik etməyə cəhd göstərmişdilər. Ermənilərin məqsədi bolşeviklərin əli ilə müsəlman əhalisini cismən məhv etmək idi. Adamların qətlə yetirilməsi və müsəlman məhəllələrinin darmadağın edilməsi planlı surətdə mütəşəkkil erməni hərbi hissələri tərəfindən şəhərin hər yerində qabaqcadan müəyyənləşdirilmiş sistem üzrə həyata keçirilirdi.

Təhqiqat Komissiyası tərəfindən şahid kimi dindirilmiş Bakı şəhərinin sakini A.N.Kvasnikin ifadəsində deyilir:





"Müsəlman əhalisinin əvvəlcə Bakı şəhərində, sonra isə onun ətraflarında cismən məhv edilməsi, onların əmlakının və bütün var-dövlətlərinin qarət olunması və siyasi üstünlüyün təbii surətdə ermənilərin əlinə keçməsi məqsədilə ermənilərin müsəlmanlara qarşı təşkil etdikləri qanlı qəsd idi" (3). Azğınlaşmış və vəhşiləşmiş erməni quldurlar dinc azərbaycanlı əhalini qırıb-çatmaq üçün ən amansız üsullara əl atırdılar. Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Y.Kluge bu komissiyanın sədrinə yazırdı: "Yaxşı silahlanmış, təlim keçmiş erməni əsgərlər çoxlu miqdarda pulemyotların müşayiəti ilə hücum edirdilər... ermənilər müsəlmanların evlərinə soxulur, bu evlərin sakinlərini qırır, onları qılınc və xəncərlərlə doğram-doğram və süngülərlə deşik-deşik edir, uşaqları yanan evin alovları içərisinə atır, üç-dörd günlük çağaları süngünün ucunda oynadır, öldürülən valideynlərin südəmər körpələrinə rəhm etmir, hamısını öldürürdülər" (4).

Müsəlmanları qırıb-çatmaqla yanaşı, ermənilər onların əmlaklarını da məhv edir, az-çox qiymətli olan şeyləri isə özləri ilə aparırdılar. Sonralar təkcə bir yerdə torpağın altından 57 müsəlman qadın və qızın meyiti tapılmışdı. Onların qulaqlarını, burunlarını kəsmiş, qarınlarını yırtmışdılar. Ermənilər öldürməyə macal tapmadıqları qadınları isə öz hörükləri ilə bir-birinə bağlayaraq başıaçıq, ayaqyalın arabalara mindirib aparır, yolda isə tüfənglərin qundaqları ilə onları döyür, şikəst edirdilər (5).

Təhqiqat Komissiyasının sənədlərinə əsasən məlum olur ki, 1918-ci ilin mart soyqırımı zamanı **Bakı** şəhərində **11 min nəfərədək** türk-müsəlman öldürülmüşdür. Onların

çoxunun meyitləri tapılmamışdır. Çünki şahidlərin dediklərinə görə, ermənilər meyitləri od-alova bürünmüş evlərə, dənizə və quyulara atırdılar ki, cinayətin izini itirsinlər. (5). Sənədlərdən məlum olur ki, Bakının şəhər camaatından **400 milyon manatlıq daş-qaş və** əmlak müsadirə olunmuşdur. Xalqın bir çox ziyarətgahları və tarixi abidələri dağıdılıb yerlə-yeksan edilmişdir. Uzaqvuran toplarla Təzəpir məscidi zədələnmişdir. Daşnaklar Bakıda dünya memarlığının incilərindən sayılan "İsmailiyyə" binasına od vurub yandırmışdılar (6).

Təhqiqat Komissiyasının materiallarında bu vəhşiliklər barəsində deyilir: "1918-ci il martın 18-də bir erməni zabiti, yanındakı üç erməni əsgəri ilə "Kaspi" qəzeti redaksiyasının və "İsmailiyyə" müsəlman xeyriyyə cəmiyyətinin binaları arasındakı dalana gəldi və "İsmailiyyə" binasına daxil oldu. Bir azdan binanın pəncərəsində tüstü və alov göründü. Nəinki Bakı müsəlmanlarının iftixarı sayılan, həm də bütün şəhərin yaraşığı olan bu əzəmətli bina yanğından məhv oldu. Yanğını söndürməyə adam yox idi, çünki müsəlmanlar küçəyə çıxa bilmirdilər, onları pulemyotlarla və top-tüfənglə atəşə tuturdular". Həmin zabit "Daşnaksütyun" partiyasının görkəmli xadimi Tatevos Əmirov idi. Bu, həmin Tatevosdur ki, uzun illər ərzində tariximiz, mətbuatımız onu "yenilməz inqilabçı", "xalqlar dostluğu uğrunda mətin mübariz" kimi təbliğ etmişdi.

Talançılar "Kaspi" qəzeti redaksiyasının və "Dağıstan" mehmanxanasının binalarını, "İsgəndəriyyə"ni, "İsmailiyyə"ni də yandırmışlar. "Kaspi" qəzeti redaksiyasında Azərbaycan dilində kitablar nəşr edilirdi. Bina yandırılan





vaxtadək burada Quranın yenicə çap edilmiş 5 min nüsxəsi saxlanılırdı. Onların hamısı yanıb külə dönmüşdü (7).

Mart talanlarında yaxşı təşkil olunmuş hərbi hissələrlə yanaşı erməni ziyalıları, gəncləri də iştirak edirdilər. Təhqiqat Komissiyasının materiallarında göstərilirdi ki, "erməni əhalisinin bütün siniflərini təmsil edən nümayəndələr bu "müharibə"də iştirak etməyi özlərinə borc bilirdilər. Burada neftxudalar, mühəndislər, həkimlər, kontor işçiləri var idi, bir sözlə, erməni əhalisinin bütün təbəqələri öz "vətəndaş borcu"nu yerinə yetirirdi" (8).

"Nikolay Buniatov" paraxodu komandirinin köməkçisi Kazım Axundov yazır: Martın 25-dən Nikolayev küçəsindəki meyitlərin yığışdırılmasına başladıq. Onların arasında süngülərlə didik-didik edilmiş və qılıncla tikə-tikə doğranmış 3 müsəlman gimnaziyaçısının, 11 gimnaziyaçı qızın, 1 rus qadının, 3-5 yaşlarında 3 müsəlman oğlan uşağının, 8 rus kişinin, 19 İran təbəəli müsəlman qadınının və müxtəlif peşə sahibləri olan 67 azərbaycanlının meyitləri var idi. Bundan başqa, "Vulkan" cəmiyyətinin köhnə yanalma körpüsünə müsəlman kişilərin, qadın və uşaqların **6748** meyiti gətirilmişdi. Axundov öz tanışı texnik Vladimir Sokolovu "Kərpicxana" deyilən yerə aparmışdı. Burada, o, 3 fotoşəkil çəkmişdi. Birinci şəkildə başında güllə yarası, bədənində beş süngü yarası olan və sağ körpücük sümüyünə qılınc zərbəsi endirilmiş qadın meyiti təsvir olunmuşdur. Onun sağ döşü üstündə hələ sağ olan körpə uzanmışdır. Anasının döşünü əmən bu körpənin ayağında süngü yarası vardır.

İkinci şəkildə iri mismarla divara vurulmuş 2 yaşlı uşaq təsvir edilmişdir. Mismarın başından aydın görünür ki, onu divara daşla vurmuşlar. Daş elə oradaca idi.

Üçüncü şəkildə 13-14 yaşlı qızın meyitidir. Biçarənin bədənindən görünür ki, onu bir dəstə kişi (əgər bu alçaqlara "kişi" demək mümkündürsə) zorlamışdır.

Axundovla Sokolov 4-cü evə daxil olduqda onlar dəhşətli bir mənzərə görmüşdülər: geniş bir otağın döşəməsi üstündə 22-23 yaşlı bir qadının, iki qarının, 9 yaşlı qızın, 8 yaşlı oğlanın və südəmər körpənin meyitləri var idi. Körpənin əl-ayağını itlər gəmirib yemişdi. Təsvir olunan mənzərə Sokolova elə ağır təsir göstərmişdi ki, o daha fotoşəkil çəkə bilməmişdi.

Bakıda baş vermiş faciəli hadisələr şəhərə olduqca böyük ziyan vurmuşdur. Epidemiya tüğyan edərək minlərlə insanı qırmış, əhalinin su, ərzaqla təchizatı dayanmışdır. Bazar və mağazalardan, demək olar, bütün ərzaq məhsulları yoxa çıxmışdır. Talançılar olub-qalan ərzaq ehtiyatlarını toplayıb aparmışdılar. Mətbuat yazırdı ki, "əhali aclıqdan əməlli-başlı zillət çəkirdi".

Qədim Azərbaycan şəhəri Şamaxı dəhşətli talan və vəhşiliklərə məruz qalmışdır. Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər haqqında **7 cild, 925 vərəqdən ibarət** təhqiqat materialları toplanmışdı. Burada bədnam S.Lalayevin başçılıq etdiyi əsgərlər və T.Əmirovun dəstəsi azğınlaşaraq müsəlmanları soyub-talayır və qırırdılar. Şamaxının müsəlmanlar yaşayan hissəsinin hamısına od vurulmuşdu. 13 məhəllə məscidi və məşhur müqəddəs ocaq – Cümə məscidi yandırılmışdı. Bu məscid müsəlmanlara həm bir qibləgah, həm də qədim abidə kimi əziz idi. Erməni quldurlar minlərlə dinc adamı qətlə yetirmişdi (9).





Şamaxıda böyük hörmət sahibi olan axund Cəfərquluya olmazın işgəncələr verilmişdi. Ermənilər ona axund olduğu məsciddə dəhşətli əzab-əziyyət verərək, bu allah bəndəsinin saqqalının tüklərini bir-bir yolmuş, dişlərini, gözlərini çıxarmış, qulaqlarını və burnunu kəsmişdilər. Ermənilər axunda pənah gətirmiş saysız-hesabsız qadın və uşağı da öldürmüşdülər. Hacı axundun tamamilə yandırılmış evinin həyətində sonralar Təhqiqat Komissiyasının üzvləri tərəfindən çoxlu miqdarda insan sümükləri aşkar edilmişdi. Qafqaz-İslam ordusu 1918-ci ilin iyulunda Şamaxını ermənilərdən azad edərkən meyitlərin iri sümüklərini yığıb basdırmışdılar. Komissiya üzvləri 1918-ci ilin oktyabr və noyabrında bu barədə hazırladığı məruzədə qeyd edirdilər ki, həyətdə hələ də çürümüş meyitlərin qalıqları qalmaqdadır. (10) Şamaxı qəzasının müsəlmanlar yaşayan təxminən 80 kəndinin taleyi də bu cür olmuşdur. Daşnakların törətdiyi vəhşiliklərin həddi-hüdudu yox idi.

1919-cu il martın 30-da "Azərbaycan" qəzetində Fövqəladə Təhqiqat Komissiyasının "Çağırış"ı dərc edilmişdir. Komissiyanın sədri Ə.Xasməmmədovun imzaladığı bu sənəddə deyilirdi: "Şamaxının yalnız xarabalıqları qalmışdır. Şəhərin müsəlman hissəsindəki bu xarabalıqlarda məscidlərin ən qədimi 800 ildən çox tarixi olan Cümə məscidinin ancaq yanıb qaralmış minarələri görünür, şəhərin on beş minlik müsəlman əhalisindən sağ qalanlar isə bütün Zaqafqaziyaya dağılmış, əllərində qoltuq ağacı və bellərində torba qapı-qapı düşüb dilənirlər ki, acından ölməsinlər. Adlarını "bolşevik" qoyan qaçaq-quldur dəstələrinin əlindən qaçıb can qurtaran əhalinin qalan hissəsi türk qoşunları

Azərbaycana gəldikdən sonra öz el-obalarına qayıtmışdır. Onlar qayıdıb gəldikdə əsrlərdən bəri yaşadıqları ocaqlarını yandırılmış və yerlə-yeksan edilmiş halda görmüşlər".

Fövqəladə Təhqiqat Komissiyasının Şamaxı qəzasının ayrı-ayrı kəndləri üzrə apardığı təhqiqatlarının - şahid ifadələri, zərərçəkənlərin dindirmə protokolları, rəsmi idarələrin əhalinin sayı və əmlaklarının dəyəri haqqında məlumatları, ölən və yaralananların siyahısı və s. - əsasında 53 kənd üzrə tərtib olunmuş yekun aktlarında ayrı-ayrı kəndlər üzrə öldürülənlərin sayı və hər bir kəndə dəymiş ümumi zərərin miqdarı göstərilmişdir. Bu aktlarda olan rəqəmlərə əsasən Şamaxı **qəzasının 53 kəndində ermənilər 8027 azərbaycanlını qətlə yetirmişlər. Onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaqlar olmuşdur.** Bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə **339.5 milyon manat** olmuşdur (11).

"Çağırış" bu sözlərlə qurtarırdı: "Şamaxı qəzasının zərər çəkmiş əhalisinə yardım göstərmək hər bir vətəndaşın, xüsusən müsəlmanın vətəndaş vəzifəsi və mənəvi borcudur. Vətəndaş müsəlmanlar, Şirvanı xilas edin!"

Təhqiqat Komissiyasının sənədlərindən aydın olur ki, Şamaxı şəhərinin azərbaycanlı əhalisinə vurulmuş ziyan orta hesabla **bir milyard manatdan** çox olmuşdur.

Fövqəladə Təhqiqat Komissiyasının üzvləri - Gəncə quberniyasının Nuxa və Ərəş qəzalarında yoxlama keçirmiş N.Mixaylovun və N.Klassovskinin məruzəsində dəqiqləşdirilmişdir ki, təkcə bu qəzaların erməni dəstələri deyil, həm də başlıca olaraq, gəlmə hərbi hissələr və İrəvan quberniyasının erməniləri müsəlman əhalisini ucdantutma





qırmaq, kəndləri dağıtmaq və dövlət hakimiyyət orqanlarını və müsəlman ərazilərini tutmaq üçün bütöv bir plan hazırlamışdılar (12).

Əvvəlcədən qurulmuş plana görə daşnak-bolşevik qoşunu Şamaxını işğal etdikdən sonra **Quba** qəzasına daxil olmalı idi. Xaçmazda yaşayan ermənilər bu barədə xəbərdar edilmiş, onlara xeyli əlavə silah və sursat göndərilmişdi. 1918-ci ilin ilk aylarından Quba qəzasında müsəlman əhalisinə qarşı başlanan qırğınları faciə adlandırmaq vəhşiliklərin mahiyyətini tam açmır. Minlərlə insanın, dinc əhalinin, qadınların, uşaqların və qocaların əzab və işgəncə ilə qətlə yetirilməsi dəhşətli və ağlasığmaz qırğın idi. Quba faciəsi sırf siyasi məqsəd daşıyırdı. Qırğınlarda erməni daşnak qüvvələri ilə yanaşı bolşevik əsgərləri də iştirak edirdi. Erməni cəlladları hakimiyyətsizlikdən məharətlə istifadə edərək Qubada böyük bir qırğın həyata keçirtdilər. Bu qırğınlarda əsas məqsəd Azərbaycanda müsəlman əhalisini məhv edərək Sovet rejimi qurmaq idi. Çünki Sovet rejiminə rəhbərlik edən Şaumyan Cənubi Qafqazda böyük Ermənistan dövləti yaratmaq üçün bütün imkanlardan istifadə edirdi. Təki Azərbaycan deyilən dövlət qurumu yaranmasın.

Faciəni səciyyələndirən başlıca cəhət odur ki, Quba qəzasında qırğınlar əvvəlcədən düşünülmüş və buna geniş hazırlıq işləri görülmüşdü. Çünki qırğına başlamaq üçün bəhanə milli münaqişə ola bilərdi. Erməni daşnak qüvvələri dünyanın hər yerinə ermənilərin guya müsəlmanlar tərəfindən sıxışdırıldığı barədə teleqramlar göndərirdilər. Qubada yaşayan M.Kasparov, H.Hayrapetov, A.Mukanyans və A.Boqdanov tərəfindən göndərilmiş teleqramda iddia

olunurdu ki, Qubada müsəlmanlar milli ədavət, milli qırğın törədir, erməni və rus kəndlərini dağıdır, kilsələrə od vurub yandırırlar.

Bakıdan böyük bir silahlı dəstə ilə Qubaya gələn Amazasp və onun əlaltıları küçədə qarşılarına çıxan bütün adamları ucdantutma güllləyə tutur, yerə yıxılmış yaralıların bədənlərini tüfənglərin süngüləri ilə deşik-deşik edir, gözlərini ovurdular. Yaxınlıqdakı meşəyə qaça bilməyənlər evlərinə girib qapıları bağlamışdılar. Onları evlərindən zorla çıxarır, yerindəcə güllələyir və yaxud qabaqlarına qatıb meydana aparırdılar. Bir neçə saatın ərzində yüzlərlə insan qətlə yetirildi.

Amazasp Quba camaatını meydana yığıb bildirdi ki, mən minlərlə türkün başını kəsən Ərzurum ermənisiyəm. 200-dən çox türk kəndini yandırıb xaraba qoymuşam. Uzun müddət türklərlə vuruşmuşam, erməni xalqının mənafeyini müdafiə etmişəm. Buraya da ona görə gəlmişəm. Əgər müqavimət göstərsəniz, hamınızı bir nəfər kimi qıracağam». Daşnak-bolşevik birləşmələrinin Quba qəzasında törətdikləri qırğınlar daha amansız və qəddarlıqla həyata keçirilmişdi. Şahidlərdən biri yazır: «Amazasp daşnak dəstəsinə bələdçilik edən qubalı erməni Harun Hayrapetovu yanına çağırdı və ona nəsə dedi. Harun cibindən bir siyahı çıxarıb oxumağa başladı. Həmin siyahıda Qubanın varlılarından 26 nəfərin adı var idi. Amazasp həmin adamların dalınca silahlı əsgərlərindən bir neçə nəfərini göndərdi. Silahlı əsgərlər həmin ailələrdən altı nəfərlə geri qayıdanda daşnak komandiri daha da qızışdı. Gətirilənlərin 4-ü qadın, 2-si yeniyetmə idi. ***Amazaspın tapşırığı ilə yeniyetmələrin başlarını kəsdilər. Qadınları uşaqlarının qanını içməyə məcbur etdilər.*** Onlar şivən qoparıb daşnakların üstünə atılanda qarınlarını süngülərlə deşdilər. Sonra qılıncla bədənlərini tən ortadan ikiyə böldülər. Meydanda ah-nalə yüksələndə Amazasp əsgərləri cərgə ilə düzdürüb əliyalın, günahsız əhaliyə atəş açmağı onlara əmr etdi. Yüzlərlə adam qırıldı. İnanmaq olmurdu ki, insan-insana qarşı bu qədər vəhşilik törətsin». «Mən sizin qanınızı içəcəyəm» - deyən Amazasp siyahıda adları çəkilən adamların mülklərini odlayıb külə döndərmək üçün əmr verdi. Bütün bu hərəkətləri ilə o, son dərəcə qəddar və qaniçən olduğunu sübuta yetirirdi.

Amazasp Bakıdan mənfur Şaumyan rejimindən belə bir tapşırıq almışdı: Quba qəzasında bütün müsəlmanları qırıb məhv etmək, onların yaşayış məntəqələrini dağıtmaq. Sonra isə bu qırğını sünni və şiə məzhəbləri arasında toqquşma kimi qələmə vermək.

Təhqiqat materiallarından məlum olur ki, 1918-ci il mayın 1-də Qubaya girən daşnak-bolşevik birləşmələrinin sayı 5 mindən artıq olmuşdur. Ona görə də onlar silahsız dinc əhaliyə azğınlıqla divan tuta bilmişdilər. Həmin azğınlığın miqyasını təsəvvür etmək üçün iki gün ərzində yalnız Quba şəhərində 4 minədək müsəlmanın öldürüldüyünü xatırlamaq kifayətdir. Bu rəqəm Quba şəhər əhalisinin beşdə biri demək idi.

Qırğının canlı şahidlərindən olan Harun Şahbalı oğlu xatırlayır: «Ermənilər o qədər adam qırmışdılar ki, Qubanın küçələri al-qana boyanmışdı. Əllərinə keçən 2 mindən çox adamı meydana yığıb ucdantutma güllələmək istəyəndə bir nəfər onların başçısına yaxınlaşdı. Deyilənə görə komis-

sar idi. Bir qədər söhbət etdikdən sonra əsgərlərə təzədən əmr verildi ki, silahları aşağı salsınlar. Qadınlar və uşaqlar ağlayırdılar. Yekəpər bir erməni beş nəfərlə camaata yaxınlaşıb, cavan, gözəgəlimli qadınları seçməyə başladı. Əllidən çox qadını hara isə apardılar. Onlardan birinin qardaşı etirazını bildirəndə yerindəcə güllələdilər. Onun meyidini yerə sərib bıçaqla gözlərini çıxardılar. Əli qana batmış erməni ovcunda tutduğu gözləri camaatın üstünə tulladı. Kütlədən uğultu qopdu. Daşnaklar ermənicə söyə-söyə qabaqdakıları qundaqla döyməyə başladılar. Sonra irəli çıxmış bir yaşlı kişinin qarnını süngü ilə deşdilər. Bu, göz ilə baxılası müsibət deyildi». Başqa bir şahid yazır: Ermənilər dindarları Qubanın mərkəzinə gətirdilər. Bu, döyülən insanlar qəzanın ən hörmətli ağsaqqalları sayılırdılar. Amazasp hamının tanıdığı Quba ermənisi Harunu çağırdı. Harun azərbaycanca dedi ki, sünnilər və şiələr hərəsi bir tərəfə çəkilib üz-üzə dursunlar. Elə o cür də durdular. Aralarında 20-30 metr olardı. Sonra iki tüfəng gətirib dedilər ki, onsuz da sizin hamınızı qıracağıq. Kim sağ qalmaq istəyirsə, dediyimizə əməl etsin. Sünnilər və şiələr növbə ilə bir-birlərinə güllə atsın. Sağ qalanlarla işimiz olmayacaq. Birinci iki nəfəri irəli çıxarıb tüfəngləri onlara verdilər. Biri ləzgi Məhəmməd, o birisi isə şiələrin ağsaqqalı Məşədi Mirsadıq idi. Onların heç biri erməni silahını əlinə almaq istəmirdi. Qundaqla başlarını yarıb onları tüfəng götürməyə məcbur etdilər. İkisi də tüfənglərini qaldırıb bir-birlərini nişan aldı. Hamı məəttəl qalmışdı. Nisbətən cavan olan Məhəmməd heç kimin gözləmədiyi halda geri döndü və bir daşnakı yerə sərdi. Qarışıqlıqdan istifadə edən Məşədi Mirsadıq





da bir erməni öldürdü. Qaçmaq istəyən yüzlərlə adamı pulemyotlarla qırdılar. Ölənlərin çoxu qadınlar və uşaqlar idi. Əvvəlcə Məhəmmədin qollarını kəsdilər, sonra ayaqlarını. Başını kəsib süngüyə keçirdilər və hamı görsün deyə yuxarı qaldırdılar. Məşədi Mirsadığın gözlərini çıxarıb, qollarını sındırdılar və boynunu qırdılar. Həmin gün daşnaklar məscidi dağıdıb, həm sünnilərdən, həm də şiələrdən 20-dən çox din xadimini qətlə yetirdilər». A.Novatski məsələni dəqiqləşdirmək üçün qeyd edir ki, müsəlmanların dini heysiyyətinə toxunaraq, məscidlərə od vurub yandıran daşnaklar təkcə Quba, Qusar və Xaçmaz ərazisində 26 məscidi yandırmışdılar.

Müsəlmanların müqəddəs dini ocaqlarını yerlə yeksan edən daşnaklar dinə, Şərq tarixinə və ədəbiyyatına aid minlərlə qiymətli kitabları da məhv etmişdilər. Qubanın mərkəzində Əbdürrəhim əfəndinin mədrəsəsini yandıran ermənilər buradakı 1300-ə yaxın kitabı tonqala atmışdılar. Hadisələrin canlı şahidlərindən olan nüfuzlu din xadimi İbrahim Aydəmirov xatırlayır ki, «Digah məscidində təxminən 600-700 il əvvələ aid alban və ərəb əlifbası ilə yazılmış kitablar var idi. Ermənilər həmin kitabları məhv etməklə yanaşı, kənd məscidinin təxminən bir kilometrliyində yerləşən müqəddəs pirin daşını da partlatmışdılar. Bu, üstündə alban yazıları olan nəhəng bir daş idi».

Qubaya gələn Amazasp ilk növbədə Muradyanın əsgərlərini həbsxanaya salanlardan qisas alaraq onların evini dağıtmış, mülklərini başdan-başa yandırmışdı.

Gelovani Fövqəladə Təhqiqat Komissiyasına verdiyi izahatında yazır: «Mən geniş səlahiyyətlər alaraq Qubaya

101652



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

gəldim. Amazaspa öz dəstələri ilə şəhəri tərk etməyi təklif etdim. Əvvəlcə o, tərəddüd etdi və sonra bildirdi ki, çıxıb getməyə hazırdır. Həqiqətən də Qubada olduğunun onuncu günü bütün dəstəsi ilə çıxıb getdi». Lakin Gelovaninin izahatında deyilənlər həqiqətə uyğun deyil. Çünki Amazasp belə asanlıqla qırğından əl çəkəcəkdisə, niyə yerli əhaliyə meydan oxuyaraq deyirdi: «Mən erməni xalqının və onun mənafelərinin müdafiəçisiyəm. Mən cəza dəstəsi ilə göndərilmişəm ki, iki həftə əvvəl burada öldürülmüş ermənilərə görə sizdən qisas alım. Mən bura qayda-qanun yaratmaq, sovet hakimiyyətini qurmaq üçün deyil, öldürülmüş ermənilərin qisasını almağa göndərilmişəm. Mənə əmr edilmişdir ki, Xəzər dənizindən Şahdağına kimi bu ərazidə yaşayan bütün müsəlmanları məhv edim...» O, daha irəli gedərək deyirdi: «Hazırda mənim Digah və Alpan kəndlərində döyüşlərim gedir. Sonra Üçkün və Kilid kəndlərinə keçərək, Şahdağa çatacağam». Doğrudur, müsəlman qanına susayan Amazaspın arzusu ürəyində qaldı. Üç gün davam edən döyüşlər müsəlmanların qələbəsi ilə başa çatdı. Hər iki tərəf böyük itki verdi. Döyüş yeri tarixə «Qanlı dərə» kimi daxil oldu.

Amazaspın vəhşilikləri nəticəsində 1918-ci ilin ilk beş ayı ərzində **Quba qəzasında** üst-üstə **16 mindən** çox **insan məhv edilmişdir.** Ayrı-ayrı mənbələrə və şahidlərin dediklərinə əsasən, qırğın zamanı 12 minədək ləzgi, 4 mindən çox azəri türkü və tat əhalisi öldürülmüşdü. 1918-ci ilin qırğınları zamanı daşnak-bolşevik birləşmələri **Quba qəzasında 162 kəndi dağıtmışdılar ki, bunlardan 35-i hazırda mövcud deyildir.**





**Göyçay** qəzasının Kürdəmir kəndində daşnaklar 56 ev və dükanı, 127 malikanəni, iki məscidi yandırmış, yerli imamın mənzilini talan etmişlər. Mənzildəki Qur""anın təfsirinə dair zəngin kitabxanadan tonqal düzəldilmiş, Qur""""anın özü isə təhqir olunmuşdur. Göyçay qəzasında Cəngi (Caylı), Qaravəlli, Qarabucaq, Mustafanı, Xəlil-Qasımbəy, Ərəb-Mehdibəyli, Sadalı kəndləri və digər obalar da darmadağın edilmişdir.

Komissiyanın sədri Xasməmədov Xarici İşlər Nazirinə yazırdı ki, Avropa sülh konfransına gedən nümayəndə heyətinə təqdim etmək üçün Bakı, Şamaxı, Quba şəhərlərində, Şamaxı, Göyçay, Cavad və Quba qəzalarında türk-müsəlman əhalisinə qarşı daşnak-bolşevik birləşmələri tərəfindən törədilmiş vəhşilikləri əyani şəkildə sübut edən məlumatlar kifayət qədərdir. Lənkəran qəzası polkovnik Avetisovun silahlı quldur dəstələri tərəfindən, Cavad qəzasının bir hissəsi isə polkovnik İllarinoviç başda olmaqla başqa bir dəstə tərəfindən, İrəvan quberniyasında, Gəncə quberniyasının dörd qəzasında – Cəbrayıl, Cavanşir, Şuşa, Zəngəzurda böyük dağıntı törədilərək, azərbaycanlı əhali ucdantutma məhv edilmişdir. (13)

**Lənkəranda** olan «Dikaya diviziya»nı tərksilah etmək üçün dəniz vasitəsilə bolşevik dəstələri göndərilmişdi. Bunların hamısı Erməni Milli Şurasının göstərişi ilə edilirdi. Bolşevik əsgərləri yolda qabaqlarına çıxan müsəlman kəndlərini dağıdıb talayırdılar.Astara bolşevik əsgərləri tərəfindən topa tutularaq darmadağın edildi, əhalinin əksəriyyəti yaşayış yerlərini tərk etməyə məcbur oldu. Xəzər dənizi sahilində Qızılağac ilə Lənkəran arasındakı müsəl-

man kəndləri «Aleksandr Candar» paroxodu tərəfindən top atəşinə tutuldu. Yanvarda başlanan bu qırğınlar martda daha da şiddət etdi»

Osmanlı qoşunlarının Bakını azad etməsindən bir az əvvəl Lənkərana iki min nəfərlik erməni dəstəsi gələrək yerli əhaliyə divan tutmağa başladı. Onlar müsəlman yeməkxanalarına girib oradakıları təhqir edir, pul verməkdən imtina edir, onları Osmanlı türklərindən qorumaq üçün səngər qazmağa məcbur edirdilər. İş o yerə çatmışdı ki, erməni əsgərləri məhərrəmlik mərasimi verilən məscidlərə girib müsəlmanlara öz təziyələrini keçirtməyə mane olurdular. Müsəlman əhalisi dini ayinlərini icra etmək üçün məscidlərə yığışdıqları zaman ermənilər ora soxularaq müsəlmanları qarət edir, məscidi isə yandırmaq istəyirdilər. Ermənilər bu bölgədə yüzlərlə ev dağıtdılar və minlərlə günahsız insanın həyatına son qoydular. 1918-ci ilin yanvarından 1919-cu ilin avqustunda «Molokan qiyamı» yatırılana qədər bu bölgədə erməni və rus birləşmələri tərəfindən 2 min insanın həyatına son qoyulmuşdu.

1918-1920-ci illərdə erməni vəhşiliklərindən ən çox ziyan çəkən Azərbaycan bölgələrindən biri də **Zəngəzur** qəzası olmuşdur. Daşnak qüvvələrinin təcavüzü nəticəsində bu qəzanın Şuşa ilə əlaqələri tamamilə, Cəbrayıl qəzası ilə qismən kəsilmişdi. Qəzanın müsəlman əhalisinin vəziyyəti bir də ona görə ağırlaşmışdı ki, erməni kəndlərindəki silahlı quldur dəstələri ilə yanaşı bu qəzada general Andranikin erməni əsgərlərindən ibarət yaxşı təşkil olunmuş nizami qoşunları da var idi. Andranik Erməni hökumətinin tapşırığı ilə Azərbaycan ərazisinə soxularaq müsəlman əhalisindən





tələb edirdi ki, ya Ermənistan hökumətinə tabe olsunlar ya da qəzanın ərazisini tərk etsinlər. Guya bu ərazi Ermənistan Respublikasına daxildir. Qəzanın çox zəif silahlanmış müsəlman əhalisi Andranikin bu tələblərini rədd etdiyinə görə ermənilər həmin əhaliyə qarşı görünməmiş vəhşiliklər törətdilər.

Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən məlum olur ki, 1918-1919-ci illərdə Sisyan mahalının birinci polis sahəsində olan bütün müsəlman kəndləri, ikinci polis sahəsində olan kəndlərin əksəriyyəti, üçüncü, dördüncü və beşinci polis sahəsindəki müsəlman kəndlərinin isə çox hissəsi məhv edilmişdi. Bəzi kəndlər ümumiyyətlə yer üzərindən silinmiş, həmin kəndlərin torpaqları ermənilər tərəfindən əkin yeri üçün şumlanmışdır. 50 mindən yuxarı müsəlman qaçqını qismən dördüncü polis sahəsində, qismən də Cəbrayıl qəzasında özlərinə sığınacaq tapmışdılar.

Fövqəladə Təhqiqat Komissiyasının məruzəsində Zəngəzur qəzasında **115** müsəlman kəndinin ermənilər tərəfindən dağıdılaraq yer üzərindən silindiyi qeyd olunur. Dağıdılmış bütün kəndlərin adları bu sənədlərdə sadalanır.

Fövqəladə Təhqiqat Komissiyasının sənədlərinə görə **115 kənd** üzrə **3257 kişi, 2276 qadın** və **2196 uşaq** öldürülmüş, **1060 kişi, 794 qadın** və **485 uşaq yaralanmışdır.** Nəticədə təkcə Zəngəzur qəzasında komissiyanın məruzəsi hazırlanana qədər 10068 nəfər azərbaycanlı öldürülüb və ya şikəsi edilmişdir. Məruzədə deyilirdi ki, bu dəhşətli rəqəmlər hələ erməni vəhşiliklər haqqında tam məlumat vermir. Belə ki, daha çox müsəlman erməni vəhşiliklərini qurbanı olmuşdur. Ancaq o zamankı dəhşətli qarışıqlıq şə-

raitində onları tam şəkildə müəyyənləşdirmək mümkün olmamışdır.

Qəzanın Vaqudu kəndində 400-dən yuxarı azərbaycanlı əhali məsciddə sığınacaq tapır və güman edirlər ki, ermənilər müqəddəs yer sayılan məscidə toxunmazlar. Ancaq məscidi mühasirə edən erməni vandalları əvvəlcə məscidə əl bombaları atır, sonra isə ona od vuraraq adamlarla birlikdə yandırırlar. Şəki kəndinin küçələrində iki yerə şaqqalanmış uşaq meyitləri atılıb qalmışdı. İrmişli kəndini talan edərkən ermənilər südəmər uşaqları süngülərə taxaraq göyə qaldırır, öldürülən meyitləri tikə-tikə doğrayırdılar. Aqudi kəndində ermənilər müsəlmanlardan xristianlığı qəbul etməyi tələb edir, bundan imtina edən qadınlara qarşı ən amansız cəza tədbirlərini həyata keçirirdilər.

Çullu kəndində ermənilər yorğan – döşəkdə xəstə yatan 9 nəfər müsəlmanı qılıncla doğramışlar. Bağıbəyli kəndində ermənilər 7 nəfər azərbaycanlını bir evə yığıb evlə birlikdə diri-diri yandırmışlar. Müsəlman meyitlərin əli, ayağı, başı kəsilmiş və o qədər eybəcər hala salınmışdılar ki, həmin əzaların hansı meyitə məxsus olduğunu bilmək olmurdu. Zəngəzur qəzasında 1918-ci il yayın axırları və payızında baş verən bu hadisələr bilavasitə cəllad Andranikin rəhbərliyi altında keçirilmişdir.

Zəngəzur qəzasının 100-dən çox müsəlman kəndi dağıdılmış, on minlərlə iribuynuzlu və yüz minlərlə xırda buynuzlu mal-qara ermənilər tərəfindən sürülüb aparılmış, bağlar, taxıl zəmiləri və otlaq sahələri yandırılmış, dağıdılmış, bir sözlə qəzanın müsəlman əhalisinin iqtisadi vəziyyəti fəlakətli hala salınmışdı. Ermənilər tərəfindən qəzanın





Azərbaycanın müxtəlif kəndələrinə qaçıb dağılmış əhalisinə 1 milyard manata yaxın maddi ziyan vurulmuşdur.

Ermənilərin Zəngəzurun müsəlman əhalisinə qarşı hücumları 1919-cu ilin dekabrından yenidən şiddətləndi. Noyabr ayında ermənilər müsəlmanlar yaşayan Oxçu, Atqız, Şabadan, Pirdavdan kəndlərinə qarşı geniş hərbi əməliyyata başladılar. (14).

Erməni millətçilərinin azərbaycanlılara qarşı Zəngəzurdakı vəhşilikləri 1920-ci ilin əvvələrindədaha amansız bir şəkil aldı. 1920-ci ilin yanvarından Zəngəzurda baş verən bütün hadisələrin bilrvasitə təşkilaçısı məhz Ararat Respublikasının özü idi. Burada da əsas məqsəd Zəngəzur qəzasını tamamilə müsəlmanlardan təmizələyərək Paris sülh konfransı dövlətlərinin əli ilə buranı Ermənistanın tərkibinədaxil etmək idi. Bu təmizləmə əməliyyatlarında erməni quldur dəstələri ilə yanaşı Ararat Respublikasının on mindən yuxarı nizami qoşun dəstələri iştirak edirdi.

Ermənilərin irimiqyaslı hücumları ilə əlaqədar 1920-ci il yanvarından Azərbaycan Respublikasının Parlamentinə, hökumətinə müxtəlif partiya fraksiyalarının rəhbərlərinə Zəngəzurdan çoxlu həyəcanlı xəbərlər daxil olurdu.

1920-ci il yanvarın 21-də Azərbaycan Respublikasının parlamentinin üzvü Cəlil Sultanov tərəfindən Azərbaycan parlamentinə göndərilimiş teleqramda deyilirdi: «Dörd gündür ki, erməni quldur dəstələri nizami ordu ilə birlikdə top və pulemyotların atəşi altında Zəngəzura hücumları davam edir... İtkilər olduqca çoxdur. Əhali vahimə içərisində qaçır və kömək umur... Qəzanın bədbəxt əhalisi adından yalvarıram, kağız üzərindəki etirazlardan fəal hərəkətə

keçin. Azərbaycanın ən gözəl guşələrindən birini tamamilə məhv olmaqdan xilas edin. Zəngəzurun ardınca növbə Qarabağındır. Bütün bunların itirilməsi üçün siz Azərbaycan xalqı və Azərbaycan qarşısında cavab verəcəksiniz». (15).

Yanvarın 22-də isə Cəbrayıl məktəbinin nəzarətçisi H.Axundzadə Azərbaycan parlamentinə göndərdiyi teleqramda yazırdı: «Yanvarın 19-da səhərdən erməni silahlı qüvvələri Zəngəzurda Xocahandan Qaladərəsinə kimi ərazidə bütün cəbhə boyu toplardan və pulemyotlardan müsəlman kəndlərini atəşə tuturlar. Altı kənd tamam dağılmış, doqquz kənd isə od içərisində yanır. Ermənilər qadınlara və uşaqlara belə rəhm etmədən qəddarlıqla müsəlmanları qırır, kəndləri dağıdırlar. Müqavimət göstərməyə heç bir qüvvələri olmayan müsəlmanlar bütün əmlaklarını ermənilərə qoyaraq yalnız qaçmaqla canlarını qurtarırlar» (16).

1918-ci ilin martına qədər İrəvan qəzasının **199 azərbaycanlı kəndi, 1919-cu ilin sentyabr ayına qədər isə Eçmiədzin qəzasına məxsus 62 azərbaycanlı kəndi** bütünlüklə yerlə -yeksan edilmişdir. 1919-cu ilin axırında isə Zəngibasarın biri neçə kəndi istisna olunmaqla, İrəvan qəzasının, o cümlədən Vedibasarın bütün kəndləri məhv edilmiş, əhalisi vəhşicəsinə öldürülmüş, sağ qalanlar canlarını xilas edərək başqa yerlərə qaçmışlar. Əhali İran, Osmanlı və Azərbaycana pənah gətirmişlər.

Quqark rayonunun Vartanlı kəndində isə faciə belə başlandı: Aprel ayının ortalarında iclas keçirmək adı altında azərbaycanlıları bir komaya yığırlar. Təxminən 1200-1500 adam bu komaya toplaşır. Keşiş Vahan iclası açır, bir neçə kəlmə ilə bu iki xalqın bir kənddə mehriban yaşaması





haqqında fikir söyləyir. Bir qədər sonra silahlı ermənilər içəri daxil olub keşişi bayıra çıxarır, komanın qapısına bağlayaraq damından içəriyə saman qarışıq neft töküb camaatı yandırmağa başlayırlar. Uşaq, qoca, qadın qışqırtısı ərşə dayanır, tüstüdən boğulanlar, özlərini itirənlər qapıya hücum çəkirlər. Əliyalın xalqın müqaviməti nəticəsiz qalır.

Yerevan şəhərinin şimal – şərqində yerləşən Kotayk rayonu ərazisində də 1918-ci ildə erməni quldur dəstələri azərbaycanlılara qarşı geniş soyqırımı həyata keçirtdilər. 1918-ci ilin məlum hadisələrinə qədər bu rayonda yaşayan əhali arasında azərbaycanlılar üstunluk təşkil edirdi. Lakin həmin dövrdə rayonun Avdallar, Artiz, Aşağı Qaxt, Başkənd, Bozkosa, Qayaxaraba, Qaraçala, Qaraçörək, Qızqala, Qurbağalı, Damagirməz, Dəlləkli, Əkərək, Zər, Yelqovan, Yellicə, Kamal, Kənxan, Kərpicli, Küzəcik, Göykilsə, Güllücə, Nurnus, Oxçu qalası, Təzəxarab, Çobangörükməz və s. kəndlərindən azərbaycanlı əhali böyük işgəncələrlə qovulmuşdur. Onların əksəriyyəti Andranikin və daşnak hökumətinin silahlı erməni dəstələri tərəfindən öldürülmüşdür. 1920-ci ilin aprelində «Azərbaycan» qəzeti yazırdı: «Artıq Göyçə mahalında müsəlman qalmayıb. Hazırda Yeni Bəyazid qəzasında 84 müsəlman kəndi dağıdılmışdır, onlardan 22 kənd apreldə dağıdılmışdır. Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorca, Aşağı Şorca, Soğanqulu-ağalı, Ağkilsə, Zod, Qulu, Ağalı, B. Qaraqoyunlu, K. Qaraqoyunlu, Zərzibil, Ədli, İnəkdağ, Qaraiman, Kəsəmən, Başkənd, Bala Məzrə, Şişqaya, Baş Hacı, Qəribqaya kəndlərinin 15 mindən artıq evi olan əhalisi bütün malı, dövləti başlı – başına buraxıb qaçmışdır. Bütün bu var-dövlət hazırda

ermənilərə qalıb, qarət edilmiş əmlak bir neçə milyon və hətta milyardlar qədərdir». Andranikin quldur qoşununun və daşnakların 1918-1920-ci illərdə azərbaycanlılara qarşı apardıqları soyqırımı nəticəsində indiki Ermənistan ərazisində, yəni **Qərbi Azərbaycan torpaqlarında yaşayan** əhalinin çox **böyük hissəsi, təxminən 565 min nəfəri vəhşicəsinə qırılmış, yaxud** öz **dədə–baba torpaqlarından qovulmuş,** didərgin salınmışdır. Erməni müəllifləri özləri bu faktı təsdiq edirlər. Tarixçi Z. Korkodyan «Sovet Ermənistanının əhalisi 1831-1931-ci illər» kitabında faktı kimi göstərir ki, 1920-ci ildə Ermənistanda Sovet hökuməti qurularkən bu ərazidə 10 min nəfərdən bir qədər çox türk azərbaycanlı qalmışdı. 1918-ci ildə «İrəvan quberniyasında 211, Qars vilayətində 92 Azərbaycan kəndi dağıdılmış, yandırılmış və talan edilmişdi. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərindən birində göstərilir ki, qısa müddət ərzində bu tarixi Azərbaycan şəhərində (İrəvan) və onun çevrəsində 88 kənd dağılmış, 1920 ev yandırılmış, 132 min azərbyacanlı məhv edilmişdir. Erməni cəza dəstəlrinin törətdikləri vəhşiliklər, daşnak hakimiyyəti dövründə yürüdülən «türksüz Ermənistan» siyasəti nəticəsində İrəvan **quberniyasının azərbaycanlı** əhalisinin **sayı 1916-cı ildə 375 min nəfərdən 1922-ci ildə 70 min nəfərə enmişdir.** 1920-ci il aprelin 27-də XI Qırmızı Ordunun Bakını, sonra isə Azərbaycanın bütün bölgələrini işğal etməsi Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün Azərbaycan Xalq Cümhuriyyətinin gördüyü tədbirləri başa çatdırmağa imkan vermədi. Ermənistan sovetləşən Zəngəzur qəzası daxil olmaqla həmin ərazilər Sovet Ermənistanına bağışlandı. Beləliklə,





1918-1920-ci illərdə türk-müsəlman əhalisinə qarşı həyata keçirilən qətllər və kütləvi insan qırğını təsadüfi hadisə deyil, «Daşnaksütyun» partiyasının «Böyük Ermənistan» yaratmaq planını reallaşdırmaq yolunda atılan addım və soyqırımı siyasəti olmuşdur.

Xalqımıza qarşı 1918-ci ildə törədilən mart soyqırımı kimi faciəli bir tariximizin saxtalaşdırılması və ört-basdır edilməsini təkcə tarixi bir anın unudulması kimi qəbul etmək olmaz. Mart hadisələrinin saxtalaşdırılması xalqımıza qarşı tarixən düşmən münasibət bəsləyən erməni xislətinin gizlədilməsi oldu. Bu isə özlüyündə XX əsr tariximizdə yeni-yeni qanlı səhifələrin açılmasına gətirib çıxartdı ki, bunlardan aşağıdakılara diqqəti cəlb etmək yerinə düşər:

- 1920-ci ilin aprel işğalı ilə Azərbaycan Milli hökuməti devrildi, bolşevik bayrağı altında ermənilər Azərbaycanda faktiki olaraq ikinci dəfə hakimiyyəti ələ keçirdilər. Nəticədə respublikada nəinki ziyalılara, hətta milli baxışlı kommunistlərə də divan tutuldu, milli adət-ənənələrimiz ayaq altına atıldı, bütün bu işlərin icraçıları ermənilər oldu.
- bu gün müstəqil Azərbaycanın ən ağır probleminə və xalqın ən ağır dərdinə çevrilən Qarabağ məsələsinin əsası 20-ci illərdə qoyuldu.
- bolşevik cildinə girən daşnaklar Zəngəzur torpaqlarını zorla Azərbaycandan qoparmağa nail oldular.
- otuzuncu illərin repressiyalarında erməni xisləti üçün yaranmış fürsətdən məharətlə istifadə edildi.
- 1947-53-cü illərdə yüz minlərlə soydaşımız öz ata-baba torpaqlarından (Qərbi Azərbaycan) didərgin salındı.
- 1990-cı ilin yanvar faciəsi, 1992-ci ilin fevralında Xocalı soyqırımı, 1992-ci ildən başlayaraq Şuşa, Laçın, Kəlbəcər,

Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, ümumiyyətlə, 20 faiz torpaq itkisi erməni məkrinin, ən əsası isə mart soyqırımının unudulmasının bilavasitə nəticəsidir.

- 1918-ci ilin martında erməni vəhşiliyindən canını qurtarıb Bakını tərk edən soydaşlarımızın qaçqın həyatı qan yaddaşımıza həkk olunsaydı, fikrimizcə, bu gün biz bir milyon insanı qaçqınlıq taleyini yaşamağa məcbur edən erməni məkri qarşısında aciz qalmazdıq.

**Nəhayət,** Ü.Hacıbəyovun 1919-cu ildə mart soyqırımının ildönümü ilə əlaqədar yazdığı «31 mart» adlı məqaləsindən bu gün üçün də aktuallığını saxlayan bir fikri xatırlamaq yerinə düşər: «Bu günkü vəzifəmiz o qara günləri yaddan çıxarmamaq və buna görə də həmişə və hər an hər şeyə hazır olmalıyıq. Borcumuz bu vətəni gələcəkdə hər cür təcavüzdən qorumaq və məmləkətimizi şərəflə yaşatmağa çalışmaqdır».

### İstifadə olunmuş ədəbiyyat

1. ARDA, f.1061, siy.1, iş 95, vər.2
2. ARDA, f.1061, siy.1, iş 5, vər.1
3. ARDA, f.1061, siy.1, iş 95, vər.2.
4. ARDSPİHA, f.277, siy.2, iş 16, vər.20
5. ARDSPİHA, f.277, siy.2, iş 16, vər.18
6. ARDSPİHA, f.277, siy.2, iş 16, vər.18.
7. ARDSPİHA, f.277, siy.2, iş 13-16, vər.25-26
8. ARDSPİHA, f.277, siy.2, iş 16, vər.18
9. ARDA, f.100, siy.2, iş 791, vər.791
10. ARDA, f.1061, siy.1, iş 108, vər.8-10





11. ARDSPİHA, f.277, siy.2, iş 16, vər.18
12. ARDA, f.1061, siy.2, iş 85, 87,100
13. ARDSPİHA, f.277, siy.2, iş 16, vər.46
14. ARDA, f.100, siy.2, iş 791, vər.2
15. ARDA: f.894, siy. 4, iş 65).
16. ARDA: f.895, siy. 1, iş 299, vər.20.
17. ARDA: f.895, siy. 1, iş 299, vər. 31-33.
18. ARDA: f. 895, siy. 1, iş 299, vər. 8-12 .

**İradə Bağırova**
*Tarix elmləri doktoru*

## ERMƏNİ HƏRBI BİRLƏŞMƏLƏRİ VƏ ONLARIN BAKIDAKI MART SOYQIRIMINDA ROLU

1914-ci ilin iyulunda Birinci dünya müharibəsinin başlanması Rusiya imperiyasında vətənpərvərlik ruhunun görülməmiş yüksəlməsinə gətirib çıxardı. Çar hökumətinə qulluğ göstərməkdə canfəşanlıq edən qüvvərərin sırasında "Daşnaksutyun" partiyası xüsusi yer tuturdu. Ermənilərin "türk zülmündən" qurtarmaq üçün rus çarına və ordusuna inamının möhrəm əsasları var idi. Çünki hələ Osmanlı imperiyasına müharibə elan edilməmişdən əvəl II Nikolay ermənilərə ünvanlanmış xüsusi bəyanat yayıb, onlara türklərin "despotik əsarətinə" çar hökumətinə yardım etdikləri halda, onlara "azadlıq və ədalət" vəd etmişdi.[1] Bu çar tərəfindən görülməmiş "alicənab jest" idi, çünki bundan bir qədər əvvəl, 1909-cu ildə bütün Rusiya üzrə ardı-arası kəsilməyən və rus hökumət orqanlarının səbr kəsasını doldurmuş terror aktları törətmiş daşnak təşkilatları üzvlərinin kütləvi həbsləri keçirilmişdir. Həmin vaxtda bütün dünyada "Daşnaksutyun" partiyasının üzvlərinin sayı 165 minə çatırdı və yalnız Bakı təşkilatında 2 mindən artıq üzv var idi.[2]

Məlum olduğu kimi, partiyanın əsas məqsədi Şərqi Anadolu ərazisində, sonra isə Qafqazda "Böyük Ermənistan" dövləti yaratmaq idi, bu məqsədə çatmaq üçün isə hər





bir mübarizə vasitəsi qəbul olunurdu – terror aktlarından tutmuş hərbi üsyanadək. Bu məqsədlə partiya yarandığı zamandan başlayaraq iyirmi il ərzində yaxşı silahlanmış hərbi dəstələr yaratmağla məşğul idi, bu birləşmələrin sayı isə dünyada artıq 100 min.nəfərə çatmışdı.[3] XX əsrin əvvəllərində daşnakların həm Turkiyədə, həm də Qafqazda törətdikləri terror aktları və qarətləri o səviyəyə çatmışdır ki, erməni əhalisi də bu qarətlərdən cana gəlib daşnakların tutulmasında polisə kömək edirdi. 1909-cu il ərzində Bakıda, Şuşada və Yelisavetpolda (Gəncədə) daşnakların kütləvi həbsi baş verdi.

1912-ci il'də Peterburqda keçirilən məhkəmədə bir çox daşnaklar müxtəlif müddətli cəzalara və sürgünə məhkum edildilər. Lakin 1914-ci ildə , dünya müharibəsi başlanan kimi, II Nikolay ""Daşnaksütyun" işi ilə məhkum olunan demək olar ki, bütün dustağlara amnistiya elan etdi.[4] Həmin zaman artıq daşnak hərbi birlşmələrindən təşkil olunmuş könüllülər dəstələrinin formalaşması haqqında qərar qəbul olunmuşdu. Ən maraqlısı odur ki, bu dəstələrin yaranması hələ Türkiyənin müharibəyə qoşulmasından, yəni 1914-cü ilin oktyabrından xeyli əvvəl baş vermişdi.

Könüllü dəstələrin məqsədi heç kimdən gizlədilmirdi, bu rus ordusunun köməkliyi ilə ermənilərin yaşadığı Anadolu vilayyətlərində muxtar və ya müstəqil erməni dövlətinin yaradılması idi. Lakin hərbi dəstələr (drujinalar) əsasən Cənubi Qafqaz ərazisində formalaşdırılırdı. Bu məqsədlə bura məşhur terroristlər və "generallar" Xeço (Q.Əmirov), Dro (Drazdamat Kanoyan), Andranik (Ozanyan), S.Tadevosyan və s. gəlmişdilər.[5]

1915-ci ilin fevralında Tiflis şəhərində daşnakların IX qurultayı yığışdı. Qurultay bütün erməni hərbi dəstələrinin birləşməsini, yəni ordu yaratmağ haqqında qərar qəbul etdi. Qurultayda çıxış edən Andranik rus komandanlığlndan narazılığını bildirdi və birmənalı olaraq rusların erməni dövlətinin yaranmasında yardım etməyi təqdirdə öz silahlarını əks istiqamətə, yəni Rusiyaya qarşı çevirəcəyləri barədə işarə etdi.[6]

Daşnakların hərbi səfərbərliyinin nəticəsində 1915-ci ilin mart-aprel ayında Van vilayətində üsyan qaldırıldı. Bu üsyan rus qoşunlarının hücumu ilə üst-üstə düşdü və yerli türk əhalisinin kütləvi qırğınları ilə müşaiyyət olundu. Nəticədə Osmanlı hökuməti ermənilərin cəbhəyanı vilayətlərdən Suriyaya deportasiyası haqqında qərar qəbul etdi.[7] Bu hadisə günümüzədək erməni tarixşünaslığında və ictimai fikirdə qondarma "soyqırım" adlandırılır. Eyni zamanda türk əhalisinin verdiyi qurbanlar dünya ictimaiyyətindən gizlədilir. Lakin indiki erməni siyasətbazlardan fərqli olaraq, o hadisələrin şahidləri baş vermiş faciənin əsl günahkarlarını gizlətmirdilər. Hətta 1918-ci ildə azərbaycan əhalisinin soyqırımını daşnaklar vasitəsi ilə təşkil edən S.Şaumyan da daşnakların o zamankı hərəkətlərini avantyurist addım adlandırmışdı. Erməni cəmiyyətinin liberal dairələri "Mşak", "Van-Tosp", "Bakı" və digər qəzetlərdə açıq şəkildə daşnakları günahlandırırdılar. "Bakı" qəzeti, ermənilərin "Van-Tosp" jurnalından sitat gətirərək, yazırdı: "bu hadisələrdə ən böyük məsuliyyəti ermənilərin özləri daşıyır, ən böyük gunah o avam, təcrübəsiz, ölkə şəraitini pis bilən, lakin türk ermənilərinin müstəqillik hərəkatının başında duran insanların üstünə düşür..."[8]

Lakin faciəli 1915-ci il daşnaklarçun dərs olmadı, onlar öz aqressiv siyasətlərindən əl çəkmək fikrində deyildilər.





1916-cı ilin yanvarında Tiflisdə daşnakların Şərq bürosunun təşkil etdiyi konfransda ermənilərin müxtariyyat haqqında tələblərinin rədd olunması təqdirində inqilabi hərəkata əl atmaq və yenə də könülli hərbi dəstələrdən istifadə etmək və hətta həmin dəstələri atıcı batalyonlara çevirmək qərarı qəbul olundu.[9] 1916-ci ildə Bakıda "Daşnaksutyun"un Amerika komitəsinin bəyanatı yayılmışdı, bəyanatda daşnakların əsas vəzifəsi Türkiyəyə qarşı "milli savaş" elan olundu. "Savaş, sonsuz savaş, Türkiyə xarabalığa çevriləcəyə qədər..."[10] Cəza aksiyası özünü çox gözlətdirmədi. 1916-cı ilin yayında rus ordusunun hücumu nəticəsində bir sıra türk şəhərləri – Qars, Ərzrum, Trabzon, Ərzincan və s. Rusların əlinə keçdi. Rus qoşunmlarının arxasınca bu şəhərlərə daşnak hərbi birləşmələri daxil olaraq, orada yaşayan türk və azərbaycan əhalisinə qarşı görülməmiş vəhşiliklər törətdilər. Ən çox qırğınlara məruz qalan daha çox azərbaycanlı yaşayan Qars şəhəri oldu.

Rus ordusunun tərkibində fəaliyyət göstərən erməni hərbi birləşmələrinin törətdiyi Qars qırğınları Azərbaycanda böyük həyəcan doğurmuşdu. Bu xəbərlər Bakıya gəlib çatandan sonra Ə.M.Topçubaşov başda olmağla Bakı, Gəncə və İrəvan quberniyalarından tanınmış nümayyəndələri Qarsa yola düşdülər. Səfərdə əsas məqsəd baş verməş faciə haqqında məlumatlar toplayıb onu hakimiyyət orqanının diqqətinə çatdırmaq idi. Nümayəndə heyyəti ermənilər tərəfindən qətl edilmiş tatar (azərbaycan) ailələrinə yardım toplamaq üçün hakimiyyət orqanlarından icazə almalı idi. Onlar Qafqaz Cəbhəsi komandanının müavini general A.Z.Mışlayevsi ilə görüşüb baş vermiş hadisənin miqyasını onun diqqətinə çatdırdılar və tədbir görülməsini

xahiş etdilər. General təkəbbürli ermənilər haqqında tədbir görüləcəyinə söz verdi.[11] IV Dövlət Dumasında Azərbaycanı təmsil edən M.Y.Cəfərov bu qanlı divana etiraz nümayiş etdirərək, bəyanatla çıxış etdi.[12]

1917-ci ili Fevral ingilabından sonra Rusiyada Müvəqqəti hökumət hakimiyyətə gəldi və həmin ilin mayın 9-da Rusiyanın işğalı altında olan Şərqi Anadolunu ermənilərin idarəsi altına vermək haqqında qərar qəbul etdi. Bu qərara görə ruslar Şərqi Anadolunun Van, Ərzurum, Bitlis və Trabzon vilayətlərinə bölərək, onları ermənilərin rəhbərliyinə verirdi.[13] Lakin ermənilər bu xülyalarını həyata keçirə bilmədilər, bolşeviklər hakimiyyətə gələndən sonra Almaniya və Osmanlı dövləti ilə Brest-Litovsk sazişi imzalandı və bu müqaviləyə görə bu torpaqlar Türkiyənin ərazisi olaraq qaldı. Şərqi Anadoluda məqsədlərinə çata bilməyən ermənilər bütün güclərini Cənubi Qafqaza,ələlxüsus Bakıya yönəltdilər. 1918-ci ilin noyabrın 2-dən fəaliyyətə başlayan Bakı Sovetində S.Şaumyan başda olmağla bolşeviklər hakimiyyəti öz əllərinə keçirtdilər.

Bu dövrdə Bakıda Daşnaksütyun partiyası və Erməni Milli Şurasına tabe olan yaxşı silahlanmış hərbi dəstələr yerləşmişdi. Onlara keçmiş rus ordusundan böyük miqdarda silah qalmışdır. Qafqaz cəbhəsinin ləğvindən sonra cəbhədən qayıdan rus əsgərləri öz silah-sursatını demək olar ki, müftə ermənilərə (əsasən Erməni Milli Şurasına) və molokanlara satırdılar. Bundan başqa daşnaklar keçmişdən rus ordusunda xidmət edərək, hərbi təcrübəyə malik idilər. "Daşnaksütyun" partiyası və Erməni Milli Şurası Bakıya toplaşan erməni silahlı qüvvələrinə nəzarət etdiyindən, onlar bu qüvvələrdən özlərinin Erməni dövləti yaratmaq məqsədləri üçün istifadə etmək niyyətində idilər. Bolşeviklər isə ermənilərin bu niyyətindən öz məqsədləri üçün məharətlə istifadə etdilər. Ümumiyyətlə, əgər Bakı Sovetinin silahlı qüvvəsi 6 min nəfərdən ibarət idisə, onlardan 3-4 minə qədərini daşnak qoşunları təşkil edirdi və bu qoşunlar Bakı Sovetinin ixtiyarına verilmişdi.[14]





Azərbaycanda milli hərəkatın genişlənməsi, milli maraqları üstün tutan "Müsavat" partiyasının nüfuzunun artması, "Böyük Ermənistan" yolunda ciddi maneəyə çevrilə bilərdi. St.Şaumyan öz çıxışlarında bildirirdi ki, "Müsəlman millətçiləri Bakını Azərbaycanın paytaxtı etməyi arzulayırdılar". "Onlar Zaqafqaziyadan tamamilə ayrılmaq üçün mübarizə aparırdılar ki, Bakı Azərbaycanın paytaxtı olsun; Əgər onlar Bakıda üstünlük əldə etsəydilər, şəhər Azərbaycanın paytaxtı elan edilərdi".[15] Bu isə Şaumyan üçün də, Lenin üçün də əsl fəlakət demək idi. Türk-müsəlmanların əsas hissəsini öz arxasınca aparan "Müsavat" partiyası Bakı Sovetinə imkan vermirdi ki, şəhərdə hakimiyyəti tamamailə öz əlinə alsın.

Bolşeviklər partiyasının üzvü A.İvanov öz xatirəsində mart hadisələri zamanı qüvvələrin düzülüşünü belə göstərmişdi: İcraiyyə Komitəsinin tərəfində yenicə formalaşdırılmış Qırmızı Ordunun beynəlmiləlçi batalyonu, fəhlə Qırmızı Ordusu, 35-ci Türküstan polku, 2-ci Erməni polku, daşnakların erməni drujinaları, "Qars" və "Ərdəhan" gəmiləri idi.[16]

Bolşeviklərin təkhakimiyyətlərini yaratmaq üçün türk-müsəlmanları təxribata çəkmək lazım idi. İlk təxribat 1918-ci ilin yanvar ayında Müsəlman korpusunun komandiri general Əsəd bəy Talışinskinin Bakıda həbsi oldu ki,

bu da şəhərin türk-müsəlman əhalisi arasında qəzəb doğurdu.[17] İkinci təxribat isə "Evelina" gəmisində Lənkərana getməyə hazırlaşan əsgərlərin tərksilah edilməsi oldu. H.Z.Tağıyevin Lənkəranda xidmət edən oğlu Məhəmməd öz əlində silahın atəş açılmasından həlak olmuşdu və onun dəfninə qulluğ etdiyi alayın zabitləri Bakıya gəlmişdilər. Martın 29-da, dəfn mərasimindən sonra məşhur kapitalist Ş.Əsədullayevin oğlu, zabit Ə.Əsədullayevin komandanlığı altında "Dikaya diviziya" hissələri Bakı limanında toplaşıb "Evelina" gəmisi ilə Lənkarana qayıtmalı idilər.[18]

Bu məqamda əlverişli şəraitdən istifadə edən ermənilər şəhərdə belə şayiələr yaydılar ki, müsəlman zabitləri Lənkərana rus-molokan kəndlərini məhv eləmək üçün gedirlər. Nəticədə bütün qeyri-azərbaycanlı siyasi və hərbi qüvvələr "Evelina" gəmisinin tərksilah edilməsinə tərəfdar çıxdı. Martın 30-da təcili şəkildə S.Şaumyanın, A.Caparidzenin, Q.Korqanovun, İ.Suxartsevin, S.Saakyanın başçılığı ilə İngilabi Müdafiə Komitəsi yaradıldı[19] Limanda toplaşan müsəlman zabit və əsgərlərini St.Şaumyanın tapşırığı ilə tərksilah etdilər. Türk-müsəlman əsgərlərini tərksilah etməsi əhalidə bərk narahatlıq yaratdı, həmin gün N.Nərimanovun evində Şaunyanla keçirilən görüşdə və bundan bir az sonra İngilabi Müdafiə Komitəsində M.Ə.Rəsulzadənin keçirdiyi görüşdə silahları qaytarmağa söz verilsə də, erməni-bolşevik koalisiyası buna əməl etmədi.[20]

Martın 30-da axşam saat 17-00-da Bakıda ilk atəş səsləri eşidildi. S.Şaumyanın qabaqcadan hazırladığı təxribat baş tutdu və bu, onun sözləri ilə desək, vətəndaş müharibəsinin başlanması üçün siqnal oldu. Əslində isə azərbaycanlı əhalisinə qarşı bu vaxta qədər görülməmiş qırğınlar baş-





landı. Həmin gün axşam Bakı Sovetinin təcili iclası keçirildi və döyüşə başlamaq haqqında qərar qəbul edildi, təlim qərargahı açıldı. Qərargahın işinə A.Mikoyanla N.Anançenko rəhbərlik edirdilər. Müsəlman dəstələrinin toplandığı yerə qəfil hücumlar onların məğlubiyyəti ilə başa çatdı.

Rusların Xəzər dənizində olan hərbi donanması ermənilərin fitvasına uyaraq şəhərin müsəlmanların sıx yaşadığı məhəllələri top atəşinə tutdular. Bu atəş nəticəsində müsəlmanların əsas ibadət yeri sayılan "Təzə pir" məscidinin minarələri ağır zədə aldı. Ermənilər rus matroslarını aldadaraq, inandırmışdılar ki, müsəlmanlar rusları, ümumiyyətlə, bütün xristianların hamısını doğrayıblar. Lakin matroslara aydın olanda ki, müsəlmanlar ruslara nəinki toxunmayıblar, əksinə onları müdafiə ediblər və yedizdiriblər, yalnız bundan sonra toplardan atəşi dayandırdılar.[21] Bütün bunlara baxmayaraq, bu top atəşləri nəticəsində şəhərin tikililərinə və əhalisinə böyük ziyan dəymişdi.

Erməni daşnakları bolşevik bayrağı altında, əvvəlcədən hazırladıqları plana uyğun olaraq, Bakı şəhərində 1918-ci il matrın 30-dan aprelin 1-nə kimi, üç gün ərzində türk xalqına qarşı qırğın törətdilər ki, bu da minlərlə insanın ölümü ilə nəticələndi. Seyid Cəfər Pişəvəri "Bakıdakı ilk Sovet hökumətinin müqəddəratı" adlı məqaləsində yazırdı: "Mən daşnakların vəhşiliklərini, saysız-hesabsız günahsız adamların, xüsusilə bitərəf iranlıların öldürülüb karvansaralarda meyitlərinin yandırılmasını öz gözümlə görmüşdüm. Bu çox faciəli və nifrətləndirici bir hərəkət olmuşdu. Heç bir əsas və ünvan olmadan yalnız kin və ədavət üzündən daşnakların törətdikləri cinayət hər bir insanın ruhu-

nu sıxıb kədərləndirirdi".[22] Bir çox şahidlərin sözlərinə görə, erməni dəstələrinin törətdiyi vəhşiliklər, qadınların diri-diri divarlara mıxlanması, qulaqların, burunların kəsilməsi, qarınların yırtılması və s. hətta başqa millətlərin nümayyəndələrinin dəhşətə gətirmişdi. Qaçıb canını qurtarmaq istəyən əhalını isə gülləyə tutmağ üçün əvvəlcədən şəhərin müvafiq yerlərində pulemyotlar qoyulmuşdu. Onlar həm liman tərəfə qaçanları, həm də İçərişəhərdən çıxmaq istəyənləri məhv edirdilər.[23] Şəhərdə Bakı Sovetinin erməni-rus bolşevik qüvvələri azərbaycanlılara qarşı qanlı qırğınları zamanı ictimai və şəxsi binalara da çox böyük ziyan dəymişdir. Belə ki, "Açıq söz" və "Kaspi" qəzetlərinin redaksiyaları yandırılmış, Bakıda ən iri məscid bombalanmışdı.[24]

Beləliklə, üç gün (30 mart-1 aprel) ərzində Bakıda əks-inqilabçı adı ilə 12 mindən çox türk-müsəlman əhalisi qətlə yetirildi.[25]

Artıq öz məqsədlərinə nail olduqlarını görən Şaumyan 1918-ci il aprelin 1-də Müsəlman təşkilatlarına qarşısında ultimatumla çıxış etdi. Həmin ultimatuma görə: 1) Bakı Sovetinin hakimiyyətini tanımalı və onun bütün sərancamlarına tamamilə tabe olunmalıdır; 2) əksinqilabçı əsgəri hissə olan "Dikaya diviziya" Bakı və onun rayonları ərazisində saxlanıla bilməzdı. Digər müsəlman milli əsgəri hissələri, habelə erməni əsgəri hissələri ya şəhərdən çıxarılmalı, ya da tamamilə fəhlə, əsgər və matros deputatları Sovetinə tabe edilməlidirlər. Əhalinin bütün silahı fəhlə, əsgər və matros deputatları Sovetinin nəzarəti və uçotu altında olmalıdır; 3) Bakıdan Tiflisə qədər va Bakıdan Petrovska qədər dəmir yol xəttinin açılması üçün təcili tədbirlər görülməlidir.[26] Bu tələblərin yerinə yetirilməsi müddəti 1918-ci il aprelin 1-də, gündüz saat 3-ə təyin olunmuşdu. Danışıqlarında inqilabı müdafiə komitəsindən Caparidze, Saakyan, Zevin, Fioletov və Dudin, "Müsavat" partiyasından Kazımzadə, "Rusiyada Müsəlmançılıq" partiyasından Tağıyev, şəhərin rəisi İlyuşkin, Zaqafqaziya Milli Komitəsinin üzvi A.M.Topçubaşov, Molla Hacı Mir Mirmöhsün və Hacı Hüseyn Tağıyev, Erməni Milli Şurasından L.Atabekyan və Ter-Mikaelyan, görkəmli müsəlman və erməni ictimai xadimləri, İranın konsulu və başqaları iştirak etmişdi.[27]





Lakin bu razılaşmaya baxmayaraq, erməni-bolşevik silahlı dəstələri Bakıda kütləvi qırğınları və soyğunçuluğu aprelin 2-dək davam etdirmişdilər. Bu fəlakətli günlərdən sonra imzalanmış saziş haqqında Bakı Sovetinin yığıncağında məlumat verən I.Suxartsev böyük sevinclə elan etdi ki, "Müsavat" firqəsi darmadağın edildi və "Türkiyənin Bakı cəbhəsi alındı".[28] Bakıda törədilən soyqırıma isə "vətəndaş müharibəsi" donu geyindirilməsində və qətl edilənlərin sayının azaldılmasında ilk cəhdi elə hadisələri törədən Şaumyan özü oldu.

1918-ci il aprelin 13-də RSFSR Xalq Komissarları Sovetinə göndərdiyi məktubunda Şaumyan qeyd edilirdi ki, "martın 30-31-də və aprelin 1-də Bakı şəhərində baş vermiş vuruşmada bizim tərəfdən sovet qırmızı qvardiyası, təşkil etdiyimiz beynəlmiləl qırmızı ordu, qırmızı donanma və erməni milli hissələri vuruşurdular ...o biri tərəfdən "Musavat" partiyasının başçılıq etdiyi müsəlman "dikaya diviziyası" və silahlı müsəlman quldur dəstələri vuruşurdu-

lar... Bizə aviasiya məktəbinin hidroaeroplanları da kömək edirdi".[29] Daha sonra o, həm yerli Sovetin, həm də Bakıya gəlmiş Qafqaz ordusunun qüvvələrini birləşdirərək 6 min nəfər yaxşı silahlı qüvvə təşkil edə bildiklərindən yazır. O, "Daşnaksütyun"un da 3-4 min nəfərlik milli hissələrinin bolşeviklərin ixtiyarında olduğunan bəhs edir. "Milli hissələrin iştirakı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdi, lakin buna yol verməmək mümkün deyildi. Biz bilərəkdən buna yol verirdik. Müsəlman yoxsulları böyük zərər görmüşlər".[30] Sonda isə Şaumyan bu qırğının əsl məqsədini birmənalı olaraq açıqlayır: "Biz döyüşlərdə parlaq nəticələr əldə etmişik. Düşmən tamamilə darmadağın edilmişdir...Hər iki tərəfdən öldürülən üç mindən artıqdır... Onlar Bakıda üstün gəlsəydilər, şəhər Azərbaycanın paytaxtı elan edilərdi, bütün qeyri-müsəlman ünsürləri tərksilah edib qırardılar".[31] Beləliklə, bu qədər insan tələfatı ilə nəticələnən (Şaumyan bu rəqəmləri üç dəfə azaltmışdı) mart soyqırımın yeganə məqsədi nəyin bahasına olursa olsun Bakını azərbaycanlıların əlindən almaq və sovet Rusiyasının neft xammal bazasına çevirməkdən ibarət idi.

Məlum olduğu kimi, türk-müsəlman soyqırımı təkcə Bakı ilə məhdudlaşmadı. Aprelin ilk günlərindən kütləvi qırğınlar Şamaxıda, Qubada, Lənkəranda, Səlyanda və Hacıqabulda törədildi. Azərbaycan qəzalarına sovet qoşunları adı altında göndərilən cəza dəstələrinə T.Əmiryan, S.Lalayan, Hamazasp rəhbərlik edirdilər. Onların vəhşicəsinə müsəlman əhalisini qüllə-baran etdikləri nəticəsində yalnız Şamaxının 53 kəndi məhv edilmiş, 7 minə qədər insan öldürülmüşdü.[32] Quba qəzasında 122 müsəlman kəndi dağıdılmış, minlərlə türk və ləzgi əhalisi məhv edilmişdi.[33]





1918-ci il aprelində Cənubi Qafqaz Seyminin yığıncağında azərbaycanlı nümayəndələri Bakı və qəzalardakı soyqırımları məsələsini kəskin şəkildə müzakirəyə çıxarmışdılar. Seymin ədliyyə naziri olan Fətəlixan Xoyski təcili olaraq Bakıya Seym tərəfindən hərbi yardım etməyi tələb etmişdi, əks halda bu faciəvi vəziyyət yaradar, "çünki Bakı məsələsi Respublikanın (yeni yaradılmış Zaqafqaziya respublikası nəzərdə tutulurdu – İ.B.) olum və ya ölüm məsələsidir".[34] Burada sosialist müsəlman blokunun nümayəndəsi A.Səfikürdski də, bolşevik-erməni silahlı qüvvələrinin qanlı əməllərinə son qoymaq üçün, Cənubi Qafqaz Seymindən ciddi tədbirlər görülməsini tələb etmişdi. Səfikürdski bolşeviklərlə mübarizə aparan müsəlman bloku adından hökuməti xəbərdar etmişdi ki, əgər Seym qətiyyətli ölçü götürməsə, "onda biz özümüz onları darmadağın edəcəyik".[35]

Seymin iclasında "Müsavat" partiyasının rəhbəri M.Ə.Rəsulzadə kəskin çıxış edərək, müsəlman sosialist blokunun nümayədəsinin tələblərini haqlı sayaraq təcili tədbirlər görülməsini tələb etmişdi. Seymin hesabat yazısında göstərilirdi ki, "Bakı şəhərində bolşeviklərin müsəlmanlara qarşı silahlı çıxışından sonra dinc müsəlman əhalisinə qarşı misli görünməmiş cinayətlər törədilmişdir. Zaqafqaziya Seymi bolşevik çıxışlarını ləğv etmək üçün Zaqafqaziya hökumətinə lazımı göstərişlər verməyi qərara aldı".[36]

Cənubi Qafqaz Seymi Bakı Sovetinə qarşı 100 min manat pul, piyada qoşun və süvari hissələri, iki təyyarə, zirehli qatar, çoxlu silah və sursat ayırmışdı. 1918-ci il aprelin əvvəllərində knyaz Maqalovun komandanlığı ilə 2 minə yaxın silahlı dəstə Tiflis və Gəncə tərəfdən irəliləyərək, Hacıqa-

bul stansiyasını tutmuşdu. Lakin üstünlük təşkil edən Bakı soveti qoşunlarının hücumu nəticəsində Zakseym qoşunları Kürdəmir stansiyasına geri çəkilməyə məcbur oldu. Eyni zamanda şimaldan, Dağıstan tərəfdən, Bakı istiqamətində Nəcməddin Qotsinskinin qüvvələri hücuma keçmişdi, lakin onlar da bolşevik-daşnak qoşunları tərəfindən məğlub edildi.[37] Beləliklə azərbaycanlıların ümidi yalnız türk qoşunlarına qaldı və gələcək hadisələr bu seçimin düzgün olduğunu göstərdi.

Artıq türk-azərbaycan qoşunları Bakını ələ keçirəndən və Azərbaycan Xalq Cümhuriyyəti hökuməti öz paytaxtına köçəndən sonra yeni qurulmuş dövlətin ilk tədbirlərindən biri mart qırğınları hadisələrini araşdırmaq və günahkarları cəzalandırmaq olur. Hələ 1918-ci il avqustun 31-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin sədri F.X.Xoyski Gəncə şəhərində imzaladığı qərara əsasən, 7 nəfərdən ibarət Fövqəladə Təhqiqat Komissiyası (FTK) yaradıldı. Komissiyanın sədri Ələkbər bəy Xasməmmədov, üzvləri isə – Gəncə dairə məhkəməsinin üzvləri – İsmayıl bəy Şahmalıyev, Andrey Novatski, həmin dairə məhkəməsi prokurorunun müavini Nəsrəddin bəy Səfikürdski, Gəncə köçürmə idarəsindən Nikolay Mixaylov, həqiqi mülki müşavir V.V.Qubvillo və müəllim Mirzə Cavad Axundzadə təyin olunurlar.[38] FTK xarici işlər nazirliyi yanında təşkil edilməsinə baxmayaraq, o, artıq həmin ilin sentyabrından Ədliyyə Nazirliyi nəzdində fəaliyyət göstərməyə başlayır. Qısa bir müddət ərzində Fövqəladə Təhqiqat Komissiyası erməni quldur dəstələrinin qanlı əməllərinin təhqiqi sahəsində böyük işlər görmüşdür. FTK-nın materialları





3500 səhifədə çap olunmuş 36 cilddən ibarət idi, 128 məruzə hazırlanıb, 194 şəxsə qarşı cinayət işi qaldırılmışdı.[39] Zərər çəkmiş yüzlərlə vətəndaş və şahid dindirilmiş, çoxlu material, maddi dəlil – sübut, fotosənəd toplanmışdı. Bu sənədlər böyük əhəmiyyətə malik idilər, çünki onların nəticəsində bir sıra şəxsləri cinayət məsuliyyətinə cəlb etmək mümkün oldu. Məsələn, ən çox başkəsən quldur Stepan Lalayev (Lalayan) öz həyatını türmədə başa çatdırdı. Bir neçə gunahkara qarşı cinayət işi açılsa da, onların ölümü səbəbindən (S.Şaumyan və Korqanov) icra etmək mümkün olmadı. Ən başlıcası isə Azərbaycan nümayyəndə heyyətinin Versal Sülh konfransına qatıldığı zaman, onların əlində Fövqəladə Təhqiqat Komissiyasının topladığı 6 cildlik sənəd və 95 şəkildən ibarət olan materialları var idi.[40] Bununla da FTK-nın sənədləri xaricdə yayılmağa başladı və ermənilərin azərbaycanlılara qarşı başlanılan kampaniyasının heç bir əsası olmadığını nümayiş etdirdi.

Mart soyqırımı Azərbaycan xalqının yaddaşında qanlı facia kimi qalmasına baxmayaraq, sovet dövründə bolşeviklər bu dəhşətli qırğınları tarixin səhifələrindən silmək üçün var gücündən və imkanlarından istifadə edirdilər. Buna baxmayaraq, bu qalı səhifələri insanların yaddaşından silmək mümkün olmadı. SSRİ dağılandan və müstəqilliyimizi bərpa etdikdən sonra minlərlə arxiv sənədi üzə çıxdı, tarixin ağ ləkələri silinməyə başlandı və xalqımız öz tarixinə sahib oldu.

## İstifadə olunmuş ədəbiyyat

1. ARPİİSSA(Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi). F.14, iş 463, v.36
2. Yenə orada, F.276, Siy.8, İş 263, V.1
3. Дашнаки (Из материалов Департамента полиции). Баку, 1990, s.19
4. ARPİİSSA. F.276, Siy.8, İş 498, V.36
5. Bağırova İ.S. XX əsrin əvvəllərində Azərbaycanda siyasi partiyalar və təşkilatlar (rus. dilində). Bakı, 1997, S. 157
6. ARPİİSSA. F.276, Siy.8, İş 536, V.115
7. Малевил Ж. Армянская трагедия 1915 года.Баку. 1990, s.46
8. "Baku", 1916, 21 oktyabr
9. ARPİİSSA. F.276, Siy.8, İş 536, V.91
10. Yenə orada, V.8-9
11. ARPİİSSA. F.276, Siy.8, İş 463, V.23
12. IV Dövlət Duması. Protokollar, Sessiya V, S.84
13. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Xarici siyasət (sənədlər və materiallar). Bakı, 1998, S. 122.
14. Abışov V. Bakıda 1918-ci il mart soyqırımı. Bakı, 2015, s.20
15. Шаумян С.Г. . Статьи и речи. В. 2-х т. Т. 2, Москва: Госполитиздат, 1958, С. 117, 223.
16. ARPİİSSA, f. 268, siy.23, iş 265.
17. ARRİİSSA, f. 276, siy.9, iş 1, v.15.
18. Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı, "Elm",1998, s.67
19. ARDA (Azərbaycan Respublıkası Dövlət Arxivi). F.894, S.10, İş 98, V.8
20. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, Elm, 1990, S.45
21. Abışov V. Göstərilən əsər., 28
22. Pişəvəri M. C. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1984, S. 68
23. Azərbaycan Cümhuriyyəti (1918-1920), S. 70
24. RPİİSSA, f.1, siy. 85, iş 462, v.520
25. Azərbaycan Cümhuriyyəti (1918-1920), S. 71
26. "Azərbaycan" qəz., 1918, 29 noyabr
27. ARRİİSSA, f. 276, siy. 2, iş 155, v.15
28. Azərbaycan Cümhuriyyəti (1918-1920), S.73
29. Шаумян С. Избранные произведения. Изд.2, Баку, 1978, с.83
30. Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. 1917-1918-ci illər. Bakı: Azərnəşr, 1960, S. 334
31. Шаумян С. Избранные произведения, S.84
32. ARDA.F. 1061,S.1, iş 108, v.7
33. Yenə orada, iş 95, v.5-8
34. Azərbaycan doyesi. Ankara, 1980, S.82
35. Abışov V. Göstərilən əsər,43
36. ARDA, F.894, S.10, İş144, V.9
37. Azərbaycan Cümhuriyyəti (1918-1920), S.78
38. ARDA, f. 1061, siy. 1, iş 95, v.2
39. Рустамова-Тогиди С. Этого забыть нельзя// «Зеркало», 2008, 30 марта
40. Yenə orada

**Ələmdar Şahverdiyev**
***Tarix elmləri doktoru***

## BAKI NEFTİNİN ƏLƏ KEÇİRİLMƏSİ UĞRUNDA BEYNƏLXALQ MÜBARİZƏNİN GÜCLƏNMƏSİ VƏ BAKI ŞƏHƏRİNİN AZƏRBAYCANDAN QOPARILMASINA GÖSTƏRİLƏN CƏHDLƏR

*(1917-ci il oktyabr – 1918-ci il iyul)*

1917-ci il Oktyabr ayının 26-də bolşeviklər Rusiyada siyasi hakimiyyəti silah gücünə ələ keçirəndən sonra, uzun illərdən bəri rus demokratiyasına ümid edən qüvvələrin istəkləri iflasa uğradı. Digər tərəfdən, bu siyasi hadisə həm Antanta blokuna, həm də Dördlər blokuna daxil olan dövlətləri Rusiya ilə bağlı öz siyasətlərini dəyişmək məcburiyyətində qoydu. Oktyabr çevrilişi nəticəsində Rusiya ilə milli ucqarlar arasında, o cümlədən Cənubi Qafqazla əlaqə kəsildi.

Böyük dövlətlər yaranmış bu vəziyyətdən öz maraqları naminə bəhrələnməyə başladı. Ona görə də Azərbaycan, xüsusən Bakı nefti Böyük dövlətlərin rəqabət obyektinə çevrildi. Digər tərəfdən, antiazərbaycan qüvvələri, əsasən erməni hərbi-siyasi birlikləri «Böyük Ermənistan» xülyasını həyata keçirmək üçün Bakı şəhərini Azərbaycandan qoparmaq üçün bütün qüvvələrini səfərbər etdi.

Ərzincan barışığı ilə atəşgah elan olunandan dərhal sonra Qafqaz-rus cəbhəsindəki hərbi hissələr kortəbii şəkildə cəbhəni tərk etməyə başladı. Müharibədən cana doy-





muş rus əsgərləri evə can atırdılar. Belə olan halda Qafqaz ordusu qərargahının komissarı, Qafqaz ordusu diyar şurasının sədri, eser polkovnik D.Donskoyun layihəsi əsasında ordunun milli prinsip əsasında qurulmasına qərar verildi. Yəni Qafqazda erməni, gürcü və Azərbaycan korpusu yaradılmalı idi [8]. Bu layihəyə görə rus hərbi hissələri arxa cəbhədə yaradılan erməni və gürcü hərbi birləşmələri ilə əvəz edilməli idi.

1917-ci il dekabr ayının 19-da Transqafqaz Komissarlığı ordunun buraxılması haqqında qərar qəbul etdi. Bu layihə Qafqazda anarxiyaya, özbaşınalığa yol açdı. Rus əsgəri cəbhəni tərk edərkən silahı xristian həmrəyliyi olaraq gürcülərə, daha çox ermənilərə verib gedirdi.

Ən nəhayət, 16 dekabr 1917-ci il Qafqaz cəbhəsinin komandanı tərəfindən 136 saylı əmr imzalandı. Bu əmr bilavasitə Cənubi Qafqazda erməni ordusunun yaradılması üçün verildi və erməni korpusu yaradıldı. Korpusa 1-ci və 2-ci erməni piyada diviziyası, erməni könüllülər diviziyası (komandiri Andronik idi) erməni kavaler briqadası (komandiri Q.Korqanov idi), dörd ərazi polku və beş ərazi batalyonu və s. daxil oldu. Üç diviziyanın şəxsi heyəti 17 min idi. Erməni korpusunun komandiri çar ordusunun general-leytenantı F.İ.Nazarbekyan idi.

Erməni korpusu İran sərhədindən Bayburta qədər olan cəbhəyə nəzarət edirdi. Gürcü korpusu Bayburtdan Qara dəniz sahillərinə qədər olan ərazini qoruyurdu. Gürcü korpusunu komandiri çar ordusunun komandiri, general Qabaşvili idi [5].

Lyudendorf yazırdı ki, yalnız ermənilər türklərə qarşı vuruşurdu. Ona görə də onlar rus əsgəri cəbhəni tərk

edib gedəndən sonra türk ordusunun Bakı istiqamətində hərəkətini səkkiz ay ləngitdi [4].

Qafqaz cəbhəsinin komandanı tərəfindən 5, 11 və 18 fevral 1918-ci il əmri imzalandı. Arxa cəbhənin müdafiəsini də ermənilərə tapşırıldı. Bütün bunlar şərqi Anadoluda və cənubi Qafqazda dinc müsəlman-türk əhalisinin təhlükəsizliyi üçün ciddi təhlükə yaradırdı. Cəbhədə əsgər çatışmırdı. Ona görə də Rusiyanın iri şəhərlərində erməni komitələri yaradıldı. Məqsəd keçmiş çar ordusunun zabiti olmuş erməniləri, eləcə də könüllü olaraq erməni gənclərini səfərbər edib, Qafqaza, xüsusilə də Bakı şəhərinə göndərmək idi [5].

Sovet hakimiyyəti onlara dəmiryol xərclərini, hərbi geyimi və silahı təmənnasız verdi. Ona görə də könüllü erməni dəstələri Petroqrad, Moskva, Odessa, Xarkov, Rostov, xüsusən Voronejdən Qafqaza göndərilirdi. Bu dəstələrin çoxu 1917-ci ilin sonu, 1918-ci ilin əvvəllərində Tiflis və Yerevana deyil, daha çox Bakı şəhərinə cəmləndi.

Qafqazdakı rus hərbi cəbhəsinə eyni zamanda Cənubi Azərbaycan və İran kürdüstanındakı rus ekspedisiya korpusları da tabe edildi. 1917-ci ilin dekabrında bolşevik hökuməti rus ordusunun İrandan təxliyyə edilməsi haqqında əmr verdi. Şəxsi heyəti Kuban və Terek kazaklarından olan bu hərbi hissələr Qafqaz vasitəsilə Rusiyaya dönürdülər. Qafqazdakı rus hərbi cəbhəsinə qarşı Osmanlı Türkiyəsinin ikinci və üçüncü ordusundan ibarət olan Əhməd –İzzət paşanın komandanlığı altındakı Qafqaz Ordu qrupu dayanırdı. Üçüncü orduya Mehmet Vehib paşa, ikinci orduya isə Mustafa Kamal paşa komandalıq edirdi. 1917-ci ilin dekabrında Qafqazdakı türk ordu qrupunun tərkibində dəyişiklik edildi və ümumi komandanlıq Mehmet Vehib paşaya tapşırıldı. Qafqazdakı türk ordu qrupunun şəzsi heyəti 20 min nəfərə çatırdı. Türk Qafqaz cəbhəsi Qara dənizdən rus, türk və İran sərhədlərindən kəsişdiyi xəttə qədər uzanırdı.





1917-ci il Oktyabr çevrilişinə qədər Cənubi Azərbaycanda türk ordusu yox idi. Sadəcə olaraq ərazidəki kürd və fars nizami hərbi hissələrində, alman və türk təlimatçıları var idi. Rus ordusunun Cənubi Azərbaycandan təxriyyə edilməsi və regionda türk–alman ordusunun olmamasından ingilislər yararlanmaq istədi. İngilislərin məqsədi Bakı şəhərini ələ keçirib düşmənlərini yanacaq ehtiyatından məhrum etmək və Mərkəzi Asiyaya gedən yolu bağlamaq idi [3].

Artıq 27 yanvar 1918-ci il ingilislər general Denstervilin başçılığı altında Mesopotamiyadan (Bağdaddan) İran ərazisindən keçmək şərtilə kiçik bir ekspedisiya Bakı istiqamətinə göndərdi. Ekspedisiyaya 12 zabit, 41 əsgər və sürücü daxil idi. Eyni zamanda bir zirehli maşın daxil idi. Ekspedisiyanın hərəkət planında kəşfiyyat əsas yer tuturdu. Məqsəd İran vasitəsilə Tiflisə daxil olmaq, ingilis zabit-təlimatçılarının köməyi ilə türk ordusuna qarşı dəstələr yaratmaq və Bakı şəhərini ələ keçirməkdən ibarət idi. Cənubi Azərbaycanın şimali-qərb hissəsində türklərin himayəsi altında olan kürd və azərbaycanlılardan ibarət dəstələr ingilisləri Culfadan keçməklə Tiflisə getməsinə imkan vermədilər. Ona görə də onlar qərara aldılar ki, Ənzəli vasitəsilə Bakıya doğru hərəkət etsinlər. 1918-ci ilin martından ingilislər əlavə hərbi qüvvələr göndərildi. Hətta hərbi təyyarə və digər hərbi texnika ilə ekspedisiyanın heyəti gücləndi-

rildi. İngilislər bundan istifadə edib Cənubi Azərbaycan şəhərlərini işğal etməyə başladılar. Zəncan, Müyanə, Xoy və Urmiyanı ələ keçirdilər [11]. İngilislər işğal etdikləri şəhərlərdə jandarmiya və hərbi hissələr yaratmağa başladılar, hətta ingilis zabitlərindən və «ələ alınmış» yerli əhalidən bir ingilis idarə qurumu yaratdılar.

1918-ci il mart ayının 23-də rus ordusunun Cənubi Azərbaycandan çıxarılması başa çatdı. Yalnız Həmədanda general N.N.Baratovun və kazak hərbi birləşməsinin bir hissəsi qaldı. Kuban və Terek kazaklarından təşkil edilmiş bir dəstəyə podpolkovnik Lazar Biçeraxov rəhbərlik edirdi. Bu dəstəni partizan kazakların bolşevik dəstəsi adlandırmaq olardı. Dəstənin içərisində antibolşevik əhval-ruhiyyəli zabitlər də var idi. Ona görə də ingilislər bu dəstənin daxilindəki ziddiyyətdən öz xeyirlərinə istifadə etmək qərarına gəldilər.

General Denstervil tez bir zamanda həm general Baratovu, həm də podpolkovnik L.Biçeraxovu ələ ala bildi. 1918-ci il mart ayının 15-də Denstervil ilə L.Biçeraxov arasında gizli bir razılaşma imzalandı. L.Biçeraxov ingilis komandanlığına tabe olmaq razılığını verdi. Əvəzində ingilislərdən hərbi və maliyyə yardımı aldı. Bu razılaşmaya görə ingilislər L.Biçeraxovun dəstəsinə hər bir süvari atlı üçün bir günə (köhnə ingilis pulu ilə 21 şillenq dəyərində olan) 1 kineya ödəyirdi. Denstervil planına uyğun olaraq L.Biçeraxov şimala doğru hərəkət etməyə başladı. 1918-ci ilin mart ayının 29-də qəzvinə çatdı. İngilislər general DensterVilin ekspedisiyası ilə paralel olaraq, Türkiyə ilə mübarizəni gücləndirmək üçün İrana əlavə hərbi kontingent gön-





dərdi. Bunu İngiltərə hökuməti 25 mart 1918-ci il tarixdə İran hökumətinə göndərdiyi notada bəyan etdi [3].

Şah hökuməti öz etiraz notasında cavab olaraq ingilislərin bu hərəkətini İranın müstəqilliyi üçün təhlükə kimi görərək, hərbi müdaxilə qiyməti verdi. Ancaq ingilislər İran tərəfini inandırmağa çalışdı ki, bu, onların düşündüyü kimi deyil və söz verdilər ki, türkləri regiondan çıxardıqdan sonra İran ərazisini tərk edəcəklər. Eyni zamanda İranın bu «mərhəməti» qarşılıqlı olaraq ingilis hökuməti tərəfindən mükafatlandırılacaqdır.

Türkiyə İngiltərə və bolşevik Rusiyasının Qafqaz regionunda həyata keçirdiyi hərbi və diplomatik tədbirləri nəzərə alaraq özünün bu regiondakı siyasətində dəyişiklik etmək qərarına gəldi. Qafqazdakı türk Ordu komandanlığı Bakıda yaradılan bolşevik-erməni hökumətinin antimüsəlman və antitürk siyasətinin qarşısını almaq məqsədilə 1918-ci ilin yanvar ayının sonunda xüsusi tədbirlər planı hazırlamaq qərarına gəldi. Türk ordusunun qarşısında duran strateji məqsəd Trabzon-Batum və Ərzurum-Aleksandropol (Gümrü) xəttini nəzarətə götürərək Bakı istiqamətində hərəkəti asanlaşdırmaq idi. Eyni zamanda Van-Bəyazit xəttini nəzarətə götürdü, Cənubi Azərbaycanda möhkəmlənmək idi. Qafqaz cəbhəsi Qara dənizdən – Van gölünə qədər olan cəbhə xəttini təşkil edirdi. Bura IV, I, VI ordu korpusunun daxil olduğu İkinci və Üçüncü ordu nəzarət edirdi. Bu cəbhəyə əlavə olaraq beş diviziya cəlb olunmuşdu.

Qafqaz cəbhəsində vəziyyət olduqca ağır idi. Erməni hərbi dəstələri dinc müsəlman- türk əhalisinə qarşı amansız qətllər törədirdi. Vəziyyətin ağırlığını nəzərə alaraq,

Qafqaz cəbhəsinin komandanı general-leytenant Mehmet Vehib Paşa orduya Brest-Litovsk sülhünə görə müəyyən olunmuş demarkasiya xəttini keçmək əmri verdi.

1918-ci il fevral ayının 12-də türk ordusu erməni vəhşiliklərinin qarşısını almaq üçün hərbi əməliyyatlara başladı. Ona görə də Ənvər Paşa 1918-ci il fevralın 12-də Deputatlar Palatasında çıxış edərək türk ordusunun Qafqaz cəbhəsində hərbi əməliyyatları başlamasının səbəbini açıqladı. Türkiyənin bu addımı yaxın müttəfiqi olan Almaniyanın etirazına səbəb oldu. Almaniya türk ordusunun Qafqaza daxil olmasını istəmirdi. Bunun bir neçə səbəbi var idi. Birincisi, Almaniya özü Qafqaza sahib olmaq istəyirdi. Xüsusən Bakı neftinə sahib çıxmaq istəyirdi. İkincisi, Almaniya Qafqazın təbii–coğrafi şəraitindən istifadə edərək Asiyaya nəzarət etmək imkanı əldə etmək istəyirdi. Nəhayət, üçüncüsü, Almaniya Sovet Rusiyasına qarşı müharibə aparmaq üçün Qafqazdakı bütün qüvvələri birləşdirmək istəyirdi. 1918-ci il mart ayının 2-də türk ordusu Ərzuruma çatdı. Ərzurum erməni-daşnak qüvvəsinin ən çox toplandığı ərazi idi. Ərzurumda 20 minlik rus-erməni hərbçisi var idi. Ərzurumun müdafiəsinə çar ordusunun zabiti Tverdoxlobov və qatı antitürk xislətli general Andronik rəhbərlik edirdi. 1918-ci il mart ayının 12-də türk ordusu Ərzurumu ələ keçirdi. Erməni-daşnak qüvvələri Ərzurumun qisasını almaq üçün Azərbayan ərazisində kürd-müsəlman əhalisinə qarşı zorakılığı gücləndirdi. Ərzurum məsələsi 1918-ci il Bakıda və Azərbaycanın digər ərazisindəki ermənilərin törətdiyi soyqırımın ilk səbəblərindən biridir. Bunu S.Şaumyanın erməni xalqına etdiyi müraciət təsdiq edir. O, müraciətində Ərzurumu təslim etməkdə daşnakları günahlandırır və bunu erməni xalqının dəfni kimi qiymətləndirirdi. Ona görə də o, bütün erməniləri türk işğalçılarına, ağa və bəylərə qarşı mübarizədə birləşməyə çağırırdı [4].





Ərzurumda ağır məğlubiyyətə uğrayan Andranik antitürk fəaliyyətini Azərbaycana keçirdi. Qüvvəsinin qalan hissəsini Zəngəzura və Dağlıq Qarabağa yönəltdi. Ərzurumun alınmasına türklərlə yanaşı kürdlər və acarlar da mühüm rol oynadı. Korqanovun fikrincə, 7 mindən çox kürd silahlısı bu əməliyyatda iştirak edirdi [5].

1918-ci il Ənvər Paşa Dövlət Şurasının sədri və ədliyyə naziri Xəlil bəylə birlikdə Bakının azad edilməsi planını müzakirə etdi. Sonra o planı Baş Vəzir Tələb Paşaya təqdim etdi. Planın hərbi tərəfini hazırlamağı ögey qardaşı Nuru paşaya və əmisi Xəlil Paşaya tapşırdı. Plana görə Nuru Paşa Cənubi Azərbaycan vasitəsilə Şimali Azərbaycana keçməli, orada türk hərbi əsirləri Azərbaycan mili ordusundan birləşmiş hərbi kontingent yaratmalı idi. Bu hərbi kontingentin adı Qafqaz İslam Ordusu adlanırdı. Ordunun komandanı Nuru Paşa idi. Paralel olaraq nizami türk ordusu da Gürcüstan ərazisindən keçərək Azərbaycana daxil olmalı və Qafqaz İslam Ordusu ilə birləşməli idi. 1918-ci il martın 22-də Nuru paşa bir neçə zabitin müşayiəti ilə İstanbuldan Mosula yola düşdü. Aprel ayının 12-də ora çatdı. Bakı şəhərində və Azərbaycanın digər qəzalarında BXKS qüvvələri adı altında daşnak-bolşevik silahlıları tərəfindən 1918-ci il mart ayının 30-dan aprelin 1-ə kimi Azərbaycanın dinc müsəlman-türk əhalisinə qarşı soyqırım həyata keçirdiyi üçün, Nuru paşanı Bakının azad olunması planı-

nın icrası bir qədər ləngidi. 1918-ci il aprel ayının sonunda türkiyə digər cəbhələrin hesabına Qafqaz cəbhəsindəki ordunun sayını artırdı. Türkiyə ordusunun 45 diviziyasından 10 diviziya Qafqaz cəbhəsində idi. VI və I Ordu korpusunun hərbi birləşmələri hesabına Qars ordu qrupu yaradıldı. Komandanı Yaqub Şövqü paşa idi. Qars ordu qrupunun qarşısında qoyulan döyüş tapşırığı, birinci, şərqi Ermənistanı ələ keçirmək və Tiflisə doğru irəliləməklə Tiflis-Bakı dəmiryolunu nəzarətə götürməkdən ibarət idi [6].

1918-ci il may ayının 8-də I ordu korpusunun komandiri general Kazım Qarabekir paşa Aleksandropol (Gümrü) istiqamətində hərəkət etmək əmri aldı. Məqsəd Aleksandropol- Culfa dəmiryolun nəzarətə götürmək idi. 1918-ci il may ayının 10-da türk ordusu Arpa çayını keçərək həm şimaldan, həm də cənubdan Aleksandropola yaxınlaşdı. Həmin vaxt Batumidə ZFDK və türk nümayəndələri arasında sülh danışıqları başlamışdı. Batumda olan Transkafkaz sülh nümayəndə heyətinin erməni üzvləri türk ordusunun Aleksandropolu tutmasından narahat olduqlarını bildirdilər və türk nümayəndə heyəti ilə görüşmək təklifini verdilər. Batumda Xəlil bəylə daşnaklar arasında görüş keçirildi. Xəlil bəy görüşdə bəyan etdi ki, türk ordusunun Aleksandropolu ələ keçirməsi müvəqqəti xarakter daşıyır. Məqsəd İran və Cənubi Azərbaycan ərazisi ilə ingilislərin Bakı istiqamətində irəliləməsini dayandırmaqdır. Bu məqsədlə Gümrü-Culfa-Təbriz dəmiryol xətti nəzarətə götürülməli idi. S.Şaumyan həyəcanla Moskvaya bildirdi ki, Culfadan Araz boyunca və Muğan düzü vasitəsilə Bakıya rahat yol var. Tezliklə türklər Bakıya doğru hərəkət edə-





cək. Bolşevik-daşnak bloku Aleksandropolda türklərə qarşı hərbi qruplar təşkil edirdilər ki, onların Bakı istiqamətində hərəkətinin qarşısını alsınlar.1918-ci il may ayının 15-də türk ordusu Aleksandropolu aldı. May ayının 16-da türk ordu komandanlığı erməni mili korpusunun komandanı general-leytenant Nazarbekyana bir saat ərzində Aleksandropol- Uluxanlı –Culfa dəmiryolu xəttini boşaltmağı tələb etdi. Aleksandropolun ələ keçirilməsindən sonra türk ordusu Şərqi Ermənistana, daha dəqiq desək. İrevan quberniyasına daxil olaraq üç istiqamətdə hərəkət etdi.

Birincisi, Aleksandropoldan Tiflis şossesi ilə Kalininodan keçərək Tiflisə doğru hərəkət etdi. Məqsəd Tiflis vasitəsilə Bakıya doğru hərəkət etmək idi;

İkincisi, Aleksandropoldan Karakilsə (indiki Kirovakan) doğru hərəkət idi. Buradan türk ordusunun bir hissəsi dəmiryol vasitəsilə Sanani –Tiflis dəmiryolu ilə Tiflisə doğru hərəkət edirdi. Ordunun bir hissəsi isə Karakitis – Dilican-Qazax–Ağstafa yolu ilə Gəncə istiqamətində hərəkət edərək Bakıya doğru hərəkət etməli;

Üçüncüsü, Aleksandropoldan İrəvan-Culfa istiqaməti idi. Bu istiqamətdə turk ordusu İrəvan quberniyasının cənub qəzalarını, oradan isə Cənubi Azərbaycanı ələ keçirib Bakıya doğru hərəkət etmək istəyirdi. Culfadan Gorus-Şuşa yolu ilə Bakıya doğru hərəkət etmək əlverişli idi.

Vəziyyətdən duyuq düşən hiyləgər S.Şaumyan 1918-ci il may ayının 20-də RSFSR XKS-ə vurduğu teleqramda hay-həşir salırdı və qorxaqcasına bəyan edirdi ki, əldə olunan məlumatlar onu deməyə əsas verir ki, bildirim ki, türk ordusu sürətlə Bakıya doğru irəliləyir. Ona görə də bizə təcili kömək lazımdır [1].

1918-ci il mart ayının 12-də türk ordusu Ərzurumu tutdu. Ərzurum rus ordusunun köməyi nəticəsində ermənilərin nəzarətində idi. 1918-ci il mart ayının 14-də Trabzonda sülh danışıqları başlayanda artıq türk ordusu 1914-cü ilə qədər mövcud olmuş rus-türk sərhədlərinə gəlib çatdı.

1918-ci il may ayının 10-da türk ordusu Arpa çayından keçərək Aleksandropol istiqamətində hərəkət etməyə başladı. May ayının 11-də Batumda öz işini dayandırmış Transqafqaz-türk sülh danışıqları bərpa edildi. 1918-ci il may ayının 26-na kimi artıq türk ordusu Ordubad istisna olmaqla Naxçıvan qəzasını, Şərur-Dərələyəz qəzasının yarısını, İrəvan qəzasınının yarısını, Eçmiədzin (Qarhun-Ə.S.) qəzasını ələ keçirdi. Həmin gün Transqafqaz Seyminin dağılması ilə yada qaldı. Transqafqaz federasiyasını yaratmaq ideyası puça çıxdı. Cənubi Qafqazda müstəqil dövlətlər yarandı. Batum sülh konfransı öz işini dayandırsa da, müstəqil Azərbaycan, Gürcüstan və Ermənistan dövlətləri ayrılıqda Türkiyə tərəfi ilə ikitərəfli sülh danışıqları aparmağa başladı. 1918-ci il iyulun 1-də Türkiyə ilə Ermənistan arasında centlemen razılaşma oldu. Erməni tərəfi Sürməli, Şərur-Dərələyəz qəzalarının, həmçinin İrəvan və Eçmiədzin qəzalarının bir hissəsini türklərə verməsinə razılıq verdi. İyulun 4-də türk ordusu Naxçıvanı ələ keçirdi. Türk ordusu Naxçvandan Culfa istiqamətidə hərəkət etməyə başladı. Türk ordusu Culfada Bakı və Təbriz istiqamətində hərəkət etmək məqsədilə hazırlıq işlərini həyata keçirərək hərbi qərargah yaratdı. Türk ordusunun bu uğurları Naxçıvanın, Zəngəzur və Qarabağın müsəlman-türk əhalisinin sevincinə səbəb oldu. Çünki Azərbaycanın bu regionlarda





erməni silahlı dəstələri xarici himayədarlarının dəstəyi ilə dinc müsəlman-türk əhalisinə qarşı kütləvi soyqırım həyata keçirirdi. Daşnak hökuməti Fransanın dəstəyinə daha çox arxalanırdı. Fransanın Qafqazdakı missiyasının rəhbəri kapitan Puadeber İrəvanda idi. Və Ermənistan hökumətinə hər cür yardımın göstəriləcəyinə söz vermişdi. Azərbaycanın dinc əhalisinə qarşı hərbi zorakılıq və vandalizm bilavasitə Andronikin dəstəsi tərəfindən həyata keçirilirdi. Çox təəssüf ki, Andronikin bu vəhşiliyinə beynəlxalq ictimaiyyət tərəfindən nəinki göz yumulurdu. Hətta onun əməlləri «erməni xalqının azadlığı uğrunda aparılan mübarizəsi» kimi qiymətləndirilirdi. Andronik silahlı dəstə toplayaraq, may ayının əvvəllərində Dilicandan Yeni-Bəyaril və Naxçıvan istiqamətində hərəkət etməyə başladı. Azərbaycan Milli ordusu onun çirkin əməllərinin qarşısını ala bildi. Naxçıvanda olan türk hərbi hissəsinin köməyi ilə Andranik oradan çıxarıldı. Ondan sonra Andronik 1918-ci il iyul ayında Şaumyanın vasitəsilə sovet hakimiyyəti platformasına keçdiyini bəyan edərək, öz çirkin əməllərini Dağlıq Qarabağ və Zəngəzur qəzalarında həyata keçirməyə başladı. Hansı ki, Birinci Dünya müharibəsi illərində dinc əhaliyə qarşı öz vəhşi əməllərini həyata keçirdi. Türkiyə tərəfi Birinci Dünya müharibəsində iştirak edən dəstələrin Bakı nefti uğrunda apardığı müharibəni görərək, həm Bakı, həm də Cənubi Azərbaycan məsələsində qətiyyətli addım atmaq məcburiyyətində idi. Çünki yenicə yaranmış müstəqil Azərbaycan dövlətinin nə hərbi gücü, nə maliyyə imkanı, nə də ki, beynəlxalq dəstəyi yox idi ki, Azərbaycan üçün taleyüklü bu məsələləri həll etsin. Cənubi Azərbaycan Birinci

Dünya müharibəsində iştirak edən dövlətlərin Bakıya daxil olması üçün alternativ yol idi.

Cənubi Azərbaycanda əməliyyatı Türkiyənin Qafqazdakı cəbhəsinin sağ cinahını bağlayan IV Ordu korpusu həyata keçirirdi. Bu orduya 1918-ci il iyulun 30-na kimi general Əli İhsan paşa komandanlıq etmişdir. Korpusa iki diviziya daxil idi. 5-ci piyada diviziya komandiri Mustafa İzzət bəy və 12-ci piyada diviziyası komandiri Əli Rüfət bəy idi. IV Ordu korpusuna VI Ordu korpusu Mesopotamiya tərəfdən dəstək verirdi. Cənubi Azərbaycan cəbhəsində hərbi əməliyyatlar, Qafqaz cəbhəsi ilə müqayisədə ləng aparılırdı. 1918-ci il fevralın ortalarında türk ordusu Trabzon-Batum və Ərzurum-Aleksandropol istiqamətində hərəkətə keçəndə IV Ordu tapşırıq aldı ki, Rusiyanın qafqazdakı cəbhəsinin buraxıldığı son cinahı yararaq, Van-Bəyazit rayonuna çıxsın və rus-türk sərhədlərinə yaxınlaşıb Gilanı ələ keçirib, oradan Ənzəliyə, sonra isə Bakı istiqamətində hərəkət etsin.

1918-ci il martın 3-də imzalanmış Brest-Litovski sülh müqaviləsinin VII maddəsinə görə həm Sovet Rusiyası, həm də Türkiyə öz ordusunu İran ərazisindən çıxartmalı idi. Bu maddə Rusiyaya sərf edirdi. Çünki Qafqazdakı rus cəbhəsi dağılmışdı. Rusiyanın cənub sərhədləri Şimali Qafqaza qədər kiçilmişdi. Ölkənin daxilində Vətəndaş müharibəsi gedirdi. Ona görə də Rusiyanın Cənubi Azərbaycanda ordu saxlaması qeyri-mümkün idi. Bu şərait əksinə, türkiyə tərəfində daha çox sərf etdi. Cənubi Azərbaycan Türkiyə üçün Şimali Azərbaycanın cənub sərhədlərinə çıxmaq məqsədi ilə lazım idi. Tezliklə VI Ordu Lahicanı tut-





du. Təbrizə daxil oldu. 1918-ci ilin birinci yarısında Cənubi Azərbaycan məsələsi ciddi xarakter aldı. Bir tərəfdən ingilislər, bir tərəfdən antibolşevik rus qüvvələri öz gücünü burada toplayıb Bakı istiqamətində hərəkət etmək istəyirdi. Ona görə də Türkiyə bunu nəzərə alıb Cənubi Azərbaycan istiqamətində fəaliyyət aparırdı. 1918-ci il iyun ayının 2-də Mehmet Vehib paşa Nuru paşaya məktub yazaraq tələb etdik i, cənubi Azərbaycanda hərbi əməliyyatları gücləndirmək lazımdır.

Bu məqsədlə Qafqaz cəbhəsində ordunun bir hisəsi Culfa vasitəsilə Cənubi Azərbaycana göndərildi. Türkiyə planına görə 1918-ci il iyun ayının əvvəllərində VI Ordu Xoy, Urmiya, Sərab və Ərdəbili ələ keçirdi. 1918-ci il iyunun 14-də IV Ordu korpusunun 2000-lik dəstəsi Təbrizi ələ keçirdi. IV Ordu korpusunun qərargahı Təbrizdə yerləşirdi. General Əli İhsan Paşa komandanlıq edirdi.

Birincisi, cənubi Azərbaycan Türkiyə üçün Bakı istiqamətində ordunun hərəkəti üçün əlverişli idi; ikincisi, türk ordusu Mesopotamiyadakı ingilis ordusu ilə Gilandakı general Denstervilin rəhbərlik etdiyi ingilis ekspedisiyası arasındakı əlaqəni qurmaq imkanı əldə edirdi; və nəhayət, türk ordusu Mesopotamiyada ingilis ordusunun hərəkətinin qarşısını alırdı.

Mehmed Fuad Keprülüzadə «Tərcüməni-həqiqət» qəzetində yazırdı: Türkiyənin Cənubi Azərbaycana gəlişi bu regionu güclü türk mədəni mərkəzinə çevirmək niyyətindən irəli gəlirdi [7]. Türkiyənin hər Cənubi Azərbaycanda, həm də Bakıda güclü mövqe tutması, müttəfiqi Almaniyanı da narahat edirdi. Almaniya türk ordusunun Qafqaz cəbhə-

sindəki hərbi əməliyyatlarını məhdudlaşdırmaq, Bakı istiqamətində hərəkətini dayandırmaq üçün Gürcüstandan vasitə kimi istifadə etmək qərarına gəldi. Ona görə də Almaniya Gürcüstan hökuməti ilə 1918-ci il may ayının 28-də Potidə bir razılaşma imzaladı. Almaniya tərəfin bunu Brest-Litovski müqaviləsindən irəli gələn bir sənəd kimi şərh etməyə çalışırdı. 5 maddədən ibarət olan bu razılaşma Gürcüstan iqtisadiyyatı və dəmiryolunun almanların tam nəzarətinə keçməsi demək idi. Almaniya Gürcüstanda hərbi, siyasi və iqtisadi mövqeyini daha da möhkəmlətmək üçün 1918-ci il iyul ayının 12-də bilavasitə iqtisadi məsələlərə həsr olunmuş yeni bir müqaviləni imzaladı. Bütün bunlar türk ordusunun Gürcüstan ərazisindən keçərək Bakı istiqamətində hərəkətinin qarşısının almağa hesablanmışdı. Almaniyanın bu planını iqtisadi tərəfi Averella Harriman tərəfindən hazırlandığı üçün, buna bəzən Averella Harriman planı da deyirlər [12].

Gürcü hökumətinin Almaniyaya üstünlük verməsi və Almaniyanın himayədarlığını qəbul etməsi Osmanlı türk hökumətində narazılıq yaratdı. 1918-ci il may ayında Batumidə olan Ənvər paşa jurnalistlərin suallarını cavablandırarkən bu məsələyə müsbət münasibət bildirməmişdi. Çünki o, yaxşı bilirdi ki. Gürcüstan ərazisi ilə Bakı istiqamətində hərəkət edən türk ordusu Poti razılaşmasının şərtinə uyğun olaraq Gürcüstan dəmiryoluna, o cümlədən bütün nəqliyyat sisteminə nəzarət edən alman ordusunun maneələri ilə qarşılaşacaqdır. Ona görə də 1918-ci il 2 iyun tarixdə VI və I Ordu birləşmələrinin cəmləşdiyi ordu qrupunun komandiri Yaqub Şövqü paşa Ümumi komandan-





lıqdan aldığı təlimata uyğun olaraq əmr imzaladı: Birinci, «ordunun hərəkət etdiyi ərazilərdə qarşılaşdığı alman hərbçiləri ilə maksimum dərəcədə nəzakətlə davranmaq; ikinci, onları ürk ordusunun hərəkət etməsinə mane olmamağa inandırmaq; üçüncü, imtina edəcəkləri təqdirdə tərksilah edib Qarsa göndərmək; ən nəhayət, əgər onlar hərbi qarşıdurmaya gedərsə və silah işlədərlərsə uyğun hərəkət etmək»[9] .

Bəzi hallarda türk və alman hərbi hissələri arasında qarşıdurma yaşanırdı. Odur ki, alman tərəfi, türkləri hər cür yardımları dayandıracaqları ilə hədələyirdilər. Maraqlı cəhət odur ki, Türkiyə ilə Gürcüstan arasında hərbi əməkdaşlıq haqqında Batum müqaviləsi imzalanmışdı. Bəzi hallarda alman tərəfinin təhriki ilə gürcü hərbçiləri də türk ordusuna qarşı silah işlədirdi. 1918-ci il iyunun 14-də gürcü hərbi hissələri Sadaxlı kəndində Gəncə istiqamətində hərəkət edən türk hərbi eşolonuna hücum edərək 358 furqon, hərbi sursat və ərzaq ehtiyatını, 300 atı ələ keçirib, o cümlədən 300 türk əsgər və zabitini əsir götürdü [10].

«Bakı məsələsində» Almaniya Türkiyə ilə aralarında müharibə vəziyyətinin yaranmasını istəmirdi. Ona görə də 1918-ci il iyunun 17-də fon Kress fon Kressenşteyni Gürcüstana gələrkən yolüstü İstanbulda dayandı. O, Türkiyə Baş Komandanlığı ilə danışıq apardı. Məqsədi Türk ordusunun Bakı istiqamətində hərəkətini dayandırmaq idi. O, iyun ayının 29-da Batumidə Türk ordu komandanı Mehmet Vehib paşa ilə görüşdü. Fon Sekta da paralel olaraq İstanbulda danışıq aparırdı. Ancaq Türkiyə Almaniya tərəfinin bütün cəhdlərinə baxmayaraq, Bakı istiqamətində hərbi əməliy-

yatların aparılmasında israrlı idi. 1918-ci il may ayından başlayaraq türk hökuməti bu məqsədlə öz hazırlıqlarını davam etdirirdi. Təbriz, Culfa, Gəncə və Batumda ordunun yerləşdirilməsi ilə bağlı gərgin iş aparırdı.

Bakıda isə «erməni-sovet» hökuməti böyük təşviş içində idi. BXKS-nin hərbi-dəniz işləri üzrə komissarı Q.Korqanov S.Şaumyana verdiyi raportda çox ciddi düşmənlə üzləşəcəklərini xəbərdarlıq edirdi [7]. Odur ki, 1918-ci il may ayının 24-də S.Şaumyan Leninə vurduğu teleqramda təcili əlavə hərbi yardımın göstərilməsini istəyirdi. Artıq Nuru Paşanın komandanlığı altında Bakı şəhərinin azad olunması üçün ciddi hazırlıq gedirdi.

1918-ci il may ayının 4-də Nuru Paşa Mosuldan Təbrizə gəldi. Oradan isə bir qrup zabitlə Uluxanlı-Qazax istiqamətində hərəkət edən nizami türk ordusunun qərargahına yola düşdü. Burada Qazax-Ağstafa vasitəsilə Gəncə şəhərinə doğru irəliləyən 5-ci türk Qafqaz diviziyasının komandanı vəzifəsini qəbul etdi.

1918-ci il may ayının 25-də 5-ci türk diviziyasının ön hissələri Gəncəyə daxil oldu. Nuru Paşan Gənəyə may ayının 27-də gəldi və o, dərhal Qafqaz Müsəlman Ordusunun formalaşdırılması işinə başladı.

Artıq S.Şaumyan öz mənfur planını, yəni Bakı şəhərinin Azərbaycandan qoparılması istəyinin iflasa uğradığını dərk edirdi. Çünki, bolşeviklərə sığınan erməni-daşnak ünsürləri Şimali Qafqazda müstəqil Dağlı respublikası yaranandan sonra Sovet Rusiyası ilə əlaqə yarada bilmədikləri üçün çətin vəziyyətə düşdü. Onda erməni hərbi-siyasi birlikləri S.Şaumyan başda olmaqla ingilislərin və amerikanların timsalında özlərinə yeni «əmi», «dayı» axtarışına çıxdı.





## İstifadə olunmuş ədəbiyyat

1. Денстервиль. Британский империализм в Баку и Персии. 1917-1918. (Воспоминания, Тифлис, 1925, с.122)

2. Документы из истории борьбы за Советскую власть в Азербайджане в 1917-1918гг. «Тр. Азербайджанского филиала ИМЕЛ» XII, Баку, 1948, с.185

3. Иванов М.Н. Национально освободительное движение в Иране. ИВЛ. Москва, 1961, с.36-37

4. Карапетян С.Х.. Коммунистическая партия в борьбе за победу октябрьская революций в Армении. Ереван, 1959, с.113

5. Korganoff G. General. La parficipation des Armenians a la guerre mondiale sur le front Caucase(1914-1918), Paris. 1927, p.101

6. Larcher. M. Commandant. La guerre turque dans la guerre mondiale. Paris, 1926. P.592-593

7. Лудшувейт Е.Ф. Турция в годы первой мировой войны. М. 1966, с.197

8. Ратгаузер Я. Революция и гражданская война в Баку, т.1, Баку, 1927, с.124

9. Rüştü. Büyük harpte Baku yollarında 5. Kafkaz Piyade Firkası. Askeri mecmuanın tarih kismi. İstanbul, 1934, №34, s.8-9

10. Süleyman İzzet. Böyük harbte 15. Piyade tümeninin Azerbaycan ve Şimali Kafkazyadakı harakatı ve müharibeleri. «Askeri mecmuanın tarih kismi». İstanbul, 1936, №44, s.7

11. Тагиева Ш.А. Национально освободительное движение в Азербайджане. 1917-1920. Баку, 1956, с.58
12. Хачапуридзе. Г.В. Борьба грузинского народа за установление советской власти. Госполитиздат. М., 1956, с.121





**Nərgiz Quliyeva**
*Tarix elmləri doktoru, professor*

## 1918-Cİ İLDƏ BAKIDA ERMƏNİ XƏYANƏTİNİN NƏTİCƏSİ OLAN MART FACİƏSİ

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 26 mart 1998-ci il tarixli sərəncamı ilə hər il mart ayının 31-i azərbaycanlıların soyqırımı günü kimi dövlət səviyyəsində qeyd olunur. Məlumdur ki, dənizdən-dənizə Böyük Ermənistan xülyası ilə yaşayan mənfur erməni daşnaklarının soyqırımından əzab çəkənlər türklər və azərbaycanlılar olmuşdur.

1918-ci il mart qətillərindən bir həftə əvvəl «Daşnaksütyun» partiyası Bakıdakı vəziyyətdən guya «narahat» olaraq hakimiyyəti ələ almağın zəruriliyini bildirmişdi. Qafqazda xristian əhalinin silahlanmasına Antanta ölkələri də ciddi maraq göstərirdilər. Çünki ingilislər Mesopotamiyadan Qafqaza gələnə qədər burada Türkiyə ordusunun irəliləməsini dayandırmaq məqsədinə nail olmaq üçün yerli xristianlara böyük ümid bəsləyirdilər. Rus imperiyası dağıldıqdan sonra erməni siyasətçiləri ingilispərəst təbliğat aparır və onlardan müəyyən dəstək alırdılar... Lakin Antanta qüvvələri nə qədər ki, uzaqda idi, ermənilər öz məqsədlərinə bolşeviklərin əli ilə nail olmaq istəyirdilər (Azərbaycan tarixi, V cild. Bakı, Elm, 2001, səh. 298-299). Həmin dövrdə Azərbaycanda milli hərəkatın genişlənməsi,

milli azadlıq carçısı olan «Müsavat»ın nüfuzunun artması «Böyük Ermənistan» xülyası ilə yaşayan daşnakları ciddi narahat edirdi. Daşnaklar mart qırğını törətməklə «Müsavat»ın sosial bazasını, şəhərin müsəlman əhalisini məhv etməyi planlaşdırmışdılar. Bu məqsədlə təxminən 5 min erməni əsgəri müxtəlif cəbhələrdən Bakıya gətirilmişdi. Beləliklə, «Qırmızı qvardiya» adı ilə yaradılan 10-12 minlik ordunun da 70 faizi erməni idi. Əsasən ruslardan ibarət olan Xəzər donanması içərisində xüsusi təbliğat işi aparılmışdı (Azərbaycan tarixi, V cild. Bakı, Elm, 2001, səh. 299).

Cinayəti həyata keçirmək üçün bəhanə lazım idi. Bu məqsədlə «Evelina» münaqişəsi törədildi. Belə ki, Azərbaycan milyonçusu Hacı Zeynalabdin Tağıyevin Lənkəranda xidmət edən və silahla ehtiyatsız davrandığına görə həlak olmuş oğlu Məhəmməd Tağıyevin dəfnində iştirak etmək üçün «Evelina» gəmisi ilə Lənkərandan Bakıya gəlmiş zabitlərə böhtan atılması və əvvəlcədən sövdələşmə əsasında bolşevik-erməni koalisiyası, S.Şaumyanın dediyi kimi həlledici döyüşlərə hər cür hazırlığın görülməsi və dərhal bütün cəbhə boyu hücumun başlanılması, martın 30-da axşam saat 5-də Bakıda ilk atəşin açılması təşkil edildi. Aldatma siyasəti yeridib özlərinin birtərəfliyini elan etmiş «Daşnaksüytun» və Erməni Milli Şurası bu ilk atəşlərdən sonra Bakı sovetini müdafiə etdilər. M.Ə.Rəsulzadə bu barədə yazmışdır: «Milli türk təşkilatının əzmkar müdaxiləsi ilə hadisə az bir zərərlə yatırılmaq üzrə ikən sayğısız bir tağım cahilin qərəzli fitnəkarlara alət olması ilə fitnə təkrar olunmuş, zatən günlərdən bəri qətllərə hazırlanmış bulunan bolşevik-erməni qüvvəsi - müsəlləhəsi hərbi bir vəziyyət alaraq şəhərin müsəlman





məhəlləsini bombardman etməyə başlamışdılar. Tarixə qanlı faciə kimi daxil olan mart qətlləri üç gün davam etdi (Azərbaycan tarixi, V cild. Bakı, Elm, 2001, səh. 300).

Bir çox müsəlman məhəllələri məhv edildikdən sonra, martın 31-də axşamüstü İçərişəhərin alınması əməliyyatı başladı. Bu qırğın əməliyyatında N.Anançenko başda olmaqla, gənc S.Şaumyan, Ovçiyan, Qalstyan, Sarkis, Qaber-Kori, Artak, Manuçarov, Akopov və başqa «Qırmızı qvardiyaçılar» fəal iştirak etdilər. Müsəlman meyitlərin yandırılması və iyrənc formada təhqir edilməsinin erməni ziyalıları və kilsə xadimləri tərəfindən törədildiyini təsdiq edən onlarca sənəd mövcuddur. Fövqəladə İstintaq Komissiyası sədrinin Ədliyyə Nazirliyinə təqdim etdiyi məruzəsində aşağıdakı faktlar göstərilir: Nikolay (indiki İstiqaliyyət – red.) küçəsilə hücuma keçmiş erməni əsgərlərinə başlıca olaraq, erməni ziyalılarının nümayəndələri rəhbərlik ediblər. Belə dəstələrdən biri evə girib səkkiz qadın və uşağı güllələmişdir. Başqa dəstə Fars küçəsində Bala Əhməd Muxtarovun evinə girərək, doqquz müsəlmanı küçəyə çıxarmış və kilsə meydanında güllələmişlər, meyitlərin ikisini «Dağıstan» mehmanxanasının alovu içinə atmışlar.

İçərişəhərin yaşlı sakinləri qeyd edirlər ki, həmin ərəfədə İçərişəhərdə əhali qala qapılarını bağlamış və erməniləri (bayır şəhərdən) İçərişəhərə buraxmamışdılar. Kütləvi qətllər isə şəhər darvazaları yanında və yaxın ərazilərdə baş vermişdi. Hətta Qoşa qala qapılarının üstündə indi də güllə dəliklərinin yeri görünür.

Beləliklə, üç günün – 18-21 mart, köhnə təqvimlə (30 mart – 1 aprel) – qətl və qarətlərindən sonra, fövqəladə İstintaq Komissiyasının ümumiləşdirdiyi hesabatına görə, Bakıda

«əksinqilabçı» adı ilə 12 min nəfər azərbaycanlı əhali qətlə yetirilmişdi (Azərbaycan tarixi, V cild. Bakı, Elm, 2001, səh. 302» «Azərbaycan» qəzeti, 17 ktyabr, 1992; və s.).

Belə dəhşətli soyqırımı Şamaxıda, Lənkəranda, Qubada, Qarabağda və Azərbaycanın başqa yerlərində də baş vermişdi. Bu hadisələr əslində əvvəlcədən düşünülüb hazırlanmış məkrli siyasətin tərkib hissəsi idi («Elm və həyat» 2008-ci il. №1. səh. 24).

1918-ci ilin mart hadisələri açıq antimüsəlman, antiazərbaycan xarakter daşıyırdı. Azərbaycanlıların soyqırımlarını həyata keçirməklə ermənilər bolşevik və sosializm maskası taxmış digər qüvvələrlə ittifaqa girərək, faktik olaraq necə deyərlər, Bakıda düz beş ay yarım ərzində at oynatmağa başladılar. Lakin, bütün bunlara son qoymaq lazım idi.

1918-ci il sentyabrın 6-da İstanbulda M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskidən ibarət Azərbaycan nümayəndə heyətini Ənvər Paşa Türkiyədə yenicə hakimiyyətə gəlmiş sultan IV Məhəmmədə təqdim etdi. Nümayəndə heyəti adından danışan M.Ə.Rəsulzadə sultanı Azərbaycan tərəfin Türkiyə və sultana ən səmimi dostluq münasibəti bəslədiyinə inandırdı və Azərbaycanın azad edilməsi işində Türkiyənin qardaşlıq köməyini xüsusi minnətdarlıqla vurğuladı. Sultanla aparılan danışıqlar nəticəsində Türkiyə hakimi ümumi düşmənlə mübarizəni qələbə ilə başa çatdırmaq üçün Azərbaycan xalqına lazımi kömək göstərəcəyinə söz verdi.

Döyüş əməliyyatlarına bir qədər ara verildikdən sonra artıq bilavasitə Xəlil Paşanın sərəncamına keçmiş 36-cı diviziya ilə qüvvətləndirilmiş Türkiyə qoşunları avqustun 26-dan sonra xeyli fəallaşdı. Bakı şəhərinə həlledici hücum





sentyabrın 15-də səhər başladı. Həmin günün sonunda Denstervilin dəstəsini göyərtəsinə almış gəmilər buxtanı tərk edirdi. Onların arxasınca «Sentrokaspi Diktaturası»nın üzvləri və ermənilər qaçırdı. Sentyabrın 18-də türk qoşunları Bakıya daxil oldu. Şəhərin əsl sahibi olan azərbaycanlı əhali onları ruh yüksəkliyi ilə xilaskar kimi qarşıladı.

1918-ci il noyabr ayının 10-da Azərbaycan hökuməti Nuru Paşa ilə vidalaşma mərasimi təşkil edib, onun şərəfinə təntənəli ziyafət verdi. Azərbaycan hökumətinin sədri F.X.Xoyski, «Müsavat» Partiyasının lideri M.Ə.Rəsulzadə və başqaları çıxış edərək, Nuru Paşaya və ona komandanlıq etdiyi qoşunların əsgər və zabitlərinə göstərdikləri qəhrəmanlıq və fədakarlığa görə Azərbaycan xalqının ehtiram və minnətdarlıqlarını bildirən təşəkkürlərini yetirdilər (Azərbaycan tarixi, V cild. Bakı, Elm, 2001, səh. 336-337).

Tarixçi-alim Ataxan Paşayevin «Açılmamış səhifələrin izi ilə» adlı kitabı arxiv sənədləri, konkret fakt və dəlillər əsasında yazılmış və lazımınca tədqiq olunmuşdur.

«Respublika» qəzetinin 3 aprel 2002-ci il tarixində nəşr olunmuş «Bakıda 1918-ci il mart faciəsi» adlı məqalə də bu kitab əsasında yazılmışdır. Müəllif qeyd edir ki, 1933-cü il aprel ayının 1-də Almaniyanın Münxen şəhərində nəşr olunan «İstiqlal» qəzetinin 31-ci nömrəsində həmin hadisənin 15 illiyi münasibəti ilə çap olunmuş məqalədə oxuyuruq: o mart günlərini fotoqraf vasitəsilə təsbit etmiş bir çox iranlı, polyak, gürcü tanıyıram və bunların heç birindən olmayan M.Kuiqe adlı bir əcnəbi hadisələri belə anladır:

«Yalnız müsəlman əhali tərəfindən məskunlaşmış məhəllələri qırıb, əhalini öldürür, qılıncla parçalayır, süngülərlə

dəlik-deşik edir, evlərə atəş vurur, cocuqları bu atəşlərə ataraq diri-diri yaxır, 3-4 günlük südəmər cocuqları isə süngülərinə taxırdılar. Hadisələrdən sonra torpağa gömülmüş 57 islam nəşi bulundu. Bunların qulaqları, burunları qoparılmış, qarınları yırtılmış, əzaları kəsilmişdi.

Öldürmədikləri qadınların saçlarını bir-birinə bağlayaraq üryan bir halda küçələrdə qabaqlarına qatıb sürür və özlərini tüfəng dibçəkləri ilə vururdular. Kimsəyə edilmirdi. Cocuqlara rəhm edilmədiyi kimi, ixtiyarlara da aman yoxdu. Məsələn, Əlizadə Hacı Əmirin evində 80 yaşlı anası, 60-70 yaşında qadınları öldürmüş və 25 yaşında təzə gəlini diri-diri divara mıxlamışlardı...» Gərək M.Kulqenin, gərəksə digər əcnəbilərin, o günlərin xatirəsi olmaq üzərə, almış olduqları və bu gün əllərdə mövcud fotoqraflar çox faciəli mənzərələr əks edirlər. Mələk qədər sevimli bir azəri yavrusu Bakının bir divarına çivilənmişdir və çiv yavrunun ta qəlbini dəlib keçməkdədir. Bir yığım qızlı-erkəkli cocuq ölüləri üzərində qocaman çoban köpəkləri bu məsum yavruları gəmirir. Çılpaq bir qadın yerə sərilmiş, ölmüş... Mən hələ 10 minlərlə azəri qız və qadınlarının əsir sürüsü halında götürüldüyünü, «Rekord» teatrosunun o gün məhşəri andıran mənzərələrini, əsir bazarında azəri qızlarının satıldıqlarını və sairəni qeyd etmirəm.

Çünki 31 martı xatırlamaq və canlandırmaq üçün bu qədər də kafidir, bu qədər də bəsdir».

Mart faciələrini öz gözləri ilə görmüş, bu hadisələrin bütün iztirabların dözmüş, xoşbəxt təsadüf nəticəsində sağ qalmış yeniyetmə bir gənc Məhəmməd Muradzadənin 1918-ci i dekabrında qələmə alıb, 1919-cu ildə çap etdirdiyi «Mart hadiseyi-əliməsi» kitabçasında (Bu kitabça Sədaqət





Məmmədova tərəfindən kiril əlifbasına çevrilərək 1996-cı ildə «Azərnəşr»də yenidən buraxılmışdı) ermənilərin Bakıdakı mart qırğınları zamanı azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər qələmə alınmışdır. O yazırdı: «Həyatım durduqca martın 19-cu gecəsini, yəni bazar ertəsi, gününün axşamını unutmaram. Bu gecə ailə bir-biri ilə elə rəftar ilə davranırdı ki, sanki bir-birini görməyəcəklər, əbədi bir fərağa məhkum olacaqlar».

Martın 20-də (yeni təqvimlə 31-də) səhər M.Muradzadənin atasının tanışlarından bir nəfər Hacı özünün 50-55 yaşında yaralı qardaşını onların evinə gətirir. Hacı ailəsinin harada olduğunu bilmir. Yaralını görən gənc ona baxmağa dözə bilməyib qonşu yəhudilərin evlərinə qaçır. Onların həyətinə soxulan erməni caniləri Hacıdan və M.Muradzadənin atasından silah tələb edirlər. Silah olmadıqda onlar pul tələb edirlər. O yazırdı: «Atamla Hacı öz əllərilə pul kisələrini çıxarıb canələrə verdilər. İnsan qanına susamış canilər pulları alıb aralarında böldükdən sonra ikisi həmin həyətə çıxır. Biri isə bayıra çıxarkən əvvəlcə atamın sinəsini nişan edərək bir atəş açır, ardınca Hacının köksündən vurur. Hər ikisi dəhşətli bir surətdə yerə yıxılır».

Fövqəladə Tədqiqat Komissiyası sədrinin məruzəsində göstərilirdi ki, 1918-ci il mart hadisələrindən sonra Bakıda ermənilərlə azərbaycanlılar arasında sülh haqqında sazişə gəlindiyinə baxmayaraq həmin il sentyabrın 15-də Bakı azərbaycanlı və türk əsgəri qüvvələri tərəfindən azad edilənə qədər ermənilər müntəzəm olaraq Bakı küçələrində, şəhərdən ətraf kəndlərə gedən yollarda azərbaycanlıları tutub qətlə yetirir, meyidlərinin bir hissəsini isə quyulara və ya dənizə atırdılar.

Ermənilərin xalqımıza qarşı törətdiyi bütün bu vəhşiliklərin ildönümləri Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən həm 1919-cu, həm də 1920-ci ildə martın 31-də milli matəm günü kimi qeyd olunmuşdur. Sovet hakimiyyəti isə bu hadisəni tamamilə unutdurmağa çalışmışdır. Bakıdakı qanlı mart hadisələri Sovet dövrü tarixçiləri tərəfindən tarixi faktların və sənədlərin əksinə olaraq bu qırğını bir millətin başqa millətə qarşı ədavəti nəticəsində həyata keçirdiyi soyqırımı siyasəti kimi deyil, Ümumrusiya vətəndaş müharibəsinin tərkib hissəsi, Sovet hakimiyyəti uğrunda bolşeviklərin mübarizəsi və onların əksinqilab üzərində böyük qələbəsi kimi təqdim edilmişdir. Lakin kommunizm ideoloqlarının bütün ciddi cəhdlərinə baxmayaraq, xalqımızın yaddaşında ədəbi iz buraxmış 1918-ci il qanlı mart hadisələrini heç cür unutdura bilməmişlər.

Azərbaycan Respublikasının prezidenti, cənab İlham Əliyev erməni xəyanətini xarakterizə edərək qeyd edir ki, erməni millətçiləri tərəfindən xalqımıza qarşı həyata keçirilən soyqırımı və təcavüz siyasətinin iki yüz ilə yaxın bir tarixi vardır. Bu mənfur siyasətin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, bu ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduğu «Böyük Ermənistan» dövləti yaratmaq idi. Müəyyən tarixi dövrlərdə bəzi aparıcı dünya dövlətlərinin planlarına uyğun gələn bu siyasəti reallaşdırmaq üçün müntəzəm surətdə ideoloji, hərbi və təşkilati xarakterli iş aparılmış, tədbirlər həyata keçirilmiş, ən müxtəlif üsul və vasitələrdən istifadə edilmişdir. Xalqımızın tarixi kobud şəkildə saxtalaşdırılmış, maddi və mədəniyyət abidələrimiz, toponimlərimiz erməni tarixçiləri və «ideoloqlarının» təcavüzünə məruz qalmışdır. Onlar millətçiliyi və şovinizmi, qonşu xalqlara nifrət ideologiyasını əsas tutaraq «milli-mədəni», siyasi və hətta terrorçu təşkilatlar yaratmış, erməni diasporunun və lobbisinin imkanlarını bu məqsədlərə səfərbər etmişlər (2).





Göründüyü kimi, Azərbaycan müstəqilliyini, istiqlaliyyətini yenidən əldə etdikdən sonra mart faciəsi günü hər il dövlət səviyyəsində anılmaqdadır.

Xalqımızın başına açılan bu bəlaların tarixi, səbəbləri gənc nəslə çatdırılmaqla bərabər, yenidən tədqiq olunmalı və elə edilməlidir ki, bu müsibətlər bir də təkrar olunmasın.

## İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan tarixi, V cild. Bakı, Elm, 2001.
2. «Azərbaycan» qəzeti, 17 ktyabr, 1992.
3. «Elm və həyat» 2008-ci il. №1.
4. «Respublika» qəzetinin 3 aprel 2002.
5. «Azərbaycan» qəzeti, 27 mart, 2007.
6. Abışov V. Bakıda 1918-ci il mart soyqırımı. Bakı, 2014
7. Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı, "Elm", 1998
8. Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. 1917-1918-ci illər. Bakı: Azərnəşr, 1960
9. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, Elm, 1990

**Aydın Balayev**
*Tarix elmləri doktoru, professor*

## ИТОГИ И ПОСЛЕДСТВИЯ МАРТОВСКИХ СОБЫТИЙ 1918 ГОДА

Мартовские события 1918 года, спровоцированные русскими большевиками при активной поддержке армянских дашнаков привели только в Баку и его окрестностях более 12 тыс. мирных азербайджанцев. При этом следует обратить внимание на тот факт, что немалая их часть погибла не в ходе боевых действий на улицах города, а в собственных домах от рук мародеров.

Дело в том, что вслед за вооруженными отрядами большевиков и дашнаков двигались группы мародеров из 5-10 человек, состоящие преимущественно из армян. И по мере установления над азербайджанскими кварталами города контроля вооруженных формирований Бакинского совета, эти группы незамедлительно приступали к их «зачистке». Эти «зачистки», как правило, сопровождались мародерством, грабежами и истреблением мирных азербайджанцев.

Начавшиеся вечером 30 (18) марта, эти азербайджанские погромы в городе продолжались фактически в течение недели. И за все это время в городе творились невиданные ужасы в отношении мирного азербайджанского населения Баку.

Перед тем как убивать азербайджанцев, дашнакские боевики их бесчеловечно мучили, истязали и всячески





издевались над ними. Например, в известной Бакинской бане «Фантазия» азербайджанцев живыми бросали в кипящую воду котла. У обнаруженных впоследствии в этой бане трупов азербайджанцев были обожжены кости и жилы, а мягкие части тела просто отпали.

Знаменитый Маиловский театр в Баку был превращен в импровизированную тюрьму, в котором содержались сотни плененных мирных азербайджанцев. Дашнакские боевики толпами гнали азербайджанцев в здание этого театра, нередко в бесчисленном количестве расстреливая их по дороге. При этом с убитых азербайджанцев сдирали одежду и драгоценности, а над трупами издевались, вскрывая их внутренности и обезображивая их до неузнаваемости.

Следует отметить, что в ходе этих событий пострадали не только мирные азербайджанцы, но и многие архитектурные памятники Баку. В частности, 1 апреля (20 марта) 1918 г. армянскими солдатами был дотла сожжен здание «Исмаилие». Характерно, что когда огонь перекинулся на расположенный напротив здания «Исмаилие» дом братьев Красильниковых, то тут же был вызван пожарный отряд. Прибывшие пожарные немедленно приступили к ликвидации огня в доме Красильниковых, не принимая никаких мер для тушения пожара в здании «Исмаилие». В результате, от всего грандиозного здания остались лишь обгоревшие голые стены.

В ходе этих событий значительно пострадали и мусульманские культовые сооружения города Баку. Мно-

гие из них были подвергнуты нападению и осквернены большевистско-дашнакскими отрядами. В частности, артиллерийскими снарядами был обстрелян и сильно поврежден с южной и восточной сторон задание соборной мечети Тезе-пир. Но самым кощунственным преступлением вооруженных формирований Бакинского совета, несомненно, был поджог редакции газеты «Каспий», в подвале которого хранились 5000 экземпляров Корана и все они были уничтожены огнем.

Дальнейшее развитие событий в регионе показало, что массовое уничтожение мирных азербайджанцев в Баку и его окрестностях большевистско-дашнакскими отрядами являлось лишь прелюдией более масштабной операции по выживанию азербайджанцев с их исконных земель на территории Бакинской и Елисаветпольской губерний.

В этот период большевистские лидеры всерьез вынашивали планы по отторжению Баку и других прикаспийских территорий Бакинской губернии от Азербайджана, с последующим их включением в состав Российской Федерации. Они даже подготовили соответствующее идеологическое обоснование для реализации этого плана. Так, по мнению одного из большевистских лидеров – И.В. Сталина, в экономическом отношении Бакинский нефтяной район не имел ничего общего с остальной частью Азербайджана. Учитывая господство в марксистской идеологии экономического детерминизма, этим своим высказыванием И.В.Сталин фактически отказывался признать Баку и его окрестно-





сти составной частью Азербайджана. В этом вопросе с И.В. Сталиным полностью был солидарен и руководитель Бакинского совета С.Г. Шаумян.

Идея отторжения Баку от Азербайджана была выгодна и партии «Дашнакцутюн», поскольку облегчала реализацию ее планов по включению обширных территорий Бакинской и Елисаветпольской губерний в состав будущего армянского государства в Закавказье.

В этом процессе не осталась бы обделенной и грузинская сторона, которая претендовала на северо-восточные регионы Азербайджана – Шеки-Закатальскую зону. В этом контексте не является случайной фактически созерцательная позиция грузинских лидеров Закавказского Сейма в отношении мартовских событий 1918 г. в Баку и других уездах Бакинской губернии.

Таким образом, по сути, речь шла о попытке стереть Азербайджан с политической карты мира. Лишь благодаря самоотверженности азербайджанских национальных сил, в конечном итоге, удалось предотвратить реализацию этого преступного плана.

Тем не менее, вслед за Баку, весной 1918 года подобные карательные операции в отношении азербайджанцев проводились также в Шемахинском, Губинском, Ленкоранском, Зангезурском уездах, в Карабахе и других регионах Азербайджана. В ходе этих операций было уничтожено примерно 30 тысячи мирных азербайджанцев. Еще десятки тысяч азербайджанцев в результате этих карательных операций вынуждены были покинуть свои родные очаги и стать беженцами в собственной стране.

И все это делалось под шумок, поднятый в мировой прессе об «избиении армян» со стороны мусульман Закавказья. Следует отметить, что в отличие от азербайджанцев, армянская сторона очень искусно создавала миф о «многострадальности» армянского народа в глазах мировой общественности. Поэтому неслучайно, что английский журналист Скотланд-Лиддел, являвшийся непосредственным свидетелем событий 1918-1919 годов в Закавказье, называл армян «лучшими пропагандистами в мире».[1]

Министр юстиции Азербайджанской республики Х.Б. Хасмамедова еще в декабре 1918 г. отмечал, что причиной подобного положения являлась неискушенность в политике азербайджанцев, которые «не умеют пользоваться теми приемами, к которым прибегают другие, в особенности их недоброжелатели». По мнению министра, именно поэтому азербайджанцы так и «не сумели создать шум на всю Европу, обивать пороги великих мира сего, не сумели даже, как это принято, делать себе «хорошую прессу» в Европе...»[2]

Однако, несмотря на то, что в результате мартовских событий 1918 г. большевистско-дашнакскому руководству Бакинского Совета удалось на время стать полновластным хозяином в городе, одержанная победа, в конечном итоге, оказалась пирровой. В этом отношении именно мартовские события 1918 г. стали началом конца советской власти в Баку.

Даже такая одиозная фигура, как А.И. Микоян, выступая в 1923 г. на V съезде АКП(б) вынужден был кон-





статировать, что мартовские события привели к «еще большему отчуждению мусульманских трудовых масс от Советской власти».[1]

Большевикам и их союзникам в лице партии «Дашнакцутюн» в ходе мартовских событий 1918 г. так и не удалось достичь своей стратегической цели – обезглавить и разгромить Азербайджанское национальное движение, поскольку основные силы национального движения, находившиеся в то время в регионах Азербайджана, не пострадали. Лидеры «Мусавата», фактически осуществлявшие руководство национальным движением, также остались невредимыми. Впоследствии большевики даже сетовали, что «недостаточно энергично преследовали виновников мартовского выступления, руководителей партии «Мусават».[2]

Более того, мартовские события 1918 г. окончательно подорвав и без того низкий авторитет большевиков среди азербайджанского населения, одновременно, значительно укрепили социальную базу национальных сил во главе с «Мусаватом». Но наиболее благоприятным последствием этих событий стало усиление консолидационных процессов в Азербайджанском национальном движении. Оказавшись перед лицом смертельной угрозы национальному существованию, различные политические партии Азербайджана выступили единым фронтом в оценке сущности и последствий мартовских событий.

На этой почве произошло и сближение позиций основных азербайджанских политических партий от-

носительно перспектив и целей развития национального движения. После мартовской трагедии 1918 г. «Мусават» взял курс на полную государственную самостоятельность Азербайджана, т.к. эти события со всей наглядностью продемонстрировали невозможность преобразования России под руководством большевиков в цивилизованное демократическое государство равноправных народов.

В сложившейся ситуации достижение национальной независимости стала главной целью практически всех без исключения политических сил страны. Именно подобная сплоченность национальных сил привела к скорейшей реализации этой идеи и уже 28 мая 1918 г. была провозглашена государственная независимость Азербайджана.

## Литература

1. ГААР, ф.894, оп.10, ед.хр.103, л.12.
2. Азербайджан, 1918, 8 декабря.
3. Бакинский рабочий, 1923, №58.
4. Ратгаузер Я. Революция и гражданская война в Баку. 1917-1918. Баку, 1927, с. 192.





Vəfa Quliyeva
*Tarix elmləri doktoru, professor*

# ERMƏNİLƏRİN AZƏRBAYCAN XALQINA QARŞI TÖRƏTDİYİ MƏNƏVİ GENOSİD

Yaxın Şərqin qapısı sayılan Odlar yurdu - Azərbaycan Avropa ilə Asiyanın qovşağında yerləşir. Azərbaycan bəşər sivilizasiyasının yarandığı ilk mərkəzlərdən biridir. Bunu arxeoloji qazıntılar zamanı aşkarlanmış çox saylı maddi-mədəniyyət nümunələri təsdiqləyir. Tarixən Asiyanı Avropa ilə birləşdirən karvan-ticarət yolları o cümlədən "İpək" yolu Azərbaycandan keçmişdir. Tutduğu geo-strateji mövqeyə görə Azərbaycan hər zaman dünya maraqlarının toqquşduğu məkan olmuşdur. Tarix boyu bir çox qüdrətli imperiyaların tərkibinə daxil olmaqla yanaşı Azərbaycan xalqı müəyyən dövrlərdə müstəqillik əldə etmiş və özünə məxsus mədəniyyətin yaradıcısı kimi millətlər arasında layiqli yerini tutmuşdur.

Müasir dünyada gedən qloballaşma prosesində qabaqcıl yer tutmaq istəyən ölkə özünün iqtisadi, siyasi gücü ilə yanaşı, tarixi irsi, mədəniyyəti, incəsənəti ilə də tanınmalıdır. Azərbaycan xalqı qədim tarixə və zəngin mədəniyyətə malik olan bir xalqdır. Bu tarixi yaddaş əsrlərdən bəri qorunub saxlanmış memarlıq abidələrində yaşayır, xalqın, millətin mənəviyyatını özündə əks etdirir. Bəli, yüzilliklər ötdükcə, zaman keçdikcə xalqın yaratdığı və nəsillərə qoyduğu mədəni miras daha da əzəmətli, möhtəşəm görünür.

O, xalqın keçmiş qudrətinin, əzəmətinin tarixi yaddaşı kimi bu mədəniyyətin varislərinin varlığını qürur hissi ilə doldurur. Maddi-mədəniyyət, memarlıq abidələri, toponimlər bir millətin müəyyən coğrafi məkanda formalaşmasını təsdiqləyən ən tutarlı sənədlərdir. Ona görə də zaman keçdikcə bu mədəni miras zəngin xəzinəyə çevrilir.

Böyük Əmir Teymur yaratdığı mədəni irsin əhəmiyyətini vurğulayaraq demişdir: "Əgər kimsə haçansa bizim qüdrətimizə şübhə ilə yanaşsa yaratdığımız abidələrə baxsın".

Tarixən Azərbaycan xalqının maddi mədəniyyəti çoxsaylı müharibələrdə dağıdılıb, talan olunub və bu proses son zamanlara kimi davam edir. Azərbaycanlıların izlərini Cənubi Qafqazdan silmək niyyəti ilə memarlıq abidələrimiz, qəbristanlıqlarımız ermənilərin əli ilə dağıdılmış, məhv olunmuşdur. Cənubi Qafqazın tarixi konsepsiyası rus-sovet alimləri tərəfindən 20-ci əcrin 50-ci illərində işlənilib hazırlanmış və Azərbaycan tarixi saxtalaşdırılaraq erməni dövlətçiliyinin burada dərin köklərə malik olduğunu sübut etməyə çalışmışlar.

Məlumdur ki, ermənilər dövləti və dövlətçiliyi olmayan xalqlardan biri olublar və erməni milli şüurunu əsrlər boyu nəyin bahasına olursa olsun bu dövlətçiliyi əldə etmək ideyası formalaşdırırdı. Bunun üçün ilk növbədə elmi baza yaradılmalı idi. Başqa sözlə desək elmi surətdə sübut olunmalı idi ki, ermənilər Nuh peyğəmbər dövründən yer üzərində mövcud olan ən qədim xalq olmuş və üç dəniz - Aralıq, Qara, Xəzər - arasında yerləşən nəhəng "Böyük Ermənistan" adlanan dövlətin sahibi olmuşlar. Şübhəsiz bu təbliğat əsas iki məqsədə xidmət edirdi. Birincisi - ermə-





niləri öz keçmiş qüdrətinə inandırmaq, ikincisi - gələçək işğalçılıq siyasətini elmi əsaslandırmaq. Bu da ona görə edilirdi ki, ermənilər "Böyük Ermənistan"ı qonşu Azərbaycan, Gürcustan, Türkiyə əraziləri hesabına bərpa etmək istəyirdilər. Veliçko yazırdı," Erməni mesenatları Ermənistanın xüsusi tarixini yaratmaq üzərində işləyirlər, bu kiçik xalqı və onun qəhrəmanlarını qüdrətli, nəhəng göstərməyə çalışırlar...Onlar öz tarixi "qazanclarını" və indiki ləyaqətlərini qonşuluqda yaşayan xalqları gözdən salmaq vasitəsi ilə irəli sürürlər. Qeyd etməliyik ki, hər tarixi dövrdə bu erməni ideyasına xidmət edən milliyyətcə erməni olmayan insanlar da tapılırdı. XIX əsrin əvvəlində bu baron Brambeus təxəllüsü ilə yazan Senkovski idi. Sonralar erməni "tarixçiləri" Emin (Moisey Xorenskinin tarixi), Xudobaşev, Yeritsov, Patkanov, Marr idi".

Erməni siyasətbazları və "tarix yaradıcıları" bir fransız alimini çaşdırmağa çalışaraq onun ziyarət etdiyi Eçmiadzində (tarixi sənədlərdə -Üçmüəzzin) alimə təqdim olunan bəzi əşyaları qədimləşdiriblər. Təcrübəli arxeoloq bunu başa düşüb və mətbuat vasitəsi ilə erməniləri ifşa edib. Veliçko yazır ki, bu ermənilərin qəzəbinə səbəb olub. Rus dilində çıxan erməni nəşrləri fransız aliminin ünvanına təhqiramiz ifadələrdən belə çəkinməyiblər.

Bu gün erməni faşizmi Azərbaycan ərazilərinin 20 % işqal edərkən sübut etməyə çalışır ki, bu "Böyük Ermənistana" daxil olmuş "tarixi" erməni torpaqlarıdır və ermənilər tərəfindən haqlı olaraq tutulmuşdur. Yeni yazılmış "elmi əsərlərdə" alban abidələri mənimsənilir, erməniləşdirilir və içtimaiyyətə erməni mədəni irsi kimi təqdim olunur. Azər-

baycan-türk mənşəli yer adları erməni dilinə tərcümə olunur, erməniləşdirilir.

Hamıya məlumdur ki, "erməni məsələsi" XIX əsrin ortalarında böyük dövlətlər tərəfindən qaldırılmış və Osmanlı Türkiyəsini dağıdmaq məqsədi daşıyırdı. Məqsədə nail olan kimi ermənilər unuduldu. Yeri gəlmişkən qeyd etməliyik ki, SSSR-ini də ermənilərin əli ilə dağıtdılar. (SSSR-nin dağılmasına Qarabağ olayları təkan verdi).

Ermənilər isbat edirlər ki, qədimdə üç dəniz arasında "Böyür Ermənistan" dövləti mövcud olub və bu dövlət türk barbarları tərəfindən orta əsrlərdə işğal olunub və məhv edilib. Həqiqəti müəyyən etmək üçün tarixə ekskurs edək.

Azərbaycan alimləri sübut ediblər ki, "Ermənistan" məfhumu coğrafi anlayışdır və ermənilərin bu ərazilərə gəlməsindən çox-çox əvvəl yaranıb. Burada yaşayan əhali yerin adıyla erməni adlanırdı. Bildiyimiz kimi ermənilər özlərini hayk adlandırır, ölkələrini isə Hayastan. Elmi surətdə sübut olunub ki, indiki hayklarn bu ərazidə qədimdə yaşayan əhali ilə heç bir əlaqəsi yoxdur. Erməni tarixçiləri özləri boyunlarına alırlar ki, indiki ermənilər bu əraziyə gəlmədir. (R.Ovanesyan, Pastermadjar, Z.Balayan). Ermənistan adlanan coğrafi məkan 1157-ci ilə qədər Səlcuk imperiyasının tərkibində idi. Sonra 1194-cü ilə kimi bu ərazi İraq Səlcuqlarının hakimiyyəti altına keçir. Daha sonra burada Xarəzmşahların hakimiyyəti bərqərar olur, onlardan Elxanilərə keçir. Elxanilər dövlətinin süqutundan sonra burada 1334-cü ildə Cəlairilərin hakimiyyəti qurulur, 1383-cü ildə buranı Əmir Teymur tutur. Onun ölümündən sonra bu ərazi Azərbaycan feodal dövlətləri olan





Ağ qoyunlu, Qara-qoyunlu, Səfəvilər dövlətlərinin tərkib hissəsi olur. Nadir şahın ölümündən sonra həmən ərazi İrəvan bəylərbəyi, sonra İrəvan xanlığının ərazisinə daxil olur. XIX əsrin əvvəlində çar Rusiyası İrəvan xanlığını işğal etdikdən sonra bu əraziləri xristianlaşdırmaq məqsədi ilə ermənilərin buraya kütləvi surətdə köçürülməsini həyata keçirir və qısa bir müddətdə demoqrafik vəziyyət dəyişir. Beləliklə, gördüyümüz kimi indi Ermənistan adlanan ərazidə tarixən heç bir erməni dövləti mövcud olmayıb. Yalnız XX əsrin əvvəlində sovet Rusiyasının birbaşa təşəbbüsü ilə Qərbi Azərbaycan torpaqlarında Cənubi Qafqazda ilk erməni dövləti - Ermənistan Respublikası yaradıldı.

Bizim tədqiqatlarımız sübut edir ki, Çar Rusiyasının Cənubi Qafqazı xristianlaşdırma siyasətini davam etdirən Sovet Rusiyası bu regionda ermənilər üçün ilk dövləti 1920-ci ildə Qərbi Azərbaycan torpaqlarında yaradıb. Ermənistan Respublikası Türkiyə və türk dünyası arasında bufer rolunu oynayaraq, Rusiya siyasətçilərinin təbirincə desək, Qafqazda Rusiyanın forpostudur və bu missiyanı bu gün də çox uğurla həyata keçirir. Rus siyasətbazları öz çıxışlarında rusların və ermənilərin tarixən bir yerdə yaşamağa məhkum olduqları haqqında fikir söyləyirlər. Erməniləri inandırmağa çalışırlar ki, onlar türk-müsəlman əhatəsində ruslarsız yaşaya bilməz. Bununla da rus siyasətbazları erməniləri Cənubi Qafqazda öz siyasətlərinin əsiri etmişlər.

Tarixi mənbələrin tədqiqi göstərir ki, Cənubi Qafqazda tarixən heç bir erməni siyasi qurumu mövcud olmayıb. İ.P.Petruşevskinin və erməni tarixçilərinin əsərlərində Qərbi Azərbaycan torpaqlarında guya mövcud olmuş erməni dövlətinin "Qafqaz ermənistanı və Ararat Respublikası"

adlandırdıqları anlayışa mənbələrdə rast gəlməmişik. Orta əsr mənbələrində Ermənistanın yerləşdiyi ərazi Çuxur-Səd adlanır və Azərbaycan anlayışına daxildir. Əldə olunan nəticələr Azərbaycan tarixinin sovet rus və erməni tarixçiləri tərəfindən saxtalaşdırıldığını sübut edir.

Sovet İttifaqı dövründə azərbaycanlıların bu torpaqlardan sıxışdırılıb çıxarılması ilə yanaşı onlara məxsus maddi-mədəniyyət abidələri də dağıdılıb, yer adları erməniləşdirilibdir. Bu prosess 1988-ci ildən sonra daha kütləvi xarakter almış, Ermənistanın dövlət siyasətinə çevrilmişdir.

Görkəmli alim, AMEA-nın müxbir üzvü Məşədixanım Nemət Zəngəzurun Urud kəndindəki 1961-ci ildə kəşf etdiyi XIV-XVII əsrlərə aid qoç heykəlli və sənduqə formalı məzar daşlarına əsasən Zəngəzurda yaşamış alban tayfalarının türkləşməsini və islamı qəbul etməsini təsdiq edir. Abidələr üzərindəki "evladi avğvan" (alban nəslindən) kəlmələrinə və qədim türk tayfalarına məxsus onqonların (tanrıların) – maral üzərində oturdulmuş ov quşları, Tibet yak öküzləri, şaman təsvirlərinə əsasən alim albanların hələ islamı qəbul etməzdən çox-çox əvvəl türkləşməsini ehtimal edir. Onlar islamı qəbul etdikdən sonra bir müddət qədim inamlarını saxlamış, sonra isə bu onların təsviri incəsənətinə keçmişdir.

Məşədixanım müəllimənin Urud kəşflərinə qədər tarixi ədəbiyyatda belə bir fikir mövcud idi ki, xristian olan alban tayfaları xilafətin Qafqazı istilası zamanı islamı qəbul etməsinlər deyə qriqoryan xaçını qəbul edib erməniləşdilər, gürcü xaçını qəbul edib gürcüləşdilər. Urud abidələri bir daha indiyə qədər tarixi ədəbiyyatda mövcud olan türk elemen-





tinin Qafqaza gəlmə olduğu konsepsiyasını alt-üst etdi və sübut etdi ki türklər Qafqazın köklü aborigenləri olmuşlar. Ermənilər orta əsr qəbristanlığını şumladılar və abidələri dağıtdılar (9, s.58, 71-73).

Zəngəzurda, Laçında, Kəlbəcərdə, Gürcüstanda Armazisxevidə və digər qəbristanlıqlarda aşkar edilmiş XIV-XIX əsrlərə aid at və qoç heykəlli və başdaşı formalı məzar daşlarında türk tayfalarına məxsus tamqaların, şamanların təsvirlərinə əsasən Cənubi Qafqazda türk tayfalarının yayılma arealı və beləliklə, Azərbaycanın tarixi ərazisi müəyyənləşdirilmişdir.

Dağıda bilmədiklərini isə erməni milli memarlıq abidəsi kimi təbliğ edirlər.

Anadoludan tutmuş Çinə qədər Araz boyu karvan-ticarət yolu – İpək yolu üzərində Zəngəzurun Səlim keçidi adlanan yerdə Elxani Əbu Səid dövründə tikilmiş karvansaranı (h.729=1328/29) "erməni milli memarlıq abidəsi" kimi nəşr etdirmişlər. Həmən yol üzərində Zəngilanın Məmmədbəyli kəndində Yəhya b. Məhəmməd türbəsinin (vəf. 1305 il) qapısı üzərində qoyulmuş kitabə ölçüsü, forması, həkk olunan texnikasına görə qeyd olunan karvansara kitabəsinin eynidir. Qeyd olunan kitabədə XIV əsrdə İpək yolu üzərindəki bütün abidələri yaratmış memar Əli Məcdəddinin adı yazılmışdır.

Abidənin içərisində erməni dilində divara bir yazı qoyulmuşdur. Bu yazıda olan mətnlə qapının üzərinə hörülmüş yazının mətni üst-üstə düşmür. Erməni dilində olan yazıda qeyd olunur ki, bu abidə 1332-ci ildə Orbelyan nəslindən olan Çesar tərəfindən tikilib. Lazar Universitetinin

müəllimi Xr.İv.Kuçuk-İoannasov iddia edir ki "tatarlar" (yəni azərbaycanlılar) sonradan bu karvansaraya Səlim adı vermiş və ərəbcə yazını qapının üzərinə qoymuşlar. Halbuki yazı bina tikildiyi zaman qapının üzərinə hörülmüşdür. Maraqlısı odur ki, ermənilərin çap elədikləri bukletdə karvansara Səlim karvansarası adı ilə çap olunub (9, s.66).

Erməniləşdirmək istədikləri digər abidə Azərbaycan Qara-qoyunlu dövləti, Çuxur-Səd əmirlərinə aid İrəvanın 8 km Cəfərabad kəndində yerləşən möhtəşəm türbədir.

Ermənilər türkmən alimlərini dəvət edərək bu abidənin bünövrəsində qazıntı işləri aparmış və belə bir qənaətə gəlmişlər ki, Qara-qoyunlu dövləti İran dövləti olub, onu türkmən əmirləri idarə edib (müasir türkmənləri nəzərdə tuturlar) lakin abidə erməni maddi-mədəniyyət nümunəsidir. Bu cəfəng elmi nəticə yalnız xəstə təfəkkürün məhsulu ola bilər. Qeyd etmək lazımdır ki, memarlıq-konstruktiv quruluşuna görə abidə Möminə - xatun və Yusif b. Kəbir türbələri ilə eynilik təşkil edir və Əcəmi memarlıq məktəbinin davamıdır. Burada bir neçə türbə və azərbaycanlılara məxsus böyük qəbristanlıq olmuşdur. Hamısı dağıdılıb (9, s.66).

Azərbaycan Dövlət Tarix arxivindən əldə etdiyimiz sənədlər göstərir ki, 1915-ci ildə Zəngəzurda və İrəvan quberniyasında 382 şiə və 9 sünnü məscidi fəaliyyət göstərirdi. İrəvan quberniyasında məscidlərin artma dinamikası belə idi: 1904 – 201, 1911 – 342, 1915 – 382. Bu müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir.

Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Hacıəmi, Ballıqaya, Kərkəs, Çərəli, Dəstəyird, Qalacıq, Cicimli I, Cicimli 2, Qaroacalı, Seyidlər, Mol-





lalar, Təzə Kilsə, Nərcan, Zor, Əfəndilər, Pasan, Xurtekes, Hacıqəmbər, Qarabağlar, Dəmirçilər, Dondarlı, Kurdaluq, Ulaclı, Saraclı, Dərzili, Oxçu, Kaqlar kəndlərində məscidlər var idi (2). Bundan əlavə XIX əsrin sonunda İrəvan quberniyasında 233 şiə və 14 sünnü məscid prixodları fəaliyyət göstərirdi. Onlar kənd soveti rolunu oynayırdı. Burada anadan olanların, ölənlərin, evlənənlərin, boşananların qeydiyyatı aparılırdı. Hər prixodun mollası var idi və o qubernator tərəfindən təyin olunurdu (3).

İrəvan şəhərində XX əsrin əvvəlinə kimi Qədim Şəhər məscidi, Came məscidi, Hacı Novruzəlibəy məscidi, Hacı İmamverdibəy məscidi, Mirzə Səfi bəy məscidi, Hacı Cəfərbəy məscidi fəaliyyət göstərirdi. Came məscidi kompleksində iri mədrəsə binası da mövcud idi. Binanın möhtəşəmliyi Qərbi Azərbaycanda tədrisin, elmin inkişafından xəbər verir (4).

İrəvan məscidlərinin İrəvan quberniyasının müxtəlif yerlərində vəqf əmlakları yerləşirdi. Bu, əsasən torpaq sahələri, dükanlar idi. Sənədlərdən göründüyü kimi vəqf əmlaklarının sərhəd olduğu torpaqlar azərbaycanlılara məxsus idi. Bu da öz növbəsində bu regionda azərbaycanlıların çoxluq təşkil etdiyindən xəbər verir (5, s.118-124). Tarixi sənədlər təsdiqləyir ki, 1919-cu ildə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında azərbaycanlılar əhalinin 72,3%, Sürməli qəzasında 96%, İrəvan qəzasında 60,2%, Milistan və Vedibasar mahallarında 90% təşkil edirdilər, baxmayaraq ki tarixən ermənilərin ən intensiv köçürüldüyü ərazilər məhz bu ərazilər olmuşdur. (8, s.212)

Azərbaycanlıların bu regionda köklü xalq olduğunu toponimlər bir daha sübut edir. Toponimlər konkret etnosun

konkret coğrafi məkanda təşəkkülünü göstərən ən tutarlı sənəddir. Ona görə də ermənilər əraziləri azərbaycanlılardan təmizlədikcə ilk növbədə yer adlarını dəyişdirirlər. Demək olar ki, bütün toponimlər erməniləşdirilib.Bu da azərbaycanlıların bu torpaqlarda tamamilə izlərinin itirilməsi məqsədi güdür. (8, s.172-212; 1, s.46-64, 89-143, 173-213, 257-270).

Dağlıq Qarabağ ərazisində yerləşən alban-xristian abidələri ermənilər tərəfindən mənimsənilir və erməni mədəni irsi kimi təqdim edilir. Lakin həm Dağlıq Qarabağda, həm də ona sərhəd və ermənilər tərəfindən hal-hazırda işğal olunmuş zonada külli miqdarda xanəgahlar, türbələr, pirlər, monumental tikililər, orta əsr qəbristanlıqları, məscidlər və s. müsəlman abidələri mövcuddur.

Bu abidələrin üzərində olan yazılar memarların, alimlərin, xəttatların, nəqqaşların, sufi şeyxlərinin, Azərbaycanda memarlıq məktəblərinin banilərinin adlarını aşkarlayır. Həkərə çayının hövzəsində yerləşən bir sıra türbələr öz memarlıq-konstruktiv quruluşuna görə seçilir. Bunlardan Zəngilan rayonunun Məmmədbəyli kəndində yerləşən Yəhya b. Məhəmməd türbəsi, Cəbrayıl rayonunun Şıxlar kəndində yerləşən Şıxbaba türbəsidir (XIV əsr). Türbənin ətrafında orta əsr qəbristanlığı yerləşir. Türbədən bir qədər aralı Şeyxzadə Şeyx abd as-Salam b. Şeyx Qiyas əd-Dinin (759 h.=1358 il) məzarı yerləşir. Türbənin ətrafında şeyxin davamçılarının məzarları üzərində baş daşları var idi. Yazıların mətninə, paleoqrafik xüsusiyyətlərinə, bədii tərtibatına görə, Şıx Baba xanəgahının Qədiriyyə sufi cəmiyyətinə aid olduğu müəyyənləşdirilmiş və fəaliyyət dövrü XIII-





XIV əsrlərə aid edilmişdir. Bu ərazilərdə XIV-XIX əsrlərə aid sənduqə, başdaşı formalı qoç, at heykəlli məzar daşları ərəb-fars-azərbaycandilli yazılar və müxtəlif relyeflər Azərbaycan xalqının həyat, məişətinin ayrı-ayrı tərəflərini əks etdirir, xalqın tarixinə, toponimikasına, xalq təbabətinə, etnoqenez məsələlərinə aydınlıq gətirir.

Qarabağ abidələrindəki epiqrafik məlumatlardan və təsviri incəsənət motivlərindən Cənubi Qafqazda Azərbaycan xalqının təşəkkülündə mühüm rol oynayan qədim türk tayfalarının məskunlaşmasını müəyyən etmək olur. Epiqrafik abidələr.Qarabağda gedən tikinti işlərindən, Elxanilər dövrü və Qarabağ xanlarının mədəni-maarif fəaliyyətindən xəbər verir. Bu abidələr sırasına Fizuli rayonunun Babı kəndində yerləşən səkkiz güşəli Şeyx Babı Yaqub (13 əsr) türbəsini aid etmək olar.

Şuşa şəhərində Memar Kərbəlayi Səfi xan Qarabağlı tərəfindən inşa edilmiş iki məscid və iki mədrəsə binası var. Bu haqda məlumatı məscidin üzərindəki kitabə verir. Memarın adına Fizuli rayonunun mərkəzində yerləşən məscidin, Bərdə şəhərində, Ağdamda olan məscidlərin, Şuşa şəhərinin bir sıra məhəllə məscidlərinin üzərində də rast gəlmək olar. (10, s.47, 48; 11; s.7, 18-24, 30-35, 40-57).

XIX əsrin sonunda Şuşada 17 məscid fəaliyyət göstərirdi. Bunlar Yuxarı və Aşağı Came məscidləri, Təzə məhəllədə təmir olunmuş məscid, Malıbəyli, Gulablı, Şelli, Yusifcanlı, Mərəzəli, Xəzəristan, Lembran, Ağcabədi, Xəlil Fəxrəddinli, Xunaşın, Qərar kəndlərində məscidlər fəaliyyət göstərirdi. Şuşa qəzasında Hacı Yusifli, Heydəri, Hamam, Cula, Məriyanlı, Rahatlı, Dəmirçi, Hacı Mircanlı, Çoluçağa, Məhə-

li, Çuxur, Quyluq, Dördlər qurdu, Qapan kəndlərində də məscidlər fəaliyyət göstərirdi. (5). Həmən illərdə Cəbrayil qəzasında 15 məscid və 16 məscid prixodu mövcud idi (6).

Ümumiyyətlə son 200 ildə Azərbaycan xalqı, onun maddi-mədəniyyət abidələri ermənilər tərəfindən şüurlu, planlı şəkildə məhv olunur, mənimsənilir, toponimlər erməniləşdirilir. Bu proses XX-ci əsrdə qlobal şəkil alıb və o yerə çatıb ki, bu gün Ermənistanın yerləşdiyi Azərbaycanın tarixi torpağı olan Qərbi Azəbaycanda son siyahıyaalınma və pasportlaşmada bir dənə də olsun müsəlman abidəsi qeydə alınmamışdır. Bu böyük faciədir. Artıq Azərbaycanın bu tarixi torpaqlarında azərbaycan türklərinin izi silinir. Lakin bizim bədhaxlarımız bilsin ki, mənbələrdə qalmış yer adları bu torpaqların əzəli Azərbaycan türkünə məxsus olduqunu sübuta yetirir. Bu gün ideolojı cəbhədə qələbə çalmaq üçün Cənubi Qafqazın yeni tarixi konsepsiyası geniş işlənməlidir. Bu konsepsiya mənbələrə söykənərək, yüksək elmi səviyyədə sübut etməlidir ki, Ermənistan Respublikasının yerləşdiyi ərazi Azərbaycanın tarixi ərazisidir. Bunun üçün bizim kifayət qədər elmi potensialımız və əlimizdə tutarlı sübut və dəlillər var. Nə qədər ki, Azərbaycan torpaqları işğal altındadır, bu mənəvi genosid davam edəcək.

### İstifadə olunmuş ədəbiyyat

1. Həsən Mirzəyev. Qərbi Azərbaycanın Dərələyəz mahalı. "elm" nəşr.,Bakı, 2004, 856 s.
2. MDTA, f.290, siy.2, iş 756, vər.23, 49, 53.





3. MDTA, f.290, siy.6, iş 2980, vər.19; f.291, siy.13, iş 8385, vər. 66-69; orada iş 8592, vər. 1-23.
4. MDTA, f.290, s.10, iş 5693, vər.19-25.
5. MDTA f.290, siy. 24, iş 124, vər. 5,6.
6. MDTA F.291, siy 21, iş 255, vər.35-37; orada siy.2, iş 555, vər. 58-75.
7. Гарабаглы Р. Архитектор Кербалаи Сафихан Гарабаги. Баку, 1995.
8. Кулиева В.А. Роль и позиция мусульманского духовенства в социально-политической и культурной жизни Азербайджана в конце XIX-начале XX вв. в ракурсе армяно-азербайджанских политических отношений. Баку, 2004, Изд.Нурлан, 371 с.
9. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Т.3, Баку, 2001, Изд-во XXI YNE, 213 с.
10. Неймат М.С. Надписи Джума-мечети, находящейся в г. Шуше. Изв. АН Аз.ССР. Серия общественных наук, №1, 1961.
11. Неймат М.С. Эпиграфические памятники Карабаха // Азербайджан и азербайджанцы, № 11, 12, 2002.

**Kamil İbrahimov**
*Tarix elmləri doktoru, professor*

## ŞAMAXIDA 1918-Cİ İL MART SOYQIRIMI
*(sənədlər, xatirələr, şahidlər)*

Azərbaycanlılara qarşı mütəşəkkil soyqırımını, etnik təmizlənmə əməliyyatını ermənilər geniş miqyasda I Dünya müharibəsinin başladığı 1914-cü ildən etibarən daha da genişləndirmişdilər. Təkcə onu qeyd etmək kifayətdir ki, Andranik Ozaniyanın başçılıq etdiyi erməni hərbiçiləri 1914-16-cı illərdə Azərbaycanın cənubunda - Xoy, Salmas, Dilman əyalətlərində 150 min, Şərqi Anadoluda, tarixən həmişə Azərbaycan türklərinin yaşadığı Qars, Sarıqamış, Ərdəhan, Kazıman, Ərzurum bölgələrində isə 200 min azərbaycanlı məhv etmişlər.

Bu illərdə İrəvan-Zəngəzur ərazilərində meydan oxuyan qatı millətçi Andranikin başçılıq etdiyi dəstə ağlasığmaz cinayətlər törətməklə yanaşı, minlərlə azərbaycanlını öz dədə-baba yurdlarından didərgin salmış, neçə-neçə kənd və şəhəri xarabazara çevirmiş, yüzlərlə tarixi abidələrimizi məhv etmişlər.

1917-ci il oktyabr inqilabından sonra V.İ.Leninin göstərişi ilə "Daşnaksütyun" təşkilatının ən fəal üzvü, millətçi S.Şaumyan Qafqaz işləri üzrə müvəqqəti Fövqaladə Vəziyyət Komissarı təyin edildi. "Bakını ələ keçirməyə, burada Sovet hakimiyyətini qurmağa və qeydsiz-şərtsiz olaraq onun sərhədlərindən Rusiyanın mənafeyi üçün istifadə etməyə çalışırdı. Elə bu məqsədlə də Rusiya dövlətinin başçısı V.İ.Lenin bolşevizm maskası altında gizlənmiş Stepan Şaumyanı Bakıya xüsusi tapşırıqla göndərmiş və ona çox böyük səlahiyyət vermişdir". Çoxdan belə bir fürsət axtaran Şaumyan gizli şəkildə işə başladı. İlk əvvəl Bolşevik Ordusunun tərkibinə erməni millətçilərini daha çox cəlb etdi. Mənbələrdən bəlli olduğu kimi Şaumyanın Bakıda yaratdığı üç mindən artıq ordunun tərkibini əsasən, terrorçu ermənilər təşkil edirdi. Bundan əlavə, o, bölgələrimizdə "bolşevik ideyaları uğrunda mübarizəyə qoşulan" daha bir çox ermənini silahlandıra bilmişdi (1.s.14)





Bakıda yaradılan bu ordunun əsgərləri elə ilk vaxtlardan azərbaycanlılara qənim kəsilməyə başladılar. "1918-ci ilin yanvar-fevral aylarında özgələrinə çox arxayın olan daşnak zabit və əsgərləri Bakının küçələrində belə bir mahnı oxuya-oxuya gəzirlərmiş: Bir-iki, Qafqaz oldu bizimki, Bir-iki, Bakı oldu bizimki. Dənizdən-dənizə, Qara dəniz, Aralıq dənizi, Üstəlik Kirit adası, Şimal sərhədimiz Voronej şəhəri, Paytaxtımız Tiflis şəhəri, Yaşa, çox yaşa, Andranik paşa... Andranik paşa, səni çox yaşa"...(2.s.46).

Bakıda çox güclü bir terrorçu ordu yaratmış Şaumyan müxtəlif bölgələrdə yaşayan ermənilərlə əlaqələrini daha da möhkəmləndirməyə başlayır. İlk əvvəl, "sağ əli olan" A.Əmiryanın redaktoru olduğu "Bakinski raboçii" qəzeti vasitəsilə, həmfikirlərinə "boşeviklərin sözünü" çatdırmağa cəhd göstərir. 1917-ci ilin fevral-burjua demokratik inqilabından sonra Azərbaycanın bəzi yerlərində, eləcə də Şamaxıda Fəhlə və Əsgər Deputatları Soveti yaradıldı. Sovetin sədri "Hümmət" təşkilatının üzvü Əliheydər Qara-

yev seçildi. Bununla öz siyasətini ört-basdır etmək istəyən S.Şaumyan Sovetə yerli ermənilərdən xeyli üzv daxil etdi.

Tarixi sənədlər bir daha təsdiq edir ki, təkcə fəhlə Əsgər Deputatları Sovetində deyil, Şaumyanın göstərişi ilə Şamaxıda olan bir çox aparıcı idarələrdə vəzifələr ermənilərə həvalə olunmuşdu. Qavril Qaroğlanov Şamaxı qəza rəisinin köməkçisi, Arşak Gülbəndov Şamaxı poçt-teleqraf kontorunun rəisi, Mıkırtıçyan rəisin müavini, Saturyan və Qriqoryan Şamaxı Qəza İcraiyyə Komitəsinin üzvü, Ağamyan (əslən Qarabağ ermənisi) təlimatçı, Suren Mıkırtıçyan (Bakı ermənisi) qəza rəisinin köməkçisi, Petrosyan Qırmızı küçədə yerləşən ən böyük baqqaliyyə mağazasının sahibi, Arakelyan-cühud məhəlləsində çaxır mağazasının sahibi, Tarasyan, Artunyan, Axel Mirzoyan məhkəmədə icraçılar, Samvel Arşak, Martrel Şabanov, Uşakyan dövlət məktəblərində direktor, direktor köməkçiləri və müəllimi idilər.

Azərbaycanın bir çox bölgələri kimi, Şamaxıda da aclıq başladı. Odur ki, Bakı quberniya komitəsinin göstərişi ilə Şamaxıya xüsusi yardım göstərildi. Yenə quberniyada oturanların göstərişi ilə Şamaxıda bu işin icraçısı qatı millətçi, Şaumyanın əqidə dostu Aqambekyana həvalə olundu. Daha dəqiq desək, o, Şamaxıya "ərzaq komissarı" təyin edildi. Aqambekyan göndərilən ərzağı "bənzəri olmayan bir bölgü ilə" paylayır. Yəni, bir payını müsəlmanlara, beş payını ermənilərə verir və ya çox zaman, "ərzağın yolunu kəsir", "Zira ki, bədbəxtanə Şamaxı ərzaq komitəsinə quberniya komitəsi tərəfindən komissar təyin olunmuş Aqambekyan Şamaxıya gələr-gəlməz sabiqdə az-çox Bakıdan gələn ərzağın da yolunu kəsdi" (3.s.81).





1917-ci ilin sonu 1918-ci ilin əvvəllərindən başlayaraq S. Şaumyanın tapşırıqları ilə Şamaxıda böyük mülk, var-dövlət sahibi olan Stepan Lalayev (1905- ci ildə atası və əmisi törətdikləri əməllərin qurbanı olmuşlar) gizlincə Şamaxıda, eləcə də Mədrəsə, Kərkənc, Saqiyan, Zarxı, Meysəri kəndlərində yaşayan ermənilərə, həmçinin də rus kəndinə - Xilmilli, Qızmeydan, Çuxuryurda gizlincə silah, sursat paylatmış, onları başdan - ayağa silahlandıra bilmişdir. "S.Şaumyan Azərbaycanın müstəqilliyinə yol verməmək məqsədilə hər şey etməyə, hətta xalqı kütləvi şəkildə qırmağa belə hazır idi. O, 1918-ci ilin əvvəllərindən başlayaraq, belə bir qırğının həyata keçirilməsi üçün aralarında təbliğat işi aparılmasına başladı. Ermənilər gizlincə silahlı qüvvələri müxtəlif bəhanələr adı altında Bakıda saxlanılırdı".

Ermənilərin gec-tez qırğın törədəcəklərini Şamaxı ziyalıları, idarələrdə çalışan, mal-mülk və dövlət sahibləri - Mahmudbəy Mahmudbəyov, Abbas Səhhət, Camo Cəbrayılbəyli, Hacı İsmayıl Veyisov, Əliheydər Qarayev, Abutalıb bəy Fəttahbəyov, Hacı Tağı Mirzəquliyev, Vahab bəy Rəhimbəyov, Osman bəy Hacı Tağı oğlu, Məmmədtağı Əlizadə, Azad bəy Qocamanbəyov, Xankişi bəy Qafarbəgov, Müfti Mustafa Əfəndi, Hacı Baba Abbasov, Hacı Əbdülxalıq Əhmədov, Eyyub Ağa Veysov, Zibaxanım Veyisova, Mürsəl Hacı Soltan oğlu, Şeyx Hacı Axund, Həqqi Veyisov, Mirzə Ağa, Mirzə Müşfiq və başqaları qabaqcadan hiss etmişdilər. 1918-ci ildə Bakı şəhərini bolşevik-daşnak birləşmələrinin törətdikləri qırğınlar hesabına ələ alan S.Şaumyan, necə deyərlər, fürsəti fövtə verməmiş, azərbaycanlılara qarşı soyqırımını bütün ölkədə həyata keçirməyə başlamışdır.

Bu zaman "Müsavat" partiyası Şaumyanın daşnak ordusuna qarşı imkanı daxilində müqavimət göstərsə də, heç bir nəticə hasil olmamışdır. 1918-ci ilin yazında bolşeviklər Bakını hərbi qalaya çevirmək üçün qətiyyətlə irəliləyirdilər. O vaxt Qafqaz üzrə hərbi inqilab komitəsi Bakıda yerləşdirildi. Sədri milliyətcə erməni olan Q.N.Korqonov idi. Qırmızı Qvardiya və Xəzər Donanması Bakı Sovetinə tabe etdirildi. Cəbhədən qayıdan 8 min erməni əsgərini Bakıda saxlayan və daşnakların hərbi qüvvələrini özünə tabe edən Şaumyan mart ayında 20 minlik silahlı orduya malik idi (4.s.69).

Bakı bolşevikləri ilə erməni millətçilərinin müştərək mübarizəsində hədəf eyni idi: "Azərbaycan milli fikrini boğmaq, millətçi hərəkatı dəf etmək". Həmin illərin hadisələri ilə əlaqədar M.Ə.Rəsulzadə sonralar belə yazırdı: "Əvət, bolşeviklər sözlərini tutmuş daşnaklarla birləşmiş. Fəqət, burjuylara elani hərb edən qatillər füqarası və münhəsirən müsəlman füqarasını üç günün müddətində mərhəmətsizcəsinə qılıncdan keçirdikdən sonra sülh bağlamış, "İsmaliyyə" binasındakı idarənizdən apardıqları Müsavat bayrağını salaraq, "Türkiyənin Bakı cəbhəsi yarıldı", - demişdilər" (5.s.42).

Terrorçu S.Şaumyanın cinayətkar ordusu həmin üç gündə ağır faciələr törətmişdir: "İsmailiyyə" sarayı yandırılmışdır. "Təzəpir" və s. camələr də bombardman edildi. Şəhidlərin sayı minə qədər təxmin edilməkdədir. Qatillərdən qurtulan azərbaycanlılar ətraf köylərə və dağlara çəkildilər". Bundan sonra Şaumyan və Avakyan Azərbaycanın digər bölgələrini də qan içində boğmaq üçün Amazaspın komandanlığı altında böyük bir dəstənin Qubaya, Lalayevin komandanlığı altında isə digər bir qoşun birləşməsinin Şamaxıya hücum etməsi barədə əmr verdilər".





"Martın birinci yarısında Şamaxıdan məlumat alındı ki, Bakıdan Şamaxıya top, pulemyot və böyük miqdarda hərbi sursatla iki mindən üç minədək erməni qoşun dəstəsi gəlir. Şamaxıdan dəstənin qabağına müsəlman və erməni ictimai xadimlərindən ibarət nümayəndə heyəti göndərilir. Onlar bütün silahı, topları, pulemyotları Şamaxı qarnizonuna təhvil verməyi dəstəyə təklif etməli və ümumiyyətlə, dəstənin nə məqsədlə gəldiyini öyrənməli imiş. Nümayəndə heyətinin dəstə ilə görüşü malakan kəndi Qozluçayda (Xilmilli) olmuşdur. Dəstə silahı, topları, pulemyotları Şamaxı qarnozonuna verməkdən imtina etmiş və bildirmişdir ki, onların məqsədi Şamaxı qəzasını quldur dəstələrindən təmizləyib, qəzada anarxiyaya son qoyub, normal həyatı bərpa etməkdir. Dəstə Şamaxının yanından keçib Mədrəsə kəndinə gedəcəyinə söz vermişdir".

Bəxtiyar Məmmədtağı oğlunun dediklərindən: "Silahlı dəstəni qarşılamağa gedənlər arasında Vahab bəy, Azad bəy Qocamanbəyov, Udulu Üşüdlü İbad, atam Məmmədtağı Hacı Ağacəfər oğlu, gənc zabit Tərlan bəy Əlyarbəyov, Məmmədtağı Əlizadə də olmuşdur. Onlar Xilmilliyə daxil olan ordunu və silahları görəndə, məətəl qalırlar (6

Rus-Yapon müharibəsinin iştirakçısı olan Azad bəy nümayəndə heyətinin "Şamaxını quldur dəstəsindən təmizləyəcəyik" deməsinə rişxəndlə cavab verir: - Bu silahla bütün Azərbaycanda olan qaçaq-quldur dəstəni təmizləmək olar. Şamaxıda isə, sizin fikirləşdiyiniz qədər quldur yoxdur".

"Martın 15-də sübh çağı adı çəkilən dəstə Şamaxının yanından keçəndə şəhərin kənarında öz evlərini qoruyan

müsəlmanlar dəstənin şəhərə hücumunu güman edib bir neçə atəş açmışlar. Dəstə də onlara atəş açmışdır. Atışma böyüyüb bütün şəhəri əhatə etmişdir. Lakin müsəlman könüllü dəstəsi rəisinin səyi ilə anlaşılmazlıq aradan götürülmüş və atışma dayandırılmışdır. Bu atışma nəticəsində həm müsəlmanlar, həm də ermənilər tərəfindən bir neçə tələfat oldu. Axşama qədər şəhərdə tam qayda və sakitlik yarandı. Elə həmin gün erməni yepiskopunun təşəbbüsü ilə Şamaxının bütün xanları və ruhanilərin də nümayəndələri yığışaraq and içdilər ki, sülh şəraitində yaşayıb qayda-qanunu nizamlayacaqlar. Bu hadisə ilə əlaqədar ertəsi gün şəhərdə təntənəli yürüş təşkil edilmişdir. Beləliklə, Şamaxıda mart hadisələrinin ilk mərhələsi belə sovuşdu".

Məhşədi Allahverdinin dediklərindən: "Sadəlövh Şamaxı camaatı, hətta, dindarlar, idarə işçiləri, ziyalılar da ermənilərin yalanına inanırdılar. Yoxsa, ayın 18-nə kimi, yəni, iki gün ərzində Şamaxıdan mart ayının 10-15-nə kimi şəhəri tərk edən insanlar ailəsini qırğından xilas edə bildi. Martın 16-dan sonra isə, camaatın çoxu erməni yepiskopunun andına, vədinə inandı və heç kim şəhəri tərk etmədi. Sonradan aydın oldu ki, erməni cəlladları əhalinin çox hissəsini məhv etmək üçün belə şayiə və yalan söyləmişlər. Əgər, şamaxılılar yalana uymasaydılar, sözsüz ki, şəhər əhalisinin 70-80%-i xilas olacaqdı. Yaxşı ki, atam öz yaxınlarını, tanışlarını ayın 15-də şəhərdən çıxartmışdı" (7).

Xalq artisti Ağasadıq Gəraybəylinin (1897-1991) dediklərindən: "Mən 1897-ci il mart ayının 15-də Şamaxıda anadan olmuşam. 1918-ci ildə artıq 5-6 il idi ki, Bakıda yaşayırdıq. Fikrim vardı ki, Şamaxıya gedib, ad günümü və Novruz





bayramını doğmalarımla keçirim. Amma martın əvvəllərində Bakıda qarışıqlıq başlamışdı. Şəhərdə tez-tez müsəlmanlara qəsd edilirdi. Odur ki, martın 10-da Şamaxıya getdim, ziyalı dostlarımla görüşdüm. Onlar hər şeyi mənə çatdırırdılar. Aydın oldu ki, S.Şaumyanın göstərişi ilə Şamaxıda çoxlu silah yerləşdirilibdir. Ermənilər faciə törətməyə tam hazırdılar. Ziyalılar, din nümayəndələri Bakıya xəbər çatdırdılar. Şamaxıda Lalayevin məhəlləsində yaman canlanma vardı. Bəzi varlı ailələr artıq arvad-uşaqlarını Şamaxıdan çıxarıb müəyyən kəndlərdə yerləşdirmişdilər. Onların heç biri bizə konkret söz deyə bilmədilər. mən qohumlarımı məsələdən agah etdim. Heç birimizdə bir dənə də olsa silah yox idi. Ayın 16-da Şamaxıda güclü atışma oldu. Erməni keşişi bildirdi ki, bundan sonra belə iş olmayacaq. Bunu deməklə müsəlmanların başının altına yastıq qoydular. Elə həmin gün mən bir neçə qohumumla Kürdəmir yolu ilə Bakıya qayıtdım. Ayın 19- da Şamaxıda törədilən cinayətlər haqqında Bakıya xəbər çatdı. Mən 1918-ci ilin oktyabr ayının əvvəlində qardaşımla Şamaxıya gəldim. Günorta idi. Şəhəri görəndə dəhşət bizi bürüdü. Şamaxı başdan-başa kül olmuşdu, xarabalığa çevrilmişdi. Lap cəhənnəmi xatırladırdı. Bizim məhəllə - Yuxarı Qala yerlə-yeksan edilmiş, gözəl memarlıq abidəsi olan bənzərsiz məscid yandırılmış, dağıdılmışdı, daş qalağı ilə örtülmüşdü. Tanıdığım evlərinin hamısı yerlə-yeksan olmuş, mülklərdən isə əsər- əlamət qalmamışdı. Küçələrdə adamlar xarabalıqlarda eşələnirdi. Yanmış daşlardan başlarını salmaq üçün daxmalar tikirdilər. Abbas Səhhətin, M.Ə.Sabirin, S.M.Qənizadənin, C.Cəbrayılbəylinin, Müslüm bəyin,

Hacı Qulamın, Məmmədtağı Əlizadənin, tacir Nurunun, Vahab bəyin, Murad Əfəndinin, Məşədi Əsədin (şairmüəllim Gövhər xanımın atası), Həqqi Veyisovun, Həbib bəy Mahmudbəyovun, Hacı Məmməd Əfəndinin, Nəcməddin Şirindilbəylinin və başqalarının evləri yandırılmış, dağıdılmışdı. Bu evləri, mülkləri yandırmaqla erməni daşnakları Azərbaycan elminə, maarifinə, ədəbiyyatına, incəsənətinə, tarixinə əlacı heç zaman mümkün olmayan yara vurdu. Belə ki, o evlərdə elə sənədlər, elə kitablar, elə əlyazmaları məhv edilmişdir ki, onları nə tapmaq, nə bərpa etmək, nə də yenidən yaratmaq mümkün deyildi. Şamaxı tarixinə aid çox sənədləri də məhv etdi erməni daşnakları. Bir həftədən sonra Bakıya qayıtdıq (8).

Vaxtilə 60-cı illərdə Şamaxı arxivi yenidən yandırılanda 1918-ci il qırğınına aid tək-tük sənədlər də məhv edildi. Onda hamı bildi ki, arxivi ermənilər yandırmışlar. Özlərini təmizə çıxartmaq üçün. Bunu hamı, eləcə də dövlət orqanları da bildi. Amma üstünü vurmadılar. Biz də qorxudan susduq". Şaumyanın göstərişinə əsasən ermənilər artıq mart ayının 14-nə kimi Şamaxını ələ keçirmək üçün qəti tədbirlər görülmüşdür. Belə ki, Lalayev, Avetisyan və Hamazaspin silahlı quldur dəstələri və malakan kəndlərində yerləşdirilmişdir. Erməni din xadimləri isə təşvişə düşmüş müsəlmanları aldadıb, arxayınlaşdırırdılar. Mənbələrdən: "Müsəlmanlar erməni yepiskopundan ermənilərin onlara qarşı hücum etməyəcəyi barədə andı eşidib sakitləşir və inanırlar ki, bədbəxtçiliyin qarşısı alınıb. Şamaxıda olan kəndli müsəlman könüllüləri evlərinə dağılışdılar. Erməni yepiskopu martın 17-də Şamaxı şəhər müsəlmanları ilə ermənilərin arasında bağlanmış sülh haqqında erməni rəh-





bərlərinə məlumat vermək üçün Mədrəsə kəndinə gedir".

Bu barədə həmin faciələr gözləri ilə görmüş 42 yaşlı Cəbrayılbəy Cəbrayılbəyov 1918-ci ilin noyabr ayının 11-12-də F.İ.K.-na verdiyi məlumatda deyilir: "1918-ci ilin mart ayında şəhər başçısı Teymur bəy Xudaverdiyevdən və müsəlman milli komitəsindən məlumat almışdır ki, Bakıdan Kürdəmir istiqamətində ordudan tərxis olunmuş 400 nəfər erməni Şamaxıya gəlir. Bakı müsəlman milli komitəsi xahiş edib ki, onları qara fikirlərindən çəkindirsinlər. Müsəlman milli komitəsi Ağsu şəhərinə nümayəndələr göndərdi, lakin səhərisi gün Şamaxıda eşitdik ki, həmin dəstə bölünüb ayrı-ayrı kəndlərə hücum ediblər. Bicov vəLəngəbiz kəndlərini tamamilə yandırılıb. Bunu eşidən yaxın kəndlərdən müsəlman zərərçəkənlərinə köməyə gediblər. Ermənilərlə atışma Bico dağlarında başlayıb. Ermənilər və müsəlmanlar tərəfindən adamlar öldürülüb. Hirslənmiş ermənilər bu barədə Bakı erməni komitəsinə məlumat çatdırıblar. Qısa müddətdən sonra Şamaxıya 3 minə qədər erməni gətirildi. Bundan xəbər tutan yerli müsəlman İcraiyyə Komitəsi, Şamaxı uyezdinin rəisi Hacımalıbəyov və uyezd qazisi Abdulxalıq Əfəndi Əfəndiyev erməni yepiskopunun yanına göndərildi ki, yaraqlıları geri qaytarsın. Lakin erməni yepiskopunun cavabı qəti oldu: "Biz gəlmişik ki, bütün müsəlmanları qılıncdan keçirək". Nümayəndələr belə bir xəbəri eşidib kor-peşiman Şamaxıya qayıtdılar. Lakin o biri gün erməni yepiskopu müsəlman komitəsinə gəlib dedi ki, dəstə ilə danışıb, heç bir müsəlmana zərər dəyməyəcək. Bunu deyən yepiskop Mədrəsə kəndinə getdi. Səhəri gün, yəni, martın 18-də saat 6-da ermənilər Şamaxı şəhərini mü-

hasirəyə alıb atəşə başladılar. Günortaya yaxın şəhərini mühasirəyə alıb atəşə başladılar. Günortaya yaxın şəhərin ən yaxşı məhəllələri yandırılıb külə döndərildi. Həmin axşam müsəlmanlar təslim oldular və tərksilah edildilər. Şəhərdə qarət və talan başladı. Zorakılıq və vəhşilik şamaxılıları qaçmağa məcbur etdi. Mən də qaçdım".

İstefada olan polkovnik Pərviz Əlyarbəyovun dediklərindən: "Atam Tərlan bəy 1918-ci il qırğınının şahidlərindəndir. O, həmin hadisədən danışanda nə qədər özünü ələ almağa çalışsa da, göz yaşlarını saxlaya bilmirdi. Həmişə də deyərdi ki, mən, Məmmədtağı Əlizadə, Teymur bəy Xudaverdiyev, Abdulxalıq Əfəndi, Siracəddin Əfəndi, Cavad bəy, azad bəy tərəfdaşlarımızı inandıra bilmədik ki, ermənilər bizi aldadır, başımızın altına yastıq qoyurlar. Onlar mütləq 1905-1907-ci ilin hayıfını çıxaracaqlar. Biz Lalayevlə evində görüşdük. O, "biz qonşuyuq, dostuq, bir şəhərin sakinləriyik", - deməklə hamımızı aldatsa da, fırıldağı, yalanı, bicliyi gözlərindən açıqca hiss olunurdu. Bir neçə könüllü dəstəsi düzəltmişdik. Həmin dəstədə olanlar hamısı cəsur insanlar idi. Çoxu Şamaxının özündən təşkil olunsa da, dəstələrimizə Əngəxaran, Quşçu, Xınıslı, Təklə, Boyat, Azadbəyli, Udulu və s. kəndlərdən də gələn könüllülər çox idi. Erməni keşişinin, Lalayevin mart ayının 15-16-da verdikləri vədə inananlarımız çox oldu. Ən pisi o oldu ki, könüllülərin də inamı artmışdı bu söylənilənlərə. Və bir çoxu dəstələri tərk edib evlərinə getdilər.

Mart ayının 18-də Mədrəsədən və Lalayevin məhəlləsindən şəhərə atılan toplar qırğının başlanmasını elan etdi. Bir neçə saatın içində şəhər od-alova büründü. Ah-fəryad,





qışqırıq, haray, bağırtı şəhəri başına götürülmüşdü". Haşiyə: vaxtilə Şamaxının iyirmi altı məhəlləsi (bəzi mənbələrdə 32 məhəllə) olmuşdur. Bu məhlələrin bir neçəsində qeyri-müsəlmanlar yaşayırdılar. Özü də erməni, gürcü və cühudlar şəhərin yuxarı hissəsində məskunlaşmışdılar. Maraqlıdır ki, XIX əsrdə şəhərdə yaradılan bir çox idarələr - polis idarəsi, məhkəmə, poçtteleqraf, aptek, rus məktəbi, böyük mağazalar, qonaq evlərinin çoxu həmin məhəllələrdə yerləşirdi. Bu barədə böyük pedaqoq Əliməmməd Mustafayevin xatirələrində oxuyuruq: "Müəllimlərimin hamısı məndən razıdılar. Onların əksəriyyəti ermənilərdir. Doluyev, Saakyan, Topçiye və başqaları. Məktəbimiz şəhərin yuxarı başındadır. Bu hissədə yaşayanların əksəriyyəti ermənilər, ruslar, yəhudilər və bir azı da müsəlmandırlar". "Şəhərdə çoxlu sənətkarlar vardır. Ancaq bunların hər birinin bazarı başqadır; başmaqçı bazarı, dərzi bazarı, zərgər bazarı, çarıqçı bazarı və i. a. Zərgərbazarı ermənilərdən ibarətdir. Bunların içərisində bir nəfər müsəlman tapılmaz. Guya bu sənət ermənilərə məxsusdur. Dərzi bazarı da ermənilərin ixtiyarındadır".

S.Lalayev və eləcə də bir çox erməni mülkədarlarının mülkləri də şəhərin yuxarı hissəsində yerləşirdi. Cinayətin başçılarından olan Lalayev qabaqcadan mülkünün zirzəmisini silah-sursatla doldurmuşdu. Oradan şəhərin müsəlman məhəllələri əl içi kimi görünürdü. Həmin yerdən atılan top düz Cümə məscidinin həyətinə vururdu. Mədrəsə tərəfdən atılan topların vahiməsindən pərən-pərən olan əhali küçələrə axışırdı, başlarını itirmiş insanlar nə edəcəklərini bilmirdilər. Lalayevin evindəki pulemyotlardan

atılan güllələr insanları yerindəcə məhv edirdi. Namərd düşmənin heç kəsə - qadına, qocaya, uşağa belə rəhmi gəlmirdi. Şəhərdə soyqırımı həyata keçirən S.Lalayev azərbaycanlıları qanına qəltan edəndə "uf" da demirdi. Şamaxının azərbaycanlılar məhəllələrində cəsəd əlindən yerimək mümkün deyildi. Müsəlmanların heç biri müqavimətini hiss etməyən erməni daşnakları və malakanlar yavaş-yavaş şəhərə yaxınlaşmağa başlayırdılar. Mənbələrdən: "Axşama yaxın onlar şəhərin ən varlı hissəsi "Piran-Şirvan"a daxil oldular. Evlər yandırıldı. Yanan evlərdən qaçan kişilər, qadınlar, uşaqlar və ümumiyyətlə, küçələrdə görünən hər kəs güllələnirdi. Bundan başqa evlərə soxulur, sakinləri öldürüb, qarət edirdilər, şəhərin küçələrində meyitlərdən qalaqlar yaranırdı (9.s.39-40).

Gecə müsəlmanlar təslim olmaları barədə qalib ermənilərin nümayəndə göndərirdilər. Lakin atəş dayandırılmırdı. "Piran-Şirvan"ın ən varlı müsəlmanlar yaşayan hissələri yanırdı. Səhərisi gün ermənilər və malakanlar müsəlmanların bütün silahlarını alırlar. Buna baxmayaraq, müsəlmanların öldürülməsi və qarət edilməsi dayandırmır, kişilər, qadınlar və uşaqları məhv edir və ya onları ölüm və evlərini yandırmaqla hədələyərək pullarını əllərindən alırlarmış. Küçələrdə döşləri kəsilmiş, doğranmış qadınların meyitləri atılıb qalmışdı. Talan edilmiş əmlak araba və furqonlarla erməni və malakan kəndlərinə göndərilmişdi".

Sənədlərdən, xatirələrindən bəlli olur ki, ermənilər istər şəhərin, istərsə də Şamaxının qeyrət çəkən oğulları, yurd-torpaq qədri bilən övladları silaha sarılmışdır. Vahab bəy Rəhim bəy oğlu, Hüseyn bəy Hacı Əli oğlu, şəhər qla-





vası Teymur bəy Xudaverdiyev, qəza rəisi Azad bəy Qocamanbəyov, Dumanın deputatı Məmmədtağı Əlizadə, uyezd rəisi Əbdülxaliq Əfəndi, Məşədi Əskər Hacı Nuru oğlu, Məmmədtağı Hacı Ağacəfər oğlu, Məmmədsadıq Hacı Ağacəfər oğlu, Qara Nuru, Udulu Üşüdü İbad, Hacı Heydər Hacı Yusif oğlu, Müfti Mustafa Əfəndi, Tərlanbəy Əliyarbəyov, Alxan bəy Əyyubbəyov, Asif bəy Şıxalıbəyov, Sadıq bəy Ağalarbəy oğlu, Talışxan və Qardaşxan qardaşları, Haqqi Veyisov, Şeyxəli Həkimzadə, Kəlbəlayı Yusif, Şıxəlıbəyov, tacir Məşədi Ağa, Məşədi Abılı, Mehdi bəy Hacı Osman oğlu və başqaları erməni cəlladlarına qarşı müqavimət göstərmiş və ya öz var-dövlətləri ilə könüllülərə yardım (silah, sursat, at və s. ilə) etmişlər.

"Erməni zabiti Atarbekovun Mədrəsədə təşkil etmiş çoxsaylı silahlı birləşməsi ilə türk zabiti Osman Əfəndinin (O, I Dünya müharibədinsə, türk-rus cəbhəsində yaralanmış və Şamaxıda məskunlaşmış, qırğın zamanı könüllülərlə silaha sarılmışdır) yaratdığı azsaylı dəstənin Zoğalavay çayı vadisində apardığı uğurlu əməliyyatları diqqətəlayiqdir. Erməni zabiti Atarbekovun çoxsaylı dəstəsi müsəlmanlara qarşı hərəkət edib yaxınlaşanda o, qürurla: «Откройте огонь по приказу Атарбекова», - deyib komanda verdikdə nizami qaydada gələn bölük yarımsərxoş vəziyyətdə hücuma keçən əsgərlərinin çoxu Osman Əfəndinin dəstəsində olan mahir atıcılar Məhəmməd Tağı, Udulu Üşüdü İbad, Məhəmməd Sadiq, Talışxan və Qardaşxan qardaşlarının sərrast atəşləri nəticəsində böyük itki və tələfat verməyə məcbur olmuşlar". Şəhəri dalbadal top atəşinə tutduqlarından həm evlər dağılır, həm də yanğınlar baş verirdi, in-

sanlar tələf olurdular. Məsləhət-məşvərət üçün polkovnik Azad bəy Qocamanbəyovun yanına yığışan Şamaxının üləmaları - Şeyx Hacı Axund, Müfti Mustafa Əfəndi, pristav Vahab bəy Rəhimbəyov, Məhəmməd Tağını çağırtdırıb ona "Hacıoğlu, top Şamaxının kələyini kəsir. Səni də yaxşı tanıyıram, tüfəngini də, - demişdir. (Belçika istehsalı olan tüfəngi Məhəmməd Tağıya 1913-cü ildə toyunda o vaxt kapitan rütbəsində olan Azad bəy bağışlamışdı). Topçunu vurmaq tapşırığını alan Məhəmməd Tağı Zoğalavayçayı keçmiş, qalın ağacların, sonra isə kolların arası ilə sürünə-sürünə müəyyən etdiyi məsafədən əvvəl Topçunu, sonra isə onun köməkçisini vurub, topu susdurmuşdu" (10).

Şəhərin varlılara məxsus ən yaxşı evləri yandırılmış və məhv edilmişdi. Şəhər varlılarından Şıxıyev, Həsənbəyov, Cəbrayılov, Müftin, Hüseynbəyov, Əlimirzəyev, Əfəndiyev, Babayev, Məhərrəmov, Veyisov, Böyükbəy Hüseynov, Hacı Vahab Ələkbərov, Hacı İsrafil Məmmədov Mir İbrahim Qasımov, Zəkəriyyə Əfəndi, Əbdürrəhim Ağa Ağalarov, Teymur Abutalıb bəy oğlu Fəttahbəyov və başqalarının bənzərsiz Şərq üslubunda tikilmiş malikanələri odlara qalanmışdı: "Ermənilər yanan evlərdən çıxmağa cəhd edən qadınları, uşaqları və qocaları güllələyirdilər. Onlar şəhərin küçələrində qarşılarına çıxan bütün azərbaycanlıları öldürmüş, həm də əllərinə keçənlərə dəhşətli və ağlasığmaz işgəncələr vermişlər. Bütün qiymətli şeyləri qarət etmişlər. Gizlədilmiş pul və qızılların yerini müsəlman əhalidən zorla, işgəncə verməklə tələb etmişlər. İstəklərini əldə etdikdən sonra onların sahiblərinə rəhm etmədən öldürmüşlər. Küçələrdə döşləri kəsilərək əzabla öldürülmüş, qarnı yırtılmış, bağırsaqları tökülmüş, ən müdhiş təhqirlərə məruz qalmış qadın meyitləri qalaqlanmışdır. Quldurlar hətta uşaqlara belə rəhm etməmiş, onların başına mıx vurmuş və diri-diri torpağa basdırmışlar".30 Xatirələrdən: "Mən onda uşaq idim. On yaşım olardı. Biz evimizin zirzəmisində gizləndik. Gözlərimlə gördüm ki, adamları güllələyir, sonra küçəyə yığır, üstlərinə xalça-palaz atıb yandırırlar. Hətta körpə uşaqları diri-diri həmin odun içinə atırdılar. Qonşumuz Molla Mirzəgili ailəliklə yandırdılar. Beş gün zirzəmidə qaldıq. Bir gecə fürsət tapıb şəhərdən çıxdıq. Yolda qardaşım (Məşədi Sadıq Əli oğlu) da öldü.





Umud İsrafilovun dediklərindən: "Anam 1918-ci il qırğınından çox danışırdı. Gördüyü dəhşətləri, faciələri elə danışırdı ki, adamın əli yerdən üzülürdü. Erməni cəlladlarından on nəfəri uşaqlı qadınları bir yerə yığır, gözlərinin qabağında körpələrini öldürür, balaca uşaqların cəsədini nizəyə taxırlar. Analardan bir neçəsinin ürəyi gedir. Onları o saat qətlə yetirir, körpələri nizə ilə anaların köksünə tikirlər. O biri qadınları da eləcə. Bundan əlavə, yazıq Molla Musanı meydana gətirirlər? İxtiyar yaşlı kişiyə əmr edirlər ki, "Qur`an"ı cırıb vərəqlərini yerə töküb tapdasın. Kişi deyilən təklifi eşidib - sizi "Qur`an"a tapşırıram deyib, müqəddəs kitabı sinəsinə sıxdı. Molla Musanı nizənin ucu ilə deşik-deşik edirlər. Yazığın fəryadı ərşə qalxır. Bir azdan o, yerə yıxılıb bayıldı. Kafirlər kilsiyə od vurublar. Kişi cızhacızla yandı" (11).

Əliağa Şeyx Mövsüm oğlunun dediklərindən: "ermənilərə qarşı könüllü dəstələr vuruşmuş və düşmənə xeyli də itki vermişlər. Bunlardan biri də Qara Nuru Məşədi

Nəcəf oğlunun dəstəsi idi. Mənim dayım həmin dəstədə olmuşdur. Dayım deyərdi ki, qırğından bir neçə gün əvvəl Nuru bizi – məhəllədə inandığı gəncləri bir yerə dəvət etdi. (Nuru Məşədi Nəcəf oğlu İmamlı məhəlləsindən idi. Ata-babadan varlı olduqları kimi, həm də nəsillikcən pəhləvan imişlər. Atası da, əmisi də gücləri ilə Şamaxıda ad qazanmışlar). Bildirdi ki, ermənilər qırğın törədəcəklər. Hazır olmalıyıq. Bəzi yoldaşlarımız Nurunun sözünə inanmadılar. Bir çoxumuz evimizdə olan bahalı əşyalarımızı və qonaq adı ilə ailəmizi başqa kəndə apardıq. Silahlarımızı gizlətdik. Doğrudan da, bir neçə gün sonra qırğın başladı. İyirmi iki yoldaşla şəhərdən çıxdıq. Boyat kəndində yerləşdik. Səhəri gün Bakı tərəfdən Şamaxıya hücum edən Qozlu malakanları ilə vuruşduq. Düşmən güclü olsa da, möhkəm dayanmışdıq. Bu döyüşdə Qara Nuru bərk yaralandı. Yoldaşlarımızdan on bir nəfəri şəhid oldu. Qara Nurunu götürüb cəbhədən çəkildik. Boyat kəndinə gəldik. Nuru səhər özü vəfat etdi. Onu Boyat qəbristanlığında dəfn etdik (Qara Nurunun qəbri indi də durur). O da yaxşı yadımdadır ki, Nuru son nəfəsində: şəhəri xilas edin, İmamlı məcidini qoymayın yandırmağa," - dedi.

Əliağa Şeyx Mövsüm oğlunun xatirələrindən: Dayım bir də söyləyirdi ki, ermənilər Şamaxını yerlə-yeksan etmişdilər: küçələrdə kəsilmiş başlar, başdan ayrı düşmüş meyidlər, döşü, saçı kəsilmiş qadın cəsədləri, sinəsi xəncərlə parçalanmış, başı güllə ilə paralanmış uşaq meyidlərinin isə sayı-qədəri yox idi. Ən dəhşətlisi o idi ki, şəhərin məhəllə məscidlərinə pənah aparmış insanlar elə oradaca diri-diri yandırılmışlar. Sənədlər, xatirələr bir daha təsdiqləyir ki,





Şamaxını talan edən ermənilərin əhaliyə verdikləri cəzaların da dünyada analoqu olmamışdır. "Şamaxı əhalisinin təhlükəsizliyini qoruya biləcək bir silahlı dəstə belə yox idi. Əhalinin bir hissəsi qorxusundan meşələrin dərinliklərinə çəkilmiş, qalanları isə, Allah evi olan məscidlərdə sığınacaq tapmışdı. Daşnaklar şəhərdə bütün kişiləri qılıncdan keçirdilər. Onlar cavan qızları soyunduraraq öz atalarının və qardaşlarının cəsədləri üstündə oynamağa məcbur edir, sonra isə güllə yağışına tuturdular. Şamaxı məscidlərini mühasirəyə alan vəhşi Lalayevin dəstəsi həmin müqəddəs səcdəgahları içəridə sığınacaq tapmış şəhər sakinləri ilə birgə yandırıb külə döndərdilər. Şamaxı özü boyda nəhəng bir tonqala bənzəyirdi".

80 yaşlı Hacı Əliağa Şeyx Mövsüm oğlu Şamaxıda törədilən vəhşiliklərdən indi də danışdıranda özünü saxlaya bilmir, boğazı tutulurdu: "Biz nəsillikcə din əhli olmuşuq. Belə ki, babam Şeyx Əli Ağa Nəcəfül Əşrəfdə ali ruhani təhsili almış, şəhərin ən mötəbər üləmalarından biri olmuşdur (12).

S.Ə.Şirvani və onun atası Seyid Məhəmmədlə dost olmuşdur. Babamın ömür-gün yoldaşı Seyid Mina Mir Tağı qızı da Seyyid nəslindən olub. Həmişə Mir Tağı ocağı ziyarət yeri olmuşdur. Atamın dediyinə görə, babam, nənəm çox səxavətli insanlar olmuşdur. Bəzən görərdin ki, babam Şeyx Əli Ağa yolda rast gəldiyi bir imkansıza obasını və ya çuxasını bağışlayıb. Nənəm çox zaman qapıya gələn imkansıza da əl tutmaqla yanaşı, ocaqda bişən xörəyi qazanqarışıq verərdi. Babam Şeyx Əli Ağanın şəhərdə çox böyük hörməti vardı. O, vəfat edəndə qış olub. Özü də qalın qar bütün yolu bağlayıbmış. Yüz nəfərdən artıq adam İmamlı məhləsindən Laləzar qəbristanlığına kimi yolun qarını tə-

mizləyiblər. Şeyx Əli Ağa 1914-cü ildə vəfat edib.

Həkimzadə Şeyx Möhsüm Şeyx Əli Ağa oğlu 1883-cü ildə İmamlı məhəlləsində anadan olub. O, ilk təhsilini atasından alıb. Əvvəl İranın Məşhəd, sonra İraqın Nəcəf şəhərində ali-ruhani təhsili alıb. Ruhani təhsili almasına baxmayaraq, o, dünyəvi elmlərə dərindən bələd olmuş, M.Ə.Sabir, A.Səhhət, Qırxayaq, Tərrah kimi şairlər, C.Cəbrayılbəyli, Əliməmməd Mustafayev kimi ziyalılarla yaxın idi. O, 1918-ci il erməni qırğınına kimi İmamlı məscidinin axundu olmuşdur. Bir çox ailələr kimi Axund da qırğın zamanı ailəsini götürüb Şamaxıdan çıxır. Yolda ailəsinin başına olmazın əzablar gəlir. Bir neçə qohumu yolda vəfat edir. Güc-bəla ilə gəlib Qalağqayına çatırlar. Orada həmyerlisi - qaçqın Kəlbəlayi Abdulhüseynin qızı Məleykə xanımla ailə qurur. Şeyx Mövsümün altı övladı - üç oğlu, üç qızı olur. Övladlarının üçüncüsü - Turab, qızları - Gülsüm və Ünbül vəfat etmişdir. İki oğlu - Hacı Əli Ağa, Hacı Mirzə Ağa və qızı Mina xanım sağdır, Bakı şəhərində yaşayırlar. Şeyx Möhsüm bir müddət Sabirabad məscidinin axundu olmuşdur.

Hacı Əli Ağanın dediklərindən: "Atam ərəb, fars dillərini dərindən bildiyi üçün klassik Azərbaycan ədəbiyyatını - Nizami, Xaqani, Nəsimi və Füzulinin külliyyatının demək olar ki, çoxusunu əzbər bilirdi. 1928-ci ildə bir gecə gəlib evimizi yoxladılar. Anamın, nənəmin ziynət əşyaları ilə yanaşı, həmin şairlərin əsərlərini, bir də atamı Bakıya apardılar. Atam altı ay Bakıda həbsxanada (o zamanlar "Tağıyev türməsi", sonralar isə karamel fabriki oldu) həbsxanada saxlanıldı. Ən nəhayət, atamı günahsız bilib azad etdilər.





Ondan sonra həmişəlik Bakıya köçdük. Atam represiyadan qurtarmaq üçün müəyyən yerlərdə fəhlə işləməyə (arayış almaq üçün adını yazdırırdı) başladı. 1942-ci ildə dini icraçılara, bir növ, azadlıq verildi. Bakıda dini idarə təşkil olunandan sonra, 1937-ci ildən yaxasını qurtara bilən Axundlar bura dəvət olundular. İlk Şeyxül İslam Axund Molla Ağa Əlizadə, atam isə onun birinci müavini, novxanılı Axund Molla Əli Ağa Süleymanzadə isə, qazi təyin olundu. Həmin ildə respublikamızda 17 məscid təşkil edilmişdir. Atamın səyinə baxmayaraq, Şamaxı kimi qədim mədəniyyət və dini mərkəzdə məscid açılmasına icazə verilmir. 1954-cü ildə Şeyxülislam Axund Molla Ağa Əlizadə vəfat edir. Onun yerinə atam seçilir. Atam ömrünün sonuna - 1966-cı ilə kimi Zaqafqaziya Şeyxülislamı vəzifəsində çalışır. O, üç dəfə Ümumdünya Sülhü Müdafiə Komitəsinin ali mükafatına layiq görülmüşdür. Atamın soyadı belə gedirdi - Şeyx Mövsüm Şeyx Əli Ağa oğlu Həkimzadə. Həkimzadə ilə bizim heç bir əlaqəmiz yoxdur. Onun belə bir tarixçəsi vardır. Əmim Mirzə Məhəmməd Şeyx Əli Ağa oğlu dini baxışlarla yanaşı İranda oxumuş və həkimlik sənətinə yiyələnmişdir. Tiflisin baş hakimi Şamaxıya qonaq gəlir. Əmim onunla görüşür. Şikayət edir ki, İranda oxuduğu üçün ona iş vermirlər. Baş hakim deyir ki, bu düz işdir. İrandakı tibbi təhsil zəifdir. Bu zaman əmim etiraz edir. Orada əsl tibb elmi öyrədilir. İnanmırsınızsa sübut edim. Sizin babasiliniz var, - deyir. - Bunu nədən bilirsiniz? - deyə rus həkimi təəccüblənir. - Sizinlə görüşəndə əliniz əlimdə qaldığı zaman nəbzinizdən hiss etdim. Özü də bir həftəyə müalicə edə bilərəm. Əmim bir həftənin içində kirpi əti ilə onu müalicə

edir. Sonra onun göştərişi ilə əmimin Şamaxıda həkim işləməyinə icazə verirlər. Əmim deyərdi ki, bu söhbəti Abbas Səhhətə danışanda, o, məni qucaqlayıb öpdü, təbrik etdi, "sən məndən qabağa düşdün", - deyə gülümsədi. 1920-ci ilin əvvəllərində əmim tutulmaqdan qorunmaq üçün sənədlərdə soyadını Həkimzadə yazdırır. Atam da eləcə.

Hacı Əli Ağa rus, ərəb dillərini bilən 80 yaşına çatmış bir ağsaqqaldır. 1918-ci il qırğını barədə ondan bildiklərini, eşitdiklərin soruşdum: Əmim Mirzə Məhəmmədin danışdığı bir əhvalatı indi də unuda bilmirəm. Ermənilər bir neçə tərəfdən şəhəri top atəşinə tutmağa başladılar. Bu atəşlər şəhərin mərkəzinə o qədər də ziyan vurmurdu. Camaatı yaman günə qoyan Lalayevlərin mülkündə yerləşdirilmiş silahlı dəstələr idi. Lalayevlərin mülkündən atılan pulemyotun gülləəri, top mərmiləri, düz Cümə məscidinə tuşlanmışdı. Belə anda insanlar ancaq Allah evinə - məscidə pənah aparırdı. Həmin yolu da Lalayevlərin sərrast atıcıları kəsmişdilər. Qucağı uşaqlı qadınlar məscidə çata-çatda dağın üstündəki (Lalayev mülkü şəhərin ən uca yerində idi) daşnaklar o dəqiqə güllə ilə vururdular. Uşaq ananın qucağından yerə düşürdü. Ananın ölümü ilə ürəkləri soyumayan quldurlar oradan uşaqları da nişan alırdılar. Pulemyot gülləsi körpənin cəsədini parça-parça edib göyə sovururdu. Atam deyirdi ki, türklər gələndən sonra, mən, əmim oğlu Musa Qəni oğlu ilə şəhərə getdik. Artıq yay idi. İydən-qoxudan baş çatdadığı kimi, xarabalıqlarda qalan qol-qıç, baş, cəsəd qalıqları insanı dəhşətə gətirirdi. Bizim evimizin ancaq bir hissəsi uçmuşdu. Qonşumuz Məşədi Nağının eyi tamam məhv edilmişdi. Özümü xarabalığa





sarı verdim. Daş-qalağının koğuşunda Məşədi Nağının çılpaq meyidini gördüm. Bədəndəki dəlik deşiyin hesabı yox idi. Həyətimizə gəldik. Musa ilə bir-birimizə sarılıb doyunca ağladıq. Bu zaman bir türk əsgəri bizə yaxınlaşıb əlini çiynimizə qoydu, təsginlik verdi. Tanış olduq. Əsgərin adı Mehmet idi. Mənim ruhani olduğumu bilib dedi: - Əfəndim, deyirsiniz ki, siz xocasınız. Bildiyiniz kimi, "Qur`an"-da buyurulub ki, halal mal nə yanar, nə də oğurlanar. Axı, sizin evinizin bir hissəsi yanıb. Səbəb nə? - Əfəndim, yəqin ki, məvacibimin haram qatı olubmuş, - deyib atam əsgərə köməklərinə görə minnətdarlıq etdi". Şəhər sakinləri erməni və malakanların şəhəri mühasirəyə aldıqlarını görüb, gecə imkan tapan, silahlı müsəlmanların köməyi ilə ayaqyalın, başıaçıq şəhərdən qaçır, didərgin düşürdülər.

Vahab bəy Rəhimbəyov Şamaxıda pristav olmuşdur. O, ermənilərdən çoxdan şübhələnmişdi. Bir neçə gündən sonra Nağaraxana kəndindən olan malakan dostu İvan Maksimoviç onun yanına gəlir. O, malakan və ermənilərin bəd niyyətləri barədə Vahab bəyə ətraflı məlumat verir. Elə həmin gün Vahab bəy etibar etdiyi bütün yaxın adamlarını bir yerə toplayır, xəbəri onlara çatdırılır. Belə qərara gəlirlər ki, ürək qızdırdıqları bütün adamlara xəbər çatdırsın və əhali şəhərdən çıxarılsın. Əldə olan silahlar etibarlı insanlara paylansın.

Vahab bəy Rəhimbəyov 1854-cü ildə Şamaxıda anadan olmuşdur. O, Şamaxıda mollaxana və mədrəsədə oxumuş, realnı məktəbdə təhsil almışdır. Bir müddət Şamaxıda məhkəmədə işləmişdir, Vahab bəyin üç oğlu (Xanlar bəy, Cəfərqulu bəy, Səməd bəy) iki qızı (Tacə və Lətifə xanım)

olmuşdur. Şamaxıda ixtişaş başlanan kimi ailəsini - arvadı Hacı qızı Qəmər xanımla (1887-1940) birlikdə Ağdaşa göndərmişdi. Yolda iki uşağı - qızı Tacə və oğlu Səməd bəy vəfat edirlər. Dostu Qaraxunlu Əşrəf bəy Vahab bəyin ailəsini hörmətlə qəbul edir. Sonra onu Şəkiyə bəyin dostu Hacı Ağa Cəfərin ailəsinə çatdırır. Vahab bəy şəhərdən çıxmağı, qorxub qaçmağı adına sığışdırmır. Odur ki, nökəri Əli, qulluqçusu Gövhərlə birlikdə evində qalır. Atışma zamanı nökəri Əli də ölür. Vahab bəy son nəfəsinə kimi daşnaqlarla vuruşur, ən nəhayət, o yaralanır. Ermənilərin həyətə girəcəyini görən qulluqçu Gövhər təndirə girir və gizlənir. Yağılar həyətə daxil olurlar. Vahab bəyin başını kəsir və mülkünü talan edib yandırırlar.

Martın 18-də sübh çağı Şamaxı şəhəri ilə yanaşı, onun 3 kilometrliyində olan Əngəxaran kəndinə də qəfil hücum olur. Əngəxaranda ermənilərin törətdikləri vəhşiliklərlə əlaqədar təhqiqat materiallarında həmkəndlilərinin və şahidlərin ifadələrinə görə tərtib edilmiş siyahılarda bu kənddən daşnakların böyük işgəncələrlə qətlə yetirdiyi 237 nəfərin adı var. Əngəxarana soxulan ermənilər və malakanlar kəndi mühasirəyə alaraq oradakı əhalini qırır, kəndi qarət edir, yandırır və sağ qalan əhalini isə əsir alır. Əsir alınmış Əngəxaran sakinlərinin uşaqları azərbaycanlı kəndi olan Məlhəmə aparılıb orada saxlanılır, 88 kişini isə malakan kəndi Çuxuryurda aparırlar. Kəndə çatmamış onlar əsirləri bağda saxlayaraq bir neçə nəfərini güllələyirlər. Qalan 76 nəfəri isə əsir kimi Mədrəsə kəndində yerləşən erməni qərargahının sərəncamına göndərirlər. Yolda iki nəfəri də güllələyirlər. Mədrəsə kəndinə cəmi 74 nəfər sağ azərbaycanlı gəlib çıxır. Gəncədən gələn silahlı dəstələr Şamaxıya girdikdə Əngəxaran kəndindən olan nümayəndələr Mədrəsəyə aparılmış qohumlarının taleyindən xəbər tutmaq üçün Mədrəsə kəndinə gəldikdə onlar kəndin kənarında əngəxaranlı əsirlərin hamısının öldürüldüyünü və meyitlərinin eybəcər hala salındığını görürlər. Meyitlərin qulaqları, burunları, əlləri və ayaqları kəsilmiş, bir çox ölülərin döşlərində yanıq izləri aşkar edilmişdir. Bu da sübut edirdi ki, hələ sağ ikən ermənilər onların sinələri üzərində od qalamışlar. Bundan başqa, dağıdılmış kənddən qaçıb canını qurtara bilmiş Əngəxaran sakinlərinin çoxu aclıqdan, soyuqdan və xəstəlikdən tələf olmuşlar. Komissiyanın məruzəsində göstərilirdi ki, qısa bir vaxtda Əngəxaran əhalisi yarıbayarı azalmışdır.

Fövqəladə Təhqiqat Komissiyasının Şamaxı qəzasının ayrı-ayrı kəndləri üzrə apardığı təhqiqatların – şahid ifadələri, zərərçəkənləri dindirmə protokolları, rəsmi idarələrin əhalinin sayı və əmlaklarının dəyəri haqqında məlumatlar, ölən və yaralananların siyahısı və s. əsasında 53 kənd üzrə tərtib edilmiş yekun aktlarında ayrı-ayrı kəndlər üzrə öldürülənlərin (o cümlədən kişi, qadın, uşaq) sayı və hər bir kəndə dəymiş ümumi zərərin miqdarı göstərilmişdir. Bu kəndlərdən bir neçəsində ölənlərin sayı və dəymiş zərərin ümumi məbləği aşağıdakı kimidir: Nəvahi kəndində cəmi 995 nəfər azərbaycanlı öldürülmüşdür ki, onlardan da 555 nəfəri kişi, 260 nəfəri qadın və 140 nəfəri uşaq idi. Kəndə dəymiş ümumi maddi zərər 60 milyon manat olmuşdur; Yəhyalı kəndində 922 nəfər öldürülmüşdür ki, onlardan da 360 nəfəri kişi, 412 nəfəri qadın və 150 nəfə-

ri uşaq idi, kəndə dəymiş ümumi maddi zərər 22 milyon manat olmuşdur; Qubalı Baloğlan kəndində 553 nəfər öldürülmüşdür ki, onlardan 250 nəfəri kişi, 150 nəfəri qadın, 135 nəfəri uşaq idi, kəndə dəyən ümumi maddi zərər 90 milyona yaxın olmuşdur; Kalva kəndində 500 nəfər öldürülmüşdür ki, onlardan 250 nəfəri kişi, 150 nəfəri qadın, 100 nəfəri uşaq idi, kəndə dəyən ümumi zərər 24 milyon manat olmuşdur; Ağsu kəndində 500 nəfər öldürülmüşdür ki, onlardan 200 nəfəri kişi, 300 nəfəri qadın olmuşdur, kəndə dəyən ümumi maddi zərər 36,5 milyon manat olmuşdur; Tircan kəndində 360 nəfər öldürülmüşdür ki, onlardan da 300 nəfəri kişi, 40 nəfəri qadın və 20 nəfəri uşaq idi. Kəndə dəyən ümumi maddi zərər 21 milyon manata yaxın olmuşdur; Bağırlı kəndində 370 nəfər öldürülmüşdür ki, onlardan da 80 nəfəri kişi, 150 nəfəri qadın, 140 nəfəri uşaqlar olmuşdur, kəndə dəyən ümumi zərər 12,5 milyon manat olmuşdur. Qalan bütün kəndlər üçün tərtib edilmiş aktlarda da rəqəmlər yuxarıda göstərilən qayda üzrə aparılmışdır.

Bütün aktlar Fövqəladə Təhqiqat Komissiyasının üzvləri tərəfindən imzalanmış və möhürlə təsdiq edilmişdir. Bu aktlarda olan rəqəmlər üzrə bizim hesablamamıza görə, Şamaxı qəzasının 53 kəndində ermənilər 8027 nəfər azərbaycanlını qətlə yetirmişlər ki, onlardan da 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaq olmuşdur. Hesablamamıza görə, bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 339,5 milyon manata bərabərdir. Dəymiş maddi zərərlər yandırılmış və dağıdılmış yaşayış evləri və digər tikililərin, qovulub aparılmış və ya məhv edilmiş mal-qaranın, oğurlanmış və yandırılmış ev əşyalarının, aparılmış və





ya məhv edilmiş kənd təsərrüfatı alətlərinin, taxılın, yemin, dağıdılmış üzüm, tut və meyvə bağları və s. üzrə hesablanırdı. Ermənilərin azərbaycanlıların evlərinə, mal-qara, əkin sahələrinə münasibətdə törətdikləri vəhşiliklər, sözün əsl mənasında, vandalizm nümunəsidir. Onlar tutduqları yerlərdə ilk növbədə evləri qarət edib yandırır, mal-qaranı isə sürüb aparırdılar. Bu vəhşilər mal-qaranı sürüb aparmağa imkan tapmadıqda tövlələrin qapılarını bağlayaraq od vurub heyvanları belə diri-diri yandırmaqdan çəkinmirdilər. Üzüm, meyvə və tut bağlarındakı ağac və meynələri vəhşiliklə doğrayırdılar. Bir sözlə, onlar özlərindən sonra heç nə qoymurdular. Ona görə də Şamaxı şəhərinin və Şamaxı qəzasında ermənilərin dağıdıb məhv etdikləri azərbaycanlı kəndlərinin sağ qalmış əhalisi didərgin düşmüş, Azərbaycanın başqa rayonlarına və Bakı şəhərinə pənah gətirmişdir. Təəssüflər olsun ki, Sovet hakimiyyəti illərində xalqımıza edilmiş bu zülm unudulmuş, Stepan Lalayevə bəraət verilmiş, bu işin əsas təşkilatçısı olan S.Şaumyan o vaxtlar Şamaxı qəzasına daxil olmuş rayonlarda ən əziz adam kimi yad edilmişdir. Onun adı küçələrə, kolxozlara verilmiş, şəkilləri idarələrimizdə ən görkəmli yerlərdən asılmışdır. Bu unutqanlığımız isə bizə çox baha başa gəldi. İyirminci əsrin axırlarında yeni imkan tapmış daşnak xislətli erməni vandalları minlərlə say-seçmə oğullarımızı, qızlarımızı, köməksiz qoca, qadın və uşaqlarımızı qırdı, ərazilərimizin 20 faizini işğal etdi, 1 milyondan çox soydaşımız öz ölkəsində qaçqına çevrildi (13).

1918-ci il Şamaxı qətliamları, ümumiyyətlə isə ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasətinin nəticələri-

nin obyektiv tədqiqatı və təhlili yalnız 1991-ci il oktyabrın 18-dən - ölkəmizdə dövlət müstəqilliyinin bərpasından sonra mümkün oldu. Bu sahədə ümummilli lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı müstəsna əhəmiyyət kəsb edir. Əlbəttə, erməni soyqırımının dəhşətli nəticələrinin tədqiqatı uzun illər vaxt tələb edəcəkdir. Hələ arxivlərdə bu hadisələrin dəhşətli mənzərəsini göstərən və hələ də açılmayan yüzlərlə, bəlkə də minlərlə sənəd, erməni qətliamları zamanı öldürülən insanların açılmamış kütləvi məzarlıqları vardır.

**İstifadə olunmuş ədəbiyyat**

1. V.Quliyev. Azərbaycanda erməni zülmü, Bakı, 1996, s.14.
2. V.Həbiboğlu. Azərbaycanın soyqırımının təşkilatçısı. Bakı, 2001, s. 46.
3. V. Arzumanlı. N.Mustafa. Tarixin qara səhifələri. Bakı, 1998. s. 81.
4. A.Səhhət. Əsərləri, II cild, Bakı, 1975, səh. 69.
5. V.Həbiboğlu, Azərbaycan soyqırımı təşkilatçısı, Bakı, 2001, səh. 42.
6. F.Əhmədova. Unudulmamalı faciə, "Azərbaycan" qəz. 3.III.2000.
7. "ELM" qəzeti, 17.01.1992, №3.
8. Z.Vəfa. Keçmişini unudan, gələcəyini itirə bilər, "Azərbaycan" qəzeti, 30.III.2000.
9. Ə.Mustafayev. Göstərilən əsəri, səh. 51. 27 Yenə orada, səh. 39-40.





10. ARDA. F. 1061, iş 1, 56.
11. B.İsmayıllı. "Yeni Azerbaycan" qəzeti, 31 mart, 2000.
12. "Azərbaycan" qəzeti, 30.III.2000.
13. Solmaz Rüstəmova-Tohidi. "Mart 1918-ci il. Bakı. Azərbaycanlıların soyqırımı sənədlərdə". Bakı, 2009.

Alxan Bayramoğlu
*Filologiya elmləri doktoru, professor*

## AZƏRBAYCAN ƏDİBLƏRİ ERMƏNİLƏRİN TÖRƏTDİKLƏRİ SOYQIRIM HAQQINDA

Ermənilərin üç dəniz arasında – "Dənizlərdən dənizlərə" imperiya yaratmaq xülyaları Qafqazda və Anadoluda daim münaqişə detonatoruna çevrilmiş, onları *bu* ərazidə məskunlaşmış türk xalqlarının qanına yerikləmtşdir. Çünki Erməni Milli komitəsinin cızdığı *bu* saxta imperiya xəritəsi həmin xalqların tarixi torpaqlarını əhatə edir. Erməni Milli komitəsi adlı qurum isə əslində daşnaqsütun partiyasının millətçilik xülyalarının ifadəçisidir. Bu təşkilat məqsədinə çatmaq üçün göz dikdiyi ərazidəki türk xalqlarını məhv etmək, qalanını isə deportasiyaya məruz qoymaq qəsdilə bütün vasitələrlə öz millətdaşlarında türklərə qarşı kin və ədavət duyğusunu gücləndirməyə çalışır. Həmin cəhdlər isə təbii ki, milli ədavətə və qırğına gətirib çıxarır. Bu cür qırğınlar 1905-1906, 1918 və 1988-92-ci illərdə baş vermişdir...

Müşahidələr göstərir ki, xalqın həyatında baş verən mühüm sosial-tarixi və milli-mənəvi proseslərdə ictimai fikrin formalaşdırılmasında mühüm rol oynayan ədəbi-ictimai fikir *həmin qırğınlara* də fəal müdaxilə etmişdir. Dövrün poeziya, nəsr, publisistika, dramaturgiya nümunələrində, habelə epistolyar əsərlərdə hadisələrə münasibət bildirilmiş, onun mahiyyətinin açılaraq qarşısının alınmasına təşəbbüslər göstərilmşdir.





Hələ 1905-ci ildə ermənilərin müsəlmanlara qarşı törətdikləri qırğınların İrəvan, Zəngəzur, Qarabağ və digər bölgələrdə davam etdiyi günlərdə M.Ə.Sabir "Həyat" qəzetində dərc etdirdiyi "Müsəlman və erməni vətəndaşlarımıza" başlıqlı şeirində yazırdı:

İki yoldaş, iki qonşu bir vətəndə həmdiyar.
Əsrlərcə ömr edib sülh içrə bulmuşkən qərar,
*Fitneyi-iblisi-məlun oldu nagah aşikar...*
Gör cəhalətdən nə şəklə düşdu vəzi-ruzigar!
*Qətlü-qarət bişümarü şəhrü-qəryə tarümar...*
Ələman, *bu fitnəyə çarə qıl, ey pərvərdigar!*

Şair diqqəti azərbaycanlılarla ermənilərin "əsrlərdən bəri bir vətəndə", eyni torpaqda sülh şəraitində yaşamalarına yönəldərək, onların aralarına düşən milli ədavəti lənətə gəlmiş iblisin qəflətən aşkara çıxması ilə əlaqələndirir. Ancaq *bu* aşkara çıxan lənətə gəlmiş iblisin kimdən və nədən ibarət olması hələ tam aydın deyil. Sabir iki xalq arasında baş verən qətl, qarət, obaların, yurdların xarabazara çevrilməsi hallarını *bu* xalqların cahilliyi ilə əlaqələndirir və onun çarəsinə *ulu* tanrıdan kömək diləyir. Xalqları ülfət və ünsiyyətə çağıran Sabir iblis fitnələrinin törəmə və ayaq tutub yeriməsinin sosial-mənəvi səbəblərini araşdırmağa, dərk etməyə çalışaraq sözünə belə davam edir:

*Fitnələr kim, faş olur, bilməm nə halətdən törər.*
Əql bavər eyləməz kim, adəmiyyətdən törər,
*Muslimiyyətdən və yaxud, erməniyyətdən törər,*
Şübhə yoxdur, cəhldən, yainki qəflətdən törər,
*Bu* müsibətlər bütün büğzü *ədavətdən törər,*
*Bu ədavət mütləqa hali-zəlalətdən törər;*

Göründuyü kimi, Sabir *həmin* fitnələrin insanlıqla bir araya gəlməsini, onun insanlıqdan törəyə bilməsini ağılasığmaz hedab edərək, "əql bavər eyləməz kim, adəmiyyətdən törər", – deyir. O, milli-qırğın davasının, millətçilik hisslərinin müsəlmanlıqdanmı, yəni azərbaycanlılardamı, yoxsa ermənilərdəmi güclu olduğu barədə hələ qəti fikir söyləyə bilmir /burada Sabirin bütün şeir boyu *tutduğu* barışdırıcı mövqedən irəli gələn neytrallığını da nəzərdən qaçırmaq olmaz./ Ancaq kütlələrin cahilliyini, yəni savadsızlıq ucbatından qəflətdə qalmalarını, azərbaycanlılarla ermənilərin arasına səpilən kin və ədavət toxumunu, habelə onların sosial vəziyyətlərinin son dərəcə aşağı olmasını, hər iki xalqın "hali-zəlalət" içində yaşamasını bu qırğına və "lənətə gəlmiş iblisin" fitnə-fəsadının ayaq açıb yeriməsinə rəvac verən asas amillər hesab edir. Ona görə sözqananları, vətəndaş ziyalıları əsl həqiqəti açıb xalqa bildirərək *bütün bu* "zəlaləti dəf etməyə", xalqlar arasında sülhü və dinc yanaşı yaşamağı bərpa etməyə çağırır.

Maraqlıdır ki, M.S.Ordubadi 1905-1906-cı illər hadisələrinə dair yerlərdən özü qədər inandığı müxbirlərdən aldığı 245 məktub və bir çox rəsmi tarixi sənədlərə istinadən yazaraq, 1911-ci ildə vətənpərvər milyonçu Murtuza Muxtarovun maddi köməyi ilə çap etdirdiyi "Qanlı sənələr" /bu əsər 1991-çi ildə "Qanlı illər" adı ilə yenidən nəşr olunmuşdur/ adlı əsərində hadasələrin sosial-siyasi və milli-psixoloji səbəblərini araşdırarkən o da dörd səbəb göstərir.

M.S.Ordubadiyə görə, ermənilərin azərbaycanlılara qarşı *törət*dikləri qırğınlar və onların fəlakət miqyasının genişliyi 1.Erməni Daşnaqsütun komitəsinin müstəbid bir idarə





*üsulu* təşkil edərək, Qafqazda bir neçə terror tədbir həyata keçirməsi, 2.hökumətin yerli məmurlarının *bu* qırğına etinasız munasibət göstərməsi, hətta ondan siyasi və maliyyə cəhətdən faydalanmaq məqsədi güdmələri. 3.müsəlmanların elmsizliyi və hadisələrin müasir, real gedişindən bixəbər olmaları və 4.ermənilərin muxtariyyət qazanmaq (hələ "dənizlərdən dənizlərə" fikri ortada yoxdur), müstəqil dövlətə sahib olmaq məqsədindən və *bu* məqsədin digər xalqların ərazilərinə sahib çıxmaq qəsdi ilə həyata keçirilməsi cəhdlərindən irəli gəlir.

Xalqlar arasına salınan qarşılıqlı ədavət *toxumu* və yaranan intiqam hissindən çar məmurlarının güddüyü maliyyə cəhətdən faydalanması "Molla Nasrəddin" jurnalının 1906-cı ildə nəşrə başladığı elə ilk nömrəsindəki karikaturalardan birində də özünün bədii əksini tapimışdır; karikaturada müsəlman kəndlisi rus məmuruna öz mal-qarasını, erməni isə pul dəstini təklif edərək silah istəyən vəziyyətdə təsvir olunmuşdur. Bundan əlavə "Molla Nasrəddin" jurnslında Çəlil Məmmədquluzadənin 1906-cı ildə çap etdiyi "Qoloşapova", "Qoloşapovun geri çağırılması" və "Vətən məhəbbəti" felyetonlarında müsəlmanların siyasi şüurunun aşağı olması, zülmə hədsiz itaətkarlıqları,vətənpərvərlik hisslərinin zəifliyi və bu işdə din xadimlərimizin rolu, habelə yüksək rütbəli rus məmurlarının erməni müsəlman probleminə münasibətdə tutduqları qərəzli və bitərəf mövqe vətəndaşlıq yanğısı ilə təsvir və ifşa olunmuşdur.

Rus məmurlarınnn erməni-müsəlman davasına ikiüzlü münasibət bəsləyib, ondan özlərinin, fitnəkarlıqla istifadə edib varlanmaları Mir Möhsün Nəvvabın "1905-1906-cı

illərdə ermənı-müsəlman davası" /Bakı,1993/ adlı əsərində də konkret faktlarla ifşa olunmuşdur. Burada erməni terrorçularının hökumət dairələrinə təzyiq məqsədilə əl atdıqları terror tədbirləri, Lalayev kimi varlı və nüfuzlu erməni millətçilərinin cürbəcür üsullarla iki xalq arasına salınan ədavət alovunu qızışdırmaları, məğlub olduqda isə erməni keşişlərinin və millətçilərinin timsah yaşı tökərək müsəlmanlardan imdad diləyib, sülh təklifinə razılıq vermələrini yalvarışla xahiş etmələrini də görürük.

Həm M.S.Ordubadinin, həm M.M.Nəvvabın əsərlərində, həm də Abdulla Tofiq Surun 1906-cı ildə "İrşad" qəzetində dərc olunan "Kış deyirsən getmir, vurursan ölür", "Xoruzun quyruğu görünməyə başladı" başlıqlı məqalələrində bir qayda olaraq göstərilir ki, Erməni milli komitəsinin /daşnaqsütun partiyasının/ təhriki ilə ermənilər azərbaycanlıların hissiyyatlarına toxunaraq onları intriqaya çəkməyə can atmaqla yanaşı gizli surətdə silah, sursat tədarükünə məşğul olurlar. Müsəlmanların onlara etina etməyib müslimliyə, sülh və salamatlığa daha çox meylli olduqlarını, həm də ermənilərin cəsarət və qəhrəmanlıqdan məhrum olmaları qənaəti ilə heç ən adi müdafiə tədbirlərinə belə əl atmadıqlarını göröndə isə terror və iğtişaşlar – həm ermənilərdən, həm də müsəlmanlardan ayrı-ayrı adamları öldürüb günahı azərbaycanlıların boynuna yıxmaq, onlara doğmalarının və həmvətənlərinin ölüm acısını daddırmaq və müsəlman məhəllə və kəndlərini gülləbaran etmək yolu ilə məqsədlərinə çatan ermənilərin Azərbaycan türklərinin rəşadət və qəhrəmanlıqları qarşısında pərən-pərən *olub* rəzil bir görkəmlə imdad diləməsi səhnələri milli qüdrət





və mənəvi zənginlikdən gələn qürur hissi doğurur. Eyni zamanda bizi düşməni zəif və gücsüz hesab edərək onun məkrli və hiyləgərliyini, qəddar və rəzilliyini nəzərdən qaçırıb etinasızlıq azarına tutulmaqdan xilas olmağa da çağırır.

Yadda saxlamaq lazımdır ki, qorxaqlar yaltaq, yaltaqlar isə kinli və qəddar olurlar. Beləlləri ömürlərinin hansı anındasa əllərinə düşən fürsətə həyatları *boyu* beyinlərinə doldurduqları kin və ədavətin ifadəsi fürsəti kimi baxaraq hər cür qəddarlığa əl atır, ələ keçən kimi isə dərhal məzlum, ağlar bir görkəm alıb insanlıq adına imdad diləyirlər. Bütün *bu xüsusiyyətlər* ermənilərdə yüksək səviyyədə cəmləşmişdir.

"Məgər bunların /ermənilərin – A.B./ içərisində idraklı; gələcəyi görən və allahdan qorxanları yoxmudur ki, uzaqgörənlik edib *bu* fitnə-fəsadlara bais olan və özlərinin xeyrindən ötrü aləmi xəsarətə düçar edənlərə öyüd-nəsihət verib onları düzgün yola qaytaralar. Bircə bunlardan sual edən yoxdur ki, ay ermənilər, vilayətdə alış-verişlə məşğul olduğunuz, zavod və karxanalar işlətdiyiniz, *pul* və malınız əlinizdə, çoxunuz milyonçu olduqunuz halda və bir kimsənin sizə gözünüz üstündə qaşın var demədiyi bir vaxtda Qafqaz vilayətinə saldığınız bu fitnə-fəsadlar nə üçündür?» /s.56-57/

M.M.Nəvvab ermənilərin "padşah və böyüklər yanında hörmət sahibi olub, sözlərinin eşidildiyi, özlərinin əhli-əyalları ilə birgə rahat imarətlərdə yaşadıqları halda... bir para cibkəsənin sözünə uyub həm özlərini, həm də qonşularını fəlakətə uğratmalarını" nəzərə çatdırdıqdan sonra ürək ağrısı ilə sözünə belə davam edir:

"Ayrı-ayrı şəhərlərdə və kəndlərdə ermənilərin bais olduğu fitnə-fəsadlar nəticəsində nahaq qanlar tökülmüş, hesabsız dərəcədə mallar talan və qarət edilmiş, hesabsız sayda imarətlər, dükanlar, karxanalar yandırılaraq viran edilmiş, minlərlə kişilər və övrət-uşaqlar öldürülmüş və yandırılmışdır. Bununla da onlar /ermənilər/ hesabsız sayda övrətlərin dul və sahibsiz, uşaqların isə yetim, kimsəsiz qalmasına səbəb olmuşdular». /s.57/.

Müəllif üzünü erməni millətçilərinə, onların başbilənlərinə /əslində başbölənlərinə/ tutaraq təhdid və ittiham dolu xəbərdarlıq edərək yazırdı:

"Bu qədər zülm, sitəmkarlıq, insafsızlıq və özbaşınalıqla *bu* əyalətdə bayrağınızı qaldırmaq istəyirsiniz. Lakin ona nail olmayacaqsınız. Bəli, o şadşahlıq bayrağı ucalarsa, əvvəl onun altında başı-gözu mismarlanmış, burnu-qulağı kəsilmiş, başları daş və çəkiclə əzilmiş, bədənləri zülm odu ilə odlandırılmış şəxslərin övladları gəlib sizdən sorğu-sual edəcəkdir. Bunu yəqin bilin ki, bu zülmlərin əvəzi çox tezliklə onu törədənlərdən çıxılacaq. Allah-tala da bu zülmləri törədənlərə rəhm etməyəcəkdir". /s.57/.

M.M.Nəvvab *bu* sətirləri yazarkən sırf insanlıq, mərhəmət və ədalət mövqeyindən çıxış edir, mənəvi-əxlaqi dəyərlərə əsaslanırdı. Bu zaman ağlına belə gətirmirdi ki, daşnaqsütun partiyası və onun Erməni Milli komitəsinin yaratdığı xof və qorxu ermənilərin beynində və ruhunda bir kabus kimi dolaşmaqdadır. Bu komitənin yeritdiyi siyasətə qoşulmayan və ya ona laqeydlik göstərən, zidd çıxan hər bir erməni öz soydaşları, daha doğrusu, millətçilik və terrorçuluq zəhərinə *tutulmuş* millətdaşları tərəfindən amansızlıqla cəzalandırılırdılar.





Məsələn, 1905-1906-cı illərdə daşnaqların milli qırğın siyasətlərinin Şamaxıda baş tutmadığı, *bu* işdə hər iki tərəfin ziyalıları ilə din xadimlərinin göstərdikləri əlbir fəaliyyətin rolu danılmazdır. 1906-çı ildə "Həyat" qəzetində imzasız çap olunan bir məqalədən /bizcə, M.Ə.Sabirindir./ aydın olur ki, daşnaqlar özlərinin çirkin niyyətlərini həyata keçirmək üçün *bu* bölgədə göstərdikləri cəhdlərin səmərəsizliyə uğramasının səbəblərini araşdırmaq və həmin maneə aradan qaldıraraq Azərbaycanın *bu* qədim diyarını da qan ocağına çevirmək üçün Şamaxıya xüsusi nümayəndə göndəriblərmiş. Lakin məqalədə deyildiyi kimi, "ermənilər ilə daşnaqsütun nəfəratı arasında bir neçə səbəblərə görə hadis olan ixtilafı təftiş etməyə kamitetləri tərəfindən Şamaxıya gələn bir nəfər müfəttişi pristav Rüstəm bəy Çəbrayılbəyov *tutub* naçalnik həzrətlərinə aparmışdı". Həmin müfəttişin rəsmi mandatı olmadığına və şübhə doğurduğuna görə "...Şamaxıda qalmamağına naçalnik tərəfindən hökm *olunmuşdu*".

Məqalədən gətirdiyimiz aşağıdakı sətirlər daşnaqların iç üzlərini açmaq, onların öz məqsədlərinə çatmaq üçün əl atdıqları üsulların eybəçərlik və qəddarlıqla yoğrulduğunu göstərmək baxımından ibrətamizdir. Məqalədə *bu* haqda oxuyuruq:

"Ermənilər bu xüsusda naçalnik divanxanası katiblərindən /piserlərdən/ olan Arşak Ter-Sərkəsov adlı bir nəfərdən bədgüman olduqlarına görə gecələr evlərinə daş atırlarmış. Və iyulun iyirmi səkkizinci kecəsi kamitet xidmətkarlarından olan Artrom Melkum *oğlu* bir neçə ermənilər ilə müttəfiq Arşakı bərk döyüb bir qolunu da əzirlər. Buna görə

də polisə şikayət etdiyindən ermənilər mərqumun /Arşak Ter-Sərkəsovun – A.B./ əleyhinə şəhadət edib müqəssir və bədxasiyyət olduğunu sübuta yetirdiklərindən divanxanadan qovalanır".

Erməni Milli komitəsi təşkilati baxımdan gücləndikcə onun qəddarlığı və soydaşlarına tətbiq etdiyi cəza tədbirləri daha kəskin xarakter alır. Fikrimizə ötən XX əsrin sonlarında Bakıda və Sumqayıtda milli zəmində törədilən ixtişaşlarda vaxtilə Erməni Milli komitəsi ilə əməkdaşlıqdan boyun qaçıran ermənilərin daşnaq nümayəndələrinin təhriki və fəal iştirakı ilə qətlə yetirilməsi faktları əyani sübutdur.

Ermənilərin Azərbaycan türklərinə qarşı yeritdikləri soyqırım siyasətinin içtimai-bədii dərki və ifadəsində humanizm, sülh və əmin-amanlığa, insanlığa çağırış və xalqlararası ülfət və ünsiyyətin bərpasının, onun qorunaraq hər iki tərəfin mənafeyi naminə möhkəmləndirilməsinə çağırış meyl və istiqaməti aparıcıdır. Bunu M.Ə.Sabirin yuxarıda geniş təhlil etdiyimiz şeirindəki

*"Ey süxəndənan, bu* günlər bir hidayət vəqtidir!

Ülfətü ünsiyyətə dair xitabət vəqtidir!» nəqarət də, Cəlil Məmmədquluzadənin bir pərdəli "Kamança" pyesindəki erməni Baxşının kamançada Azərbaycan muğamlarını şövqlə çalmasından təsirlənən Qəhrəman yüzbaşının erməni millətinə olan qəzəbini unudaraq dərin ah çəkib "ötən günləri yad etməsi" də, Cəfər Cabbarlının "1905-ci ildə" pyesində İmamverdi və Allahverdi ailələri arasındakı çoxtərəfli ünsiyyətin əsas leytmotiv təşkil etməsi də, ...göstərir. Əli bəy Hüseynzadənin, Həsən bəy Zərdabinin,





Abdulla Tofiq Surun və b. qələm sahiblərimizin vətəndaş fəallığı ilə qələmə aldığı publisistik məqalələr də, Haşım bəy Vəzirovun, Əhməd bəy Ağayevin çıxışları, təşkilati tədbirləri və diplomatik fəaliyyətləri də erməni millətçilərinin yerlərində oturdulmasına, "atan kazaklardır" hikmətinin aradan qaldırılmasına və sülhün, sabitliyin bərpasına yönəlmişdi. O dövrdə *bu* məsələyə həsr edilmiş mədəni-kütləvi tədbirlərin də əsas leytmotivi azərbaycanlılarla ermənilər arasında dostluq və qarşılıqlı əmin-amanlığın bərpasına çağırış idi. Məsələn, 1906-cı ildə erməni-müsəlman davası zamanı Qarabağda, Şuşada qırğına və talana məruz qalan soydaşlarına maddi yardım məqsədi ilə hazırlıqları tamaşa şamaxılılar Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" pyesini təsadüfən seçməmişdilər. Həmin tamaşa zamanı Hacı Qəmbərlə Qıdı kirvənin dostluğundan bəhs edən səhnənin şövqlə hazırlanmasına və M.Ə.Sabirin həmin tamaşa ilə əlaqədar dərc etdirdiyi məqalədə azərbaycanlılarla ermənilərin dostluğundan bəhs edən epizodun tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmasına xüsusi diqqət yetirilməsinə bu baxımdan təsadüf kimi baxa bilmərik.

Ancaq 1918-ci ildə daşnaqların yaratdığı Erməni Milli komitəsinin əli ilə Azərbaycan türklərinə qarşı törədilən soyqırım tədbiri öz adı, özünün siyasi məzmunu ilə dərk olunmağa başlayır. Bu işdə erməni millətçilərinin lovğalıqla öz güclərinə arxalanaraq bütün simalarını üzə çıxarmaları da xüsusi rol oynayır. Daşnaqların vəhşilikləri, hiyləgərlik və riyakarlıq *dolu* qəddarlıqları, eyni zamanda xarici qüvvələr əlində bir alətə çevrilmələrini Məhəmməd Mura-

dzadənin şahidi *olduğu* 1918-ci Bakı soyqırımına həsr etdiyi "Mart hadiseyi-Əliməsi" /ələmli mart hadisəsi/, Bakı, 1919/ (*bu* əsər 1993 və 2014-cü ildə f.e.n. Sədaqət Məmmədovanın çevirməsi və lüğəti ilə yenidən çap edilib./, Mirzə Bağır Əliyevin gündəlik şəklində yazdığı "Qanlı günlərimiz /1918-1920 Naxçıvan/, Bakı, 1993 /əsəri əlyazmasından çapa f.e.n. Tərlan Quliyev hazırlayıb/, professor Teymur Əhmədovun Abbasqulu bəy Şadlinskiyə həsr etdiyi "Vedibasarın qanlı-qadalı günləri /1918-1919-cu illər/," Bakı, 2000 adlı sənədli povestində, professor Vilayət Quliyevin "Azərbaycanda erməni zülmü" /Bakı,1999/ adlı tədqiqatında və s. bütün tərəfləri ilə görmək olur.

M.Ə.Rəsulzadə isə 1919-cu ildə "İstiqlal" qəzetində dərc etdirdiyi "Unudulmaz faciə" başlıqlı məqaləsində 1918-ci ilin mart hadisələrinin siyasi və irqi mahiyyət daşıması, soyqırım tədbiri kimi həyata keçirilməsini şərh edərək yazırdı:

"Martın 31-i... xainanə bir sürətdə hazırlanmış siyasi faciələrdən birisi idi...O günlərdə...bir inqilab nam və pərdəsi ilə ortaya çıxıb milli bir ədavət icra edilmişdi".

Məlum olduğu kimi, o zaman V.İ.Leninin Qafqazda fövqəladə səlahiyyətli komissarı kimi meydan sulayan Stepan Şaumyan üzdə bir bolşevik kimi, guya, sosialist Rusiyasına xidmət göstərir, əslində isə qatı bir erməni millətçisi olaraq daşnaqsütunun türklərə qarşı yönəltdikləri soyqırım siyasətini həyata keçirirdi. O, Bakını Sovet Rusiyasına qatmaq və buna mane olan siyasi rəqibləri cəzalandırmaq pərdəsi altında müsəlmanları qırıb şəhərdə ermənilərin say nisbətinin çoxluğuna nail olmaq və gələcəkdə özlərinin





məkrli niyyətlərinin təmin edilməsi məqsədini güdürdü. Özü də bu iş "Sovet Rusiyasına "sadiq" ermənilərin mühafizə edilməsi" adı altında görülürdü. Bütün bunları nəzərdə tutan M.Ə.Rəsulzadə sözünə belə davam edirdi:

"Burjuaziyaya elani-hərb edilib nəticədə sosialist, bolşevik və müsavat – heç birisinə fərq qoyulmadan kəsilmək və atılmaq üçün müsəlman olmaq kafi gəlmişdi.

Bu nöqteyi-nəzərdən Şaumyanların Bakıda çıxartdıqları hadisə Leninlərin Petroqrad və Moskvadakı hərəkətlərinə qətiyyən bənzəməzdi. Orada /Petroqrad və Moskvada – A.B./ sinfi bir hərb, burada /Bakıda – A.B./ isə sinif hərbi nam altında milli bir qəttali-əyyam icra olunuyordu.

Daşnaqlar intiqam alıyordu. Bu intiqam hər növ qonşuluq, inqilabdaşlıq, vətəndaşlıq hissini korlatıyor, yan-yana sülh və müsəllimat ilə yaşayan qonşu millətləri sənələrlə bir-birindən ayırıyordu".

Törədilən qanlı faciələrdən, soyqırım tədbirlərindən güdülən məqsədlərdən ən əsası isə Azərbaycan türklərinin gözünü qorxutmaq, onu düşünən başlardan məhrum edərək beyinlərdəki Azərbaycançılıq, muxtariyyət və istiqlalçılıq fikrinin məhvinə nail olmaq idi. Lakin "...martda tökülən qanlar türklərdəki milliyyət və hurriyyəti - Azərbaycan atəşi-müqəddəsini söndürmədi. Bakı küçələrində tökülən qanlar bir «pisuz» yaxılan İsmailiyyə isə bir iplək işini görərək yürəklərdə söndürülmək istənilən hurriyyət məşəlini daha ziyadə tutuşdurdu. Qanlar içində boğulmaq istənilən Azərbaycan fikri bir kərrə müstəqil bir hökumət şəkli ilə təcəlla etdi!"

Bütün bunların nəticəsiydi ki, yazıçı Seyid Hüseynin dərin vətəndaşlıq yanğısı ilə qələmə aldığı "Həzin bir xatirə "İsmailiyyə" hekayəsində həmin binanın tarixinə qısaca nəzər salınaraq, o, "İstiqlaliyyət məfkurəsini, Azərbaycan qayəsini bir ana kibi, məşfəq /Şəfqətli – A.B./ və mehriban bir Ana kibi ağuşunda, qəlbində bəsləyən" müqəddəs bir məkan kimi vəsf olunurdu. Və bildirilirdi ki, "İnqilabdan /1917-ci il oktyabr sosialist inqilabından – A.B./ sonra "İsmailiyyə" binası siyasi cərəyanların mərkəzi oldu. Biirnci Qafqaz müsəlman qurultayı orada açıldı, Birinci olaraq muxtariyyət və ədəmi-mərkəziyyət fikri orada açıldı, meydana atıldı.

Bu tarixdən sonra bütün yığıncaqlar, siyasi müsahibələr, məruzələr həp orada olur, oxunur, dinləniyordu...»

Milli duşmənlərimiz bütün bunları bildiyi üçün xalqımızın azadlıq və istiqlaliyyətə olan son ümid qığılcımını da torpağa gömmək məqsədilə mart qırğınları zamanı İsmailiyyəyə də od vurub yandırmışdı. Həmin səhnəni ədib belə təsvir edirdi:

"...Xalqda doğan muxtariyyət fikrini əbədiyə basmaq üçün *bu* fikrə pərvəriş verən İsmailiyyənin edamına qərar verilmiş, ona düşmən əli ilə od vurulmuşdu. Bu kərrə İsmailiyyə qəzəbindən atəş püskürür, düşməni yaxmaq istəyirdi".

Erməni millətçiləri öz işlərini axıradək yerinə yetirib başa çatdırmaq üçün İsmailiyyənin artıq yararsız hala düşməsi fikrini ortaya ataraq, onun uçurulmasına nail olmağa çalışırdılar. Ona görə S.Hüseyn "Bakılı qardaşı, azərbaycanlı vətəndaşı" İsmailiyyənin görüşünə tələsməyə, onu müdafiə etməyə çağırırdı...





Maraqlıdır ki, bu hekayədən sonra İsmailiyyə mövzusuna həsr edilmiş çoxsaylı əsərlərin təsirilə ictimai fikirdə belə bir yekdil rəy formalaşdı ki, bina müqəddəs tarixi abidə kimi qorunmalıdır... Nəticədə Seyid Hüseyn həmin mövzuya yenidən qayıdaraq 1920-ci ildə "İsmailiyyə" adlı ikinci bir hekayə də yazdı. Bu hekayədə "xəyanət nəticəsində məcburən məğlub olan və məğlub bir qəhrəman kimi öz əzəmətini saxlayaraq düşməninə kinli-kinli baxan "İsmailiyyə"ni qoruyub saxlayan milli azadlıq və istiqlaliyyət məfkurəsi vəsf olunurdu.

"İsmailiyyə" hekayələrində milli məfkurəmizin tarixi məkanı dərəcəsinə yüksələn bir binanın müqəddəsliyi fikri təlqin olunursa, azadlıq mücahidi və istedadlı şair Məhəmməd Hadi mart şəhidlərinin ildönümünə həsr edib 1919-cu il 31 martda dərc etdirdiyi «"Şühədayi-hurriyətimizin ərvahına ithaf" şeirində mart şəhidlərinin qəbirlərinin, istiqlal qurbanları olduqları **üçün** millətin qəlbində qərar tutduğunu qeyd edərək, onların ruhlarının behişti-əlada uçduğuna inandığını bildirirdi. Şair bu müraciətində Bakının azad olunması uğrunda şəhid olmuş türkiyəli qan qardaşlarımızı da nəzərdə tutaraq, onların bizim istiqlaliyyətimizi qorumaq yolunda şəhid düşdüklərini söyləyib ruhları qarşısında baş əyir və yurdlarının – Türkiyənin "behişti-ülviyyət" olmasını arzulayırdı. M.Hadi "Türkün nəğməsi" adlı başqa bir şeirində isə "türkün tökülən qanlarının bihudə (boş, hədər – A.B.) getməyəcəyinə" inandığını bildirirdi.

Bu dövrdə ədəbi-ictimai fikir hər bir hadisə və fəlakətə milli istiqlaliyyətin möhkəmləndirilməsinə aparan növbəti

addım kimi baxırdı. Fikrimizə şairə Üm Gülsümün, Davudun, Əhməd Cavadın, Əlabbas Müznibin, Qafqaz İslam ordusu ilə Azərbaycana gələn türkiyəli şairlərdən Arif Ürfan Qarosmanın şeirləri, Üzeyir Hacıbəyovun "Hekayənəvis" imzası ilə çap etdirdiyi "Könullu" hekayəsinin qəhrəmanı Məşədi Murtuzanın qaçqınlıq psixologiyasından milli istiqlaliyyətimizi qoruyan könüllü mərtəbəsinə yüksəlməsinin bədii əksi və s. misaldır.

1918-19-cu illərdə milli ədəbi-ictimai fikri Azərbaycan türklərinin soyqırımına yönəlmiş erməni məsələsinin sosial-psixoloji kökləri, istinad nöqtələrinin araşdırılması və problemin diplomatik həlli yolları da narahat edir. Məsələn, Yusif Vəzir Çəmənzəminli 1919-cu ildə "Xarici siyasətimiz" ümumi başlığı ilə dərc etdirdiyi məqalələr silsiləsinin birini "Ermənistan və biz" adlandırıb. Burada ədib erməni məsələsinin tarixi ərzində onların Avropaya davamlı müraciətlərinin "xristianlıq naminə, dindarlıq adına bağlanmalarına" baxmayaraq şirin vədlərdən başqa heç nə ilə nəticələnmədiyinə diqqəti cəlb etdikdən sonra yazır: "Məsələ aydındır. Siyasətdə hissiyyat yoxdur. Siyasət nə din, nə millət, nə insanpərvərlik - heç bir şey tanımaz. Siyasətin əsl əsası faydadır. Və bütün siyasi və beynəlmiləl münasibətə dair məsələlər fayda nöqteyi nəzərindən həll olunur..."

Yusif Vəzir "Siyasət kin və intiqam bilməz", - deyə Ermənistan rəhbərlərini "köhnə ədavəti unudaraq, azərbaycanlı həmkarlarına doğru addım atmağa çağırır. Və əlavə edir ki, Ermənistan rəhbərləri əmin olmalıdırlar ki, biz erməni dərd və istəyini avropalılardan tez başa düşərik".





Əgər 1918-ci ilin əvvəllərində fələkzədə şairimiz Abbas Səhhət qələmə aldığı məqalələrində həyəcan və narahatlıqla daşnaqların Şamaxıda milli qırğın törətməyə ciddi hazırlıq gördüklərini yazıb, buna qarşı ayıq-sayıq dayanıb tədbir görməyə çağırırdısa, 1980-ci illərin **əvvəllərində** xalq şairi Hüseyn Arif üzünü qədim Göyçə mahalındakı soydaşlarına tutaraq "Göyçəlilər, dağılmayın Göyçədən!"- deyə kədər və həyəcan dolu vətəndaş harayı qaldırdı. Göyçəlilər ona "Hüseyn Arif, dağılmarıq Göyçədən!" cavabını versələr də, Erməni Milli Komitəsinin məkrli planının növbəti mərhələsi də baş tutdu - azarbaycanlılar növbəti soyqırıma məruz qalaraq dədə-baba torpaqlarından deportasiya edildilər.

Qeyd edək ki, ermənilərin bizə tətbiq etdikləri soyqırımda məruz qaldığımız məhrumiyyətlərin, zülm, işgəncə va itkilərimizin miqyası erməni qəddarlığından əlavə, həm də milli unutqanlığımız və hədsiz ürəyiyumşaqlığımızla əlaqədardır. Digər tərəfdən yetmiş illik sovet təbliğatı və siyasəti türk xalqlarının başı altına beynəlmiləlçilik yasdığı qoyduğu və onları hər cürə repressiya alovunda yandırdığı halda şair Əli Nəzmi demişkən "erməniyə imperiyada darğanlıq" vermişdi. Odur ki, zaman-zaman bir tərəfdən ərazilərimiz qəsb olunur, digər tərəfdən də nəfərlərimiz, düşünən beyinlərimiz repressiyaya məruz qalırdı. Bütün bunlar istedadlı xalq şairi Nəriman Həsənzadənin "Ocaq yeri" poemasının mövuzsuna çevrilir. "Oçaq yeri" Azərbaycana qarşı tətbiq edilən həm ərazi, həm milli, həm də mənəvi-psixoloji soyqırıma qarşı vətəndaş şairin poetik bəyanatı, tarixi ittihamı kimi səslənir.

1990-cı il yanvar qırğınından ruhlanan ermənilər martın 24-də Qazağın Bağanıs Ayrım kəndində sözün həqiqi mənasında soyqırımın bütün tərəflərini tətbiq etdilər; son dərəcə qəddarlıqla kəndin dinc əhalisini – kişi, qadın, hətta güllələnmiş ananın köməksiz qalan iki aylıq körpəsini belə qəddarlıqla qətlə yetirdikdən sonra dama doldurub od vurmuşdular. Bu cür vəhşiliklərlə onlar yerli əhalinin gözünü qorxudub dədə-baba torpaqlarına sahib çıxmağa çalışırdılar. N.Həsənzadə "Beynəlxalq məhkəməyə, bütün millətlərə" şeirində erməni xislətini, onun türk qanına yeriklənməsini dünyaya belə car çəkir:

İki aylıq bir çağa,
həsrət qaldı qundağa,–
*atdılar*
*bir oçağa,...*
Çağanı yox, milləti
*yandırmaq istədilər.*
*Günahı, xəyanəti*
*nəydi bəs?*
*Milliyyəti! –*
*bir Məhəmməd ümməti,*
*qundaqda bir müsəlman,*
*Azəri-türk balası.*

Lakin ermənilərin növbəti soyqırım əməlindən dünya xalqlarının xəbər tutmaq istəməməsi belə şairi kədər və bədbinlik girdabına salmır. Əksinə onun yaşamaq və mübarizə əzmini artırır. Öz soydaşlarına da bu ovqatı təlqin etməyə çalışan Nəriman Həsənzadə bildirir ki, çoxları, o cümlədən ermənilər üçün





*Sən qundaqdan, bələkdən*
*təhlükəsən, ey vətən!*

Şair Sərvinaz Həsənlinin "kecələr *yuxusuna* ona görə Xocalı girir" ki, həmin şəhərdə də erməni və rus qəddarlığı ilə

*Od-alov içində körpələr yandı,*
*Ahımız, naləmiz ərşə dayandı.*

Lakin bədbinlik, ruh düşkünlüyü Sərvinaz xanıma da yaddır. Çünki, bu gün "Xocalıda düşmən görmək onun-çün yamandı". Ona görə də "Xocalı" poemasında üzünü soydaşlarına tutub onları mübarizəyə, əzmkarlıqla haqqını geri qaytarmağa çaqırır:

*Necə dözürsən,*
*Türk oğlu,*
*Necə dözdün?..*
*Yaşamağı bu anları?*
*Yerdəmi qalacaq Türk oğlu*
*tökülən şəhid qanları?*

S.Həsənlinin çağırış səsi bir hayqırtıya, qəzəbdən kükrəyən nərəyə çevrilir. Bu hayqırtı faciənin ağırlığından güç alır. Ona görə ki, erməni-rus qəddarlığı nəticəsində

*Diri-diri yanan evlər,*
*Evlərdə nəsillər,*
*Meşələrdə səssiz donmuş körpələr*
*Göz yaşı kimi əkilib bu torpağa,*
*Qarabağa,*
*Göyərib,*
İNTİQAM bitib...

Qarabağ müharibəsinə, türk qanına yerikləyən ermənilərin xislətinin açılıb ifşa olunmasına daha fəal müraciət edən ilhamlı, vətəndaş yanğılı, tribun şair Zəlimxan Yaqub təkcə "Laylay, Xocalım, lay-lay" – deyə qəm, kədər nəğməsi çalmır. "İkicə gün qonaq saxlasan, ev-eşiyinə yiyə çıxan" erməni xislətinin, onun türk qanına yerikləyən qanlı dişlərinin, kin və hiylə dolu beyninin bəşəriyyətə təhlükə olduğunu, "dənizlərdən dənizlərə Ermənistan qurmaq" iştahı və min cür tühaf əməllərlə Qafqazı qan ocağına çevirdiyini, eyni zamanda xarici ölkələrə qaçıb riyakarcasına özünü zavallı, rəzil görkəmə salaraq, onlardan dəstək aldığını "Haqq-ədalət" poemasında belə ifşa edir:

*Nifaq salan, ara vuran,*
*Qafqaz adlı bir cənnətin*
*Neçə yerdən ürəyinə, kürəyinə*
*zərbə vuran, yara vuran.*
*Nə qocaya, nə uşağa,*
*Nə qadına rəhm etməyən,*
*Gəlinlərin naləsinə,*
*Körpələrin fəryadına rəhm etməyən,*
*Ona-buna məndən yaman qandıranlar,*
*Məni kənd-kənd, şəhər-şəhər yandıranlar,*
*Qündaqları cidaların şiş üçünda oynadanlar,*
İnsanların boğazına tökmək üçün
*Qır qazanı qaynadanlar,...*
*Paris deyib uça-uça,*
*Moskvaya, Nyu-Yorka qaça-qaça*
*Xəyanətlər, çinayətlər meydanında*

Ermənilər istəyirlər ki, öz məkrli niyyətini sərbəst şəkildə həyata keçirmək üçün özünə daha geniş bir yol açsınlar. Lakin şairin təhdid və ittiham dolu vətəndaş hayqırtısı əzəmətli göy gurultusunu andırır.





Çunki onun vətəni Azərbaycan müstəqil və qüdrətli bir ölkədir. Və bu qüdrətli ölkə "öz haqqını qaytarmasa yatmayacaq". Arxasını belə bir əzəmətli mənəvi, hüquqi "Vətən dağı"na söykədən Zəlimxan Yaquba ürək verən, təpər verən başlıca amillərdən biri də bu mustəqil ölkənin, bu müstəqil millətin artıq sahibsiz olmadığıdır. Bu sahib, bu sərkərdə isə ulu öndər Heydər Əliyev idi. Təsadüfi deyil ki, Heydər Əliyevin orijinal və uğurlu diplomatik gedişi ilə Lissabonda Ermənistan təkləndi. Z.Yaqub bu tarixi hadisənin verdiyi İlham işığında ermənilərin Azərbaycan türklərinə qarşı yeritdikləri soyqırımın tarixi-coğrafi mənzərəsini canlandıraraq onları təhdid və ittihamla belə xəbərdar edir:

*...Bil ki, daha bu millətin, bu dövlətin*
*Sahibi var!*
*Yer üzünün alimaqam məclisində*
*Ermənistan təkləndisə,...*
*...Şamaxıda, Lənkəranda, Naxçıvanda*
*Axıtdığın al qanların cavabıdır!*
*Bakı, Göyçay, Gəncə boyu*
*Qaldırdığın tufanların cavabıdır,*
*Quba, Şəki, Şirvan boyu*
*Nalələrin cavabıdır:...*

Getdikcə bu ruhda ədəbi-ictimai fikri çulğalaması təqdir olunmalıdır. Son dövrdə erməni soyqırımına həsr edilmiş elmi və publisistik *əsərlərdən professor, şair-publisist alim, İsmayıl Vəliyevin "Qara gündəlik", "Dünya susur, tarix sus-*

*mur" və b. çoxsaylı kitabları, yazıçı Məmməd Orucun "Kor" romanı*, Fəridə Ləmanın "Torpağın yaddaşı", Elçin İsmayılın "Bu, əsl faciə idi" adlı sənədli-publisist kitabları ilə yanaşı M.S.Ordubadi, M.M.Nəvvab, Mirzə Bağır Əliyev, Məhəmməd Muradzadə və başqalarının əsərlərinin yenidən nəşri milli-tarixi yaddaşımızın bərpası yolunda atılan uğurlu addımlar kimi qiymətləndirilməlidir. Yaxşı olardı ki, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasətin verdiyi siyasi təpərə dayanmaqla, ədəbi və elmi ictimaiyyətimizin erməni soyqırımının ifşası, xalqımızın milli-tarixi yaddaşının oyaq saxlanılması, onda mubarizlik və torpağa sahiblik hissinin aşılanması, səsimizin, tarixi həqiqətlərin beynəlxalq aləmə çatdırılması probleminə müraciətləri daha sürəkli, davamlı və məqsədyönlü xarakter alsın. Bu, hər bir azərbaycanlının, hər bir Azərbaycan türkünün milli vətəndaşlıq borcudur.

## İstifadə olunmuş ədəbiyyat

1. Sabir M.Ə. hophopnamə. Tərtib edən ön söz və qeydlərin müəllifi Alxan Bayramoğlu (Məmmədov). Bakı, Təhsil nəşriyyatı 2012
2. Səhhət. A Seçilmiş əsərləri tərtib edən və ön sözün müəllifi Kamal Talıbzadə. Bakı, Lider nəşriyyatı 2005
3. Məmmədquluzadə C. Əsərləri 6 cilddə. 2-ci cild Tərtib edənlər Əziz Mirəhmədov, Turan Həsənzadə. Bakı, yazıçı 1984
4. Muradzadə M. Mart hadiseyi-əliməsi. Ərəb əlifbasından çevirib nəşrə hazırlayan: Sədaqət Məmmədova. Bakı, 1993





5. Nəvvab N.N. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı,1993
6. Həsənzadə N seçilmiş əsərləri. Bakı, Şərq-Qərb nəşriyyatı 2004
7. Ordubadi M.S. Qanlı sənələr. Bakı, 1991
8. Sur A. Kış deyirsən getmir, vurursan ölür. "İrşad" qəzeti 26 yanvar 1906
9. Sur A. Xoruzun quyruğu görünməyə başladı . "İrşad" qəzeti 27 fevral 1906

**Atamoğlan Məmmədli**
**Tarix elmləri doktoru, professor**

## DAŞNAKLARIN QƏRBİ AZƏRBAYCANDA QIRIM SİYASƏTİ

1917-ci ilin oktyabr çevrilişi nəticəsində çarizmin devrilməsindən sonra Rusiya imperiyasının dağılması erməni daşnaqlarının bəzi planlarının həyata keçirilməsi üçün əlverişli zəmin yaratdı. Onların əsas planı isə tarixi Azərbaycan torpaqlarında türklərin soyqırımını təşkil edərək boş qalmış torpaqlarda özlərinə dövlət yaratmaq üçün ərazi əldə etmək idi. Bu dövrdə yaradılmış Zaqafqaziya Federasiyası bir erməni korpusu təşkil etmişdi. Bu korpus digər erməni bandit dəstələrilə birlikdə yenidən Ərzurum, Ərzincan, Bayburt və Gümüşxanada dinc türk əhalisini məhv etmək əməliyyatlarına başlamışdı (1).

Ermənilər müsəlmanlara qarşı etdikləri zülm və qətliamla, başlanğıcda onlarıtəşviq edən rus zabitlərini və yazarlarını belə heyrətə salmışdılar. 1917-1918-ci illərdə ermənilərin törətdikləri vəhşiliklər və qətliamlar rus konsulları və zabitlərindən general Odişelidze, general nikolayev, general Bolkovitinov, general Prjevalski, general Mayevski, podpolkovnik tverdoxlebov, doktor Xoroşenko və bir çox başqalarının öz məruzələrində, xatirələrində, teleqram və məktublarında qəti bir şəkildə öz əksini tapmışdır.

Birinci dünya müharibəsinin sonunda erməni daşnaq birləşmələri tərəfindən İrəvan, Eçmiədzin, Zəngəzur, Naxçıvan, Şərur və Dərələyiz qəzalarının kəndlərində azərbaycanlılara qarşı yüzlərlə qanlı cinayətlər törətdilər. Ermənilərin əlində olan mətbuat orqanları bu haqda xeyli materiallar dərc etmişdilər. Erməni daşnaq başçılarından biri olmuş A.Əmiryan yazırdı ki, «təkcə İrəvan quberniyasında daşnaqsakanlar tərəfindən 200 azərbaycanlı kəndi dağıdılmışdır» (2).





Azərbaycanlıların soyqırımını törətməkdə daşnaqların məqsədi dövlətçiliyi olmayan ermənilər üçün süni şəkildə müsəlmanlardan təmizlənmiş boş bir ərazi yaratmaqdan ibarət idi. Yalnız belə bir ərazidə ermənilər özləri üçün muxtar bir qurum yaratmaq iddiası ilə çıxış edə bilərdilər.

Azərbaycan türklərinin erməni daşnaqları tərəfindən dağıdılmış, yandırılmış və məhv edilmiş yaşayış məskənlərini öz gözləri ilə görmüş amerikalı zabitlər olduqca maraqlı məlumatlar vermişlər. Osmanlı imperiyasında Amerika qüvvələrinin komandanı admiral Mark Bristol öz gündəliyində yazırdı ki, «Mən general Dro ilə birlikdə xidmət etmiş öz zabitlərimin məlumatlarına əsasən bilirəm ki, müdafiəsiz kəndlər əvvəlcə bombalanır, sonra zəbt edilir, qaçıb gedə bilməmiş sakinlər vəhşiliklə öldürülür, kənd talan edilir, bütün mal-qara aparılır və sonra isə kənd yandırılırdı. Müsəlmanlardan yaxa qurtarmaq üçün bütün bunlar sistematik şəkildə həyata keçirilirdi» (3).

Beləliklə, Qafqazda yaranmış xaosdan istifadə edən erməni daşnaqları tarixi Qərbi Azərbaycan torpaqları hesabına özlərinə dövlət qurdular. Səmyuel haqlı olaraq yazırdı ki, «üç min ildən artıq bir müddətdə dövlətçiliyi olmayan, indii isə erməni reallıqlarına deyil, yalnız erməni iddialarına əsaslanaraq ermənilərin dövlət yaratmağa çalışması

nəticəsində müttəfiqlərin müstəqil Ermənistan yaratmaq qərarı qəribə görünürdü» (4). Təsadüfi deyildi ki, Fransanın baş naziri Klemanso bu toplumla bağlı demişdi ki, «qaynayıb-qarışmaq üçün ermənilər qorxulu xalqdır; bir qayda olaraq onlar çoxlu pul istəyir, əvəzində isə heç nə qaytarmırlar» (5).

Alman işğalçılarına arxalanan Daşnaqsütun 1918-ci il mayın 28-də Erməni Milli Şurası adlanan qurumda «müstəqil» Ermənistan Respublikasının yaradılması haqqında qərar qəbul etdi. Erməni tarixçisi Lalayan yazırdı ki, «Milli» Şura, özünü «erməniqəzalarında vahid hakimiyyət» sayaraq hökumət təşkil etməyi Ov. Kaçaznuniyətapşırdı. Ov. Kaçaznuni Ermənistana gedərək başkəsən Aram paşa (daxili işlər naziri),erməni xalqının cəlladı Al. Xatisyan (xarici işlər naziri), avantürist Axverdov (hərbinazir) və başqalarından ibarət tərkibdə daşnaq hökuməti yaratdı (6). Lakin yaranmış bu hökumət qondarma bir qurumdan başqa bir şey deyildi. Admiral L.Bristol Markin ermənilərin heç bir baza və zəminə söykənməyən, əhalinin az bir hissəsini təşkil etdikləri tarixi Qərbi Azərbaycan torpaqlarında hökumət qurmaq cəhdlərilə əlaqədar olaraq həyəcanla yazırdı ki, «mənim bir diplomat kimi ermənilərə qarşı heç bir qərəzim yoxdur, lakin onlara yazığım gəlir və müstəqil Ermənistanın yaradılması ideyasına inana bilmirəm ...İnana bilmirəm ki, ermənilər özgə xalqları idarə edə bilsinlər. Əgər hansısa bir millət ölkənin bu hissəsindən ermənilərin idarəçiliyi altına düşərsə, onlar mütləq ermənilərin zülmünə və zorakılığına məruz qalmalı olacaqlar» (7).





Xəzinəsi boş, iqtisadi bünövrəsi olmayan, dövlətçilik və dinc quruculuq vərdişləri olmayan daşnaq liderləri öz fəaliyyətlərinə nədən və necə başlamaq lazım gəldiyini bilmirdilər. Məhz buna görə də Hovanesyan qeyd edirdi ki, erməni nümayəndələri «Ermənistan üçün ayrılmış balaca qayalıq ərazidə dövlətin mövcudluğu üçün nələr edilməlidir?» (8). sualı qarşısında aciz qalmışdılar.

Erməni daşnaq hökumətinin paytaxt şəhəri olmadığına görə erməni rəhbərlərinin dönə-dönə xahişindən və acizanə yalvarışlarından sonra Azərbaycan Xalq Cümhuriyyəti İrəvan şəhərini xüsusi fərmanla Erməni daşnaq hökumətinə bağışladı. (Xatırladırıq ki,Müsiəqil Azərbaycan Respublikası bu gün də həmin qərarı ləğv etmək və İrəvan şəhərinə ətraf əraziləri ilə birlikdə ərazi iddiası ilə çıxış etmək hüququnu özündə saxlayır. Çünki, bu addım o zaman müəyyən şərtlər daxilində mehriban qonşuluq naminə atılmışdı).

Amerikan müəllifi Səmyuel yazırdı ki, «Mövcudluğunun ikinci günü Azərbaycan İrəvan şəhərini Ermənistan Respublikasına verdi. Axı, müstəqilliyini elan etsə də,Ermənistanın siyasi mərkəzi yox idi. Yeni ölkə olan Ermənistan cəmi 400.000 nəfər sakini ilə yalnız İrəvan və Eçmiədzin rayonlarından ibarət idi» (9).

Bu dövrdə Ermənistanın vəziyyətinə toxunan Hovanesyan yazırdı ki, «nəticə etibarı ilə Ermənistanın bir ölkə kimi yaşaması ağlabatan görünmürdü. O heç də tarixi Ermənistanın uğrunda əsas mübarizə getmiş böyük yaylasında deyil, bütün mahiyyətində rus möhürü olan ucqar əyalətdə mövcud idi. Gərək Qafqazdakı yarım milyon Türkiyə

ermənisi üçün hökumət və azad edilmiş Ermənistanın paytaxtı İrəvanda deyil, ya Karində (Ərzurum), ya Vanda, ya da hətta Kilikiyanın əsas şəhərində yerləşəydi. Onlar sonsuz səbrsizliklə indi qərb tərəfdəki üfüqün arxasında qalmış evlərinə qayıtmaq üçün imkan gözləyirdilər»(10).

Beləliklə, 1918-ci il iyulun ortalarında Erməni daşnaq hökuməti Tiflisdən İrəvana köçdü. Orada Daşnaq partiyasının rəhbərliyi altında iri erməni ticarət-sənaye burjuaziyasının diktaturası quruldu. Lalayan sonralar yazırdı ki, «əksinqilabi daşnaq hökumətinin daxili siyasətinin mahiyyəti ölkə zəhmətkeşləri arasında milli nifrəti qızışdırmaqdan, Ermənistan ərazisində yaşayan azərbaycanlı əhalini fiziki cəhətdən məhv etməkdən ibarət idi» (11). Bu sözləri başqa xalqın nümayəndəsi deyil, məhz erməni alimi söyləyir. Lalayan daha sonra yazırdı ki, əksinqilabi daşnaqsütun 1918-ciildə Ermənistanda ağalığa nail olaraq ölkə təsərrüfatını bünövrəsinədək dağıtdı, fəhlə və kəndlilərin inqilabi çıxışlarını qan içində boğdu. Təsadüfi deyil ki, Daşnaqsütun özünün 30 aylıq ağalığı dövründə (may 1918 – noyabr 1920) Azərbaycan əhalisinin 60 faizini yer üzündən sildi (12).

1918-ci il iyunun 4-də Batum müqaviləsindən sonra Ermənistan hökumətinin payına düşən 9 min kv. Km ərazidə 324.285 nəfər əhali vardı. Erməni müəllifi Ananikyan qeyd edirdi ki, «Daşnaq hökuməti müqavilə imzalandıqdan sonra İstanbula göndərdiyi teleqramda Ənvər paşaya, Tələt paşaya, şəxsən Sultana Ermənistana azadlıq və müstəqillik bəxş etdiklərinə görə səmimi qəlbdən təşəkkür edir və yazırdılar: «Sultan olmasaydı, Azad Ermənistan da ola bilməzdi!!!» (13).





Batum müqaviləsinin 4-cü maddəsində deyilirdi ki, Ermənistan respublikasının hökuməti xahiş etdikdə qayda-qanun və sabitlik yaratmaqda ona silahlı qüvvələrlə kömək etməyi Osmanlı imperiyasının hökuməti öz öhdəsinə götürür. Bu maddə ilə Ermənistan daşnaq hökuməti, hətta öz daxilində sabitlik yaratmaq hüququnu da özünün rəqib saydığı ölkəyə verirdi (14).

Daşnaq hökuməti yaranan kimi, ölkədə hərbi vəziyyət haqqında fərman verdi. Ümumi səfərbərlik elan olundu. Erməni korpusunun komandanı Nazarbekyan 1918-ciilin iyununda əmr etmişdi ki, əli tüfəng tuta bilən 35 yaşınadək bütün «qeyrətli» ermənilər könüllü silahlı dəstələr təşkil edib, türklərə-azərbaycanlılara qarşı döyüş meydanına atılsınlar. Daşnaqların ələ keçirdikləri tarixi Azərbaycan torpaqlarında «erməni dövlətinin» «qayda-qanunları hökm sürür, erməni olmayan, erməni qayda-qanunlarına boyun əyməyən müsəlmanlara divan tutulurdu». Bu kəlmələri mən demirəm, bunları Ermənistanın Mərkəzi Dövlət tarix Arxivində yatan sənədlər deyir (15).

Ermənistan daşnaq diktaturası yaranan zaman onun həm ərazisi, həm də iqtisadi potensialı yox dərəcəsində idi. Azərbaycan Xalq Cümhuriyyəti Ermənistan daşnaq dövlətinin yaradılması üçün mərkəz kimi keçmiş İrəvan xanlığının ərazisi olmuş əyaləti ermənilərə bağışladı. Bu acı da olsa, bir həqiqətdir. Bu fikri təsdiq edən erməni tarixçisi Ağayan yazırdı ki, «1918-ci il (Batum sazişindən sonra) üçün Ermənistan respublikasının cəmi 6 km uzunluqda dəmir yolu, 10 vaqonu və 1 ədəd paravozuvardı» (16).

## İstifadə olunmuş ədəbiyyat

1. Allen W.E.D. Paul Muratof. Caucasion Battlefields: A history of the Turco-Caucasian border 1828-1921, Cambridge, 1953.
2. Бакинский рабочий, 28.05.1918.
3. Bristol War Diary. 14 August 1922, US 867.000/1540.
4. Səmyuel A.Uimz. Ermənistan terrorçu «xristian» ölkənin gizlinləri Ermənilərinböyük fırıldaq seriyaları. c. 1, B., 2004, s. 252.
5. Richard G. Hovannis. vol. 2, p. 404.
6. Лалаян А.А. Контрреволюционная роль партии дашнакцутюн. – Исторические записки. М., 1938, с. 79-107.
7. ЗСФСР и построение генерального плана. Тифлис, 1927.
8. Richard G. Hovannissian. vol. 1, p. 53.
9. Səmyuel., s. 363.
10. Richard G. Hovannissian., p. 450.
11. Исторические записки. М., 1938, s. 79-107.
12. Там же., с. 80.
13. Ananikyan B. Daşnaksütunun ideya-siyasi iflası. İrəvan, (ermən.). 1979, s. 25.
14. Архив Армянского филиала ИМЛ при ЦК КПСС. Ф.4047, д.638, с.2.
15. Ermənistan MDTA, f. 33, s. 18.
16. Агаян Ц.П. Победа советской власти и возрождение армянского народа. М., 1981, с.57.





**Sədaqət Məmmədova**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

# MƏRUZ QALDIĞIMIZ SOYQIRIMLAR MƏTBUAT "YADDAŞININ" İŞIĞINDA

Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı hadisələri yaxın keçmişdə bir neçə dəfə olub. Həmin qırğınlarda yüz minlərlə soydaşımız,uşaqlı-böyüklü,kişili-qadınlı qətlə yetrilib,şəhər və kəndlərimiz xarabazara çevrilib,tarixi torpaqlarımızın müəyyən qismi zəbt edilib. Soyqırımı hadisələrinin növbəti mərhələsi 1918-ci ilin mart-aprel aylarına təsadüf edilir.Həmin dövrdə Bakıda, Qazaxda, Qarabağda,Zənkəzur və Göyçədə,Quba,Şamaxı,Göyçay,Kürdəmir və başqa yerlərdə erməni daşnakları azərbaycanlılara qarşı hər cür vəhşiliyi heyrətdə qoyan bir qəddarlıq göstəriblər.Bakıda və ətraf obalarda bu qırğının qarşısının alınması üçün N.Nərimanovun gördüyü tədbirlər və onların nəticələri haqda "Hümmət" qəzetinin 1918-ci ilin aprel nömrələrində çap edilən bir neçə yazıdan məlumat almaq mümkündür. Onlardan "Qanlı hadisədən dörd saat qabaq"(1 aprel 1918) başlıqlı yazıdan məlum olur ki,hadisələrin getdikcə gərginləşərək milli qırğın təhlükəsi yaradacağını duyan N.Nərimanov özünün qeyri millətdən olan inqilabçı həmkarlarından,Lenin tərəfindən Qafqazın fövqəladə səlahiyyətli komissarı təyin edilən S. Şaumyan başda olmaqla,bir neçəsini öz evinə məşvərətə dəvət etmişdir. S. Şaumyan saat 12-də məclisə gəlir. Yazıda bu haqda oxuyuruq:"Doktor N.Nərimanov məclisi açıb təsirli bir nitq söylədi. Və axırda üzünü Şaumyana tutb dedi:

--Yoldaş! Siz də və mən də müsəlmanların halını bilirik. Hərgah bir iğtişaş başlansa ayaq altında qalan fəqir-füqəra olacaqdır.Həmin fəqir-füqəra ki, siz də və mən də onun yolunda işləyirik.Ona görə sizdən təvəqqe edirəm,sizə yalvarıram,bu işi sülh yolu ilə qurtarınız. Hər iki tərəfi sakit etmək üçün mən təklif edərdim,tüfənglər müsəlman siyasi firqələrə və yainki bunlardan ibarət bir komitəyə tapşırılaydı.

Şaumyan cavab verdi:

-Doktor N.Nərimanovun sözlərinə bütün-bütünə şərik olduğumdan var qüvvətimlə bu işi yatırtmağa səy edəcəyəm...

Lakin saat 4-də qurtaran bu məclisdən çıxıb Hərbi İnqilab Komitəsinə gedərək məruzə edən Şaumyan müsəlman vəkillərini danışıqları üçün Caparidzenin yanına- İcraiyyə Komitəsinə göndərdi...

Üzdə müsəlmanların vəziyyəti dinc yolla nizama salmaq cəhdlər və bunun üçün irəli sürdükləri təkliflər qəbul edildi.Caparidze onlara belə cavab verdi:

Siz arxayın gediniz,sabah tüfəngləri müsəlman siyasi qüvvələrinə verəcəyik".

Lakin müsəlman vəkilləri heç İcraiyyə Komitəsinin binasından çıxmağa macal tapmamış şəhərdə müsəlmanlara qarşı qarət və qırğın kampaniyası başlanır.Beləliklə,üzdəniraq inqilabçılar riyakarlıqları ilə özlərinin silahdaşlarını da aldadaraq məkrli niyyətlərini həyata keçirməyə başlayırlar.

Bu dövrdə N.Nərimanovun əlində heç bir hakimiyyət yox idi.Odur ki,soydaşlarını gözlənilən bəladan – milli qırğın təhlükəsindən xilas etmək üçün Şaumyanla Caparid-





zeni gah dilə tutur,onlara gah yalvarır,gah da təsir etmək üçün digər vasitələrdən və siyasi üsullardan istifadə edirdi. O,xahiş və yalvarışların işə keçmədiyini görüb Şaumyanla Caparidzeyə siyasi yolla təsir göstərmək üçün onlara məktubla müraciət etdi.

Ermənilər müsəlmanları Şura hökumətinə tabe olmaması bəhanəsi ilə qırırdılar. Halbuki,siyasi şüurca hələ zəif olan müsəlmanların geniş kütləsinin bu ittihamlar haqda təsəvvürləri belə yox idi. Ona görə N.Nərimanov bədxahların əllərində dəstəvuz etdikləri siyasi bəhanələri təkzib edərək Şaumyana və Caparidzeyə yazırdı:

" Yoldaş,şəhərdə qalan müsəlmanlar...ürəkdən Şura hökumətini qəbul ediblər.Fəqət bunları çaşdıran odur ki,siyasi müharibə axırda milli müharibə yolu alıbdır. Bu halət Şura hökumətinə ləkə salıb onu qara örtük ilə bürüyür. Hərgah siz bu yavuq vaxtda bu qara örtüyü cırıb,bu ləkəni təmizləməsəniz bolşevik fikri və Şura hökuməti burada davam edə bilməyəcəkdir.

Sizə məlumdur ki,top-tüfəng qüvvətilə alınmış hökumətin camaat arasında nüfuzu olmazsa,çox yaşaya bilməz. Ona binaən var qüvvənizlə gərəkdir çalışasınız ki,camaat düşünsün,hiss etsin ki,müharibəyə milli rəng verən "qara qüvvə" ilə Şura yoldaş deyildir.

Gərək nəinki söz ilə,fel ilə bildirmək ki, qara qüvvə ilə siz açıq-açığına müharibə edirsiniz".

Bu sətirlər "Hümmət" qəzetinin 3 aprel 1918-ci il tarixli sayında dərc olunan "Yoldaşımız doktor N.Nərimanovun Şaumyan və Caparidzeyə yazdığı məktubların məzmunu" başlıqlı yazıdan götürülüb.

Göründüyü kimi, N.Nərimanov inqilabçı maskası ilə pərdələnərək müsəlmanların qanlarına susayan Şaumyan-

la Caparidzeni irəli sürdüyü ciddi siyasi ittihamlarla təhdid edir,onları öhdələrinə götürdükləri missiyanı sözdə deyil,,işdə yerinə yetirməyə təhrik edirdi.Əks təqdirdə,onları daha ciddi siyasi tədbirlərə əl atacağı ilə qorxudaraq davam edirdi:

"Bir-iki gündə Şura hökuməti özünü bu qara vicdansız qüvvəyə göstərməsə bən və yoldaşlarım iş başından çəkiləcəyik...

Bən artıq dərəcədə təvəqqe edirəm,burada yazdığım sözlərə fikir verib tezliklə müsəlmanların yaralı yüreklərinə dərman tapılsın".

N.Nərimanov Şaumyanla Caparidze qarşısında irəli sürdüyü bu ittiham dolu təkidli tələb və hədələrlə bərabər,onların qarşısında müsəlmanların vəziyyətlərinin yaxşılaşdırılması üçün konkret təkliflər qoyaraq yazırdı:

"İkinci mühüm məsələ ərzaq məsələsidir.Müsəlman hissəsində müsəlmanların halı insanı çaşdırır.Acından fəqir-füqəra küçələrdə və talan olmuş evlərdə ölməkdədir...Bu məsələyə artıq dərəcədə fikir verilməlidir..."

N.Nərimanovun nüfuzu və qətiyyəti Şaumyanla Caparidzeni özlərini qorumaq üçün konspirativ tədbirlər görməyə məcbur etdi.Qəzetin yazdığı kimi,onlar N. Nərimanovun kağızlarına cavab olaraq bildiriblər ki, bu məsələni müsəlman sosialistləri ilə bir yerdə müzakirə etməyə hazırdırlar. Bunun üçün məşvərətə yığışmağı xahiş edirlər.

Məşvərətdə Şaumyan riyakarcasına bildirir ki,Şura hökuməti onu qəbul edən müsəlmanların hüquqlarını müdafiə etməyə qadirdir. Lakin,guya,onu dağıstanlılar tərəfindən olunan hücum çaşdırır. Şaumyanın hökumət





tərəfindən müsəlmanların hüquqlarının qorunmasına verdiyi təminatdan sonra müsəlmanlar arasında özünə inamın itdiyini gözəl başa düşən Caparidze belə deyir:

"Bən öz tərəfimdən Şaumyanın sözlərini təsdiq edib deyirəm ki,bilsəm ki,müsəlmanlar buna inaniyorlar,qeyri işlərdən əl çəkib müsəlman hissəsinin əmin-amanlığını öz əlimə alardım".

Cavabında müsəlman nümayəndələri Caparidzeyə inandıqlarını bildirərək,onu konkret əməli tədbirlər görməyə çağırırlar.

Ertəsi gün müsəlman inqilabçıları iclas çağıraraq Hərbi İnqilab Komitəsinə aşağıdakı maddələrdən ibarət rəsmi tələblərlə müraciət ediblər:

"Erməni Milli Komiteti buraxılsın;

Bu Milli Komitəyə tabe olan milli qoşun ya burdan çıxsın,yainki büsbütün Şura Hökumətinə tabe olsun;

Müsəlman hissələrinə qarovul müsəlman krasnı qvardiyalardan qoyulsun;

Ərzaq məsələsində müsəlman hissəsinə artıq dərəcədə diqqət olsun".

Bütün bu təklif və qərarların təşkili və hazırlanmasında Nəriman Nərimanov nəinki yaxından iştirak edir,onlara bilavasitə rəhbərlik edirdi. Təsadüfi deyil ki,Nərimanovun səy,qətiyyət və tələbləri milli qənimlərimizi öz əməllərindən müəyyən qədər də olsa çəkinməyə məcbur etdi. Az sonra Hərbi İnqilab Komitəsinin S.Şaumyan, Karqanov,Nərimanov və katib Kuznetsovun imzası ilə Erməni Milli Komitəsinə göndərdiyi nota "Hümmət"in 8 aprel 1918-ci il sayında dərc edildi.

Notada Erməni Milli Komitəsindən tələb olunurdu ki,öhdələrində olan milli qoşun hissələrini buraxaraq onları beynəlmiləl qoşunun tərkibinə daxil etsinlər.Qulluq etmək istəməyənlər isə tezliklə şəhərdən çıxsın.Notada həmin tələblər yerinə yetirilənədək olan müddətdə də hər hansı qüvvənin hökumət adından çıxış etməsi və ya hökumətə tabe olmaq istəməməsi qadağan olunurdu. Bundan əlavə, ərzaq,geyim və silahın hökumət qüvvələrinə təhvil verilməsi tələbi irəli sürülürdü.Bildirilirdi ki,evlərdə axtarış aparmaq,vergi yığmaq,adamları həbs etmək və ya müxtəlif üsullarla cəzalandırmaq səlahiyyəti ancaq hökumətə və onun tərəfindən təyin edilmiş xüsusi komissiya və nümayəndələrə aiddir.

Bütün bunlar göstərir ki, N.Nərimanov soydaşlarının taleyi, onların ən adi ehtiyacları ilə dərindən maraqlanmış, əlindən gələn xidmətləri göstərmək üçün bütün mümkün vasitələrdən istifadə etmişdir. Təsadüfi deyil ki,1918-ci ilin mart qırğınları Azərbaycanın digər bölgələrində hələ davam etsə də, Bakı və ətraf obalarda N.Nərimanovun səyi,təkidli tələbi,qətiyyəti , nüfuzu və siyasi manevrləri sayəsində tezliklə dayandırılmışdı.

Müşahidə və araşdırmalar göstərir ki, ermənilərin bütün bu vəhşiliklərinin, qonşuya xəyanətlərinin arxasında 1890-cı ildə təsis edilən Daşnaksütun partiyası durur.1906-cı uldə bədnam ideya ilhamvericilərindən olan "Baku" qəzetinin 256-cı sayında çap edilən bir məqaləni "Rəhbər" jurnalı tərcümə edib öz səhifələrində (1906 № 4,səh.11-16) vermişdir. Həmin məqalədə deyilir ki,sistemli şəkildə törədilən "Erməni-müsəlman ixtişaşından bəri bu firqə elə bir qüvvə və





nüfuz kəsb edib ki, indi kefi istədiyi kimi erməni camaatı ilə rəftar edir.Elə rəftar ki,erməni tarixində ermənilərə qalib olan heç bir qövm etməyib. Hətta işi o yerə çatdırıb ki,üç kilsəədə katalikos imza etmiş hökmü cırıb fəsx edir və xahiş edir ki,hökmü imza etməyə qoca katalikosu məcbur edin".

Daşnaksütunun öz məqsədinə çatması üçün sıravi ermənilərə göstərdiyi münasibət haqqında deyilir:" Daşnaksütunun zalimanə hərəkətləri erməni camaatını təngə gətirib. Erməni camaatı daşnaksütundan bezibdir,nifrətə gəlibdir. Camaatın arasında daşnaksütunun əksinə cünbüş (hərəkat - S.K.)orda-burda peyda olur".

Ona görə də başqalarına dərs olsun deyə daşnaklar özlərinin mövqelerini qoruyub saxlamaq üçün hərdən o narazı erməniləri qəddarlıqla cəzalandırmaqdan çəkinmirdilər. Bu haqda oxuyuruq: "Bu isə daşnaksütuna və tərəfdarlarına xoş gəlməyir.Gəlməyirsə də,nüfuzu qüvvədən düşməyə üz qoyur. Daşnaksütun tərəfdarları ,əlbəttə ,bu firqəni mühafizə və müdafiə etməkdən,nüfuzunu zavaldan saxlamaqdan çəkinməyirlər".

Daşnaksütunun bütün hədələrinə,ermənilər üzərində də bir kabus kimi dolaşmasına baxmayaraq geniş kütlə arasında nüvuzdan düçdüyü göstərilir. Qeyd edilir ki,"indi bu saat da erməni kəsabəsinin arasında bu firqə nüfuzdan düşüb. Bu firqə üçün gələcəkdə həyata ümid yoxdur. Müsəlman camaatı erməni camaatı ilə əlaqə etmək istəyir, daşnaksütunla yox".

Bununla belə daşnaksütunun ermənilərin yaxasından asanlıqla əl çəkməyəcəyi də nəzərdən qaçırılmır. Onun ermənilər içində başlıca dayağının erməni sərmayəçiləri və

din xadimləri olduğu bildirilir:"Hələ-hələ daşnaksütun erməni camaatını əlindən buraxmayacaq; tamam erməni sərmayədarları,ruhanilərin çoxu daşnaksaqandırlar.Çünki firqənin gücü ilə camaatı əldən buraxmaq istəmirlər. Şəkk yoxdur bir vaxt olacaq ki,erməni əkinçiləri,əhli kəsəbəsi və işçiləri əlində dəyənək daşnaksaqanları aralarından qovacaqlar. Bu da onda olacaq ki,Rusiyada həqiqətdə hürriyyət,qanuni-əsasi icra oluna,hər millətin,hər bir fərdin qəsb olmuş hüququ özünə qayıda.Nə qədər ki,bu yoxdur,yenə qanlı müatilələri gərək gözləyək".

Erməni syasətçilərinin çətinə düşən kimi azərbaycanlılardan yalvarışla imdad diləməsi,fürsət olanda yenə xəyanət yolunu tutmaları,riyakarlıqları da onların üzlərinə çırpılır. Bu haqda oxuyuruq : "Xatisovlar özləri Tiflisdə müsəlman -erməni ictimaində bizim vəkillərə söhbət arasında demirdilər ki,sonrakı hücumlar ermənilər tərəfindən olub. Bu məram ilə ki,bir dəfəlik müsəlmanları ram edib gələcəkdə belə mütaqilələrə yer qoymasın?

Deməк ki, daşnaksütun firqəsi istəyirmiş ki,təşkilsiz müsəlman camaatını ram etsin,ta ki,gələcəkdə heç bir xoddarlığı ola bilməsin.Müdafiə bu imiş?"

Məqalədə azərbaycanlıların ermənilər tərəfindən törədilən qırğınlardan çəkdikləri zərərin miqyasının böyük olmasının sosial-siyasi,mənəvi-psixoloji səbəbləri haqda da ətrafli söhbət açılmışdır. Müəllif azərbaycanlıların unutqanlığının onların başına gətirilən müsibətlərin davamlılığının səbəbləri haqda yazır: "Müsəlman camaatı sadəliyindən və ətalətindən qəflətən bu bəlalara düçar oldu. Belə müntəzəm müqatilələri (qətləri,qırğınları – S.M.)





müsəlman camaatı əsla gözləmirdi.Əgər müsəlman camaatı müntəzəm firqənin əlində özünü müzməhill (tamam məhv olmuş,yox olmuş- S.M.) olmağa qoymadısa,buna da səbəb müsəlman camaatının zatən və təbiətən hərbi işlərə müstəəd olmağıdır."

Təəssüf ki, bu cür genetik keyfiyyətlərə malik olan Azərbaycan türkləri təşkilatsızlıq , ətalət və unutqanlıq ucbatından zaman-zaman erməni qəddarlığının hədəfinə çevrilirlər.Bununla yanaşı o dövrdə azərbaycanlıların artıq bu qırğınların siyasi və ideoloji mahiyyətini anladığını görən müəllif razılıq hissi ilə bildirirdi ki,əvvəllər ermənilər bizə həqarətlə baxırdılarsa, artıq anlayırlar ki,"indi daha müsəlman camaatı ilə həqarətlə rəftar etmək olmaz. Müsəlman camaatı öz hüququnun,öz rayinin maliki olmaq istəyir".

Bu istiqamətdə ümummilli liderimiz Heydər Əliyevin azərbaycanlıların soyqırımı və departasiyası ilə bağlı imzaladığı sərəncamlar,həmçinin onun siyasi kursunun layiqli davamçısı olan Respublika Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət soydaşlarımızın milli şüurunun oyaq saxlanılmasında böyük təsir gücünə malikdir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Qanli hadisədən 4 saat qabaq. "Hümmət" qəzeti 1 aprel 1918
2. Yoldaşımız doktor N.Nərimanovun Şaumyan və Caparidzeyə yazdığı məktubların məzmunu. "Hümmət" qəzeti 3 aprel 1918

3. Muradzadə M. Mart hadiseyi-əliməsi. Ərəb əlifbasından çevirib nəşrə hazırlayan: Sədaqət Məmmədova. Bakı, 1993
4. Qan yaddaşımız. 1918-ci il Mart soyqırımı. . Ərəb əlifbasından çevirib nəşrə hazırlayan: Sədaqət Məmmədova. Bakı, "Elm və Təhsil" 2014
5. "Rəhbər" jurn 1906 №4





**Sevinc Qasımova**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*

## SOYQIRIM ANLAYIŞI: DAŞNAK VƏ BOLŞEVİKLƏRİN TÜRK-MÜSƏLMANLARA QARŞI SOYQIRIMI TARİXİ TƏDQIQATLARDA

Soyqırım bütün tarixi dövrlərdə saysız, misli görünməmiş itkilərlə nəticələnən və hər hansı bir millətin etnik, dini, irqi cəhətdən məhv edilməsidir. Bu haqda "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" beynəlxalq konvensiyanın ikinci maddəsində "milli, etnik, irqi və ya dini qrupu tamamilə və ya qismən məhv etmək niyyəti ilə törədilmiş aşağıdakı hərəkətlərdən – qrup üzvlərini öldürmək; qrup üzvlərinə ciddi fiziki və ya mənəvi ziyan vurmaq, qrupun tam və ya qismən fiziki məhvi məqsədilə qrupda həyat şərtlərini düşünülmüş şəkildə aşağı salmaq; qrupda olacaq doğumların qarşısını almaq üçün tədbirlər görmək; uşaqları bir qrupdan zorla digər qrupa köçürmək" kimi nəzərdə tutulmuşdur. Konvensiyanın preambulasında soyqırım yalnız "beynəlxalq hüquq üzrə, BMT-nin mahiyyətinə və məqsədlərinə zidd, sivil dünya tərəfindən cinayət hesab olunan cinayət" hesab edilmir, həmçinin "bütün tarixi dövrlərdə soyqırım bəşəriyyətin amansız böyük itkisi" sayılır. Beynəlxalq hüquq normalarına görə, soyqırım törətmiş şəxslərin cinayət mühakiməsi və cəzalandırılması labüddür. Belə ki, beynəlxalq hüquq soyqırım cinayətinin anlayışını müəyyən etməklə yanaşı,

həmin cinayəti törətmiş şəxslərin məsuliyyətini də müəyyənləşdimişdir. Bununla bağlı Soyqırım Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması haqqında Konvensiya və onun 5-ci maddəsində iştirakçı dövlətlərin soyqrım cinayətini törətməkdə təqsirli olan şəxslərin cəzalandırılması üçün təsirli tədbir görmələri nəzərdə tutulur. Hətta, Konvensiyanın 6-cı maddəsində həmin şəxslər dövlətin ərazisində səlahiyyətli məhkəmələrdə mühakimə olunmadıqları təqdirdə, onların beynəlxalq məhkəmə tərəfindən mühakimə edilməsi də nəzərdə tutulmuşdur. Bəşər tarixində baş vermiş hadisələrin hansının soyqırım, hansıların isə daha dəhşətli və qeyri-insani əməl olduğunu müəyyən etmək çətin olsa da, hər hansı bir millətin əhalisinin kütləvi şəkildə qətlə yetirilməsi insanlığa sığmayan qəddarlıq və belə demək mümkünsə, soyqırımdır. "Soyqırım" nədir və onun tərifini necə müəyyənləşdirmək olar?."Soyqırım" sözünün müvafiq tərifi barədə bəzi tarixçilər və sosioloqlar fərqli fikirlər söyləmişlər. Dünya tarixşünaslığında soyqırımın hədəfi kimi sosial və siyasi qrupların istisna olunması tənqid edilmişdir. Belə tədqiqatçılardan Hassan Kakar "Sovet müdaxiləsi və Əfqan cavabı: 1979-1982" kitabında bildirir ki, soyqırımın beynəlxalq tərifi çox məhduddur, bura siyasi və ya soyqırım törədən tərəfindən müəyyən olunan hər hansı qrup da əlavə olunmalıdır və o,Frenk Çok və Kurt Conassondan sitat gətirərək yazırdı: "Soyqırım soyqırımı törədənin müəyyənləşdirdiyi bir qrupun dövlət və ya başqa hakimiyyətin məhv etməyə çalışdığı birtərəfli kütləvi qırğınının bir formasıdır". Beynəlxalq hüququn soyqırıma verdiyi hal-hazırkı təriflə razılaşmayan bəzi tənqidçilər qeyd edirlər ki, bu tərifə İ.V.Stalinin qismən təsiri olub, buna görə də orada siyasi qruplar nəzərdə tutulmayıb. Digər tədqiqatçı R.Rammelə görə soyqırımın iki müxtəlif izahı vardır: bunlardan biri ənənəvi, digəri isə leqal mənadır. Ənənəvi məna hökumət tərəfindən insanların milli, etnik, irqi və ya dini mənsubiyyətinə görə qətli, leqal məna isə beynəlxalq razılıqla konvensiyada izah olunub. Buraya həmçinin, doğumların qarşısının alınması və uşaqların zorla bir qrupdan digərinə köçürülməsi kimi öldürməklə əlaqəli olmayan elə hərəkətlər daxildir ki, bu da qrupun məhvinə yönəldilib. Əsas məna ənənəvi məna kimidir, bundan əlavə bura siyasi opponentlərin hakimiyyət tərəfindən öldürülməsi və başqa beynəlxalq qətllər də daxildir. Bu məsələlərdən bir qədər uzaqlaşan R.Rammel "genosid" terminini işlətməklə tarixşünaslığa yeni bir fikir gətirdi.





Daha sonra bu anlayışın xronoloji çərçivəsi də müəyyənləşdirildi. Adam Cons "Soyqırım: Ətraflı giriş" kitabında bunu izah edərək tarix boyu insanların başqa qrupları yad kimi görmə qabiliyyətləri olduğunu anlatmağa çalışmışdır. F.Çok və K.Conassondan sitat gətirərək o, yazır:"Tarixi və antropoloji insanların özləri üçün həmişə bir adları olub. Əksər hallarda bu ad "xalq" olub və hər hansı yolla özlərindən daha keyfiyyətsiz hesab etdikləri başqa adamlara qarşı bu ad üzərində sahibliklərini yaradıblar. Xalq və bəzi başqa cəmiyyətlər arasındakı fərqlər din, dil, metod, adətlər və sairə ilə bağlı xüsusilə böyük olduğundan digərləri adi insana nisbətdə daha az qiymətləndirilib-kafirlər, barbarlar və ya hətta heyvanlar"

A.Cons fikrini davam etdirərək yazırdı: "... çox az xalq başqa bir qrupla daha rahat yaşaya bilir, çünki yadlar in-

sandan daha aşağı qiymətləndirilir və buradan qısa bir arqument əldə edirlər ki, bizim yaşaya bilməmiz üçün onlar və ya biz məhv edilməliyik. Bu qiymətləndirmədən sonra A.Cons belə davam edir: "Frenk Çok və Kurt Conassonun erkən araşdırmalarında qeyd edildiyi kimi çətinlik ondadır ki, belə tarixi qeydlərin mövcudluğu ikibaşlı və qeyri-mötəbərdir. Belə ki, bu gün tarix bəzi sadiq "obyektiv" faktlarla, onu yazanın öz rəhbərini tərifləmək məqsədinə xidmət edən hesablamalarına və öz millətinin daha ali olmasını əsaslandırmaqla yazılır".

Antik dövr yazışıları soyqırım (genosid) və cinslərin öldürüldüyü gendersidi fərqləndirirlər, lakin uşaqlar (xüsusilə qızlar) və qadınlar qalib cəmiyyətə daxil edilirdilər. A.Cons qeyd edir ki, "Çok və Conasson tarixi hadisələrin geniş səpkili təsnifatını aparırlar; Assuriya imperiyasının e.ə. I minilliyin I yarısındakı talanları, Peloponnes müharibələri zamanı (e.ə. V əsr) melosların Afina tərəfindən məhv edilməsi, Fukididin "Melian dialoqu"nda göstərdiyi gendersid çıxışlar" və s.

Əhdi-ətiqdə (Tövrat) amaleklərin və midiyalıların soyqırımları təsvir edilir. A.Cons holokost tədqiqatçısı Yehuda Bauerə istinad edərək yazırdı: "Bir yəhudi kimi mən öz qanunlarına əsasən soyqırım çağırışları ilə əhatə olunmuş irsi cəmiyyətdə yaşamağa məcburam". Digər bir missal. Yu Dinq qeyd edirdi ki, Çjounun kralı Li (e.ə 828-ci il) ordusuna əmr vermişdir ki, ölkəsində qiyam edilərsə, qiyam edən ölkədə qoca və cavan heç kimi sağ qoymamalıdırlar. Ben Kiernan üçüncü Pun müharibəsinin sonunda Karfagenin dağıdılmasını "İlk Soyqırım" kimi qələmə verir. Yeni araş-





dırmalara görə Amerikanın cənub-qərbində Anasazi qrupu təxminən 800-cü ildə baş vermiş soyqırım nəticəsində məhv edilmişdir. Digər araşdırıcı Lüdvik Krjivitski qeyd edirdi ki, "Bu adamların hər birinin tarixi (o cümlədən Amerika hindiləri) qonşu tayfalar arasında demək olar ki, fasiləsiz mübarizə labaratoriyasıdır" –. Müəllifə görə irokezlər Erini "məhv etmiş", İllinoysu "qarət" etmişdilər. Erik Marqolisə əsaslanan A.Cons qeyd edirdi iki, XIII yüzillikdə monqol süvariləri Çingiz xanın başçılığı ilə bütöv xalqları xarabalıq və sümüklərdən başqa heç nə qoymadan öldürən soyqırım törədiciləri idilər. Çünki o, Tata monqollarını və Buxarada Kankalis kişilərinin öldürülməsi əmrini vermişdir. Rozanna Klass monqolların Əfqanıstandakı siyasətini soyqırım kimi təqdim edir. Monqolların Avropa işğalları zamanı sağ qalmış rahib Rocerius işğalın soyqırım əlamətindən başqa qeyd edirdi ki, monqollar xüsusilə alçaldılmış qadınlarla "rahatlıq tapırdılar". Eyni zamanda bunun Çin əhalisinin kəskin şəkildə azalması kimi ziyan gördüyünə də işarə edirdi. Bəhs edilən soyqırımlardan 1471-ci ildə vyetnamlıların Çampaya hücumu zamanı vyetnamlılar Çam xalqına qarşı törətmiş olduqları soyqırım minlərlə çamlını qətlə yetirmiş, Vyetnama assimilyasiya olunmuşdu. Devid Stannard özünün "Amerika holokostu" kitabında qeyd edir ki, Amerikanın yerli əhalisinin məhvi avropalılar və onların varisləri tərəfindən "soyqırım zənciri"ndə dünya tarixinin ən kütləvi soyqırım aktıdır. D.Stannardın iddiası "bu, təbii olmayan, yerinə yetirilən dəqiq kinder" deyən Uord Çörcill tərəfindən davam etdirilmişdir. D.Stannardın 100 milyon ölü iddiasına etirazlar olmuşdur, çünki o, bu rəqəmi

təsdiqləmək üçün heç bir demoqrafik göstərici verməmiş və buna görə də o, zorakılıq nəticəsində ölənlərlə xəstəlik nəticəsində ölənlər arasında fərq qoymamışdır. Nobl Devid Kuk, Devid Kammen, Devid Sesarani kolonial amerikalıların yerli amerikalılara və Avstraliyanın aborigenlərə tətbiq etdiyi siyasəti onları "sözün tam anlamında qəddar, ikiüzlü, fürsətcil və hətta soyqırımçı" adlandırmışdır. ABŞ-ın məlum yerli əhaliyə qarşı olan siyasəti əvvəlcədən düşünülmüş soyqırım kimi "Tale Manifesti"ni (Manifest Destiny) irəli sürərək, D.Sesarani qeyd edir ki, "təmiz rəqəmlərə istinad etdikdə "Yerli Amerikalıların Soyqırımı" "Holkost"dan çox olur" O, "Amerika Holokostu" kitabının müəllifi D.Stannarddan sitat gətirərək yazırdı: "yerli xalqlara qarşı soyqırım və irqi dəhşətlər Birləşmiş Ştatlar daxil olmaqla, Qərb yarımkürəsinin bir çox xalqları tərəfindən tətbiq olunub və tətbiq olunur..."

Britaniya kolonistləri ilə Tasmaniya yerliləri arasında XIX yüzilliyin əvvəllərində Van Dimen torpağında, indiki Tasmaniya adasında Qara Müharibə olmuşdur. Xəstəliklər və digər faktlarla birlikdə konflikt Tasmaniyanın yerli əhalisinə dağıdıcı təsir etmiş və Tasmaniya yerliləri qırılmışdır. Tarixçi Ceffri Bleyni 1830-cu il Tasmaniyası haqqında deyir: "Onların çoxunu çiçək öldürürdü, lakin hərbi və fərdi zorakılıq da dağıdıcı idi". 1944-cı ildə R.Lemkin tərəfindən soyqırım sözü işlədildikdən sonra R.Lemkin və əksər digər müqayisəli soyqırım tədqiqatçıları əvvəllər çap olunmuş təhlillərinə əsasən Tasmaniya aborigenlərinin qırılmasını soyqırıma nümunə kimi göstərirdilər; buna baxmayaraq Avstraliya ekspertləri daha diqqətlidirlər, çünki Avstraliya





tarixi üzrə ixtisaslaşmış tarixçilər tərəfindən qırğını əhatə edən hadisələrin daha detallı araşdırılması daha erkən tarixlərdəki bəzi detallar və şərhlər haqqında suallar ortaya çıxarıb. Bu hadisələrin təsvir olunduğu bir bölmədə Anna Körtos qeyd edir ki, "Əgər biz 19-cu əsrin I yarısında Tasmaniyada nə baş verdiyini, bunu ən yaxşı necə konseptuallaşdırmaq lazım olduğunu və bu tarixi biliklərdən hansının bizim üçün mənəvi və intellektual olaraq müvafiq olduğunu daha yaxşı anlayırıqsa, soyqırım və Tasmaniya tarixi araşdırmaları arasında daha güclü mübadilənin vaxtıdır". Fransız alim Reynald Seşer "Fransız soyqırımı: Vandeya" adlı ziddiyyətli kitabında iddia edir ki, Fransa İnqilabı dövründə anti-klerikal Fransa hökuməti əleyhinə daha çox katolik üsyanı kimi tanınan Vandeya üsyanı zamanı (1793-1796) Fransa respublika hökumətinin fəaliyyəti ilk müasir soyqırım idi. Özünün siyasi və dini əlaqələrinə əlavə olaraq, Seşerin iddiaları Fransada müasir tarixçi alimlər arasında heç də sensassiyaya səbəb olmamışdır. Həm Fransada, həm də xaricdə dövrün əsas cərəyanı daxilində çap olunmuş məqalələr Seşerin iddialarını rədd edirdi. Klod Lanqlua Seşerin iddialarını "kvazi-mifologiya" adlandıraraq onu lağa qoymuşdur. Timoti Taket bu hadisəni vətəndaş müharibəsi kimi dəyərləndirərək, Vandeyalıları respublikaçılardan heç də az günahkar olmadıqlarını vurğulayırdı.O, burada soyqırım sözünün işlədilməsini qeyri-dəqiq və namünasib sayırdı. Dublindən olan tarixçi alim Hyu Qou, Piter Makfi Seşerin kitabını heç bir davamedici təsiri olmayan tarixi təftiş cəhdi hesab edirdilər. R.Seşeri dəstəkləyən Adam Cons "Soyqırım: Ətraflı Giriş" əsərində Vandeya üsyanını Seşer-

dən sitat gətirərək bu hadisəni soyqırım hesab edərək yazırdı: "Vandeya üsyanı yalnız son dövrlər "soyqırım" kimi konseptuallaşdırılmış kütləvi qətlə nəzərəçarpan nümunədir» və nə qədər ki, bu, soyqırım kimi beynəlxalq dərəcədə yayılmayıb, bu, konkret qrupun (Vandeya mülki əhalisinin) geniş şəkildə qətlinə uyğun gəlir. Pyer Şoun isə bunu "ideoloji soyqırım" adlandırmışdır. Digər tədqiqatçı F.Feher bu məsələyə münasibətini belə bildirirdi: " Seşer "demək olar ki, tamamilə aşkar olmayanlar əsasında" nəticə çıxarır. O, 1991-ci ildə çap olunmuş "Yəhudilər və vandeyalılar: bir soyqırımdan digərinə" nəşrində royalist vandeyalıların taleyini nasist Almaniyasındakı yəhudilərin taleyi ilə müqayisə etməklə yetərincə ziddiyyətli mövqeyini nümayiş etdirirdi.. Bütün bu yuxarıda söylənilənlər soyqırımı anlayışına az da olsa aydınlıq gətirdiyindən biz 1915-ci il 24 aprel hadisəsi ilə 1918-ci il mart qırğınının bir-birinə kardinal şəkildə zidd və fərqli hadisələr olduğunu müəyyən etmiş olarıq.

XIX yüzilliyin əvvəllərində türk xalqının istila ilə qarşı-qarşıya durduğu bir zamanda ermənilər Qərb və xüsusilə Rusiya dəstəyindən istifadə etməklə, öz məkrli siyasətini reallaşdırmağa çalışırdılar. Onlar əzəli türk yurdu olan Azərbaycan torpaqları hesabına Azərbaycanda etnik təmizlənmə həyata keçirməklə "böyük Erməni"dövləti yaratmaq xülyasında idilər. Hələ vaxtı ilə Rus imperatorları I Pyotr, sonralar isə II Yekaterina və I Aleksandrın dövründə Cənubi Qafqaz regionunda geosiyasi vəziyyətdən istifadə etməklə ərazinin işğalı planını hazırlayırdılar. Məhz bu məqsədlə də Rus imperatorları o zamandan mütəmadi olaraq, Cənubi Qafqaza xristian əhalisinin yerləşdirilmə-





sinə və gələcəkdə demoqrafik vəziyyətdə ermənilərin üstünlüyünə nail olmağa çalışırdılar. Lakin, ermənilərin bu əraziyə köçürülməsinə dair yetərincə arxiv materialları və rəsmi sənədlərin olması bu yalançı faktları təkzib edir. Rus imperatorları öz məkrli siyasətlərinin həyata keçirilməsində əsas etnik dayaq kimi ermənilərdən istifadə etməklə, bu regionda gələcəkdə ermənilərin sahib olacağına dair planlarını və onların regionun aborigen xalq olmalarına dair "uydurma"larını dünyaya sübut etməyə çalışırdılar. Bunun üçün əzəli Türk torpağında etnik təmizlənmə sahəsində addımlar atılmağa və Cənubi Qafqazda türk çoxluğuna əngəl törədilməyə başlanıldı. Bu sahədə ilk addımlar 1813 və 1828-ci illərdə xüsusilə, Rusiya ilə Qacarlar dövləti arasında bağlanan bədnam müqavilədən sonra atıldı. "Erməni vilayətinin" yaradılması bu prosesin sürətlənməsinə rəvac verdi. Erməni avantüristlərinin "Böyük Ermənistan xülyası " ilə əlaqədar olaraq, bölgədə apardıqları uydurma təbliğatları bu ərazidə milli münaqişə və qırğınlarla müşayət olunmuş, bununla da əsrin əvvəllərindən başlanan talanların miqyası daha da genişlənmişdir. Bundan ruhlanan ermənilər bölgədə geniş miqyaslı qətliamlar törətməyə başlamış, bu vəhşiliklər nəticəsində yüzlərlə evlər, yaşayış məntəqələri viran edilmiş, minlərlə insan şikəst qalmışdır. Bir əsr ərzində dəfələrlə qətliam törədən erməni vəhşilikləri Ruanda, Xatında, Çeçenistanda, Yuqoslaviyada törədilən cinayətlərdən demək olar ki, qəddarlığına görə heç də fəqrlənmirdi. Onlar bu iyrənc əməllərini əvvəlcə rus imperializmi, sonra isə rus bolşevizmi pərdəsi altında reallaşdırmışdılar. Belə ki, 1905-1906-cı illərdə Şuşada, Bakı-

da və İrəvanda törədilən vəhşiliklər sonralar 1918-ci ildə soyqırımı ilə davam etdirilmiş və Sovet Rusiyası öz məkrli siyasətinin həyata keçirilməsinin əlatıları olan ermənilərin gələcəkdə "dənizdən-dənizə" dövlət yaratmaq ideyaları üçün münbit şərait yaratmışdı.

Bolşevizmin babası sayılan V.İ.Lenin Bakının idarəçiliyini erməni canisi St.Şaumyana həvalə etməklə burada etnik təmizlənmə siyasətini həyata keçirməyə başladılar. Andronikin St.Şaumyanla əməkdaşlığı ilk növbədə Naxçıvan və Culfadakı talanlar Bakıda soyqırım aktının həyata keçirilməsi üçün "baş məşq" oldu. 1918-ci ilin 30 mart-1 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, həmçinin Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğın öz miqyasına və bu qətliamda istifadə etdikləri mexanizmlərə görə insanlığa sığmayan əməllər sırasında idi. Rəsmi mənbələrə görə üç gün müddətində yalnız Bakıda 12 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan itkin düşmüş və şikəst qalmışdır .Soyqırım Qubada, Şamaxıda daha dəhşətli məqamları ilə yaddaşlara həkk olunmuşdur.

Türk-müsəlman əhalisinə qarşı bu qətliamları özündə ehtiva edən çoxsaylı əsərlər və məqalələr yazılmışdır. Lakin bunlar bizə belə bir fikri söyləməyə əsas vermir ki, bu problemin tarixşünaslıq baxımından öyrənilməsi artıq başa çatmışdır. Əlbəttə yeni-yeni əldə edilən arxiv sənədləri yeni faktların ortaya çıxmasına imkan yaradır ki, bu da yeni tədqiqatlar üçün stimul olur. Bir əsr boyunca çoxsaylı qətli-





am və soyqırım həyata keçirilən xalqın hər bir vətəndaşı bu günü hafizəsinə həkk edib gen yaddaşını təmizləməlidir. Hansı dövr və hansı problemlə məşğul olmasına baxmayaraq tədqiqatçı alimlər bu hadisəyə biganə qalmayaraq onun daha dərindən öyrənilməsi üçün yeni aşkar edilən sənədlərdən peşəkarcasına istifadə etməyi bacarmalıdırlar. Bu problemin öyrənilməsi həm mühacir, həm vətən, həm də dünya tarixşünaslığında öyrənilmiş, lakin soyqırım öz obyektiv qiymətini Azərbaycan müstəqillik əldə etdikdən sonra almışdır. Ayrı-ayrı dövrlərdə bu problemə həsr edilmiş əsərlərə ideoloji yanaşıldığından, soyqırımın obyektiv mənzərəsi uzun müddət tarixşünaslıqdan kənarda qalmışdır. Erməni və bolşevik birləşmələri tərəfindən törədilən qırğınların qərəzsiz tədqiqinə yalnız müstəqillikdən sonra başlanilsa da, hələ Cümhuriyyətin mövcudluğu dövründə soyqırım diqqətdən kənar qalmamış və Xarici İşlər Nazirliyinin təşəbbüsü ilə 1918-ci il iyulun 15-də Ələkbər bəy Xasməmmədovun sədrliyi ilə Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqında qərar qəbul edilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında mühüm xidmətləri olan M.Ə. Rəsulzadənin, Ə.M.Topçubaşovun, Adil xan Ziyadxanlının əsərləri bu tarixi reallığı öyrənmək üçün ən dəyərli mənbələrdəndir. M.Ə.Rəsulzadə "Azərbaycan Cümhuriyyəti",. "Qafqasiya türkləri" əsərində mart qırğınına xüsusi diqqət çəkilmişdir. Onun mart qırğını şəhidlərinə həsr etdiyi "Unudulmaz faciə" məqaləsi bu hadisəyə qiymət verilməsi baxımından daha da əhəmiyyətlidir. M.Ə.Rəsulzadə 1918-ci il soyqırımını tarixin ən qanlı hadisələri olan "Aşura" və "Varfolomey gecəsi" hadisələrilə müqayisə etmişdir.

Problemlə bağlı Əlimərdan bəy Topçubaşov da Bakıda və Azərbaycanın qəzalarında erməni daşnak və bolşevik qüvvələri tərəfindən törədilən qırğınlara münasibətini bildirmiş, "Evelina" gəmisindəki olaylarla bağlı məsələnin qırğın üçün bəhanə olduğunu vurğulamışdır. Adil xan Ziyadxanlı, N.Nərimanov, Ü.Hacıbəyli kimi dövrün digər aydınları da mart hadisələrinə milli fəlakət və daha doğru desək, "milli qırğın" kimi qiymət vermişlər. Sovet dönəmində problemə sırf sinfi nöqteyi-nəzərdən yanaşıldığından və XX yüzilliyin 20-ci illərindən 80-ci illərin sonlarına qədər yazılan əsərlərdə soyqırıma vətəndaş müharibəsi, sinfi mübarizə, ən yaxşı məqamda isə mart hadisəsi kimi baxıldığından problemin öyrənilməsində obyektivlik gözlənilməmişdir.

Türk-müsəlman soyqırımının sovet tarixşünaslığında öyrənilməsində S.Belenki, A.Manvel, S.Şaumyan, Y.Ratqauzer, S.Sef, A.Rayevski, Q.Şteyn, A.Mikoyan, M.Ağayev, N.Əlizadə, P.Əliyev, Z.İbrahimov, H.Əzimov, Q.Mədətov, E.Burcalov, S.Arkomed, A.Babayev, A.Qalustyan, Q.Qalayan, A.Milman və s tarixçilər, xarici tarixşünaslığında isə R.Syuni, O.Alştadt, R.Payps, F.Kazımzadə, T.Svyatoxovski, Castin Makkarti, Karolin Makkarti, V.Qurko-Kryajinin əsərləri əhəmiyyətlidir. Bütün bu əsərlərdə qoyulan məsələlərə obyektiv münasibəti çağdaş vətən tarixşünaslığında öz sözünü deyən tarixçilərimizin: A.İsgəndərov, M.Qasımlı, X.Məmmədov, C.Həsənli, P.Dərəbadi, B.Nəcəfov, A.Paşayev, V.Arzumanlı, A.Balayev, A.Aşırlı, V.Abışov, Ə.Abdullayev, F.Əhmədova, S.Tohidi, A.Xəlilov, İ.Ağayev və s. kimi tədqiqatçıların araşdırmalarında görürük. Problemin





vətən tarixində tarixşünaslıq baxımından **öyrənilməsində A.İsgəndərovun və S.Tohidinin xidmətləri təqdirəlayıqdir. A.İsgəndərovun** "1918-ci il mart qırğınının tarixşünaslığı", "Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı", "Azərbaycan həqiqətləri" və Fövqəladə Təhqiqat Komissiyasının sənədlərinə dair yazdığı əsərləri problemin tarixşünaslığına xüsusi tohfədir. Belə ki, bu əsərlərin ərsəyə gəlməsinə qədər problemin tarixşünaslıq baxımından öyrənilməsinə təşəbbüs edilməmiş və dövrün bütün hadisələrinə bu əsərlərdəki qədər konseptual yanaşılmamışdır. Əsərin müsbət məziyyətlərindən biri də odur ki, xronoloji çərçivə əsasında problemin həm mühacir, həm vətən, həm də xarici tarixşünaslığına nəzər salınmış, problemlə bağlı yazılan əsərlərin geniş təhlilinə yol verilmişdir ki, bu da türk-müsəlman soyqırımının tarixşünaslığına obyektiv münasibətin çəkisini bir daha artırır.

Azərbaycanlılara və bütövlükdə türk-müsəlmanlara qarşı soyqırım dedikdə, çox zaman bu 31mart hadisələri ilə məhdudlaşdırılır, Xoy, Maku, Səlmas, Urmiyadakı qətliamlarına toxunulmur. Bu səbəbdən Cənubi Azərbaycanda törədilmiş qətliamlarla bağlı tədqiqatların azlığından problemin tarixşünaslığında müəyyən boşluqlar yaranmışdır. Məhz yuxarıda adı çəkilən əsərdə bu məsələlərə müəyyən aydınlıqlar gətirilmişdir. Son dövrlərdə nəşr olunan Fövqəladə Təhqiqat Komissiyasının sənədləri arxiv materiallarının nəzərdən keçirilib dəyərləndirilməsində A.İsgəndərovun və S.Tohidinin xidmətləri əzəzsizdir.

Son dövrlərdə Cənubi Azərbaycanda və İran tarixşünaslığında da problemlə bağlı əsərlər yazılmaqdadır. Sal-

masdakı soyqırımla bağlı hadisələrə tarixçi Tohid Məlikzadə Dilməqaninin Qərb bölgəsi I Dünya müharibəsindən sonra kitabında bir çox inkar və təkzibolunmaz sənədlər və faktlar verilmişdir. Müəllif, rusların və avropalı missionerlərin kütləvi qırğın zamanı qatillərə necə kömək etdiklərini arxiv sənədləri əsasında açıb göstərir. Mənbələrdə Urmiyanın təkcə "Köhnə şəhər" adlanan məhləsində yüz on insanın vəhşicəsinə qətlə yetirildiyi qeyd olunmuşdur. Digər bir İran alimi Əhməd Kəsrəvi əsərdə bu qətliamlardan bəhs etməklə, faciəni belə təsvir edir: "Qadınları bir, kişiləri başqa karvansaraya doldurmuşlar. İnsanlar aclıqdan, susuzluqdan və qorxudan taqətsiz hala düşmüşlər. Onların var-yoxu talan edilmiş, komalarına od vurulmuşdu. Bir neçə hamilə qadın uşaq salmışdı. Ağır vəziyyətdə olan bu zərif məxluqlara da rəhm edilməmişdi". Seyid Əhməd Kəsrəvi "Azərbaycanın on səkkiz illik tarixi" kitabında tarixi həqiqəti dana bilməmiş Cənubi Azərbaycanın qərb bölgəsində (Urmiya, Salmas, Xoy, Maku, Sulduz, Qoşaçay, Şərəfxana və s.) 1918-ci ildə ermənilərin törətdikləri soyqırıma xüsusi yer vemiş, erməni qatilləri tərəfindən törədilmiş qanlı hadisələr haqqında bir sıra tarixi həqiqətləri ortaya çıxarmışdır. Rəhmətulla xan Mötəməd-Əlvüzərinin "Urmiya aləmi yandıran müharibədə", Əli Dehqanın "Zərdüşt peyğəmbərin yurdu Urmiya", Ə.Kaviyanpurun "Urmiya tarixi", Abdulla Baharinin "Hadisələrin canlı şahidi", Həbib Behzadın "Ermənilərin qərbi Sulduzda törətdikləri qırğın" kitablarında, Güney Azərbaycandakı türklərə qarşı erməni-aysor birləşmələrinin 1918-ci ildə törətdikləri soyqırım haqda yetərincə təkzibolunmaz faktlar, sənədlər





və məlumatlar vardır. Bu mövzuya dair müasir tarixçilərindən, Səməd Sərdariniyanın üç kitabı: "İrəvan müsəlman sakinli vilayət olmuşdur", "Arazın hər iki sahilində müsəlmanların soyqırımı", "Qarabağ tarixin gedişində", Seyidağa Onullahinin "Erməni millətçiləri və İran", Tohid Məlikzadə Dilməqaninin bir sıra kitabları ilə yanaşı, Türkiyədəki arxiv sənədləri əsasında yazılmış və faktlarla zəngin olan "Birinci Dünya müharibəsində Azərbaycana qarşı erməni-cilovluq birləşməsi" kitabı, "Varlıq", "Dilmanc" dərgilərinin və Güneydəki türkdilli mətbuatın səhifələrində ayrı-ayrı azərbaycanlı müəlliflərindən olan İsmayıl Hadi, Böyük Rəsuloğlu, Camal Ayrımlı, Həsən Raşidi və b. çap etdirdikləri məqalələr 1918-ci ildə ermənilərin Azərbaycan türklərinə qarşı törətdikləri soyqırımı öyrənmək baxımından önəmli addım kimi qiymətləndirilməlidir.

Bu bir reallıqdır ki, XX yüzilliyin 90-cı illərindən hazırkı vaxta kimi torpaqlarımızın iyirmi faizindən çoxu erməni vandallarının əsarətindədir. Lakin, tarix boyu özgə torpaqlara sahib olmaq istəyənlərin aqibətlərinin nə ilə sonuclanmasını da bilirik. Buna görə də inanırıq ki, xalqımızın əzmi və ruh yüksəkliyi, həmçinin dövlətimizin uzaqgörən və ağıllı siyasəti nəticəsində itirdiyimiz torpaqlara sahibləndəcəyik. Əminliklə bunu da ifadə etməliyik ki, Türk-müsəlman birliyinə xələl gətirmək istəyən mənfur qüvvələrin, həm də yalançı iddialar irəli sürən erməni lobbisinin dəridən-qabıqdan çıxaraq dünya ictimaiyyətinə iftiralarla dolu fikirlər yaymasına baxmayaraq, Azərbaycan və bütövlükdə türk-müsəlmanların Dağlıq Qarabağda törətdikləri qətliamlar öz hüquqi-siyasi qiymətini alacaq və dünya birliyi

bunları soyqırım kimi tanıyacaqdır. Buna görə də, millətimizin hər bir vətəndaşı, hər bir türk alimi və tədqiqatçısı türk-müsəlman əhalisinə qarşı törədilən imperialist siyasətinin səbəb olduğu faciələrə biganə qalmamalı və peşəsindən asılı olmayaraq, qeyd olunanlara öz münasibətlərini bildirməlidirlər. Fikrimizcə, bu hər birimizin vətəndaşlıq missiyası və milləti qarşısındakı vətəndaşlıq borcudur. İmperialist siyasətinin bir daha qurbanı olmamaq üçün tarixi hadisələri daha dərindən araşdırmaqdan heç bir zaman usanmamalı,tariximizi saxtakarların hədəflərindən qorumalıyıq. Fikrimə Ü.Hacıbəylinin bu sözlərilə yekun vurmaq istəyirəm: "Bu gün vəzifəmiz o qara günləri yaddan çıxarmamaq, həmişə və hər an, hər təcavüzə hazır olmaqdır.Borcumuz bu vətəni hər cür hücumlardan qorumaq və məmləkətimizi şərəflə yaşatmaqdan ibarətdir".

### İstifadə olunmuş ədəbiyyat

1. Əliyev H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət. "Azərbaycan" qəzeti, 30 dekabr, 2000
2. Mehdiyev R. Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri. B, 2000
3. İsgəndərov A. C. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı Bakı, 2006
4. Yenə onun: 1918-ci il mart qırğınının tarixşünaslığı. B., 1998
5. Abışov V. Azərbaycanlıların soyqırımı. B., 2007





6. Rəsulzadə M. Ə. Unudulmaz faciə. "Azərbaycan" qəzeti, 31 mart 1919
7. Yenə onun: Qafqasiya türkləri. İstanbul, 1924
8. Hacıbəyli Ü. 31 mart. "Azərbaycan" qəzeti, 31 mart 1919
9. Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. Bakı, 1992
10. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. B., 1992
11. Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi. B., 1992
12. Сеф С. Е. Как большевики пришли к власти в 1917-1918 гг. в Бакинском районе. Б., 1927
13. Раевский А. Английская интервенция и мусаватское правительство на Версальской конференции. Донесения председателя азербайджанской мусаватской делегации. Б., 1931
14. Əzimov H. Azərbaycan qəzalarında Sovetlər (1917-1918-ci illər). B., 1971
15. Токаржевский Е. А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Б., 1957
16. Kazım-Zadeh F. The Struggle for Transcaucasia (1917-1921). New-York, 1951
17. Svyatoxovski T. Rusiya Azərbaycanı 1905-1920-ci illərdə. –"Xəzər" jurnalı, № 3, 1990; "Azərbaycan" jurnalı, № 11, 1989
18. Svyatoxovski T. Rusiya və Azərbaycan. Sərhədyanı bölgə keçid dövründə. B., 2000
19. Kirzioğlu F. Kars ili ve Çevresinde Ermenilerin Yaptıkları Mezalim. Ankara, 1970

20. Konukçu E. Ermenilerin Yeşilyayladakı türk soykırımı (11-12 mart 1918). Ankara, 1990
21. Köçərli T. Qarabağ: yalan və həqiqətlər. B., 1998
22. Həsənov C. 1918-ci ilin martı: vətəndaş müharibəsi, yoxsa türk-müsəlman soyqırımı? "Azadlıq" qəzeti, 29 mart 1994
23. Encyclopedia Last Updated: June 20, 2014





**Qənirə Pirquliyeva**
*Tarix üzrə fəlsəfə doktoru*

## DÜNYA SİYASƏTİNIN QAFQAZ KONTEKSTİNDƏ MART HADİSƏLƏRİ

Keçən yüzillikdə dünyanın siyası xəritəsində baş verən dəyişikliklər Qafqazdan yan keçə bilməzdi. Bunun əsas səbəblərindən bu ərazinin coğrafi məkan məsələsi, zəngin yeraltı və yerüstü sərvətləri, ucuz işçi qüvvəsi, və daha tam fəth edilməmiş bazarlarını misal kimi göstərmək lazımdır. Bu ərazi uğrunda həmin illərdə Birinci cahan müharibəsinin aparıcı dövlətlərindən olan İngiltərə, Almaniya, Rusiya, İran, Türkiyə mübarizə aparırdılar. Kapitalizmin əsas əlamətlərindən olan "yeni ərazilərin bölüşdürülməsi" zamanı Qafqazda göstərilən dövlətlərin maraqları kəskin olaraq toqquşurdu. Bu toqquşmaların acı nəticələri tarixin bütün dönəmlərində olduğu kimi yenə də Azərbaycan türklərinin alın yazısına çevrildi. Belə ki, çox qədimlərdən – son antik-erkən orta əslərdə böyük imperiyalardan Roma ilə sasanilər arasında müharibələr zamanı aparılan döyüşlərin bəziləri Qafqazda aparılmışdır. Nəticədə bu ərazi iki imperiya tərəfindən bğlüşdürülmüşdü. Eləcə də sonrakı dönəmlərdə buralarda ayrı-ayrı dövlətlər və imperiyalar maraq dairəsi məsələsində məhz bizim toprpaqların parçalanmasını nədənsə həmişə önə çəkmişlər.1914-1918 -ci iilərdə aparılan cahan müharibəsinin nəticələri Avropanın mərkəzi şəhərlərində müzakirə edilərkən yenə də Qafqaz əsas prioritet bir problemə çevrilmişdir. Bu zaman artıq

yeni bir məsələ burada süni, dünyada heç vaxt mövcud olmayan erməni dövlətinin yaradılması məsələsi gündəmə gətirdi.

Dünya siyasətinin hayların xeyrinə işlədiyi bu illərdə, həm də imperiyaların parçalanması, xalqlara azadlıq kimi şüarlar hərəkətə keçdi.Əslində xalqlara azadlıq bir "teatr səhnəsinin pərdəsi" rolunu oynayırdı. Məsələ müsəlman dövlətlərini , xüsusilə türkdili dövlətləri Avrasiya məkanında parçalamaq, sonuncu türk İmperiyası olan Osmanlı imperiyasını öz aralarında bölüşdürmək və Cənubi Qafqazda yerləşən türk-müsəlman dövlətinə ömürlük bir cəzanı-erməni hay tayfaları tərəfindən yaratmaq olmuşdur.. Bu məsələnin kökündə duran Amerika - Avropa xristian dövlətləri din məsələsini gizlədərək, öz iddialarını qalib gəlmiş dövlətlərin məğlublar üzərində iddialarını yürütmək idi. Haylar bunun üçün bir vasitə idi. Daha dəqiq ifadə etsək, kənardan onları silahlandıraraq, daxildə çaxnaşmalar yaratmaqla dünyanın siyasi xəritəsinə heç vaxt olmayan yeni bir Ermənistan vilayəti, sonra isə dövləti əlavə etmək idi.

Bu işlərin icraçısı qismində haylar ortaya atıldı. Roma ilə sasanilər arasında hələ birnci minilliyin əvvəllərində bağlanmış Anamey müqaviləsindən sonra dünyaya səpələnən bu etnik qruplar dövlət yaratmaq üçün hər bir cinayətə hazır idilər. Sözsüz ki, aparılan siyasət sonda türk-hay deyil, erməni –müsəlman qırğınıarına gətirib çıxardı. Burada bir qədər haşiyəyə çıxıb qeyd etmək lazımdır ki, erməni ifadəsinin haylar ilə heç bir əlaqəsi yoxdur. Bu ad ərəblər tərəfindən Qafqaz işğal edildikdə xristianlara qoyulan addır. Söhbət VII əsrdən gedir. Həmin dövrdə Qafqazda indiki





gürcü və Gürcüstan ərazisində yaşayan cürbəcür xalqlar və Qafqaz Albaniyasnda yaşayan yerli türkdilli xalqlar dini etiqad baxımından xristian olmuşdular.Buna görə də ərəb tarixi xronikasında yerli əhali kafir, qeyri-müsəlman, yaxud bəzi dağlıq ərazilərdə yaşayanlar "erməni" adlandırılmışdır. Bu söz ağır təhqir kimi ikinci minilliyin ikinci yarısında qeyri müsəlmanlara verilən addır. Yeri gəlmişkən indiyə qədər xalqımızın leksikologiyasında dindən xəbəri olmayan, köntöy adamlara " ay erməni" deyə müraciət forması qalmaqdadır.

Dünyada baş verən qarışıqlıqlardan istifadə edən haylar həmin illərdə əsasən ucuz işçi qüvvəsi kimi məskunlaşdıqları şəhərlərdə, xüsusilə sənaye inkişafı olan yerlərdə qırğınlar törətməyə nail oldular. Bu qırğınların bütün maliyyə məsələsi yeni yaradılan, amma əslində Rusiya imperiyasının sələfi olan bolşevik dövləti tərəfindən yerinə yetirilirdi. Bütün Qafqazın səlahiyyəti həmin hadisələrdə Şaumyana –qəti daşnaka verilmişdir. Sözsüz ki, bu zaman hayların qarşısında durmaq çətin ola bilərdi.

Dünya siyasətinin yeni istiqaməti bu illərdə yenidən Avropaya yönəlmişdir.Avropanın orta əsrlərdən apardığı bütün münaqişələrin kökündə Asiya və islam dururdu. Xaç yürüşləri, müsəlmanların yaşadığı bütün yerlərdə həmişə oyadılmağa hazır yetişdiriləm münaqişə ocaqları onların əsas işlərindən biri olaraq günümüzə qədər xarici siyasətin şərq məsələsinə yönəlik olaraq qalmaqdadır. Təsadüfi deyil ki, hər dəfə dünya müharibələri başlayanda və əsas himayədarları olan rusların başı qarışdıqda haylar silah götürüb bizlərə qarşı yürüşlərə başlamışlar. Bu hadisələr təkcə

keçən XX əsrdə 4 dəfə baş vermişdi. Hər dəfə də itirdiyimiz torpaqarımız, şəhərlərimiz və ən vacibi insan qurbanlarımız bunu sübut edir.

Mart` qırğınları dedikdə bizim yaddaşımızda yalnız 1918-ci idə törədilən qırğınlar deyil, ümumiyyətlə keçən yüzillikdə xalqımızın bu mənfur etnik qrupun bizə qarşı törətdikəri bütün cinayətləri başa düşmək və tarixin təkrar olunmaması üçün yaşamalıyıq. Dünya siyastində Qafqaz məsələsi həmişə gündəmdə olduğu üçün belə qırğınlara təkrar yol vermək qəbuledilməzdir.

### İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan tarixi, V cild. Bakı, Elm, 2001, səh. 302
2. Solmaz Rüstəmova-Tohidi, "Bakı mart 1918-ci il - Azərbaycan qırğınları", Bakı,2013





**Çingiz Məmmədov**
*Tarix üzrə fəlsəfə doktoru , dosent*

## ŞƏRQİ TÜRKİYƏ VƏ CƏNUBİ QAFQAZDA ERMƏNİ AMİLİ: FAKTLAR VƏ HƏQİQƏTLƏR

Əsrlərlə "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər, heç vaxt bu ilğıma çatmayıblar. Onlar üç dəniz arasında olan ərazidə, Aralıq dənizi, Qara dəniz və Xəzər dənizinə qədər olan torpaqlarda, nəhəng Ermənistan yaratmaq arzusunda olublar. Lakin, tale onların bu xülyalarını həyata keçirməyə imkan verməyib.

Bütün hallarda onların bu iddialarının heç bir əsası yoxdur. Erməni tərəfin arqument bazası həmişə zəif olmuşdur və yenə də zəifdir, çünki o, tarixi baxımdan uydurmalara, saxtalaşdırmalara və qeyri-elmi mühakimələrə, hüquqi baxımdan - beynəlxalq hüquq müddəalarının özbaşına interpretasiyasına **əsaslanır**, bu isə yolverilməz və səmərəsizdir. Buna görə də ermənilərin iddiaları dünyada dəstəklənmir (6. s.10).

XX əsrin öz xülyalarını həyata keçirmək naminə, dünya dövlətlərindən dəstək almaq ümidi ilə, torpağında yerləşdiyi Türkiyəyə qarşı haqsız iddialarla çıxış etməyə başladılar. Versal Konfransında (1919-cu il) "...Ermənlər heç bir dövlətdən asılı olmayan azad və müstəqil Ermənistan dövlətinin yaradılmasını, iddialı olduqları torpaqların müttəfiqlər tərəfindən danışıqsız boşaldılmasını tələb edirdilər" (4.s.241). Bu konfransda iştirak edən hər iki erməni nümayəndiliyi –Boqos Nubar paşanın rəhbərlik etdiyi Erməni

milli nümayəndəliyi və A.Aqaronyanın başçılıq etdiyi Erməni Respublikasının nümayəndəliyi- üç dənizarası ərazini və 19 milyard frank təzminat tələb edirdilər. Lakin onların böyük ərazi və təzminat tələbləri dəstək almaq istədikləri dövlətlər tərəfindən rədd edildi. Erməni Parlamentinin üzvü, eser Vaqan Minaxoryan özündə güc tapıb, belə bir ifadə işlətmişdi "Digər şovinizmlər kimi, erməni şovinizmi də böyük bir bəladır" (4.s243).Bütün konfrans gedişində erməni nümayəndələri V.Vilsonu, L.Corc və Klemansonu təqib edərək "öz müttəfiqlik borclarını yerinə yetirməyi tələb edirdilər. Ermənilər Ermənistan mandatını alan dövlətdən iddialı olduqları torpaqların digər etnoslardan tam təmizlənməsini tələb edirdilər. Onların bu həyasızlığı hamını qıcıqlandırırdı, ona görə də ermənilər öz dostlarını itirməyə başladılar (4.s244). Nəticə etibari ilə, 1920-ci ilin aprelində San -Remo konfransında müttəfiqlər, 1920-ci ilin iyununda isə ABŞ senatı Ermənistan mandatını alaraq, onlara kömək etmək təklifindən qəti imtina etdilər (4.s.248).

Qeyd olunmalıdır ki, ermənilər türklərdən öz təzminatlarını sülh konfransına qədər almışdılar. Belə ki, Rusiyanın Qafqaz cəbhəsində iştirakından istifadə edən ermənilər Şərqi Türkiyədə cox böyük talanlar və etnik qırğınlar ilə məşğul olmuşdular.

1916-cı ildə Böyük Britaniyada yazılmış bir əsərdə, 1915-ci il hadisələrinə obyektiv qiymət verən bir ingilis müşahidəçisi qeyd edir: " Türklər heç vaxt öz problemlərini kənara çıxarmırlar. Əksinə, ermənipərəst elementlər qurbanların sayını təkrar etmək və artırmaqla kütlələri dəhşətə gətirir, həmişə göz qabağında olmağa cəhd edirlər. Yəqin ki, onlar





qədim bir şərq deyimini əsas götürürlər: " Yalanın yayılmasına 24 saat imkan versən. onu təkzib etməyə 100 il lazım olacaq" (3.s.114).

1914-cü ildə Şərqi Anadolunun müsəlman əhalisi 2.295.705 nəfər təşkil edirdisə, müharibədən sonra 600.000 qaçqın qalmışdı. Mülki əhali arasında bu qədər itkinin(1.600.000) səbəbi erməni döyüşçülərinin bu ərazidə, xüsusi ilə Ərzincanda apardıqları sistematik qırğınlar olmuşdur (3.s.90).

Türkiyə və Cənubi Qafqaz ərazilərinə belə dəhşətli hadisələrə səbəb olan erməni amilinin yaranması prosesinin araşdıran alimlər tarixi faktlara əsaslanaraq, bu məsələdə əsil həqiqəti üzə çıxarmağa çalışırlar.Maraqlıdır ki, bu faktların müəyyən hissəsi məhz erməni mənbələrinə əsaslanır.

Əsasən türk əhalisinin yaşadığı Şərqi Türkiyə və Cənubi Qafqaza haylar Balkanlardan köçüb gəlmişlər.Erməni tarixçisi S.T.Yeremyan qeyd edir: " Ermənilərin hindavropa əcdadları e.ə. III və II minilliyin qovşağında Frakiya sahillərindən Kiçik Asiya sahillərinə keçmişlər. Sonradan, e.ə. XIV – XIII əsrlərdə Qalis çayı ərazisində yerləşərək, "Kiçik Ermənistan"a yayılmışlar. E.ə. XII əsrdə frikiyalıların Kiçik Asiyaya hücumundan sonra ermənilər yerli əhalinin assimilyasiya edərək, erməni dilində danışan yeni etnosun yaranmasını şərtləndirmişlər (7.s.113). Strabon xüsusi qeyd edirdi ki, ermənilər işğal etdikləri ərazilərdə istila olunmuş xalqları assimilyasiya etməyə çalışırdılar: "*Buna* görə indi həmin xalqların hamısı bir dildə danışırlar" (6.s.13).

Qədim yunan tarixçisi Herodot yazırdı ki, ermənilərin əcdadları Frigiya torpaqlarından köçürülmüşlər"(6.s.27).

Bu faktı erməni alimləri özləri də etiraf edirlər. "Erməni xalqının tarixi" kitabının redaktoru M.Q.Nersisyan yazır: "Dəniz xalqları"nın məşhur böyük köçürülmə dövründə (e.ə.XIII-XII əsrlər) ermənilər Balkanlardan onlara qohum olan frakiya-frigiya tayfaları ilə birlikdə Kiçik Asiyaya gəlmişlər"(6.s.27). A.Pastrmaçyan da bununla razıdır. O hesab edir ki, hind- Avropa mənşəli frigiya tayfalarından biri kimi ermənilərin Balkanlardan Kiçik Asiyaya köçməsi elm aləmində qəbul olunmuş faktdır. Doğrudur, onun fikrincə, bu, 6 əsr gec- e.ə.VII-VI əsrlərdə baş vermişdir. Bunu tədqiqatçıların əksəriyyəti etiraf edir (6.s28).

Ermənilər (haylar) XV əsrin ortalarınadək Cənubi Qafqazda, demək olar ki, yaşamayıblar.Ermənilər antropoloji baxımdan praktiki olaraq yeganə xalqdır ki, onlar Cənubi Qafqaz xalqları üçün xarakterik olan antropoloji tipə uyğun gəlmirlər. Aparılmış antropoloji tədqiqatlara əsasən deyə bilərik ki, tarixi Azərbaycanın qərb hissəsinin əhalisi bütün dövrlərdə (eneolitdən başlamış müasir dövrə qədər) Azərbaycanın qalan hissəsinin əhalisinə oxşar olmuşdur (6.s.17).

**XV əsrin 30-cu illərində Azərbaycanda Qaraqoyunlu sülalə nümayəndələri öz aralarında hakimiyyət uğrunda mübarizə aparır, həm də Ağqoyunlu tayfa birləşmələri ilə də müharibə vəziyyətində idilər. Erməni qriqorian katolikosları öz etnosunu və dinini məhv olmaqdan xilas etmək üçün, özlərinə döyüş meydanlarından kənarda məskən axtarmağa başladılar. Ona görə də, erməni monastrı Qərbi Azərbaycanda yerləşmək məqsədi ilə, yerli azərbaycanlılardan pul ilə mülklər almağa başladı.**





1431-ci ildə Qaraqoyunlu İsgəndər öz sərkərdəsi Əmir Rüstəmə xidmətinə görə Çuxur Səddə böyük torpaq sahələri (soyurqal) bağışlamışdı. Matenadaranda saxlanan alqı-satqı sənədlərinə görə, Əmir Rüstəm 21 dekabr 1431-ci ildə öz mülkündən 7 kəndi (Vağarşabad, Əştərək, Batrinç, Noraqavit, Ağunatun, Kirəcli və Muğni) katolikos Qriqor Makvetsiyə 530 min Təbriz dinarına satmışdı. Lakin, erməni katolikosu yerli sakinlərin öz etnosu və dinindən olmadıqları üçün, bu ərazidə ağalıq edə bilmirdilər. Yerli alban xristianları isə qriqorianlığı qəbul etmək istəmirdilər.

1441-ci ildə Qaraqoyunlular dövlətinin hökmdarı Cahan şah erməni katolikosluğunun mərkəzini Kilikiyanın Sis şəhərindən **əhalisi** tamamilə türklər olan İrəvan yaxınlığındakı qədimdə alban monastırı olmuş Üçkilsə monastırına (yaxud Üç Müədzinə) köçürmüşdür. Sonralar ermənilər Üç Müədzin adını dəyişərək "Eçmiədzin" kimi ifadə etmişlər. Erməni dilində bu sözün heç bir mənası yoxdur. Matenadaranda saxlanılan orta əsr sənədlərində məbədin adı məhz "Üçkilsə" kimi xatırlanır (6.s.27).

1443-cü ildə katolikos Qriqor Makvetsi Eçmiədzin taxtına çıxdıqdan sonra, Vaqarşabad kəndinin qalan hissəsini də iri aərbaycanlı mülkədarı Səid bəydən satın aldı (5.s. 24). Erməni katolikosunun Üçkilsəyə köçürülməsi ilə erməni missionerləri buraya üz tutmağa başladılar. Onların Cənubi Qafqazda nüfuzlarını artırmaq imkanı yaranmışdı. Tezliklə monastırın özü ermənilərin dini mərkəzinə çevrilmişdir.

Qriqor Makvetsi sonralar Ağqoyunlu Yaqub Padşaha xidmət edən Əmir Rüstəmdən 22 avqust 1489-cu il alqı-

satqı müqaviləsinə görə Oşakan kəndini də satın almışdı (5.s.24). Sonradan katolikos daha 16 kənd almış, onun ixtiyarında 23 kənd olmuşdur (5.s.25). Onlar bu kəndləri müxtəlif adamlardan hissə-hissə alırdılar ki, heç kimdə şübhə oyanmasın. Bu alqı- satqı müqavilələri şəriət məhkəməsi ilə sənədləşdirilmiş və təsdiq olunmuşdur. 1596 - 1721-ci illərdə varlı ermənilər azərbaycanlılardan 30-dan çox üzümlük sahələrini satın alaraq , onları **Üçkilsə monastırına bağışlamışdılar** (5.s.31).

XVI əsrdən başlayaraq Rusiyanın xarici siyasətində Qafqaz xüsusi yer tuturdu. Məqsəd Qafqazı bütünlüklə zəbt etmək, ilk növbədə müsəlmanlar yaşayan ərazilərdə xristianlardan ibarət bufer zona yaratmaq idi. Məhz bu məqsədlə Romanovlar sülaləsinin hakimiyyəti dövründə Rusiya Türkiyə və İrana qarşı geniş miqyaslı müharibələr aparmış, onlara qalib gəlmiş və yeni-yeni əraziləri zəbt etmişdir. Cənubi Qafqazı zəbt etmək üçün aparılan müharibədə erməni amilindən məharətlə istifadə edilir, ermənilərin ərazi iddiaları və təklifləri Rusiyanın hakim dairələri tərəfindən dəstəklənirdi. Osmanlı Türkiyəsində, İran şahlığında yaşayan ermənilər arasında şovinizm ruhu alovlandırılır, daxili iğtişaşlar təşkil edilirdi. Onların məqsədi Cənubi Qafqazda milli erməni dövləti üçün baza yaratmaq idi. Bu işdə onlar, "xristianlıq bayrağı altında birləşmək" şüarını məharətlə istifadə edərək, həm Rusiya, həm də Avropa ölkələrinin yardımından faydalanırdılar.

1667-ci il- Çar hökuməti ilə erməni tacirləri arasında ticarət müqaviləsi bağlanır və bununla Rusiya dövləti ərazisində ipək ticarəti erməni tacirlərinin monopoliyasına keçirilir.





1699-cu il -İsrail Ori Angeğakotda ( Sisyan rayonu) Sünik məlikləri ilə gizli müşavirə keçirir. Orada Ermənistanı azad etmək xahişi barədə I Pyotra müraciət qəbul edilir.

1701-ci il- I Pyotr İsrail Ori ilə görüşür, ermənilərə hərtərəfli yardım göstərməyə təminat verir.

1724-cü il 10 noyabr- I Pyotr erməni xalqını öz himayəsinə almaq haqqında fərman imzalayır. Bundan sonra Şimali Qafqazda və Kaspi ətrafı rayonlarında yaşayan ermənilərə xüsusi imtiyazlar verilir (2.s.7).

Lakin yenə də, bu torpaqların XIX əsrin birinci yarısında Rusiyaya birləşdirilməsinə qədər, Cənubi Qafqazda Üçkilsənin hüdudlarından kənarda çox cüzi erməni var idi (6.s.30).

Həm 1804- 1813-cü və 1826- 1828-ci illər Rys- İran müharibələrinin gedişində, həm də sonralar ermənilərin böyük kütlələrinin İran, Türkiyə və Cənubi Azərbaycandan Cənubi Qafqaza köçürülməsi ilə burada onların sayı sürətlə artırdı. Təkcə 1826- 1828-ci illərdə Cənubi Qafqaza 18 min erməni ailəsi köçürülmüşdü (1.s.49).

1828-ci ildə Türkmənçay müqaviləsinə görə müharibə dövründə rus ordusuna kömək edən xristian əhalinin İran ərazisindən Rusiyanın işğal zonasına maneəsiz köçməsinə icazə verilmişdi. Türkmənçay müqaviləsi bağlandıqdan sonra ermənilərin İrandan, Osmanlı imperiyasının şərq əyalətlərindən İrəvan, Naxçıvan və Qarabağa kütləvi köçürülməsi başlandı. Əməliyyata rus diplomat və şairi Aleksandr Qriboyedov rəhbərlik edirdi. O, "Ermənilərin İrandan bizim vilayətlərə köçürülməsi haqqında qeydlər" adlı yazısında göstərirdi: "Ermənilər daha çox müsəlmanların

mülkədar torpaqlarında məskunlaşdırılmışlar. Yayda hələ buna yol verməк olardı. Torpaq sahibləri, müsəlmanlar əsas etibarilə köç yerlərində idilər və başqa dinə mənsub olan gəlmələrlə təmasda az olurdular" (6.s.30). Eyni zamanda, Qriboyedov gəlmə ermənilərlə yerli müsəlmanlar arasında gələcəkdə mümkün ola biləcək münaqişələr barədə xəbərdarlıq edirdi: "Biz onunla (knyaz Arqutinski ilə), həmçinin müsəlmanları müvəqqəti çətinliklərlə barışdırmaq, ermənilərin ilk dəfə buraxıldığı torpaqları həmişəlik ələ keçirmələri barədə qorxularının kökünü kəsmək üçün onlara təsir göstərmək barədə çox düşünürdük!"(6.s.31).

1828-1830-cu illərdə Cənubi Qafqaza İrandan 40 min, Türkiyədən 84600 erməni köçürülmüşdü. Ümumən, Onlar əsasən Yelizavetpol (Dağlıq Qarabağ) və İrəvan quberniyalarında yerləşdirilmişdi. Onlar üçün 200 min desyatin xəzinə torpağı ayrılmış, üstəlik müsəlmanlardan 2 milyon manatlıqdan çox sahibkar torpağı satın alınmışdı (8.s.63)

Erməni tarixçisi Corc Burnutyan qeyd edir: "Statistikadan görünür ki, Rusiya istilasınadək ermənilər *Şərqi Ermənistan əhalisinin təxminən 20 faizini, müsəlmanlar isə 80 faizini təşkil* edirdilər. Rusiya ilhaqından sonra İrandan və Osmanlı imperiyasından bura 57 min erməni immiqrant gəlmiş, 35 min müsəlman *Şərqi Ermənistanı tərk etmişdi.* 1832-ci ildə ermənilər ümumi əhalinin yarısını təşkil edirdilər" (6.s.30).

Rusiyanın statistik məlumatlarına görə Türkmənçay müqaviləsi bağlanana qədər Qarabağ xanlığında ermənilər daha az idi. İsveç müəllifi Svante Kornelə görə "Rusiyada keçirilən siyahıyaalmaya əsasən, 1823-cü ildə ermənilər Qarabağın ümumi əhalisinin 9 faizini (qalan 91 faiz müsəlman





kimi qeyd olunmuşdu), 1832-ci ildə 35 faizini, 1880-ci ildə isə artıq üstünlük təşkil edirdilər – 53 faiz" (6.s.30).

Rus alimi N.Şavrov 1911-ci ildə nəşr etdiyi əsərində yazmışdır: «XX əsrin başlanğıcında Cənubi Qafqazda yaşayan 1 milyon 300 min ermənidən 1 milyondan çoxu yerli əhali deyildi: onlar buraya bizim (yəni ruslar- Ç.M.) tərəfimizdən köçürülmüşlər» (8.s.64).

Bütün bu faktlar sübut edir ki, Cənubi Qafqazda erməni amilinin meydana gəlməsi məhz çar Rusiyasının işğalçı siyasəti səbəb olmuşdur.

Ermənilərin Cənubi Qafqazda kütləvi məskunlaşması, çar Rusiyasının bu əraziləri işğal etdikdən sonra baş vermişdir. Zaman – zaman hiylə, torpaqların satın alınması və güclü havadarların köməyi ilə Cənubi Qafqaz bölgəsində yerləşən erməni etnosu iki əsrdir yerli əhalini sıxışdırma və etniki təmizləmə siyasəti həyata keçirir. Onlar hətta, XX əsrin sonunda Azərbaycan Respublikasının ərazisinin 20 faizini də işğal etmiş, bir milyon qaçqın və köçkünün öz torpaqlarından didərgin düşməsinə səbəb olmuşlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hal- hazırda apardığı uğurlu xarici siyasəti nəticəsində, Azərbaycan xalqı Ermənistanın bu məkrli addımının da qarşısını alacaq, bütün torpaqlarımızi azad edəcək.

## İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı, 2000.
2. Həsənov H.R. Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997.

3. Жорж де Малевиа. Армянская трагедия 1915 года. Баку,1990.
4. Каземзаде Ф.Борьба за Закавказье (1917-1921). Баку, 2010.
5. Мамедов С. А. Азербайджан по источникам XV – первой половины XVIII вв. Баку, 1993.
6. Mehdiyev R. Gorus – 2010: Absurd teatrı mövsümü. B., 2010. 7.Народы Кавказа. Под.ред. Б.А.Гарданова, А.Н.Гулиева, С.Г.Еремяна. т.2.М.,1962. 8.Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцамь. Баку, 1990.





*Yasir Hacıyev*
**Bakı Humanitar kollecin müəllimi**

## İKİ ƏSRLİK VƏHŞƏT + SOYQIRIM = ERMƏNİ

Azərbaycanın əzəli torpaqlarında ermənilərin rəsmi formada məskunlaşdırılması hələ I Pyotrun hakimiyyəti dövründə başlanmışdır. Onun 1724 - cü ildə ermənilərin Xəzəryanı Şirvan ərazilərinə yerləşdirilməsi haqqında verdiyi fərman bunu deməyə əsas verir. Bu fərman 1813 - cü il Gülüstan və 1828 - ci il Türkmənçay müqavilələrindən sonra daha ciddi şəkildə yerinə yetirildi. 1829 - cu il Ədirnə müqaviləsinə görə Osmanlı imperiyasının da ərazisindən ermənilərin Cənubi Qafqaza köçürülməsi başlandı. Rusiyanın təminatı ilə Azərbacanın ən səfalı və bərəkətli, həm əkinçilik, həm də maldarlıq üçün yararlı olan torpaqlarına yerləşdirilən gəlmə ermənilər az sonra yenə öz xislətlərinə uyğun olaraq yerli əhalini, yəni azərbaycanlıları sıxışdırmağa başlayırlar. Onların bu xüsusiyyəti haqqında məlumatı olan Rusiyanın İrandakı səfiri, həm də ermənilərin Azərbaycana köçürülməsinin əsas təşkilatçılarından biri kimi tanınan A.S.Qriboyedov öz imperatoruna belə məsləhət verirdi: "Əlahəzət, mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə veermək olmaz. Onlar elə tayfadırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay - küy salacaqlar ki, bura bizim dədə - baba torpaqlarımızdır".

"Tarixin atası" hesab olunan Herodotun yazdığına görə ermənilər eramızdan əvvəl V əsrdə Balkanlardan Kiçik Asi-

yaya, Van gölünün qərbinə köçürmüşlər. Həm Roma, həm Sasani, həm də başqalarının ağalığı altında yaşamışlar. Xırda bir vilayət, bəzən çarlıq adlandırılan idarəetmə formasına malik olmuşlar.

Bölgədə hansı dövlət güclü olubsa ona sığınıblar. E.ə. 95 - ci ildən e.ə. 66 - cı ilə qədər Tiqranın dövrü onun tarixində "dövlətçilik" kimi qiymətləndirilən yeganə dövrdür. Zaman keçdikcə rus imperiyasının sərhədləri genişlənirdi. Bu genişlənmə Qafqazda və Şərqi Anadoluda yaşayan xalqların həyatına bir narahatçılıq da gətirmişdi. Çünki çar sarayı ilə əlaqədar qura bilmiş ermənilər artıq "dənizdən - dənizə Böyük Ermənistan" xülyası ilə planlarını həyata keçirməyə məqam güdürdülər.

"Böyük Ermənistan" xəstəliyinə tutulmuş ermənilər kilsənin təşkilatçılığı və "xeyir - dua»sı ilə daha da fəallaşdılar. Avropalı tərəfdarlarının məsləhəti ilə XIX əsrin sonlarında siyasi mübarizə adı ilə, əslində isə əsil terror təşkilatları olan və bu gün də ideyası uğrunda istənilən avantüraya "baş vuran" millətçi partiyalar (HNÇAK , Daşnaksütyun) yaradıldı. Bu partiyalar öz proqramlarında Osmanlı imperyasının ərazisi hesabına müstəqil bir erməni dövləti yaratmağı qarşılarına məqsəd qoymuşdular. Yəni "Böyük Ermənistan"ın yaradılmasına çox ciddi çalışırdılar. Yeri gəlmişkən, tarixin heç bir dövründə elə bir arxeoloji matrial və tarixi mənbə yoxdur ki, "Böyük Ermənistan" dövlətinin nə vaxtsa mövcud olmasını təsdiq etsin. Bununla belə, özünün sabit ərazisi olmayanı köçəri - gəlmə erməniləri başqa xalqların torpaqlarını ələ keçirməyə "şirnikləndirən" və sövq edən, xəyali hadisələr toplusu olan, amma uzun





dövr ərzində nəinki ermənilərin, hətta başqa xalqların da bir çoxunun aldanmasına, inanmasına səbəb olmuş "milli ideologiya" əslində mürtəce mahiyyətli, terrorçuluq və işğalçılıq proqramıdır. Burada heyrət olunası məqam isə onların bu "yalançı doktrina"nın yüz illərdir bir ölkənin ərazisindən ikincisinin, üçüncüsünün və daha bir başqasının ərazisinə "daşımaqla" özlərinə "rahat dayanacaq" və arxalana biləcəkləri böyük dövlətlə "dostlaşana" qədər yaşadılması və onun uğrunda daha inadla, daha iddialı mübarizə aparmalarılıdır.

XIX əsrin sonu - XX əsrin əvvəllərində erməni ideoloqları Avropadakı havadarlarının köməyi ilə Osmanlı ərazisində özlərinə dövlət qurmaq üçün müxtəlif yollara əl atırdılar. Birinci Dünya müharibəsi başlayandan (1914 - cü il) sonra onlar daha da fəallaşdılar. Çünki Almaniyanın müttəfiqi olan Osmanlı dövlətinin məğlubiyyəti ermənilərin maraqlarına uyğun idi. 1914 - cü ilin dekabr ayı və 1915 - ci ilin yanvarında olmuş Sarıqamış döyüşündə Osmanlıların uduzması erməniləri xeyli cəsarətləndirmişdi. Bununla belə Osmanlı dövləti daxili separatçılıqla məşğul olan ermənilərə nəinki fəallaşmağa imkan vermədi, onları ölkə hüdudlarından kənarlara çıxarmağa da təşəbbüs etdi.

Həmin dövrlərdə ermənilər yazıçı Arsruninin yalançı xəyali məhsulu olan "dənizdə dənizə erməni dövləti" ideyası ən müxtəlif üsullarla, mərhələ - mərhələ həyata keçirməkdə idilər. Ermənilərin bu üsullarında hər nə desən var: yalan, yaltaqlıq, yarınmaq şantaj, rüşvətlə ələ almaq, satqınlıq, vandalizm, terror, soyqırım və s.

1905 - ci ilin əvvəlində Rusiyada başlanan inqilabın Bakıda əks-səda verməsi ermənilərin lap çoxdan etmək istədiyi

bir iyrənc işin başlanğıcı oldu. Həmin ilin fevralında Bakıda və digər bölgələrdə ermənilər azərbaycanlılara qarşı kütləvi soyqırımlar törətdilər. Məlumdur ki, Rusiya xüsusi xidmət orqanlarının bu qırğınların təşkilində xüsusi rolu olmuşdur. Bu hadisələrin təşkilatçıları sonralar məsələnin mahiyyətinin açılmasına imkan verməmiş, azərbaycanlıların simasında "bəşəriyyət ovçusu" kimi mənfi ictimai fikir yaratmağa çalışmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər. Onların bu ikiüzlü siyasəti 1905 - ci il fevralın 20 - də Tiflisdə təşkil olunan sülh imkanlarının müzakirəsi zamanı da özünü göstərmişdi.

Qafqazın canişini Vorontsov - Daşkov İrəvan, Gəncə, Tiflis qubernatorlarının, erməni nümayəndələrinin və Azərbaycanı təmsil edən Ə.B.Topçubaşov, Ə.B.Ağayev, Kərbəlayi İ.Hacıyev, M.A.Vəkilov, Ə.X.Ziyadxanov, Ə. B.Xasməmmədov və başqalarının iştirakı ilə iki xalq arasında sülhün yaradılması yollarını müzakirə edirlər. Bu müzakirədə məqsəd "hadisələrin baş vermə səbəblərini təftiş edib, hər iki millətin dərd və vəziyyətinə baxıb çarə axtarmağa və bir daha belə hadisələrə yol verməmək üçün hökuməti bir sıra lazımlı tədbirlər görməyə vadar etmək" idi. Müzakirlərdə çıxış edən Ə.B.Ağayev, Ə.B.Topçubaşov və digər azərbaycanlı nümayəndələrin sözlərindən belə məlum olur ki, yerlərdə idarə etməyə başçılıq edən hökumətin vəzifəli adamları bu soyqırımlar silsiləsinə adi seyirçi kimi baxmış, əksər hallarda ermənilərə daha münbit şərait yaratmışlar. Erməni nümayəndələri isə özlərini zərərçəkən kimi göstərmək və azərbaycanlılardan təzminat tələb etmək iddiasında olmuşlar.





Müzakirənin sonunda belə bir qətnamə qəbul olundu ki, "hökumət ciddi təşəbbüs edib terroru aradan götürsün və müsəlləh partiyaları dağıtsın". Bundan sonra "hər çıxışa nəzarət edən drijorun sehirli çubuğu ilə idarə olunan qırğınlar səngidi və dayandırıldı". Amma soyqırım ideyasının əsas mənbəyi "daşnaksütyun" partiyası dağıdılmadı. Sadəcə azərbaycanlılara qarşı apardığı müharibənin taktikasını dəyişdirdi.

Azərbaycan türklərinə qarşı aparılan soyqırım siyasətini özləri üçün "müqəddəs müharibə" adlandıran ermənilərin törətdiyi qətliyamların sayı - hesabı yoxdur. Onların bir neçəsinə nəzər salmaqla bu vəhşiliyin mənzərəsini təsəvvür etmək olar:

*1905-ci il 6 - 7 - 9 aprel aprel.* Bakı. Əldə olunmuş sənədlərə görə erməni milyonçularının havadarlığı ilə terror qrupu birinci gün 33 adamı yaralamış, 18 nəfəri amansızlıqla öldürmüş, ikinci gün 100 nəfərədək öldürmüş, sonuncu gün isə daha çox saylı insanı qətl - qarət etmişlər.

*20-21 fevral 1905 - ci il. İrəvan.* "Daşnaksütyun" terror təşkilatının quldur dəstələri şəhərin azərbaycanlı sakinlərini qırmışlar. Bu qətlləri Parisdə nəşr edilmiş erməni dərsliklərindən tərbiyə almış adanlar törətmişdilər.

*1905-ci ilin mayında.* Naxçıvanda, Zəngəzurda, 21 avqustda Şuşada, avqustun sonlarında yenə Bakıda, 3 okyabrda Sırxavənddə, 1 yanvar 1906 - cı ildə Papravənddə ermənilər çoxsaylı insanın qətli, talanı və dağıntılarla müşayət olunan, mahiyyət etibarı ilə əsl soyqırım siyasətini həyata keçirdilər.

1917-ci ildən başlayaraq Osmanlı ərazisində ermənilər yenidən dinc əhaliyə qarşı kütləvi məhvetmə planını işə

salmışdılar. Həmin dövrdə Cənubi Azərbaycanda da ermənilər tarixə "Urmi faciəsi" adı ilə düşmüş və geniş əks - səda doğurmuş ***Urmiya faciəsi*** - ni törətdilər. Urmiyada 100 mindən çox azərbaycanlı öldürüldü. Adekvat cavab almayan daşnaklar dışı qana batmış yalquzaq kimi Azərbaycanda ləyaranmış . əlverişli vəziyyətdən istifadə etmək və uşaqlı qadınlı, qocalı, cavanlı hər kəsi öldürməyə başladılar.

1918 - ci ilin mart ayının sonunda 10 min nəfərlik erməni quldur dəstəsi Şaumyanın başçılığı ilə. bir neçə neçə min silahlı və könüllü də əlavə olaraq Bakıda və Bakı ətrafında 3 gün ərzində 30 minə yaxın günahsız soydaşımızı xüsusi amansızlıqla, qəddarlıqla öldürmüşdülər. daşnakların 1917 - ci ildə hazırladığı plana ıgörə bu soyqırımı törədilməsində bir məqsəd var idi: azərbaycanlıları son nəfərinədək qırmaq və qovmaqla Xəzər dənizindən Türkiyə sərhədlərinədək ölkənin bütün ərazisini boşaltmaq. Bu ərazidə isə illərdir həsrətində olduqları erməni dövlətini qurmaq. Öz çirkin niyyətlərini həyata keçirmək üçün 1918 - ci ilin mart - aprel aylarında Bakı quberniyasında 229, Gəncə quberniyasında 272, Zəngəzurda 115, Şamaxıda 80, Qubada 122, Qarabağda 157 kəndi bütün məcsidləri, məktəbləri, qədim memarlıq abidələri ilə birlikdə yandırıb külə döndərmiş, əhalisini qırmış və didərgin salmışdılar.

*1918 - ci il hadisələrindən bir neçəsi*: Andronikin quldur dəstəsi Sisyanın 31 kəndini dağıdıb. Ağdü kəndində 400 nəfərlik məscidə daha çox insan yığaraq od vurdular. Bir nəfər də xilas ola bilməmişdi.

*21 mart 1918 - ci il Bakı*. Şahidlərin dediyinə görə "Daşnaksütyun"un terrorçuları İçərişəhərin girəcəyindəki bina-





nı mühasirəyə almışdılar. Burada iki minə yaxın yaralı və xəstə azərbaycanlı rus, yəhudi və ləzgi var idi. Başçılarının göstərişi ilə binaya hər tərəfdən ad vuraraq heç kəsə qaçmağa aman verməmişlər.

*1-2 may 1918 - ci il Quba*. Mülki əhalinin silahsız olduğundan məlumatı olan ermənilər Qubaya soxularaq 200 evi və 22 məscidi dağıdaraq yandırmış, 3 min nəfər insan öldürmüşlər.

*1918-ci il 4 aprel "Naş qolos" qəzeti"*: "Hər yerdə qıc olmuş, eybəcər hala salınmış, yandırılmış kişi, qadın və uşaq meyitləri vardı".

*25 sentyabr 1918-ci il:Azərbaycan qəzeti*. "Erməni hərbi birləşmələri Bakıda 30 mindən çox müsəlmanı vəhşicəsinə qətlə yetirib, uşaqlara və qadınlara işgəncə verib, neçə - neçə məhəllə yandırıb, Şamaxı qəzasına dəstələr göndəriblər. Onlarca kənd atəşə tutuldu. Əhali qılıncdan keçirildi, qanına qəltan edildi. Bununla eyni vaxtda daşnaklar dünyanın hər yerinə teleqramlar yağdıraraq, şivən qoparırdılar ki, müsəlmanlar erməniləri qırırlar"

1918 - ci ildə Azərbaycan Xalq Cümhuriyyəti bu soyqırımlara siyasi qiymət verimək, daşnakların 1918 - 1920 - ci illərdə Azərbaycanda törətdiyi cinayətləri araşdırmaq üçün Fövqəladə Təhqiqat Komissiyası yaratdı. Komissiya 3500 səhifədən ibarət 36 cildlik geniş materiallar toplusu hazırladı. Lakin Sovet quruluşunun Azərbaycanda da bərqərar olmasından sonra bu soyqırım söhbəti 70 ildən çox xalqdan gizlədildi. Sovet hökuməti əzəli Azərbaycan torpağında bir erməni dövləti yaratdı. Soydaşlarımızı kütləvi formada qətl edən erməni quldurbaşılar isə ən fəxri adlara layiq görül-

dülər. Xalq qəhrəmanları kimi şərəflərinə küçələr, bütöv rayonlar, mədəniyyət və səhiyyə ocaqları adlandırdılar, heykəllər ucaldıldı.

Böyük fransız alimi Qraf de Solenin dediyi kimi: "xarakterində mənfur bir biclik, biabırçı əclalıq və rüsvayçı bir alçaqlıq olan ermənilərin normal düşüncəyə sığmayan sərsəm iddialarından birdə onların dünyada guya nə vaxtsa yaşadıqları və sahib olduqları 22 paytaxtlarının olması fikridir. Bu paytaxtlar siyahısına Yerevandan başqa Tiflis, Diyarbəkr, Bakı, Soçi, Armavir, Qars, Odessa, Kiyev, Yerusəlim şəhərləri daxildir. Eyni zamanda Almaniya və Macarıstan ərazilərində də ermənilərin paytaxtı olmuş şəhərlər olduğunu iddia etməkdədirlər. Ermənilərin belə cəfəng iddialarından biri də onların yaşı bir neçə min il olan xaça sahib olmaları fikri idi. İrəvan şəhərinin 2500 illik yubileyində iştirakçılara həmin "tarixi şedevr" təqdim olundu. Lakin tezliklə beynəlxalq səviyyədə araşdırıldı ki, bu xaçın heç beş yaşı da yoxdur.

2003 - cü ildə ABŞ - da nəşr olunan *"Ermənistan - terrorçu "xristian" ölkənin gizlinləri"* kitabı erməni xislətinin eybəcərlikləri barədə əsl həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün çox qiymətli mənbədir. Amerikalı alim Samyuel A.Uimz bu əsərində özünəməxsus riyakarlıqla dünyada əzabkeş, həmişə sıxışdırılan, haqq işi uğrunda çalışan "qonşuları" tərəfindən təzyiqə məruz qalan xalq kimi tanınmağa cəhd edən və tanıdılan ermənilərin əsl simasını, iç üzünü açır: *"Yer üzünün xristianları ermənilərin dedikləri sözlərə öz qayğılı münasibətlərinə son qoymalı və özləri onların həqiqiliyini yoxlamalıdırlar. Bu sətirlərin müəllifi olan xristian öz müstəqil*





*yoxlamasını apararaq belə bir qənaətə gəlmişdir ki, ermənilərin internet saytlarında və ya kitablarında və məqalələrində ermənilər tərəfindən yazılmlş heç nədə həqiqət tapıla bilməz. Çoxlu müsəlman zorla ölkədən çıxarılmışdır. İndi Ermənistan Yer üzünün ən qapalı xristian cəmiyyətlərindən biridir".*

Amerikalı alim daha sonra yazır: özlərini erməni adlandıran balaca, lakin hay - küyçü qrupun siyasi təzyiqinə əsasən hərəkət etmək ABŞ Konqresinə baş ucalığı gətirmir. Erməni faktlarını yoxlamağın vaxtı çoxdan çatmışdır. 1918 - ci ildən başlayaraq bu cubbulu ölkənin əsas məxarici terroizm, əsas mədaxili isə bütün dünyanın xristianlarından edilən xarici yardım olmudur".

"Böyük Ermənistan" xəyali ilə beyinləri zəhərlənmiş ermənilər Rusiya və bəzi qərb ölkələrinin hərtərəfli köməyi ilə daha dəhşətli bir soyqırım - Xocalı faciəsini - törətdilər. Erməni idioloqlarının əzbərlədiyi "hər bir erməni sivilizasiyasının yaranmasının ilkin elementar enerjisinin daşıyıcısıdır" deyimi heç yerinə düşmür. Əslində hər bir erməni ölüm və vandalizm daşıyıcısıdır.

XX əsrdə 2 milyona yaxın azərbaycanlı deprtasiya və soyqırım siyasətinin ağır nəticələrini öz üzərinə hiss etmişdir. Soyqırımı Azərbaycan xalqına böyük siyasi, maddi və mənəvi zərbələr vurmuşdur.

Yuxarıdakı faktlardan göründüyü kimi ermənilər öz şovinist məqsədlərinə çatmaq üçün beynəlxalq hüquq normalarına məhəl qoymadan bütün iyrənc və dəhşətli vasitələrdən istifadə ediblər. Azərbaycanın XIX - XX əsrlərdə baş verən bütün faciələri torpaqlarımızın işğalı ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş,

planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı - ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrdən yalnız birinə - 1918 - ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Xocalı soyqırımını tanıtmaq uğrunda isə gərqin işlər görülür. Bu faciələr tarixin üzərində bir qanlı ləkədir.Bu qanlı ləkəni silmək vəzifəsi bizlərin üstündədir. Yəqin ki, "qisas qiyamətə qalmaz".

### İstifadə olunmuş ədəbiyyat

1. Solmaz Rüstəmova - Tohidi. "Mart 1918 - ci il Bakı. Azərbaycanlıların soyqırımı sənədlərdə" - Bakı 2009.
2. V.Arzumanlı, N.Mustafa."Tarixin qara səhifləri. Departasiya. Soyqırım. Qaçqınlıq" - Bakı 1998.
3. "Azərbaycanlıların soyqırımı. Tarixin qanlı səlnaməsi". "Azərbaycan" qəzetinin redaksiyası - 2012
4. "Erməni xəyanəti: Terror, soyqırım və departasiya siyasəti" Bakı - 2009
5. M.S.Ordubadi "Qanlı illər" Bakı - 1911





**Nahidə Bəkirova**
***"İçərişəhər" tarixi muzeyinin***
***Elmi-tədqiqatlar bölməsinin müdiri***

## ŞƏHİDLƏR VERƏN BAKININ ŞƏHADƏTI

*(1918-ci il 31 mart)*

Azərbaycanın çoxəsrlik tarixində, bir-birini əvəz edən sevinc və kədərlə dolu hadisələr mövcutdur. Tarixin bu səhifələri xalqın taleyində ən əhəmiyyətli, həlledici mahiyyət kəsb edir. Hər iki qismdən olan belə hadisələr kiçik zaman kəsiyində dinamik cərəyan etmiş və azərbaycan xalqının talehində silinməz izlər buraxmışdır. Bu dinamika *31 mart 1918-ci il* – Azərbaycan xalqının soyqırımı, *28 may 1918-ci il tarixi* – Azərbaycanın Dövlət müstəqilliyinin elan edilməsi hadisələrində bariz sezilir. 1920-ci ilin aprelin 28- də Sovet –bolşevik ordusu ADR-nı süquta uğratdıqdan sonra dövlət müstəqilliyi formal, azərbaycanlılara qarşı soyqırımı, represiyalar real xarakter aldı. Tarixin bu səhifələri uzun illər boyu təhrif edilərək gizli saxlanıldı və nəticədə öz layiqli qiymətini də almamış qaldı.

Yalnız Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra hadisələrin qərəzsiz araşdırılması və xalqımızın qan yaddaşının oyanmasına imkan yaradıldı. Ümummilli Liderimiz Heydər Əliyev 28 mart 1998-ci il tarixli *«Azərbaycanlıların soyqırımı haqqında»* fərmanı ilə uzun illər gizli saxlanılan bu ümumxalq faciəsi öz hüquqi - siyasi qiy-

mətini aldı, tarixi yaddaşımız bərpa olundu. Azərbaycan öz haqq səsini ucaldaraq, dünya birliyini tarixə yenidən baxaraq , hadisələrə olduğu kimi qiymət verməyə səsləmişdir.

*Mart Soyqırımı* və ya *Mart Hadisələri* — 1918-ci ilin mart ayında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində Bakı Soveti və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğınlardan 97 il ötməsinə baxmayaraq, bu vəhşiliklər xalqın qan yaddaşında əbədi iz buraxmışdır. Ötən əsrin əvvəllərindən başlayaraq 1905-1906, 1918-1920, 1948-1953 və 1988-ci ildə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırım və deportasiya siyasəti 1918-ci ildə xüsusən genişlənmişdir. Həmin illərdə ermənilərin Azərbaycanda törətdikləri etnik qırğın haqqında bizə çatan tarixi sənədlərdəki faktlara əsasən Bakıda, Şamaxıda, Qubada, Muğanda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və ölkənin digər ərazilərində azərbaycanlıları amansızlıqla qətlə yetrildiyini, şəhər və kəndlərin talan edilərək dağıdıldığını sübut edir.

1918-ci ilin qanlı mart ayında başverən hadisələr xalqımız tərəfindən nəsildən-nəslə ötrülür. Amansız güllələnmiş insan cəsədləri küçələrdə sərilib qalmış, sifətlər əcaib şəkildə doğranmış, hamilə qadınların qarınları süngülərlə cırılıb, bağırsaq qarışıq küçə daşlarının üstünə tökülüb qalmış, gənc qızların sinələri kəsilmiş, körpələrin gözləri barmaqla ovularaq çıxarılmışdır. Erməni daşnakları və onların havadarları tərəfindən törədilən insanlığa sığmayan bu vəşiliklər təbii ki, heç vaxt unudulmayacaq.

1918-ci ilin mart ayının son üç günündə Bakıda 30 min-





dən çox əhalini xüsusi amansızlıqla erməni caniləri qətlə yetirmişdir. Tədqiqatçı *Kulqe* mart qırğınları barədə yazır: "Ermənilər əhalini işgəncələrlə öldürür, körpə uşaqları süngüyə keçirir, cəsədlərin burun, qulaq və başlarını kəsir, evlərə od vuraraq sakinlər qarışıq yandırır, qadınları soyundurur və saçlarını bir-birinə bağlayaraq tüfəngin qundağı ilə ölüncəyə qədər döyürdülər". *Kulqe* ermənilər tərəfindən üzü divara çevrilərək itlərə gəmirdilən əhalinin şəkillərini də çəkmişdir. Bütün bu faktlar 1918-ci ilin mart ayının son üç günündə törədilən Bakı qırğınını əks etdirir və bu ermənilərin azərilərə qarşı törətdikləri cinayətlərin sadəcə kiçik epizodlarıdır.

Tarixi statistika isə bunları əks etdirir: 1918-ci ilin mart soyqırımı zamanı Bakı şəhərində 12 minədək əhali öldürülmüş, 10 minlərlə insan itkin düşmüşdür. Meyidlərin əksəriyyəti tapılmamışdır. ( İtgilərin sayı barədə rəqəmlər müxtəlifdir) Şahidlərin dediklərinə görə, ermənilər meyidləri od-alova bürünmüş evlərə, dənizə və quyulara atıb, cinayətin izini itirməyə çalışmışlar. Bakı əhalisindən ermənilər 400 milyon manatlıq daş-qaş və əmlak müsadirə olunaraq qarət edilmişdir. Bu hələ statistikaya düşən rəsmi rəqəmlərdir. Əslində isə təcrübə göstərir ki, tarixi fakt reallığın ancaq bir hissəsini göstərə bilir.

Vətənimizin və onun paytaxtı Bakının yazında əksəriyyəti azərbaycanlılar olan yerli əhaliyə qarşı daşnak-bolşevik birləşmələri tərəfindən törədilən vəhşilikləri kiçik bir yazıda əks etdirmək qeyri mümkündür. Lakin sadalanan faktlar belə yetərlidir ki, 1918 –ci il mart hadisələri siyasi cəhətdən türk-müsəlman soyqırımı kimi qiymətləndirilsin.

Bu hadisələrin dəhşətini göz önünüzə gətirməyiniz üçün təkcə İçərişəhər mart hadisələrinin 1918-1920-ci illərdə mövcud olmuş "Azərbaycan Xalq Cümhuriyyəti Fövqəladə Təhqiqat Komissiyasının sənədləri"ndən bəzi çıxarışları nəzərinizə təqdim edirik:





Sənəd №57

**Dindirmə protokolu**

**1918-ci il,4 noyabr. Bakı ş.**

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Məcəlləsinin307 və 443-cü maddələrinə uyğun olaraq zərər çəkən qismindədindirildiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Həbib Sadıqov, 37 yaşım var, Bakı şəhəri, Spasskaya küçəsi, ev № 73 ünvanda yaşayıram.**

Mart qırğınları zamanı, Serkovnaya küçəsi, 181№-li evdə mənim75 yaşlı dayım Hacı Hənifə İmanov yaşayırdı. Ermənilər onu tüfəng gülləsi ilə qaşından, 55 yaşlı arvadını isə iyirmi süngü zərbəsi ilə öldürmüşdülər. Əmim oğlu -28 yaşlı Mirzə Ağa sinəsindən qətlə yetrilmişdir.Onun dükanında 15 yaşlı, Əli adında bir türk oğlan işləyirdi; o yoxa çıxdı və biz onun cəsədini heç tapada bilmədik. Hacı Hənifənin bütün mənzili qarət edilmişdi.

Mən "Vulkan" cəmiyyətinin həyətində 500-ə yaxın müsəlman meyiti, Təzə Pir məscidinin həyətində isə 150-ə yaxın müsəlman cəsədi görmüşdüm.(3.səh,143;144)

Sənəd №433

**Dindirmə protokolu**

**1918-ci il, 5 noyabr. Bakı ş.**

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Məcəlləsinin307 və 443-cü maddələrinə uyğun*

*olaraq zərər çəkən qismindədindirildiyi aşağıda adı çəkilən şəxs göstərmişdir:*

**Sona Xanbaba qızı, Bakı sakini, Tatarskaya küçəsi, 55№-li evdə yaşayıram, 35 yaşım var.**

Bu ilin mart ayında yuxarıda göstərilən evin həyətinə silahlı erməni əsgərləri gəldilər və 80 yaşlı atam Xan Babanı, 25 yaşlı qardaşım Əli Kərimi, 55 yaşlı ərim Kərbəlayı Rəşidi və 17 yaşlı oğlum Babanı apardılar. Adları çəkilən doğmalarımı ermənilər küçəyə çıxardıb elə oradaca atamı öldürdülər. Ərimi ermənilər Bağırov baxcasının yanında qətlə yetirdilər. Oğlumun və qardaşımın cəsədlərini tapa bilmədim. Həmin günün axşamı yenidən mənim evimə 30 yaxın erməni gəldi və evi qarət etdilər, məni döydülər az yaşlı: altı aylıq, üç və doqquz yaşında görpələrimlə birlikdə əsir apardılar və iki gün saxladılar. (3. Səh, 185;186)

Sənəd № 8

**Dindirmə protokolu**

2 Dekabr 1918-ci il Bakı ş.

*Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının Cinayət Məcəlləsinin 307 və 443-cü maddələrinə uyğun olaraq , aşağıda adı çəkilən şəxsi, zərərçəkən qismində dindirilmişdi:*

**Ağa Hüseyin Tağıyev, 38 yaşım var, Bakı ş, Aziatskaya küçəsində (Krasnovodsk,25) yaşayıram.**

Mən mart ayının 18-də İçərişəhərdə - Qalada idim və biz burada səngərlər qazırdıq ki, erməni hücumlarından qalanı





və insanları müdafiə edək. İran konsulu dənizçi Natanson ilə birlikdə Qalaya bizim yanımıza gəldi, belə söz gəzir ki, guya biz qalada, Mir Əli Nağı Hüseynovun evində olan bütün erməni və xristianları doğrayıb qırmışıq. Biz onların hər ikisini Hüseynovun evinə apardıq və 240 xristian kişi, qadın və uşaqların (o cümlədən çoxlu ermənilərin) olduğu yerləri göstərdik. Sonra biz onlara bələdçilər verdik və bələdçilər onları xristianların olduğu digər evlərə də apardılar. Orada qadın və kişilər göz yaşları ilə müsəlmanların onlarla yaxşı rəftar etdiyinə, çörək, düyü və su verdiklərinə görə öz minnətdarlıqlarını bildirdilər. Onlara, Qalada qalmağa ehtiyyat edilərsə, getmək təklif olunduqda, onlar bildirdilər ki, müsəlmanların taleyini bölüşmək istəyirlər və Qaladan sonuncularla birlikdə gedəcəklər. Eyni zamanda xristianlar Qalanın bombardman edilməsinin dayandırılması xahişi ilə matrosların yanına kişi və qadınlardan ibarət öz nümayəndələrini göndərdilər.

Xristianlarla yaxşı rəftar edildiyinə tam əmin olan İran konsulu və Natacon Qaladan getdilər. Lakin üç saatdan sonra hər ikisi yenidən Qalaya qayıtdı və bildirdilər ki, guya onlar çıxıb gedəndən sonra müsəlmanlar bütün xristianları qırıblar; onların dediyinə görə, bu barədə onlara Jorj Melikov və həkim Ter-Zaxaryants telefonla xəbər vermişlər. Biz onlara yenidən Hüseynovun evini, habelə xristianların yerləşdiyi digər evləri göstərdik, beləliklə hər ikisi əmin oldular ki, bütün xristianlar sağ-salamatdır. Natanson Qaladan gedərkən qala divarları önündə 20 dənizçi qoyulması haqqında sərəncam verdi və onlar erməni əsgərlərinin hücumlarının qarşısının alınmasında bizə kömək etdilər.

Hücum edən ermənilərin başında tüfənglərlə silahlanmış və bizə atəş açan Stepan Lalayevin, Jorj Melikovun, Dovlatovun, Xristafor Dildarovun və Ambarsum Melikovun durduğunu görmüşəm.

Martın 20-də mən Qala divarlarının və "İsmailiyyə" Müsəlman Xeyriyyə Cəmiyyətinin binasının yanındakı pilləkənin yaxınlığında olarkən "Kaspi" qəzetinin redaksiyasının qarşısındakı tində Tatevoz Emirovun üç silahlı erməni ilə bu binaya necə girdiyini öz gözlərimlə gördüm; bundan az sonra binada alov göründü və o yanmağa başladı. Alov Nikolayevskaya küçəsi ilə Krasilnikov qardaşlarının qarşıda yerləşən evinə keçdi; tezliklə bu evə yanğınsöndürənlər gəldilər və alovu söndürməyə çalışdılar. Tələbə, bolşevik Məmməd İrz Hacınski telefonla Şaumyana xəbər verəndə ki, yanğınsöndürənlər Krsilnikovların evini söndürürlər, lakin "İsmailiyə"nin binasındakı yanğını söndürmək üçün heç bir tədbir görmürlər və əzəmətli binadan yalnız divarlar qaldı.

Ermənilər tərəfindən yandırılan "İsmailiyyə" bütün Qafqaz müsəlmanlarının həyatında böyük rol oynayırdı. Qafqaz müsəlmanlarının hamısı bu binada yerləşirdi və bu komitələrə aid pullar sənədlər də bu binada saxlanılırdı. Bundan əlavə, müxtəlif müsəlman yığıncaqları və qurultayları bu binada keçirilirdi, məsələn, bu il fevralın 15də açılmış Ümumqafqaz Müsəlman Qurultayı burada keçirilmişdi.

Ermənilərə yaxşı məlumdur ki, bütün məscidlərdə müsəlman qadın və uşaqları gizlənirlər; onların göstərişi ilə şəhərin müsəlman məhlələrini bombalayan hərbi gəmilər məscidləri də top atəşinə tuturdular ki, nəticədə məscid binalarına 19 mərmi dəymişdi. Mart hadisələri zamanı o qədər müsəlman öldürülmüşdü ki, onların meyitlərini Petrovsk və Dəmiryolu limanından Bibiheybətə 6 barjad daşımışdılar. Bundan əlavə, arabalarda və yük avtomobillərində məscidlərə qəbiristanlıqlara xeyli meyit daşımışdılar. Təzə Pir məscidində 50-60 cəsəd görmüşəm; onların əksəriyyəti dəhşətli dərəcədə eybəcər hala salınmışdı və başları kəsilmişdir (3. səh, 102; 104).

Sənədlərdən məlum olur ki, İçərişəhərin Qoşa qala qapısı tərəfdən daxil olanda indiki ensklopediya binasının yerində XIX əsrin memarlıq üslubunda tikilmiş imarətləri olan Məmməd Hənifə könüllülərdən dəstə yaradır, onlara silah-sursat paylayırdı.

Belə dəstələrdən şəhərdə bir neçəsi var idi. Məmməd Hənifənin dəstəsi bunların ən böyüyü idi. Könüllülər İçərişəhərin girişlərinə nəzarət edirdilər. Hənifənin dəstəsində mobil dəstələr vardı ki, onlara daha strateji obyektləri mühafizə etmək tapşırılmışdı. Bu siyahıya İçərişəhərin Şamaxı və Qoşa Qala qapıları da aid idi. Daşnaqlar bu qapıdan girməyə cəhd edirdilər, hər dəfədə tutarlı cavab alırdılar. Bunu görən daşnaqlar, Məmməd Hənifənin atasının mağazaları tərəfindən girişə cəhd edirlər. Onların bu cəhdləri də ciddi müqavimətlə yatırıldı.

1920-ci ilin aprelində, Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra, ermənilərin satqınçılığı vasitəsilə, Məmməd Hənifə və başının 20-yə yaxın dəstəsi həbs edilir və bamyıl təcridxanasına göndərilir. Dekabr ayında isə onlar *Nargin* adasında, məhkəmə olmadan güllələnirlər (2. Səh, 294;301).

İçərişəhər əhalisi şücaət, qəhrəmanlıqlar nümayiş etdirirdilər. Bunlardan biridə müsavat ordusunun zabiti Əlisgəndər olmuşdu. Əliskəndər rus dilini bilən, onların taktikalarından başı çıxan, buna uyğun döyüş taktikası quran bir basic idi. O rus elitar təbəqəsində xüsusi nüfuza malik idi. Bunu hələ 1912-ci ildə şəxsən qraf *Lev Tolustoy* ona hədiyyə təqdim etməsi də bir daha təsdiq edir. Haqlı olaraq dövrünün ziyalı şəxslərindən sayılan Əliiskəndər Azərbaycanın rus işğalına qədər ki, zaman kəsiyində H.Z. Tağıyevin Volqa-Kama gəmiçilik kontorunda mühasib işləmiş, böyük hörmət və etibar sahibi olmuşdu.

Ağsaqqallar Əliiskəndəri səngərdən çağırıb deyirlər ki, erməni pulemyotçusu şəhər dumasının damından hər tərəfi nəzarətə alıb – "Yalnız sən onu endirə bilərsən".

Əliisgəndər soba borusu ilə münasib binanın damına çıxıb və erməni pulemyotçusunu endirmək üçün məqamını gözləyib.

Nəhayət, məqam yetişir Əliisgəndər Finlandiyada mükafat kimi qazandığı, xromlu "Mauzer" silahı ilə erməni dığasını duma binasının qabağına sərmiş.

Bu mənzərəni izləyən içərişəhərlilər dahada həvəsə gəlib, düşmənə güclü müqavimət göstərir. Erməni ordusu, təbii ki, bundan qəzəblənir. Şaumiyan əlində olan, xəzər hərbi donanmanın toplarını İçərişəhərə yönləndirir.

Paralel olaraq, həmin günün axşamı, Qala divarlardan kənarda, Bakının bir cox yerlərində, Mərdəkanda, Nardaranda, Məşdağada, Şüvəlanda, döyüş dəstələri yaradılıb şəhərə doğru yönləndirilir. "Mərd"lər adlanan bu dəstələr, yetərincə İçərişəhər ətrafında səs-küy (ajotaj) yaradır, düşmən donanmasına və piyadalara müqavimət göstərirlər. Təsəvvür etmək cox çətindir, əgər hərbi donanma şəhəri vursaydı, nələr baş verərdi. Düşündükcə mənzərə cox dəhşətli şəkil alır.Bundan təşvişə düşən erməni birləşmələri pərən-pərən olurlar. Qarşılarına çıxan hər bir abidəni, binaları, tarixi yerləri yandırır, dağıdır sonra geri çəkilirdilər (5. Səh 220,241).





Ermənilər dinc əhaliyyə qarşı görünməmiş amansızlıqlar etdikləri kimi, *tarixi –memarlıq və mədəniyyət abidələrini* də vəhşicəsinə dağıdır, məscidləri yandırır, memarlıq incisi sayılan binaları yerlə-yeksan edirdilər. Mart qırğını haqqında olan mənbələrdə köstərilir ki, ermənilər bir cox qədim binaları, o cümlədən *"Cümə"*, *"Şah"* və *"Təzə pir"* məscidinin minarələrini top atəşi ilə dəlik-deşik etmişdilər. Azərbaycan xalqının tarixində və Bakı əhalisinin həyatında çox böyük əhəmiyyət kəsb edən, Şirvanşahlar saray binasını, Seyid Yəhya Bakuvinin məscidi, Keyqubad məscidi, Şah məscidi qarət edilərək yandırılmış və tanınmaz vəziyyətə salınmışdı (1.səh 132;4.səh 48).

Həmin dövrü əhatə edən, 1918-ci ildə Bakının dağıdılmasını əks etdirən tarixi fotoşəkillər də tarixçilərin yazdıqlarına əyani şəkildə təsdiqləyir.Az keçməmiş özünün çox gücsüz olduğunu başa düşən, erməni daşnakları ingilisləri kömək üçün Bakıya dəvət etdilər. Lakin Odlar yurdunda ağalıq etmək arzusu ilə yaşayan erməni daşnaklarını ingilislər də qoruya bilmədilər. Avqust ayının ikinci yarısında Azərbaycan dövlətinin qoşunları, eləcə də Türkiyədən öz qan qardaşlarını müdafiə etmək üçün gəlmiş türk hərbi dəstələri Bakı üzərinə qəti hücum planları hazırladılar.

1918-ci il sentyabrın 15-də general leytenant Əliağa Şıxlinskinin rəhbərliyi altında Azərbaycan korpusu və üç gün sonra isə Nuru paşanın başçılığı ilə Türk qoşun hissələri Azərbaycan Demokratik Respublikasının paytaxtı Bakını menşevik və daşnaklardan təmizlədilər. İngilislər isə elə sentyabrın 15-də Bakını tərk etdilər.

Azərbaycan paytaxtının türk əsgərlərinin yardımı ilə azad edilməsi, əhali tərəfindən sevinc və sonsuz bir həyacanla qarşılandı. *Xəlil Paşa və Nuru Paşa* şəhərə girəndə xilaskar komandanlar kimi, qarşılandı. Azərbaycan öz təbii paytaxtına və istiqlalına qovuşdu. Azərbaycan xalqı Bakının azad edilməsi müqəddəs Qurban bayramına təsadüf etməsi ilə ikiqat xoşbəxtlik yaşayırdı. Bakı tarixinin ən həyacanlı və xoşbəxt günlərini yaşayırdı. Bu gün yüz ildir çəkilən əsarət və müstəmləkənin bitdiyi, azadlıq işıqlarının aydınlatdığı bir gün idi ( 4. səh, 354).

Azərbaycan Milli Demokratik Respublikası üfüqdə parlaq bir ulduz kimi parlayıb, tez söndü. Lakin onun xoş təəssüratı uzun müddət, düz 70 il Azərbaycan oğullarının ürəyində özünə gizli yuva tapmışdı. Yalnız bizim günlərdə o özünü böyük sevinclə biruzə verdi və Ulu Öndərimiz Heydər Əliyev dediyi kimi: "Müstəqilliyimiz , əbədidir və sönməzdir" **Azərbaycanda daha güclü, milli Azərbaycan Respublikası bərqərar oldu.**

## İstifadə olunmuş ədəbiyyat

1. Aşurbəyli Sara, "Bakı Şəhərinin Tarixi", Bakı- 2006
2. İlkin Qılman, "Bakı və Baklılr", Bakı-2006





3. Solmaz Rüstəmova-Tohidi, "Bakı mart 1918-ci il - Azərbaycan qırğınları", Bakı-2013
4. Mehman Süleymanov, "Azərbaycan xalq cümhuriyyəti və Qafqaz İslam Ordusu", Bakı-2013
5. Manaf Süleymanov, "Eşitdiklərim, oxuduqlarım, gördüklərim", Bakı-1989
6. İçərişəhər № 4", Bakı- 2009
7. www.anl.az/down/soyqirim.htm
8. www.azerbaijan.az/portal/.../events_01_a.html
9. www.tourism.edu.az/index.php?...mart..

**Mirzəyeva Nuray**
*Bakı Dövlət Universitetinin magistri*

## 1918-Cİ İL SOYQIRIMI

Son iki əsrdə bilavasitə Rusiyanın himayədarlığı ilə istədikləri əməlləri həyata keçirən ermənilər Qafqaza gəlmə bir xalq olmalarına baxmayaraq, bu qədim və zəngin ərazidə yurd salmaq, dövlət yaratmaq üçün hər cür hiyləyə, fitnə-fəsada əl atmışlar. Erməni daşnakları 1917-ci ildə belə bir plan hazırlamışdılar ki, istər Şimali Azərbaycanda, istər tarixi Azərbaycan torpaqlarında, istərsə də Qafqazın digər ərazilərində yaşayan azərbaycanlıları bütünlükdə məhv etsinlər. Ermənilərin əsas məqsədi bir xalq və millət kimi azərbaycanlıların ən dəhşətli soyqırımını təşkil etmək idi. Həmin plana uyğun olaraq 1918-ci ilin ilk aylarında Bakıda, Şamaxıda, Qubada, Lənkəranda, İrəvanda ,Qarabağda, Naxçıvanda və başqa bölgələrdə ermənilər yerli əhaliyə qarşı kütləvi qırğın tədbirlərinə əl atdılar. Onların Rusiyada V.İ.Lenin kimi himayədarları, Qafqazda isə S.Şaumyan və A.Mikoyan kimi arxaları vardı.

1918-ci il martın sonu, aprelin əvvəlində Bakıda erməniпərəst bolşevik rəhbərliyinin iradəsi və fəal iştirakı ilə milli zəmində törədilmiş dəhşətli qırğın nəticəsində dinc azərbaycanlı əhalidən minlərlə adam ölmüş və yaralanmış, təhqir və işgəncələrə məruz qalmışdır. Tarixə"Mart faciəsi" kimi daxil olmuş bu qanlı hadisə tezliklə Bakı hüdudlarından çox-çox kənara çıxmış, Lənkaranın, Şamaxının və





Qubanın tutulması, talan edilməsi və yandırılması, dinc əhalinin amansızcasına məhv edilməsi ilə nəticələnmişdi. Bu məqsədyönlü talanlar, qırğınlar zamanı nə qocaya, nə cavana, nə də körpələrə aman verilməmiş, adamları vəhşicəsinə qətlə yetirilmələri üçün onların müsəlman, azərbaycanlı olmaları tamamilə kafi hesab edilmişdir. Bu dəhşətli cinayətlərin təşkilatçıları cürbəcür vasitələrlə Leninin rəğbət və etimadını qazanmış Şaumyanın başçılıq etdiyi Bakı bolşevikləri, başlıca icraçıları isə daşnak hərbi hissələri olmuşdur. O,bu məqsədlə RSFSR hökumətinə müraciət etmiş və kifayət qədər döyüş sürsatı, göndərilməsinə nail olmuşdu. Bakı Soveti qoşunlarının sərəncamına hətta top, zirehli maşın və təyyarələr də göndərilmişdi. Mart faciəsi ərəfəsində sayı 6 min nəfərə çatan Bakı Soveti silahlı qüvvələrinin, istər tərkibinin, istərsədə komandir heyətinin müəyyən hissəsini erməni millətindən olanlar təşkil edirdilər. Bir tərəf müharibəyə yaxşı hazırlanmış özünün hərbi imkanlarını hərtərəfli ölçüb-biçmiş, toqquşma başlayarsa, müttəfiqlərinin kimlərdən ibarət olacağını dəqiq müəyyənləşdirmiş, digər tərəf isə, yarımçıq hərbi hazırlıq görmüş əsgərlərinin çoxluq təşkil etməsi, hərbi əməliyyatların gedişi planının olmaması, intizamın zəifliyi, pis silahlanmaları, ağır silahlarının isə, demək olar ki, olmaması ucbatından çox çətin vəziyyətə düşmüşdü. İstər canlı qüvvə, istərsə də texnika sahəsində hərbi üstünlük Bakı Soveti qoşunları tərəfində olmuşdur. Döyüşlərdə zirehli maşınlardan, top və aviasiyadan istifadə edilməsi azərbaycanlı əhali arasında çaşqınlıq yaratmış, qorxu və təlaşa səbəb olmuşdu. Bakı Soveti qoşunlarının sərəncamında olan topların lülələri

şəhərin müsəlman məhəllələrinə tərəf tuşlandı, hərbi gəmilərin topları isə şəhərin yuxarı məhəllələrini atəşə tutmağa başladılar. Onlar hətta tarixi binaları, məscidləri belə dağıtmaqdan çəkinmirdilər. Müsavatçıların səngər etdikləri İçərişəhər ətrafında, Şamaxı yolunda və şəhərin digər hissələrində şiddətli küçə vuruşmaları başlandı. Dinc, əhali arasında ölənlər və yaralananlar çox idi. Bakı bolşeviklərinin xəyanətkar, ermənipərəst mövqe tutmaları daşnakların əl qolunu açmış, dinc azərbaycanlı əhaliyə vəhşi usullarla divan tutmaq üçün onlara hədsiz imkanlar vermişdi. Daşnak dəstələrindən olan talançılar və soyğunçular özləri yandırır, dinc əhalini qarət edib qırırdılar. Onlar uşaqları, körpələri süngülərə taxıb göyə qaldırır, qadınları saçlarından bağlayıb küçə boyu çılpaq qaçmaqa məcbur edir, qocalara rəhm etmirdilər. Bu insana bənzərlər, hətta adamları öldürməklə kifayətlənmir, onların qulaqlarını, burunlarını kəsir, qarınlarını yırtır və s. vəhşiliklər törədirdilər. Bu vəhşilikləri öz gözləri ilə görmüş bir çox xristian əhali nümayəndələri də həmin qeyri-insani hərəkətlər barədə əsl həqiqəti tam çılpaqlığı ilə qələmə almışlar. Xalq evini, Müsəlman Xeyriyyə Cəmiyyətinin binasını, müsəlman siyasi partiyaları iqamətgahlarını, qəzet – redaksiyalarını dağıtmışdılar.Ən görkəmli müsəlman siyasi xadimləri həbs edilmiş və güllələnmişdi. Onlar kefi istədikləri adamı öldürür, evləri dağıdır, xaraba qoyurdular.

1918-ci ilin mart ayında erməni əsgərləri Bakıdan əlavə Ağcaqabul vağzalına gələrək Şamaxı əyalətinə bağlı Meyniman kəndinə hücum etdilər. Kəndlilər Kür çayının sahilindəki meşələrə qaçaraq özlərini qorudular, ancaq onların





ev əşyaları qarət edildi, evləri yandırıldı. Bu vaxt tatar alayı gəldi və ermənilər geri çəkildilər. Tatar alayı başqa əyalətə göndərildikdə ermənilər ikinci dəfə hücum etdilər. Bu dəfə onlar 22 kişi, 16 qadın, 12 uşaq öldürüb 6 nəfəri də yaraladılar. 34 evi tamamən yandırdılar. Ermənilərin şamaxı əyalətinin Padar yaylağına hücum etmələri nəticəsində təxminən 80 kişinin, 25 qadının, 15 uşağın öldürülmüşdü. Baloğlan kəndinə hücum edən erməni çətələrinin arasında rusların da olduğu və təxminən 250 kişi, 150 qadın ilə 135 uşağın öldürüldükləri, 32 kişi, 16 qadın və 21 uşağın da yaralandığı və çox böyük maddi zərərin verildiyinə dair kənd muxtarının ifadəsi qeydə alınmışdır. 18 mart 1918 -ci il tarixində şamaxı əyalətinin Angəkaran kəndində yaşayan müsəlmanları qətl etməyə başlamışlar. 200 nəfərin qulaqlarını, burunlarını kəsib, gözlərini oyaraq öldürmüşlər. Bütün qiymətli əşyaları qarət etmiş, böyük baş və kiçik baş heyvanları sürüb aparmışlar.

**Ən dəhşətli qırğına Quba qəzası da məruz qaldı.** Əvvəlcədən qurulmuş plana görə daşnak-bolşevik qoşunu Şamaxını işğal etdikdən sonra Quba qəzasına daxil olmalı idi. Xaçmazda yaşayan ermənilərə bu barədə xəbərdar edilmiş, onlara əlavə silah və sursat göndərilmişdi. Quba faciəsi sırf siyasi məqsəd daşıyırdı. Bu qırğınlarda əsas məqsəd Quba qəzasında da müsəlman əhalisini məhv edərək erməni idarəçiliyinə nail olmaqdan ibarət idi. Çünki Sovet rejiminə rəhbərlik edən Şaumyan Cənubi Qafqazda böyük Ermənistan dövləti yaratmaq üçün bütün imkanlardan istifadə edirdi.Qırğına başlamaq üçün bəhanə milli münaqişə ola bilərdi. Erməni daşnak qüvvələri dünyanın hər

yerinə ermənilərin guya müsəlmanlar tərəfindən sıxışdırıldığı barədə teleqramlar göndərirdilər. Qubada yaşayan M.Kasparov, H.Hayrapetov, A.Mukanyans və A.Boqdanov tərəfindən göndərilmiş teleqramlarda iddia olunurdu ki,Qubada müsəlmanlar milli ədavət, milli qırğın törədir, erməni və rus kəndlərini dağıdır, kilsələrə od vurub yandırırlar.Ermənilər bolşeviklərin köməyi ilə Quba qəzasında üç dəfə qırğın törətmişdilər. Bakıdan top və pulemyotlarla silahlanmış Amazaspın dəstəsi Qubanın girəcəyindən tutmuş yuxarı hissəsinədək şəhəri odlamağa başladı. Daşnaklar küçədə qarşılarına çıxan bütün adamları ucdantutma gülləyə tutur,yerə yıxılmış yaralıların bədənlərini tüfənglərin süngüləri ilə deşik-deşik edir, gözlərini ovurdular. Yaxınlıqdakı meşəyə qaça bilməyənlər evlərinə girib qapıları bağlayırdılar. Onları evlərindən zorla çıxarır, yerindəcə güllələyir və yaxud qabaqlarına qatıb meydana aparırdılar. Bir neçə saatın ərzində yüzlərlə insan qətlə yetirildi.Amazasp Quba qəzasında bütün müsəlmanları qırıb məhv etməli, onların yaşayış məntəqələrini dağıtmalı,sonra isə bu qırğını sünni və şiə məzhəbləri arasında toqquşma kimi qələmə verməli idi. Onlar silahsız dinc əhaliyə azğınlıqla divan tuta bilmişdilər,iki gün ərzində yalnız Quba şəhərində 4 minədək müsəlmanın öldürülmüşdü. Bu rəqəm Quba şəhər əhalisinin beşdə biri demək idi. A.Novatski qeyd edir ki, müsəlmanların dini heysiyyətinə toxunaraq, məscidlərə od vurub yandıran daşnaklar təkcə Quba, Qusar və Xaçmaz ərazisində 26 məscidi yandırmışdılar.Müsəlmanların müqəddəs dini ocaqlarını yerlə yeksan edən daşnaklar dinə, Şərq tarixinə və ədəbiyyatına aid minlərlə qiymətli kitabları də məhv etmişdilər.Amazaspın vəhşilikləri nəticəsində 1918-ci ilin ilk beş ayı ərzində Quba qəzasında üst-üstə 16 mindən çox insan məhv edilmişdir. 12 minədək ləzgi, 4 mindən çox azəri türkü və müsəlman tat əhalisi öldürülmüşdü. 1918-ci ilin qırğınları zamanı daşnak-bolşevik birləşmələri tərəfindən Quba qəzasında 162 kənd dağıdılmış, bu kəndlərdən 35-i hazırda mövcud deyildir.Amazaspın rəhbərlik etdiyi erməni hərbi birləşmələri Qubada türk-müsəlman əhalisi ilə yanaşı yəhudilərə qarşı da qırğınlar törətmişlər. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, 1918-1919-cu illərdə Qubada ermənilər tərəfindən 3 minə qədər yəhudinin həyatın son qoyulmuşdur.





Kürdəmir Azərbaycan dəmiryollarına yaxın bir bölgə idi,burada çoxluq olaraq müsəlmanlar yaşayırdı. Yaşayanların az bir qismi də ermənilər idi.Hər bir kənd kimi bu kəndə 1 iyun 1918-ci ildə erməni militanlarının təzyiqinə uğradı. Ermənilər əsgəri forma geyərək xalqa hücum etdilər. Evləri, dükanları və məscidləri qarət edib atəşə verdilər. Şahidlərin ifadələrinə görə, ermənilərin müsəlmanlara qarşı törətdikləri beynəlxalq bir düşmənçilik kimi qiymətləndirilmişdir. Onlar müsəlmanları təhrik edir, həqarətlər yağdırır və təhdid edərək gələcəkdə müsəlmanlardan intiqam alacaqlarını söyləyirdilər. Bolşeviklər kəndə girməyə başladılar, öndə ermənilər gəlirdilər. Onlar hər hansı bir evə girərək müsəlmanları öldürür, onlara işgəncə verir, sonra da evləri yandırırdılar. Kəndlərin mal və mülkünü qarət edirdilər. Bu hadisələrə qarşı çıxmağa çalışan müsəlmanlarla eyni kənddə yaşayan ermənilər arasında toqquşmalar başladı. Müsəlmanlar o bölgəni tərk edərək Bakıya sığındı-

lar. Bu hadisələrdə Kürdəmirdə 56 ev və dükanlar, 127 evə bitişik mülklər, 2 məscid qarət edildi, yandırıldı.Kürdəmirdən sonra Cəngi kəndi, Qaravəlli, Qarabucaq, Mustafa, Xəlil Qasımbəy, ərəb Mehdibəyli kəndləri qarət edildi.Bütün bu kəndlər ermənilər tərəfindən yandırıldı. Çaylı kəndində evlər soyuldu və atəşə verildi. Bu kənddə qalan 20 nəfər işgəncə verilərək öldürüldülər.Qaravəlli kəndində 30 ev vardı, hamısı yandırıldı.Qarabucaqda isə 121 ev soyulub yandırıldı. 7 nəfər vəhşicəsinə öldürüldü.Xəlil Qasımbəy kəndində 7 nəfər öldürüldü, 9 ev yandırıldı.Ərəb Mehdibəy kəndində 84 ev soyulub yandırıldı, 83 nəfər öldürüldü. Bunların 78 nəfəri kişi, 4 qadın, 1 oğlan uşağı idi.Yandırılan evlərin fotoşəkli çəkilmişdir.

Lənkəranda milli ordunun təşkili ilə məşğul olan olan»-Dikaya diviziya»nı tərksilah etmək üçün bolşeviklər dəniz vasitəsilə ora silahlı dəstələr göndərmişdilər. Bunların hamısı Erməni Milli Şurasının göstərişi ilə həyata keçirilirdi. Bolşevik əsgərləri yolda qabaqlarına çıxan müsəlman kəndlərini dağıdıb talayırdılar. Astara şəhəri bolşevik əsgərləri tərəfindən topa tutularaq darmadağın edildi, əhalinin əksəriyyəti yaşayış yerlərini tərk etməyə məcbur oldu. Yanvarda başlanan bu qırğınlar martda daha da şiddətləndi .Osmanlı qoşunlarının Bakını azad etməsindən bir az əvvəl Lənkərana iki min nəfərlik erməni dəstəsi gələrək yerli əhaliyə divan tutmağa başladı. İş o yerə çatmışdı ki, erməni əsgərləri məhərrəmlik mərasimi verilən məscidlərə girib müsəlmanlara öz təziyələrini keçirtməyə mane olurdular. Müsəlman əhalisi dini ayinlərini icra etmək üçün məscidlərə yığışdıqları zaman ermənilər məscidi isə yandırmaq





istəyirdilər. Ermənilər bu bölgədə yüzlərlə ev dağıtdılar və minlərlə günahsız insanın həyatına son qoydular.1918-ci ilin yanvarından 1919-cu ilin avqustunda «Molokan qiyamı» yatırılana qədər bu bölgədə erməni və rus birləşmələri tərəfindən 2 min insanın həyatına son qoyulmuşdu.

1918-ci ilin martına qədər İrəvan qəzasının 199 azərbaycanlı kəndi, 1919-cu ilin sentyabr ayına qədər isə Eçmiədzin qəzasına məxsus 62 azərbaycanlı kəndi bütünlüklə yerlə – yeksan edilmişdir. 1919-cu ilin axırında isə Zəngibasarın biri neçə kəndi istisna olunmaqla, İrəvan qəzasının, o cümlədən Vedibasarın bütün kəndləri məhv edilmiş, əhalisi vəhşicəsinə öldürülmüş, sağ qalanlar canlarını xilas edərək başqa yerlərə qaçmışlar.Erməni hərbi dəstələri aprel ayının ortalarında iclas keçirmək adı altında azərbaycanlıları bir komaya yığırlar. Təxminən 120-150 adam bu komaya toplaşır. Keşiş Vahan iclası açır, bir neçə kəlmə ilə iki xalqın bir kənddə mehriban yaşaması haqqında fikir söyləyir. Bir qədər sonra silahlı ermənilər içəri daxil olub keşişi bayıra çıxarır, komanın qapısına bağlayaraq damından içəriyə saman qarışıq neft töküb camaatı yandırmağa başlayırlar. Uşaq, qoca, qadın qışqırtısı ərşə dayanır, tüstüdən boğulanlar, özlərini itirənlər qapıya hücum çəkirlər. Əliyalın xalqın müqaviməti nəticəsiz qalır.1918-ci ildə Yerevan şəhərinin şimal – şərqində yerləşən Kotayk rayonu ərazisində də erməni hərbi dəstələri azərbaycanlılara qarşı geniş soyqırımı həyata keçirtdilər.1918-ci ilin məlum hadisələrinə qədər bu rayonda yaşayan əhali arasında azərbaycanlılar üstunluk təşkil edirdi. Lakin həmin dövrdə rayonun Avdallar, Artiz, Aşağı Qaxt, Başkənd,Bozkosa, Qayaxaraba, Qaraçala, Qa-

raçörək, Qızqala,Qurbağalı, Damagirməz, Dəlləkli, Əkərək, Zər, Yelqovan,Yellicə, Kamal, Kənxan, Kərpicli, Küzəcik, Göykilsə,Güllücə, Nurnus, Oxçu qalası, Təzəxarab, Çobangörükməz və s. kəndlərindən azərbaycanlı əhali böyük işgəncələrlə qovulmuşdur. Onların əksəriyyəti Andranikin və daşnak hökumətinin silahlı erməni dəstələri tərəfindən qətlə yetirilmişdir. Andranikin və daşnakların həyata keçirdiyi soyqırımı nəticəsində Qərbi Azərbaycan torpaqlarında yaşayan əhalinin təxminən 565 min nəfəri vəhşicəsinə qırılmış.1918-1920-ci illərdə türk-müsəlman əhalisinə qarşı həyata keçirilən qətllər və kütləvi insan qırğını təsadüfi hadisə deyil, «Daşnaksütyun» partiyasının «Böyük Ermənistan»yaratmaq planını reallaşdırmaq yolunda atılan addım və soyqırımı siyasəti olmuşdur.

Cənubi Azərbaycanda da törədilmiş erməni-aysor vəhşilikləri xristian dövlətlərinin müsəlmanlara qarşı yeritdikləri soyqırımı siyasətinin tərkib hissəsi idi. I Dünya müharibəsinin Cənubi Azərbaycanda yaratdığı mürəkkəb şəraitdən və qarışıqlıqdan istifadə edən erməni silahlı dəstələri aysorlarla birlikdə Xoy, Salmas, Soyuqbulaq və bu şəhərlərin ətraf kəndlərinə hücum edərək bazar və evləri çapıb-talamağa, günahsız və silahsız azərbaycan türklərini böyükdən -kiçiyə görünməyən vəhşiliklə qırmağa başladılar. Belə qırğınlar Urmiyada xüsusi qəddarlıqla həyata keçirilirdi. Yalnız Urmiya bölgəsində ermənilər 150 min qocaları, qadınları və uşaqları, Xoy bölgəsində isə 50 min Azərbaycan əhalisini qətlə yetirmişlər. Türkiyə ərazisinin Şərqi Anadolu bölgəsində isə 200 min azəri türkünü qətlə yetirmişlər.





Beləliklə,Ermənilərin törətdikləri bu qırğınları bütün Azərbaycanda və azərbaycanlılar yaşayan hər bir ərazidə müşahidə etmək mümkündür. Bu kimi hadisələrə sonrakı dövrlərdə də tez-tez rast gəlinmiş,Azərbaycan xalqı daim erməni təcavüzünə məruz qalmışdır.

### İstifadə olunmuş ədəbiyyat

1. Anar İsgəndərli .Azərbaycan həqiqətləri: 1917-1920. Bakı, " Elm və təhsil", 2012 , 228 səh.
2. Prof. Fazil Qaraoğlu. Ermənilər və həqiqətlər.Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafıya Mərkəzi, 2007, 400 səh.
3. Vaqif Arzumanlı, Nazim Mustafa. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: "Qartal", 1998, 280 səh.
4. Mirkazım Seyidov. Erməni vandalizmi. Novasibirsk, 2010, 288 səh.
5. Yusif Qazıyev. Erməni məsələsi: Yalanlar və gerçəklər. Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2009, 344 səh
6. V. Arzumanlı, V. Həbiboğlu, K. Muxtarov. 1918-ci il qırğınları. Tarixi araşdırmalar . Bakı, "Öyrətmən". 1995. 90 səh.
7. Azərbaycan tarixi. Yeddi clddə. V cild (1900-1920-ci illər). Bakı. «Elm». 2008. 696 səh. + 40 səh. illüstrasiya

**Sevda İsmayıllı**
*jurnalist*

## MART QIRĞINININ GENERAL QURBANI - AĞA YUSİF DADAŞOV

«Ağa Yusif 1918-ci ilin mart hadisələrində sərkərdə kimi xalqın qarşısında olub. Zirə kəndinə gəmiləri qarşılamağa gedib, silahları qəbul edib, özü geri qayıdanda daşnaklara tuş gəlib. Ona pusqu qurublar. Xəncərlə doğranılıb. Vətənin dar günündə o hərbi geyimdə olub. Onun döşünü bəzəyən üstü brilyantla, almazla, yaqutla süslənmiş saysız-hesabsız orden-medallar də yoxa çıxıb…».

1918-ci ilin martında Bakıda törədilən kütləvi qırğınlarda minlərlə adam qətlə yetirildi. Onlardan biri də Bakı milyonçusu Dadaşovların nümayəndəsi Ağa Yusif Dadaşov idi.

**Ağa Yusifin uşaqlığı**

Ağa Yusif Dadaşov 1870-ci ildə İçərişəhərdə doğulub. O, Bakıda 3 məşhur sülalədən (Bakıxanovlar, Aşurbəyovlar və Dadaşovlar) birinin təmsilçisi olan milyonçu Hacı Hacağanın oğlu idi. Hacı Hacağa Bakıda neftlə varlanmayan yeganə milyonçuymuş. Burada gəmiçiliyin təməlini ucaldan Hacı Hacağa məşhur gəmi sahibkarı və I Nikolayın həqiqi müşaviri olub. O, oğlunu hər zaman özü ilə Rusiya və İran saraylarına apararmış. Hacı Hacağa Ağa Yusifi diplomatiyanı öyrənmək üçün İsveçə, gəmiçiliyi öyrənməkdən ötrü Almaniyaya göndərib. Lap uşaqlıqdan evdə mürəbbiyələrdən dərs alan AğaYusif 12-yə yaxın xarici dildə - ingilis, alman, ərəb, fars, rus, fransız və s.dillərdə danışarmış.





**Ağa Yusifin nüfuzu**

Dadaşovların Xəzər dənizində çoxlu gəmiləri varmış - «İosif Dadaşov», «Kapitan», «Kette» və s. Ağa Yusif 20 yaşından gəmiçiliklə məşğul olub, kontorda idarəçilik işləri görüb. Bir neçə gəmiçilik idarəsinin sahibi, daha sonra bankir olub. Rusiya, İran, Buxara xanlığı və digər dövlətlərlə diplomatik əlaqələrin yaranmasında xidmətlərinə görə bu ölkələrin başçıları tərəfindən orden və medallara layiq görülüb. Dumanın üzvü olub, II Nikolayın Həqiqi Mülki Müşaviri vəzifəsini tutub və çoxlu orden və medallarla təltif edilib. Ağa Yusif gəmiçilikdən qazandığı pulları xalqın maariflənməsinə (Qori Seminariyasına, Qızlar Məktəbinə) sərf edib. Bakı quberniyasının müsəlmanları arasında maarifin yayılmasına çalışan «Nəşrül-Maarif» cəmiyyətinin ömürlük fəxri üzvü olub. İngilis səyyahı B.A. Dorn «Qafqaza və Xəzər dənizinin cənub sahillərinə səyahət» kitabında belə yazıb: «Öz dövrünün nüfuzlu və varlı adamlarından sayılan Ağa Yusif Dadaşov Bibiheybət məscidini bərpa edərək yanında yenisini də tikib». Bu məlumatı isə Qılman İlkin yazıb: "Peterburqda tikilən Came məscidinə də Ağa Yusif çoxlu ianə - 40 çılçıraq və xeyli xalça göndərib". Təsəvvür edin ki, Romanovların 300 illiyi münasibətilə keçirilən mərasimə Bakı quberniyasından yalnız Ağa Yusif çağrılıbmış.

**Dadaşovların Bakıdakı binaları**

Dadaşovların Bakıda saysız mal-mülkü varmış. Deyilənə görə, bulvardan ta Bayılacan uzanan böyük torpaq sahələri onların olub. Keçmiş MTN-in binası - indi Sərhəd

Qoşunlarının yerləşdiyi bina da Dadaşovlarınmış. Səməd Vurğun küçəsindəki Diaspor Komitəsinin binası, **28 May küçəsindəki 23 saylı məktəbin binası,** indi yanından hamımızın qürurla keçdiyi gözəllər-gözəli "Metropol" oteli də (Nizami muzeyinin binası) həmçinin. M.Ə. Rəsulzadə ilə yaxın olduğundan "Müsavat" partiyasının ilk qurultyı da bu binada keçirilib.

**Bakı. 1918-ci ilin qorxunc martı...**

1918-ci il martında Ağa Yusif vəziyyətin nə ilə nəticələnəcəyini duyaraq, Bakıya çoxlu silah gətirtdirir və xalqı silahlandırır. O bu işə bütün ətrafını səfərbər edir. Rus qoşunları Bakını əhatə etdiyindən, şəhərdə xüsusi vəziyyət yaranmışdı. Yalnız yüksək rütbəli general gizli, həm də yoxlanılmadan nə isə edə bilərdi. Bu səbəbdən Ağa Yusif hər yana özü gedər, kisələrlə qızıl xərcləyib Bakının müdafiəsinə qalxarmış. Onu məhv etmək üçün çox pusqular qururlar. Hətta bir dəfə güllə onun düz ürəyinə tuşlanır, amma döşündə gəzdirdiyi "Quran" onu qoruyur.

**Qətllə bağlı nəslin davamçıları nə deyirlər?**

Dadaşovlar soyadını yaşadanların dediyinə görə, həmin mart qırğınları baş verən zaman Ağa Yusif növbəti oğlunun dünyaya gəlməsini gözləyirmiş... Amma bu onun Vətən qarşısındakı öhdəliyinə əngəl ola bilmir. Günlərin birində Ağa Yusif Zirə kəndinə gəmiləri qarşılamağa gedir, silahları qəbul edir, geri qayıdanda daşnaklara tuş gəlir. Ona növbəti pusqu qurulur. S.Lalayan ona qılıncının altından keçməyi əmr edir, Dadaşov «Mən türkəm. Türk ölər, ancaq erməni dığasının qılıncının altından keçməz» cavabını verir. Ağa Yusif xəncərlə doğranılır...Amma ölü-





mü bahasına silahları əliyalın əhaliyə çatdıra bilir. O, hərbi geyimdəymiş. Döşünü bəzəyən üstü brilyant, almaz və yaqutla süslənmiş saysız-hesabsız orden-medallar da beləcə yoxa çıxır. Ağa Yusifin məzarı yoxdur. Nəslin yaşlı nümayəndələrinin dediyinə görə, itki o qədər böyükmüş ki, adamları tək-tək dəfn edə bilməyərək, çalalara doldurublar. Çox güman, Ağa Yusif də bu çalaların birində basdırılıb...

**Ağa Yusifin öldürüldüyü gün...**

O, 1918-ci il martın 26-da öldürülüb. Beş gün də ötəcək və martın 31-də daha böyük bir qırğın yaşanacaqdı...

**İstifadə olunmuş ədəbiyyat**


1. B.A.Dorn. Qafqaza və Xəzər dənizinin cənub sahillərinə səyahət. Sankt-Peterburq,1896. (rus dilində)
2. Qilman Ilkin. Bakı ve Bakılılar. Bakı, 2006.
3. http://az.wikipedia.org/wiki/

## MÜNDƏRICAT

**Anar İsgəndərov.** 1918-1920-ci illərdə türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımı ....................3
**İradə Bağırova.** Erməni hərbi birləşmələri və onların Bakıdakı Mart soyqırımında rolu ....................30
**Ələmdar Şahverdiyev.** Bakı neftinin ələ keçirilməsi uğrunda beynəlxalq mübarizənin güclənməsi və Bakı şəhərinin Azərbaycandan qoparılmasına göstərilən cəhdlər *(1917-ci il oktyabr – 1918-ci il iyul)* ....................46
**Nərgiz Quliyeva.** 1918-ci ildə Bakıda erməni xəyanətinin nəticəsi olan mart faciəsi ....................65
**Aydın Balayev.** Итоги и последствия мартовских событий 1918 года ....................74
**Vəfa Quliyeva.** Ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi mənəvi genosid ....................81
**Kamil İbrahimov.** Şamaxıda 1918-ci il mart soyqırımı *(sənədlər, xatirələr, şahidlər)* ....................94
**Alxan Bayramoğlu.** Azərbaycan ədibləri ermənilərin törətdikləri soyqırım haqqında ....................122
**Atamoğlan Məmmədli.** Daşnakların Qərbi Azərbaycanda qırım siyasəti ....................144
**Sədaqət Məmmədova.** Məruz qaldığımız soyqırımlar mətbuat "yaddaşının" işığında ....................151
**Sevinc Qasımova.** Soyqırım anlayışı: daşnak və bolşeviklərin türk-müsəlmanlara qarşı soyqırımı tarixi tədqiqatlarda ....................161
**Qənirə Pirquliyeva.** Dünya siyasətinin Qafqaz kontekstində mart hadisələri ....................179
**Çingiz Məmmədov.** Şərqi Türkiyə və Cənubi Qafqazda erməni amili: faktlar və həqiqətlər ....................183



**Yasir Hacıyev.** İki əsrlik vəhşət + soyqırım = erməni ....................193
**Nahidə Bəkirova.** Şəhidlər verən Bakının şəhadəti *(1918-ci il 31 mart)* ....................203
**Mirzəyeva Nuray.** 1918-ci il soyqırımı Mart qırğınının general qurbanı ....................216
**Sevda İsmayıllı.** Mart qırğınının general qurbanı – Ağa Yusif Dadaşov ....................226

**«Elm və təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir Məmmədli**

**Dizayn:**
Zahid Məmmədov

**Texniki redaktor:**
Günay Əmirova

Çapa imzalanmış 30.03.2015
Şərti çap vərəqi 14.5. Sifariş № 59
Kağız formatı 60x84 1/16. Tiraj 500

Kitab «Elm və təhsil» nəşriyyat-poliqrafiya
müəssisəsində çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.

Ar 2015/387

101652